

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası



Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR

ELMİ-PRAKTİKİ JURNAL

№2 (02) 2014

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 2 (02)

BAKI-2014

BAŞ REDAKTOR:
Mobil Məcidov, *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

BAŞ REDAKTORUN MÜAVİNİ:
Sirac Məmmədov, *biologiya üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİB:
Zeynəddin Şabanov, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

REDAKSİYA HEYƏTİ:

i.ü.e.d., professor Səttar Mehbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.ü.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru

i.ü.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.ü.e.d., professor Tərbiz Əliyev - AMEA Elmi İnnovasiyalar mərkəzinin baş direktorunun elmi işlər üzrə müavini

i.ü.e.d., professor Sadıq Salahov - AMEA Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun direktoru

f.ü.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Hüquq İnstitutunun direktoru

p.ü.e.d., professor Fərahim Sadıqov - Bakı Elm-Təhsil Mərkəzinin direktoru

i.ü.e.d., professor Ramil Əliyev - Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasının müəllimi

t.ü.e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Azərbaycan tarixi" kafedrasının müəllimi

b.ü.f.d., dos. Sirac Məmmədov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və tərbiyə işləri üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dos. Mobil Məcidov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi işlər üzrə prorektoru, baş redaktor

i.ü.f.d., dos. Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d. Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

i.ü.f.d., dos. Güloğlan İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Ümumi iqtisadiyyat" kafedrasının müdiri

fəl.ü.f.d., dos. Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq və HİH" kafedrasının müdiri, məsul katib

i.ü.f.d. Maniyeva Raziyyə - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Tel.: 563-01-62; e-mail:aesma.elmi-jurnal@mail.ru.

Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi Şurasının

qərarı ilə çap olunur. (protokol № 4, 28.11.2014)

Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014

MÜNDƏRİCAT

MÜNDƏRİCAT.....3

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

Hüseyn Qaraşov
Həmkarlar ittifaqlarının fəaliyyətində psixoloji biliklərin rolu.....5

Zeynəddin Şabanov
Həmkarlar ittifaqlarının fəaliyyətinin motivasiyasında informasiya mədəniyyəti.....15

Разия Маниева
Информационная деятельность профсоюзов: формы, методы, опыт.....20

HUMANİTAR VƏ SOSİAL ELMLƏR BÖLMƏSİ

Əliyar Orucov
Azərbaycan Respublikasının Konstitusiyasının inkişaf mərhələləri tarixindən.....27

Elşən Allahverdiyev
Milli-dini dəyərlərin tərəqqisi.....31

Ramil Allahverdiyev
Ərazi iddiaları ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin əsası kimi...36

Tağı Davudi
Dağlıq Qarabağ münaqişəsinin həllində İranın mövqeyi.....41

Sərraf Mirzəyev
İngilis və Azərbaycan atalar sözlərinin qarşılıqlı məna çalarları.....45

İlham Soltanov
Yeniləşən Azərbaycanda milli ideologiya məsələsi.....49

Anar Həsənli
Heydər Əliyev və Azərbaycanda miqrasiya siyasəti.....58
Шарафеддин Шарифов, Камал Гаджиев
Деятельность международных организаций по устранению последствий Нагорно-Карабахского сепаратизма.....62
Sevil Əliyeva
Haynrix Böllün əsərlərində ictimai-siyasi motivlər.....76

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

Tərbiz Əliyev, Anar Əlirzayev
Azərbaycanda sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin genişləndirilməsinin başlıca istiqamətləri.....79

Əsgər Əliyev, Sevda Məmmədova
Azərbaycanda neft strategiyasının inkişaf perspektivləri.....92
Kutais Sarıyev
Müasir dövrdə Azərbaycanda sosial bazar təsərrüfatının formalaşması və onun reallaşma istiqamətləri.....97
Gülöğlan İsmayılov
İnformasiya ehtiyatı və cəmiyyətin informasiyalaşması.....103

Ofeliya Yusupova
Maliyyə mühasibat uçotu və hesabatının icrası ilə əlaqədar beynəlxalq uçot sistemi və onun təkmilləşdirilməsi.....109
Şövqi Quliyev, Azər İbrahimov
Tədiyə balansının tənzimlənməsinin metodoloji məsələləri.....119

Nürəngiz Mikayılova

"Əsrin müqaviləsi" və onun Azərbaycan iqtisadiyyatına səmərəsi.....128

Təranə Vəliyeva
Qloballaşan dünyada informasiya təhlükəsizliyinin etibarlı təminatı məsələləri.....135
Mobil Məcidov
Ali təhsil müəssisələrinin beynəlxalq reytinqinin formalaşmasına maliyyə vəsaitlərinin təsiri.....139

HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ BÖLMƏSİ

UOT - 316.35

Hüseyn Qaraşov
AƏSMA, sos.ü.e.d., professor

HƏMKARLAR İTTİFAQLARININ FƏALİYYƏTİNDƏ PSİXOLOJİ BİLİKLƏRİN ROLU

Bu gün artıq danılmaz reallıqdır ki, cəmiyyətin bir çox institutları ciddi transformasiyaya uğrayır, onları birləşdirən dəyərlər və normalar sistemi, statusları və funksiyaları, praktiki fəaliyyət vasitələri, onların sosial-psixoloji qiymətləndirilməsi dəyişir. Bu funksional mexanizmlərin transformasiyası eyni dərəcədə həmkarlar ittifaqlarına da aiddir. Aydındır ki, cəmiyyətin müxtəlif sosial institutları cərgəsində həmkarlar ittifaqları xüsusi yer tutur. Bu onunla izah olunur ki, həmkarlar ittifaqları cəmiyyət həyatının ən mühüm fəaliyyət mexanizmi olaraq, sosial-əmək münasibətlərinin tənzimlənməsi kimi çox önəmli prosesdə iştirak edir, vətəndaş cəmiyyəti quruculuğuna öz layiqli töhfələrini verirlər. Həmkarlar ittifaqlarının fəaliyyətinə milyonlarla insan qoşulmuşdur, bu o deməkdir ki, sosial institut olaraq, o, cəmiyyət proseslərində fəal istifadə olunan böyük resurslara və təsir imkanlarına malikdir. Bizdə ənənəvi hal almış düşüncəyə görə həmkarlar ittifaqları ya müxtəlif ictimai təşkilatlardan biri, ya da zəhmətkeşlərin könüllü kütləvi birliklərindəndir. Bu, formaca, bəlkə də belədir, lakin mahiyyətinə görə, o, iri müstəqil institut, hətta meqainstitut, yaxud da elə bir institutsional kompleksdir ki, bazar münasibətlərinin formalaşması, sosial dövlətin təşəkkülü, iqtisadi demokratiyanın inkişafı onun spesifik fəaliyyətindən xeyli asılıdır. Həmkarlar ittifaqının dəstəyi olmadan muzdlu əmək hələ tam mənada formalaşmamış xüsusi sahibkarlığın, administrasiyanın və dövlətin əsarətinə düşər. Əgər "əks qüvvə" olmasa, bu sosial qurumlar təbiətinə görə obyektiv ictimai-humanist yönümlü siyasət yeritməzlər.

Belə bir şəraitdə həmkarlar ittifaqının motivasiya sisteminin təkmilləşdirilməsi müstəsna əhəmiyyət kəsb edir, çünki təcrübə göstərir ki, həmkarlar ittifaqlarının fəaliyyəti sosial-iqtisadi qərarların işlənib hazırlandığı və qəbul edildiyi, sosial dövlətin siyasətinin müəyyən edildiyi və həyata keçirildiyi bütün orqanların bütün səviyyələrdə nüfuz etdiyi yeganə ictimai təşkilatdır [1]. Onu da qeyd edək ki, son illər postsovet respublikalarında, o cümlədən Azərbaycanda iqtisadiyyatda baş vermiş dəyişikliklər əməyin sosial problemlərində, bu dəyişikliklərin psixoloji aspektlərinin öyrənilməsinin aktuallığında öz əksini tapmaya bilməzdi. Xatırladaq ki, 1990-cı ildə ölkənin iqtisadiyyatı dərin staqnasiya vəziyyətində idi, müəssisələrin əksəriyyəti öz gələcəyinə nəzərən qeyri-müəyyənlik vəziyyətində olmuş, təsərrüfat rəhbərləri, sıravi işçilər çaşqınlıq keçirirdi.

Bundan daha əvvəl, 1980-ci illərin əvvəllərində istehsalatda sosioloji tədqiqatlar dayandırılmış, sosioloji xidmətlər ləğv edilmişdir ki, bu da müəssisə rəhbərlərinin şüurundan sosial problemlərin sıxışdırılıb aradan götürülməsindən başqa heç bir şeyə xidmət etmirdi. İctimaiyyətdə bir növ "indi sosiologiya vaxtı deyil" psixologiyası dolaşırdı. Bir zamanlar sosioloji biliyin daha çox inkişaf etdiyi sahə sayılan "əməyin sosiologiyası" tədricən liderlik mövqeyini itirərək, kommersiya sifarişlərinə yönələn fəaliyyət sahəsinə öz yerini verməli olmuşdu. Təbii ki, real idarəetmə praktikasında, eləcə də həmkarlar ittifaqlarının fəaliyyətində motivasiya mexanizmlərinin öyrənilməsinə lazımi diqqət verilməmişdir [2].

Beləliklə, müasir tipli həmkarlar ittifaqı təşkilatları real təsəvvür etmirdilər ki, hansı həyat əhəmiyyətli hər şeydən əvvəl fəaliyyət motivasiyasının təkmilləşdirilməsi yolunda üzləşəcəyi hansı problemlər ola bilər və bu problemlərin həllində hansı adekvat həll yollarını təklif edə bilərlər? Əmək münasibətlərinin tənzimlənməsini başlıca vəzifə sayan həmkarlar ittifaqları hansı problemlərin həllində fəal və qərəzsiz tərəf kimi iştirak etməlidir? Belə problemlər az deyil. Dünya praktikası

göstərir ki, istənilən ölkədə bir nömrəli problem əməyin stimullaşdırılması, yəni əməyin layiqli ödənilməsi və digər maddi mükafatlandırmadır. Hətta bir çox inkişaf etmiş ölkələrdə belə işçilərin əməyin ödənilməsindən razı qalmaması bu gün də ən kəskin problem olaraq qalır.

Lakin əmək kollektivlərində fəaliyyət göstərən həmkarlar ittifaqı təşkilatları əmindirlər ki, əməkçiləri müasir şəraitdə narahat edən başqa sosial problemlər də mövcuddur. Belə ki, əməyin stimullaşdırılmasından sonra ikinci əhəmiyyətli məsələ əməyin motivasiyası, onun psixoloji aspektlərinin öyrənilməsidir. Hətta hesab edilsə ki, istər respondentlər, istərsə də sorğuda iştirak etməyən əmək adamları "stimullaşdırma" ilə "motivasiya" arasında mühüm fərqləri görmürlər, bu faktın özü müasir həyatımızın ayrılmaz hissəsi kimi maraqlıdır. Ekspertlərin çoxu insanı əmək fəaliyyətinə, fəal əməyə sövq edən məhz daxili hərəkətverici qüvvələrin, həmin qüvvələrin psixoloji məqamlarının açılmasına kömək edən idarəetmə mexanizmlərinin axtarışında bir tərəfdən, əmək məhsuldarılığının və əməyin keyfiyyətinin artmasına, digər tərəfdən, insan potensialından tam istifadə olunmasına, öz vəziyyətindən, mövqeyindən və işindən razı qalmağa aparan yoldur.

Təəssüf ki, real praktikada inzibati rəhbərlik hələ də ənənəvi motivasiya mexanizmlərindən istifadə edir, insanların əməyə sövq edilməsi motivindən yox, məcburiyyət mexanizmlərindən istifadə edir, müxtəlif, lakin köhnəlmiş sanksiyaların tətbiq olunmasına üstünlük verir. İşin əhəmiyyəti və peşənin vacibliyinə, peşə və ixtisasın artırılmasına, uğurlu əməyə görə həvəsləndirməyə, işçiləri sosial sifarişlərindən razı salmaq kimi motivasiya mexanizmlərindən istifadəyə heç də kifayət qədər əhəmiyyət verilmir. Bu ondan irəli gəlir ki, ədəbiyyatlarda motivasiyanın sosial mexanizmlərinin seçilməsinə kifayət qədər diqqət yetirilmir [3].

Həmkarlar ittifaqı təşkilatlarını öyrənən ekspertlər etiraf edirlər ki, əmək müəssisələri rəhbərləri peşəkarlığın artırılması problemlərinə ciddi fikir vermirlər. Hər halda "kadrlar hər şeyi həll edir" devizi öz aktuallığını itirməmişdir, həmişə olduğu kimi bu prinsipə maraq artmaqdadır. Bununla bağlı olaraq, kadr axıcılığı məsələsi və onun həlli prosesində ortaya çıxan konfliktlər də həmkarlar ittifaqının maraq dairəsinə aiddir. Bu yaxınlara kimi belə bir mövqe hakim idi ki, funksional lazım olmayan və artıq işçiləri azad etmək və onların sonradan işə düzəldilməsi daha vacibdir. Lakin bu problem bu günün reallıqları üçün aktual deyildir. Kadr axıcılığı ən ümumi şəkildə götürülsə: 1) işdən azadedilmə və şəxsi motivə görə başqa işə keçmə nəticəsində işçilərin tərkibinin dəyişməsini qeydə alan göstəricidir; 2) işçi qüvvəsinin axıcılığı işçilərin qeyri-mütəşəkkil yerdəyişməsi prosesidir [4]. Tərifindən göründüyü kimi, kadr axıcılığı mürəkkəb psixoloji məsələdir. Kadr axıcılığı probleminin aktuallaşması nə deməkdir? Birincisi, bu hal onu göstərir ki, konkret müəssisələrdə təklif olunan iş şəraiti işçiləri təmin etmir və onların tələbləri artmaqdadır. İkincisi, problemin kəskinləşməsi təşkilat və rəhbərlik tərəfindən işçilərə olan tələblərin sərtləşməsi və verilən tələblərə adaptasiya olmağı bacarmamaqla və yaxud bunu istəməməklə bağlı ola bilər. Belə olan halda bu profildən olan işçilər hesab edir ki, mövcud şəraitə adaptasiya olmaqdansa, başqa iş növünü seçmək daha yaxşıdır. Üçüncüsü, indiki şəraitdə kadr axıcılığının istehsalatda sosial və psixoloji problemlərin kəskinliyinin indikatoru kimi qəbul etmək olar. Bu, işçilərin fikrincə, o deməkdir ki, göstərdiyimiz bu problemlər ya heç həll edilmir, ya da pis və qeyri-ardıcıl həll olunur. Bu həm də konkret müəssisədə təşkilatçılıq, təşkilatlanma probleminin aşağı səviyyədə olmasını göstərir. Qeyd edək ki, bu faktorun özü idarəetmə mədəniyyətinin bir çalarıdır. Bu kontekstdə işin mədəniyyətin imkanlarına uyğun reallaşdırılması, bu məqsədlə mədəniyyətin tükənməz imkanlarından istifadə olunması təşkilat mədəniyyəti adını almışdır. Təşkilati mədəniyyət təşkilatın üzvləri arasında münasibətləri reqlamentasiya edən normalar, qaydalar və əxlaqi dəyərlər sistemidir [5]. Təşkilat mədəniyyətinin məzmununu təşkilatın effektiv fəaliyyəti üçün zəruri və faydalı əlamətlər sistemi təşkil edir. Biz həm vətən, həm də xarici sosiologiya elmində yeni hadisə olan bu fenomen üzərində ətraflı dayanmaq fikrində deyilik. Bunu deməklə kifayətlənirik ki, başlıca məsələ əməyin dəyişməsinə meyilli olan və olmayan işçilərin seçilməsinin xüsusi metodlarından istifadə edilməsi təşkilat mədəniyyətinin formalaşmasının mühüm elementlərindəndir.

Hazırda həmkarlar ittifaqı təşkilatlarının öz fəaliyyətində üzləşdiyi problemlərdən biri də əmək şəraiti məsələsidir. Bunu tərəfimizdən keçirilən sorğuda iştirak edən respondentlərin əksəriyyəti (69,7 %) təsdiq edir. Ekspertlərin fikrincə, əmək şəraiti təkcə müəssisənin sanitar-gigiyenik (iş

yerinin işıqlı olması, temperatur rejimi, səs-küy və s.), yaxud konkret iş yerinin təşkil olunması deyil, daha geniş aspektdə götürülsə, əməyin gərginliyindən və intensivliyindən, əməyə nəzarət, onun qiymətləndirilməsindən, mənəvi-psixoloji atmosferdən və digər başqa komponentlərdən ibarət istehsalat mühitinin faktorları kompleksidir. Bu mənada geniş başa düşülən əmək şəraiti modeli kollektivlərin böyük əksəriyyətində yoxdur və bu sahədə daha düzgün qərarlar qəbul edilərək, qərarların effektliyini müəyyənləşdirən sosioloji sorğuların nəticələrinə həmkarlar ittifaqı liderləri və rəhbərləri diqqətlə yanaşmalıdırlar. Bir qayda olaraq, həmkarlar ittifaqları müəssisədə əmək şəraitinin yaxşılaşdırılması sahəsində fəaliyyətində "Əmək şəraitinin xüsusi qiymətləndirilməsi haqqında" Qanunun müddəalarını rəhbər tutmalıdırlar.

Bu problem labüd olaraq, işçilərin əmək adaptasiyası problemini meydana gətirir. Doğrudur, bunun reallaşması adaptasiya subyektinin sosial-psixoloji keyfiyyətlərindən, xüsusilə, onun ümumiyyətlə əməyə münasibətindən, kollektivdə əmək münasibətlərinin mahiyyətini başa düşməsindən, son nəticədə dünyagörüşündən xeyli asılıdır. İşə qəbul edilərkən insan əmək kollektivinin peşə və sosial-psixoloji münasibətlərinə fəal qoşulur, onun üçün yeni olan sosial rolları, dəyərləri və normaları mənimsəyir, öz fərdi mövqeyini əmək kollektivinin vəzifələri ilə uzlaşdırır, bununla da öz davranışını həmin kollektivin, yaxud müəssisənin xidməti göstərişlərinə tabe etdirir. Lakin şəxs işə qəbul edilərkən, artıq öz təsəvvüründə müəyyən dəyərlərə və məqsədlərə malik olur və bunlara müvafiq olaraq, əmək davranışına uyğunlaşır. Müəssisə öz məqsəd və vəzifələrindən çıxış edərək, işçinin, eləcə də onun əmək davranışı qarşısında öz tələblərini qoyur. İşçi və əmək kollektivinin tələblərini reallaşdırarkən bir-birlərinə uyğunlaşırlar ki, bunun nəticəsində də əmək adaptasiyası prosesi həyata keçirilir [6]. Beləliklə, əmək adaptasiyası şəxsiyyətlə və onun üçün yeni olan əmək mühiti arasında ikitərəfli prosesdir və bu prosesdə həmkarlar ittifaqları liderləri və rəhbərləri mənəvi-psixoloji yardım məqsədilə müvafiq obyektiv müdaxilə mexanizmlərini işləməlidirlər. Onu da qeyd edək ki, son illərin innovasiyaları – iqtisadi, təşkilati, hüquqi, texnoloji innovasiyalar – işçilərin dəyişən şəraitə uyğunlaşmasını çətinləşdirmiş, yeni texnologiyalardan istifadə prosesində müəyyən qorxu hissi, mürəkkəblik yaratmışdır. Ekspertlərin 79,5%-i bu fikirdədir. Odur ki, həmkarlar ittifaqlarının fəaliyyətində bu məqam sosioloji cəhətdən daha dərindən dərk edilməli, problemin sosial-psixoloji xüsusiyyətlərinə xüsusi diqqət yetirilməlidir. Beləliklə, başlıca məsələ əmək kollektivlərində normal sosial-psixoloji mühitin yaradılmasıdır. Qeyd etdiyimiz problemləri iki aspektdə izah etmək mümkündür. Birincisi, müasir praktikanın göstərdiyi kimi inzibati idarəetmə strukturlarına kütləvi şəkildə lazımi qədər sosial biliklərə malik olmayan, vərdişlərə və insanlarla işləmək təcrübəsi olmayan praqmatik yönümlü, "sərt" gənc menecerlər hələ də gəlməkdədir. Onlar kollektiv mühitin psixoloji problemlərini öyrənməkdənsə, iş prosesində əngəllik yaradırlar. İkincisi, münasibətlərin kommersiyalaşması və bazar iqtisadiyyatına keçid üçün labüd olan təşkilatda əlverişli mövqe tutmaq uğrunda rəqabətin artması. Bu, sözün əsl mənasında sosial-psixoloji məsələdir. Əmək münasibətlərinin kommersiyalaşması və rəqabət labüd olaraq kollektivlərdə əlavə psixoloji gərginlik yaradır. Ona görə də ümumi işə ziyan vuran belə gərginliyin psixoloji səbəblərini öyrənmək və aradan qaldırmaq əmək sosiologiyasının vacib problemlərindən biridir.

Müasir sosial psixologiya elmilə bağlı tədqiqat işlərinin analitik təhlili göstərir ki, araşdırmaların böyük əksəriyyəti fəaliyyətin motivasiyası probleminə həsr edilmişdir. Tanınmış psixoloq A.K. Leçutyevin ardınca psixologiya elmi "fəaliyyət" anlayışını "motiv" termini ilə bağlayır. Araşdırmalardan həmçinin aydın olur ki, fəaliyyət yanaşması insan psixikası ilə fəaliyyətin vəhdəti prinsipinə söykənir və bu prinsip insanın tələbat-motivasiya sahəsinə sistemlik gətirən faktordur. Fəaliyyət baxımından yanaşma motiv fərdin fəallığının dəyər vasitəsilə təşkilidir, fəaliyyətin inteqral sövqedicisi və tənzimləyicisidir [7, s.328].

Motivasiyanın peşə xüsusiyyətlərindən bəhs olunan araşdırmaların bir qismi həmkarlar ittifaqları təşkilatlarının fəaliyyət xüsusiyyətlərinə həsr olunmuşdur. Bu səbəbsiz deyil və hesab edirik ki, bunu həmkarlar ittifaqları təşkilatının fəaliyyətini işıqlandıran amil kimi motivasiyanın xüsusi növü kimi qiymətləndirmək olar. Hər bir motivasiya növü kimi həmkarlar ittifaqlarının fəaliyyətinə daxil olan bir fenomen olmaqla spesifik xüsusiyyətlərə malikdir. O, birincisi, həmkarlar ittifaqlarının genezisi və inkişafı ilə, ikincisi, həmkarlar ittifaqlarının təşkilinin xarakterilə, üçüncüsü, həm-

karlar ittifaqlarında üzv olan fərdlərin şəxsiyyət xüsusiyyətlərilə, dördüncüsü, həmkarlar ittifaqları liderlərinin şəxsiyyət xüsusiyyətləri və onun sıravi üzvlərə münasibətilə, beşincisi, həmkarlar ittifaqlarının məqsəd və vəzifələrinin, onların həyata keçirilməsi xüsusiyyətləri ilə müəyyən edilir.

Həmkarlar ittifaqları sisteminin təkmilləşdirilməsi kontekstində yanaşılsa, qeyd edilməlidir ki, psixoloji mənada çətin proseslərdən biri peşə motivasiyasından, yəni sıravi üzvün həmkarlar ittifaqları təşkilatında formalaşmasından və onun müasir tələbatlara hazır olmasından söhbət gedə bilər, çünki belə bir strukturda çalışmaq peşə motivasiyasının dərindən sosioloji dərk olunmasını tələb edir [8, s.118-122]. Bu isə mühüm sosial-psixoloji prosesdir.

Qeyd edək ki, müasir sosial psixologiya elmində peşə motivasiyası deyilərkən, peşənin seçimini şərtləndirən konkret sövqedici amillərin hərəkəti və bu konkret peşə ilə bağlı öhdəliklərin uzun müddət ərzində yerinə yetirilməsi başa düşülür. Peşə motivasiyası ətraf aləmin faktorlarının təsiri altında formalaşır.

Peşə yönümlü motivasiyanı araşdıran sosial psixoloqlar üçün peşə motivləri, onların təsnifatı problemi bir obyekt kimi mühüm maraq kəsb edir. Təcrübə göstərir ki, həmkarlar ittifaqları kadrlarının hazırlanmasında peşə motivləri ilə yanaşı idraki motivlərin dərk edilməsi də mühüm əhəmiyyət kəsb edir, çünki bu profilli kadrların hazırlanması həm də nəzəri-idraki biliklərə yiyələnməkdən xeyli asılıdır. Bu məsələ kadr kimi yetişməyə meyil göstərən sıravi üzvdə, onun düşüncəsində xarici motivlərin güclü təsiri zamanı xüsusilə kəskin xarakter kəsb edir. Daxili motivin olmaması və xarici motivin həddən artıq iştirak etməsi kadrların hazırlanması prosesi üçün xarakterik bir haldır.

Əməyin sosiologiyası fənni daxili və xarici motivasiya anlayışlarını fərqləndirir. Daxili motivasiya zamanı insan öz hərəkətləri ilə mükafatı öz əmək ləyaqətlərinə öz səriştəliliyinə inam, öz qüvvəsinə və niyyətlərinə arxayınlıq, öz əməyindən razı qalmaq, onu reallaşdırmaq keyfiyyətləri sayəsində alır. Xarici motivasiya insanın mühitlə münasibətlərindən (bu, mükafatlandırma istəyi, cəzadan qaçma və s.) asılıdır. O, xarici psixoloji və maddi fəaliyyət şəraitilə tənzimlənir. Əgər insan pula görə işləyirsə, onda pul daxili motivator olur, əgər yalnız işə maraq göstərməyə çalışırsa, onda pul xarici motivator kimi çıxış edir [9].

Yeri gəlmişkən qeyd edək ki, ümumiyyətlə, şəxsiyyətin idraki motivlərinin və idraki imkanlarının inkişafı layiqli kadrların formalaşmasında və təkmilləşdirilməsində müstəsna rol oynayır. Bütövlükdə həmkarlar ittifaqları təşkilatlarının fəaliyyətində idraki motivasiya relevant xarakter daşıyır. L.S. Vıqotski yazırdı ki, ən vacibi təkcə bilikləri öyrətmək deyil, biliklərin əldə edilməsini və onlardan istifadə olunmasını tərbiyə etməkdir [10, s.480]. Həmkarlar ittifaqları kadrlarının hazırlanması prosesində – bu prosesin subyekti hər bir sıravi üzv ola bilər – bilik motiv kimi çıxış edir ki, bunda sıravi üzvün idraki tələbatı təcəssümünü tapır. İdraki motivasiya o motivasiyadır ki, bu zaman məlum olmayan yeni bilik idraki fəaliyyətin məqsədi ilə üst-üstə düşür, nailolma motivasiyası isə həmin idraki fəaliyyətdən kənarda yerləşən məqsədə nail olmaq vasitəsidir. Sorğu zamanı məlum olmuşdur ki, bu gün həmkarlar ittifaqları işçilərinin 52,4%-i bilik qıtlığı hiss edir. Həmkarlar ittifaqı işçilərinə "Biliklərinizi dərinləşdirməyə ehtiyac hiss edirsiniz?" sualına 69,8% "Böyük ehtiyac hiss edirəm", 30,2% isə "Qismən hiss edirəm" cavabını vermişlər.

Peşə motivləri idraki motivlərlə yanaşı peşə seçiminə psixoloji hazırlıq çərçivəsində öyrənilir. Burada peşə özünün müəyyənliyi və peşə münasibəti, peşə mənlik şüurunun formalaşması, kadr hazırlığı prosesində peşə iddialarının inkişafı konteksti əsas götürülür. Peşəkarlıq yönümünün əsas əlamətləri sıravi üzvün şüurunda peşə dominantlığının yer alması, peşəsinin obrazının tapılması və formalaşması, özünü həmkarlar ittifaqları fəaliyyətinin subyekti kimi dərk etməkdir. Peşəkarlıq yönümü kadr hazırlığı prosesində həm də yeni peşəyə yiyələnən subyekt kimi formalaşarkən bu yönümün funksiyaları motivləşdirən, təşkiledici, istiqamətləndirici, tənzimləyici funksiyalar kimi təqdim olunur.

Peşə yönümünün formalaşmasının qaynaqlarından biri sıravi üzvün seçdiyi peşənin spesifikası, peşə yönümü haqqında təsəvvürləridir, peşə yönümü isə yekcins olmayan, uzun müddət formalaşan təhsil kimi peşə motivlərinin məcmusudur.

Beləliklə, peşəkar şəxsiyyəti formalaşdıran məqsədlərə nail olmaq üçün kadr hazırlığı prosesində tədris prosesini elə təşkil etmək lazımdır ki, tədris-idrak fəaliyyətindən peşə fəaliyyətinə keçid

mümkün olsun, özü də bu fəaliyyət növü müvafiq tələbatların və məqsədlərin, motivlərin, predmetin vasitələrinin və nəticələrinin əvəzlənməsini təmin etmiş olsun. Qeyd edək ki, bu işdə liderin şəxsiyyəti və onun tədris prosesinin təşkilində iştirakı və bacarığı az rol oynayır.

Göründüyü kimi, peşə motivi hazırda psixoloji fenomen kimi xüsusi əhəmiyyət kəsb edir. Fərdlə cəmiyyətin qarşılıqlı əlaqəsi spesifik şəkildə məhz bunda üzə çıxır. Həmkarlar ittifaqlarının formalaşması və təkmilləşməsi məhz bu prosesdə prioritet əhəmiyyət daşıyır.

Sıravi üzvün peşə oriyentasiyası motivasiyasının strukturunun öyrənilməsi, həmkarlar ittifaqları işinə sövq edən motivlərin araşdırılması, bunları bilmək həmkarlar ittifaqlarının fəaliyyətinin səmərəliliyini artırmaq vəzifələrinin həllinə kömək etmiş olar, kadrların düzgün yerləşdirilməsində mühüm stimul kimi çıxış edər. Bu fenomen demək olar ki, bütün psixoloji tədqiqatlarda aktual problem kimi araşdırılır.

Təbii ki, motivasiya daha çox psixoloji fenomen olduğundan bu işdə hər bir subyektin fəaliyyəti nəzərə alınmalıdır. Ona görə başlıca vəzifə peşə yönümlü şəxsiyyətin düzgün formalaşması və inkişafı üçün bütün lazımi sosial-idraki mühit yaradılmalıdır.

Mühüm psixoloji problemlərdən biri əmək kollektivlərində, eləcə də konkret bir kollektivdə fəaliyyət göstərən həmkarlar ittifaqlarının imicinin saxlanmasıdır. Bu fenomenin mühüm göstəricilərindən biri istehsalatda işçilərə göstərilən sosial xidmətin vəziyyəti və səviyyəsidir. Formal cəhətdən sosial xidmət müştərilərə sosial xidmətlər təklif edən, bir-birləri ilə qarşılıqlı əlaqədə olan sosial xidmətlər şəbəkələri vasitəsilə həyata keçirilən sosial fəaliyyət növüdür [11].

Həmkarlar ittifaqı təşkilatlarına praktikadan məlumdur ki, öz işçilərinə ictimai xidmət funksiyasını yerinə yetirən sosial qurumlardan imtina edilməsinin neqativ təzahürləri son nəticədə insanların sosial tələbatlarının ödənilməsi səviyyəsində özünü göstərir. Onlar bilavasitə iş yerlərində lazımi sosial xidmətlərlə (yemək, tibbi xidmət, asudə vaxtın təşkili və s.) təmin olunmurlar və bunu kənarda axtarmağa məcbur olurlar ki, belə xidmət heç də həmişə mümkün olmur. Belə hal işçinin öz təşkilatı ilə əlaqəsinin zəifləməsinə gətirib çıxarır. Qərb sosioloqu Meyo aşkar etmişdir ki, işçinin istehsal norması onun vicdanı, yaxud fiziki qabiliyyətləri ilə deyil, öz tələblərini, davranış qaydalarını və normalarını diktə edən qrupun təzyiqi ilə müəyyən edilir. Onun apardığı təhlil aşkar etmişdir ki, istənilən təşkilat öz daxilində kiçik qruplara peşəkarlıq parametrlərinə görə deyil, şəxsi xarakteristikalara görə bölünürlər. Qrup özünəməxsus bir sistemdir, burada autsayderlər, liderlər və "müstəqillər" qrupu yaranır. Hər bir kiçik qrup öz davranış qaydalarına riayət edir. Qeyri-formal normalar əmək fəaliyyətinə də şamil olunur. Meyo göstərir ki, bəzi işçilər bilərəkdən istehsal normasını azaldır, bununla da administrasiyaya öz etirazını bildirir, bu yolda öz mənafelərini müdafiə edirlər. Beləliklə, "insan münasibətləri" konsepsiyasının nümayəndələrindən biri olan Meyo sənaye cəmiyyəti deyilən sosial mühitə tənqidi yanaşaraq qeyd edir ki, burada normal insani münasibətlər pozulur, mədəni ənənələr zəifləyir, insanların özgələşməsi halları güclənir. Bunu da qeyd edək ki, Meyo əməklə kapital arasında antogonizmi sahibkarların bacarıqlı fəaliyyəti ilə idarəetmə üslubunda müəyyən islahatlar aparmaqla aradan qaldırmaq olar ki, bunun da nəticəsində əmək məhsuldarlığının artırılmasının yeni ehtiyatları üzə çıxar, həmkarlar ittifaqlarına ehtiyac qalmaz [12].

Bizcə, istehsalatda belə bir vəziyyətin yaranması səbəblərindən biri kimi istehsalatda işçilərin sosial xidmətlərinin qənaətbəxş qurulmamasını göstərmək olar.

Müasir həmkarlar ittifaqlarının fəaliyyətində ən çətin və mühüm sahələrdən biri əmək kollektivlərində əmək konfliktlərinin pozitiv həlli uğrunda apardığı mübarizədir. Bu gün həmkarlar ittifaqları liderlərinin çoxu etiraf edir ki, əmək kollektivlərində konflikt bazası genişlənmişdir və onların həllinin çətinliyini müəyyən edən səbəblər az deyil. Mövcud tədqiqatlardan da görünür ki, konfliktləri törədən sosial-psixoloji hallar artmışdır; birincisi, iş yerini itirmək qorxusundan işəgötürənlə konfliktə girməmək kimi hallar konfliktlərin vaxtında və ədalətli həllinə mane olur və bu hal əmək mübahisələrini daha da dərinləşdirir. İkincisi, müəssisədə bilavasitə konfliktlərin həlli üçün leqal mexanizmlər işçilər üçün aydın olmadığından, konfliktin həlli məsələsi məhkəməyə gedib çıxır; üçüncüsü, həmkarlar ittifaqı təşkilatları bir çox hallarda bu sahədə prinsipial mövqe nümayiş etdirmirlər, bu da öz növbəsində həmkarlar ittifaqının imicinə mənfi təsir edir. Belə vəziyyətdə əmək

konfliktlərinin həlli müstəsna olaraq, işəgötürənin maraqlarına qulluq edən administrasiyanın səlahiyyətinə keçir, konflikt sahibkarın xeyrinə həll edilir.

Həmkarlar ittifaqları da öz təcrübələrində bilirlər ki, erkən vaxtlarda konfliktin diaqnozu düzgün qoyulduqda onun dərinləşməsinin qarşısı alınır. Konfliktlərin qarşısının alınması məqsədilə müvafiq tənzimləyici tədbirlər məhz bu mərhələdə görülməlidir. Konfliktlərin həlli prosesinə administrasiya tərəfindən konfliktoloqların cəlb edilməsi konfliktin "yüngül məcraya" keçməsinə kömək etmiş olur. Təcrübə göstərir ki, konfliktləri vaxtında həll edəndə, daha doğrusu, erkən mərhələdə həmkarlar ittifaqının iştirakı ilə müvafiq tədbirlər görüldükdə heç tətillərə, yaxud müəssisə rəhbərinin istefasına ehtiyac qalmır [13]. Bir məsələ də nəzərə alınmalıdır ki, əmək kollektivlərində konfliktlər həmişə olur və buna təbii proses kimi yanaşılmalıdır. Vacib məsələ vaxtında adekvat tədbirlərin görülməsidir. Əmək kollektivlərində konfliktlərə təmkinlə yanaşmaq, onların həllində sağlam düşüncə mövqeyi tutmaq, kollektivdə psixoloji ab-havanın, sosial mühitin sağlamlığından xəbər verir [14, s.376-380].

Təcrübə belə bir faktı da aşkar edir ki, həmkarlar ittifaqları ilə müəssisə rəhbərliyi arasında müəyyən anlaşılmazlığın baş verməsinin mühüm səbəblərindən biri əmək kollektivlərinin kifayət qədər informasiya təminatının olmamasıdır. Söhbət informasiya cəmiyyəti quruculuğundan gedirsə, onda müasir dövrdə idarəetmə sisteminin informasiya təminatına mühüm problem kimi yanaşılmalıdır. İnformasiya təminatı deyilərkən, əsaslandırılmış qərarlar qəbul etmək məqsədilə informasiyanın toplanması və işlənməsi prosesi başa düşülür. İdarəetmənin informasiya təminatı müəssisə ilə, bütövlükdə idarəetmə prosesi ilə informasiya sisteminin əlaqəsi, vasitəsidir. Həmin proses yalnız bütövlükdə idarəetmə funksiyalarını deyil, həm də ayrıca funksional idarəetmə proseslərini əhatə edir, buraya proqnozlaşdırma və planlaşdırma, uçot və təhlil sahələri də aiddir. Prosesin bu cür başa düşülməsi funksional idarəetmənin informasiya təminatına xas olan spesifik məqamlarını görməyə imkanlar açır. Aydındır ki, istehsalın effektivliyinin artmasında ən mühüm faktor idarəetmənin və rəhbərlik üslubunun yaxşılaşdırılmasıdır. İdarəetmənin forma və metodlarının təkmilləşdirilməsi elmi-texniki tərəqqinin nailiyyətləri, müxtəlif texniki vasitələrlə informasiyanın işlənməsi və ötürülməsi, informasiyanın toplanmasının vasitələrinin qaydalarını və metodlarını öyrənən informatikanın daha da inkişafı əsasında baş verir. Menecment obyektiv və vaxtında toplanmış, işlənmiş, müasir elmi-texniki vasitələrin köməkliyi ilə saxlanılmış informasiyadan tam istifadə etməyi bacarmalıdır. Bu, bazarın dinamik inkişaf etdiyi şəraitdə meydana çıxan problemə adekvat reaksiya verən bazarın tələbatları ilə şərtlənən obyektiv zərurətidir. Ona görə də yalnız müasir və dəqiq informasiyaya malik olmaq kifayət deyil, həm də onu dərk etməyi bacarmaq, zəruri nəticələr çıxarıb onu idarəetmə ilə bağlı qərarlarda məhsuldar təcəssüm etdirmək lazımdır. Deməli, idarəetmə – informasiya prosesidir [15].

Əgər biz əmək kollektivlərinin informasiya təminatının təkmilləşdirilməsində yarana biləcək müsbət nəticələri ötəri belə qeyd etsək, bir daha əmin ola bilərik ki, bu sahə müəssisədə həmkarlar ittifaqları rəhbərlərinin və liderlərinin birbaşa müdaxilə obyektləri olmalıdır. Əlbəttə, idarəetmənin bütün mərhələlərində, xüsusilə bu prosesdə psixoloji faktorlar da nəzərə alınmalıdır.

Biz hesab edirik ki, informasiya təminatının təkmilləşdirilməsi sayəsində bir çox müsbət nəticələrə nail olmaq mümkündür. Məsələn, əmək haqqı fondunun, kommunal xidmətlərin, proqram təminatlarının dəyərinin, poçta edilən xərclərin, müqavilələrin bağlanmasına ayrılan xərclərin, xammalın bölünməsinə, paylanmasına olan xərclərin azaldılması nəticəsində xərclərə qənaət oluna bilər.

Bir daha qeyd edək ki, informasiya insan fəaliyyəti ilə bağlı olan bütün sahələrə lazımdır. İdarəedən strukturlar, müəssisələrin kollektivləri, ictimai təşkilatlar informasiyasız fəaliyyət göstərə bilməzlər. Yalnız intuisiyaya, öz həyat təcrübəsinə söykənmək mümkün deyil, meydana çıxan məsələləri həll etmək üçün informasiyaya bacarıqla yiyələnib vaxtında istifadə və qərar qəbul etmək vacibdir. İnformasiya bu gün həmkarlar ittifaqlarında baş verən prosesləri obyektiv işıqlandıran birinci dərəcəli resurs kimi çıxış edir. Maddi resurslar nə qədər mühüm əhəmiyyət kəsb etsə də, onların istifadəsi əldə olan informasiyanın vəziyyətindən və keyfiyyətindən asılıdır. Tükənməyə meyilli olan mövcud resursların çoxundan fərqli olaraq, informasiyanın potensialından həm kollektiv-

lər, həm də fərdi işçilər tərəfindən dəfələrlə istifadə oluna bilər. İnformasiya potensialının bir müsbət xüsusiyyəti ondadır ki, o, daim artır və zənginləşir.

Hazırda vəziyyət elədir ki, müəssisələrdə menecer korpusu tez-tez kollektivə nəinki strateji planları ilə, həm də təşkilatın fəaliyyəti haqqında cari informasiya ilə bölüşmək istəməyən qapalı qrupa çevrilirlər. Buna adətən kommersiya sirrinin saxlanması iddiası ilə bəraət qazandırırlar. Halbuki təcrübə tam aydınlığı ilə göstərir ki, məlumatlandırılmamış işçi öz təşkilatının işlərinə istənilən səviyyədə cəlb oluna bilmir, bu isə insanın sosial fəallıq potensialından tam istifadə olunmadığını göstərir. Deməli, həmkarlar ittifaqları liderləri problemin ciddi təhlil olunması ilə yaxından maraqlanmalı və praktik qərarların verilməsinə ciddi nəzarət etməli, lazım gələrsə öz sözünü deməlidir.

Əmək kollektivlərində fəaliyyət göstərən həmkarlar ittifaqları təşkilatının hər bir üzvü tutduğu vəzifədə uğur qazanmaq, daha yüksək vəzifəyə irəli çəkilmək istəyir və bu məqsədlə özünün obyektiv potensialından maksimum istifadə etməyə çalışır. Bu, təbiidir və başa düşülən arzudur. Təsadüfi deyildir ki, sorğuda iştirak edənlərin 82,9% -i bunu əsas meyar kimi qəbul edir. Lakin unudulmamalıdır ki, belə bir potensialın həyata keçirilməsi hər şeydən əvvəl müəssisənin sosial-psixoloji mühitindən xeyli asılıdır. Əməyə münasibət mədəniyyəti, müəssisədə yeni texnikanın və texnologiyaların tətbiqi, səriştəsi yeniliklərin iqtisadi və təşkilati aspektlərinin müəssisə rəhbərləri və həmkarlar ittifaqları tərəfindən düzgün başa düşülməsi işçilərin texniki yaradıcılığının həyata keçirilməsi üçün imkanların yaradıldığı əmək kollektivində işçinin yeni vəzifəyə irəli sürülməsi üçün real şərait yaradıla bilər.

Son illərdə aparılmış sosioloji sorğular göstərir ki, deyilənlər baxımından bütün MDB məkanında, o cümlədən Azərbaycanda müəssisələrin böyük əksəriyyətində ümumi sosial-psixoloji mənzərə göstərir ki, hələ qarşıda görülən işlər çoxdur. Etiraf edilməlidir ki, yeni reallıqlarda müəssisənin sosial infrastrukturunun inkişafı, əmək mədəniyyətinin, işçilərin işə düzəldilməsi, kollektivdə ictimai rəyin formalaşması, əmək əxlaqı, sosial fəallığın artması problemlərinin aktuallığı xeyli aşağı düşmüşdür. Ola bilsin ki, qeyd etdiyimiz problemlər yuxarıda göstərdiyimiz daha kəskin məsələlərin fonunda o qədər də aktual səslənmirlər, hər halda əmək mədəniyyəti, əmək əxlaqı, sosial fəallıq məsələlərini ikinci dərəcəli faktorlara aid etmək düzgün olmazdı. Oğurluq, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, vergidən yayınma, işçilərin sosial-psixoloji passivliyi kimi halların hələ də davam etməsi yuxarıdakı faktorların nəzərə alınmamasının birbaşa nəticəsidir, odur ki, həmkarlar ittifaqlarının fəaliyyətində bu hallarla mübarizə mühüm fəaliyyət istiqaməti olaraq qalır.

Sosioloji sorğu keçirmədən belə ictimaiyyətə aydındır ki, bu gün Azərbaycan gerçəkliyində həmkarlar ittifaqlarının imicinə ziyan vuran faktorlardan biri xarici müəssisələrdə və şirkətlərdə çalışan yerli fəhlələrin əmək hüquqlarının yerli həmkarlar ittifaqı təşkilatları tərəfindən qoruna bilinməməsidir. Belə bir vəziyyət bu obyektlərdə çalışan işçilərdə psixoloji məyusluq doğurmaya bilməz. Əlbəttə, söhbət heç də yerli həmkarlar ittifaqlarının bu problemə biganəliyindən getmir. Bu məsələ Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bütün qurultaylarında qaldırılmışdır. Qeyd etdiyimiz məsələyə Azərbaycan Həmkarlar İttifaqlarının IV qurultayında da toxunulmuşdur. Qurultaya hesabat məruzəsində deyilir: Son 5 ildə AHİK və üzv təşkilatları transmilli kampaniyaların həmkarlar ittifaqlarının hüquqlarını pozan hərəkətlərinə qarşı daha sərt mövqe tutaraq, Azərbaycan Respublikası milli qanunvericiliyinə, BƏT-in konvensiyalarına əməl olunması çağırışları ilə çıxış etmişlər. AHİK-in sahə həmkarlar ittifaqlarının liderləri kütləvi informasiya vasitələrində dəfələrlə transmilli kampaniyalarda işçilərin həmkarlar ittifaqı təşkilatı yaradılması təşəbbüslərinə maneçilik törədilməsini və təzyiq göstərilməsini tənqid etmişlər [16, s.117-119].

Lakin etiraf edilməlidir ki, transmilli kampaniyalarda həmkarlar ittifaqları tam gücü ilə fəaliyyət göstərə bilmir. Bu sahədə problemlərin ciddi olması etiraf edilməli və işçinin əmək hüquqlarının və ləyaqətinin qorunması məsələsində yeni fəaliyyət mexanizmləri işlənib hazırlanmalıdır.

Son illər həmkarlar ittifaqları təşkilatlarının rəhbərlərini və liderlərini narahat edən problemlərdən biri istehsalatın özünüidarəçiliyinin demorkratikləşdirilməsi məsələsinin demək olar ki, zəif olmasıdır. Bu faktor həmkarlar ittifaqlarının fəaliyyətinin motivasiyasına mühüm əngəllərdən biridir. Ekspertlər etiraf edirlər ki, bir çox sosial problemlər məhz istehsalat özünüidarəçiliyinin, istehsalat demokratiyasının olmaması səbəbindən həllini tapmır, ya da qənaətbəxş həll olunmur. Hətta

sovet dövründə formal olsa da, zəhmətkeşlərin idarəçilikdə iştirakının rüşeym nümunələri (fəhlə yığıncaqları, briqadirlər şurası, əmək kollektivləri şurası, ictimai büro və s.) bu gün fəaliyyətdən qalmış, demək olar ki, real istehsalat həyatından itmişdir. İdarənin rəhbərliyi müəssisələrdə bütün hakimiyyəti ələ almış və heç bir istehsalat sahəsi ilə bu hakimiyyəti bölüşdürmək niyyətində deyillər. Sadə muzdlu işçiyə işə yalnız menecerlərin iradəsini sözsüz yerinə yetirmək hüququ qalır. Təbii ki, bu cür neqativ münasibət əmək kollektivlərində sağlam sosial-psixoloji duruma böyük ziyan vurur.

Zəhmətkeşlərin təmsilçi orqanları, məsələn, bəzi həmkarlar ittifaqları komitələri rəhbərliyin qanadları altında gizlənmişdir və onların fəallığı işçilərin köklü maraqlarına toxunmayan adi ritual xarakterli hərəkətlərdə təzahür edir. Sorğular da göstərir ki, həmkarlar ittifaqları əmək problemləri siyahısında bizneslə muzdlu əməyin maraqlarının razılaşdıran mexanizm kimi çıxış edən sosial tərəfdaşlıq axırıncı yerlərdən birini tutur [2, s.94].

İnsan işdə yalnız əmək funksiyasının icraçısı kimi çıxış etmir. Əgər bilavasitə istehsalatla bağlı olmayan mühüm tələbatlar hesaba alınmazsa, labüd olaraq işçi üçün yeni özgələşmə, əlavə sosial-psixoloji gərginlik, işdən razı qalmamaq halları yaranacaq ki, bunların da yerini artmaqda olan iqtisadi stimulların həcmi ilə doldurmaq, əvəzləmək lazım gələcəkdir.

Yuxarıda qeyd etdiyimiz faktorlar həmkarlar ittifaqlarının fəaliyyətinin motivasiyası, daha doğrusu, həmkarlar ittifaqlarının motivasiya fəaliyyətinə olan münasibətə yeni nəzərlə baxılmasını daha da aktuallaşdırır. "2013-2018-ci illər üçün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin əsas istiqamətləri" adlı sənəddə deyilir: "Konfederasiya həmkarlar ittifaqları üzvlüyünün motivasiyasının gücləndirilməsinə, yeni üzvlərin, o cümlədən gənclərin, TMŞ-də, kiçik və orta biznes sahəsində çalışanların, tələbələrin həmkarlar ittifaqına cəlbinə, icra intizamının və məsuliyyətin yüksəldilməsinə var qüvvəsini sərf edəcəkdir" [17, s.4].

Deməli, əməli iş üçün mühüm sayılan bu sənəddə həmkarlar ittifaqlarının fəaliyyətinin canlandırılması baxımından olduqca vacib faktor olan həmkarlar ittifaqının üzvlüyünün motivasiyasının gücləndirilməsi diqqət mərkəzində duran problem kimi vurğulanır. Qeyd edək ki, son illər AHİK və onun üzv təşkilatlarında həmkarlar ittifaqları üzvlüyünün motivasiyasını gücləndirmək, yeni həmkarlar ittifaqı təşkilatlarının yaradılması üzrə məqsədyönlü işlər görmüşdür. Üzv təşkilatların bəzilərində həmkarlar ittifaqı təşkilatlarının üzvlərinin motivasiyasının gücləndirilməsi üzrə proqramlar qəbul edilmişdir.

Sorğu zamanı məlum olmuşdur ki, respondentlər həmkarlar ittifaqları işinin cəlbedici olması üçün aşağıdakı motivlərə üstünlük verirlər: insanlar həmkarlar ittifaqlarının işi barədə yaxşı məlumatlandırılmalıdırlar (48,3%); həmkarlar ittifaqları işçilərinin əmək haqqı yüksək olmalıdır (72,8%); həmkarlar ittifaqlarının imici müsbət olmalıdır (83,5%); bu qurumlarda karyerada yüksəlmək perspektivləri olmalıdır və bu iş təbliğ olunmalıdır (68,9%); həmkarlar ittifaqları işçisinin və fəalının hüquqları cəsarətlə müdafiə olunmalıdır (87,3%).

Bu kontekstdə müasir həmkarlar ittifaqları belə bir konseptual mövqedən çıxış edirlər ki, iqtisadi inkişafın müasir mərhələsində insan faktorundan, onun potensial imkanlarından səmərəli istifadə həm dövlət, həm də ayrıca müəssisə miqyasında olduqca aktualdır. Buna görə də motivasiya proseslərinin təhlilinə müxtəlif yanaşmaların imkanlarının qiymətləndirilməsi axtarışlarının əsasında insanın əməyə münasibəti, onun istehsalat vəziyyətini dərk etməsi və əmək funksiyalarının yerinə yetirilməsindən qane olması kimi problemlərin həlli ilə bağlı çoxlu sayda nəzəri araşdırmalar durur. Sahə həmkarlar ittifaqları öz fəaliyyət proqramlarını işləyib hazırlayarkən, tamamilə haqlı olaraq hesab edirlər ki, həm əmək fəaliyyəti, həm də həmkarlar ittifaqı təşkilatlarının fəaliyyəti müxtəlif nəzəri araşdırmaların təklif etdiyi konseptual ideyalar əsasında qurulur. Əmək davranışının inkişaf etməkdə olan istehsalın tələblərinə uyğunluğu məhz nəzəri araşdırmalarda işlənib hazırlanmış ideyalardan asılıdır. Hazırda həmkarlar ittifaqı təşkilatları rəhbərlərinin və liderlərinin yerinə yetirilməsi vacib sayılan başlıca vəzifəsi işçi üçün elə bir əmək şəraitinin yaradılmasıdır ki, bunun da sayəsində əmək özgələşməsinin neqativ nəticələri aradan qaldırılsın, işçilərdə fəal əmək davranışı formalaşsın. Ona görə təsadüfi deyildir ki, XX əsrin 70-ci illərində ölkəmizdə aparılan sosioloji sorğular həmkarlar ittifaqlarının fəaliyyəti üçün son dərəcə önəmli bir məsələyə – işçinin öz əməyinə münasibətinə və bu münasibəti təmin edən şəraitə baxışına həsr olunmuşdu. Təbii ki, o dövrdə sosiolo-

ji sorğuların aparılması işində kifayət qədər təcrübənin olmaması, eləcə də sahədə metodologiyanın zəifliyi "həmkarlar ittifaqlarının fəallığının motivasiyası" və "həmkarlar ittifaqları üzvlüyünün motivasiyası" kimi problemlərin vaxtında və obyektiv araşdırılmasına imkan vermirdi.

Biz belə fikri qeydə almışdıq ki, motivasiya həmişə insan üçün xarici mühit faktoru ilə ona xas olan daxili tələbatların, maraqların, işəgötürənlərin, dəyərlərin və yönümlərin sərhəddində təzahür edir. Motivasiya prosesi mühitin təzyiqinin – xarici stimullar daxil olmaqla – şəxsiyyətin geniş mənada başa düşülən maraqlarının uzlaşdırılması cəhdlərində keçir, baş verir. Üç mühüm komponentin - maddi, sosiomədəni və dəyər-normativ komponentlərindən ibarət mühit kor-koranə qəbul edilmir. Bu fenomen insanın şüur prizmasından keçərək, onun tələbatları, funksional imkanları, iddiaları ilə uzlaşaraq, sonralar bu əsasda "davranış faktorları" mərhələsini keçən "motivləşdirici faktorlar" yaranır. Son nəticədə bu fenomen həmkarlar ittifaqlarının sosial-psixoloji fəallıq motivasiyasını formalaşdıran amillər kimi çıxış edir.

Problemə aydınlıq gətirmək üçün daha əhəmiyyətli məsələyə, yəni öz statusu olan sosial qruplar məsələsinə toxunmağı məqsədəuyğun hesab edirik. Qeyd edək ki, həmkarlar ittifaqlarının statusu buraya daxil olan status qruplarının məqsədlərindən, maraqlarından və motivasiyasından asılıdır, daha dəqiq deyilsə, bu statusların özü həmkarlar ittifaqının iyerarxik quruluşundan irəli gəlir. Status qrupları cəmiyyətdə sosial-əmək münasibətlərini tənzim etmək sisteminə daxil edilmiş həmkarlar ittifaqlarına nəzərən müxtəlif hakimiyyət həcminə, resurslardan müxtəlif istifadə imkanlarına malikdir, müxtəlif imicin daşıyıcılarıdır.

Həmkarlar ittifaqları işçisinin aktual sosial-psixoloji problemlərinə bu komponentləri aid etmək olar: onun fəaliyyətində psixoloji biliklərin rolunun artırılması, şəxsiyyətinə tələbatların artırılması, nüfuzunun formalaşmasının spesifik xüsusiyyətlərinin nəzərə alınması, həmkarlar ittifaqları liderinin işinin təşkili və onun yerinə yetirilməsinə nəzarətin və məsuliyyətinin artırılması. Sosial-psixoloji motiv fəaliyyət motivasiyasının struktur komponenti kimi həmkarlar ittifaqları işçisinin şəxsiyyətini xarakterizə edən, onun həmkarlar ittifaqları rəhbəri və lideri ilə konfliktsiz münasibətlərinə stimul verən mühüm sövqedici faktordur. Bu amil göstərir ki, həmkarlar ittifaqlarının fəaliyyətinin motivasiyasının sosial-psixoloji problemləri öz aktuallığını saxladığından bu sahə daha dərindən araşdırılmalıdır.

Açar sözlər: həmkarlar ittifaqları, motivasiya, sosial-psixoloji, əmək münasibətləri, əmək kollektivləri

İstifadə edilmiş ədəbiyat

1. Волгин Н.А., Гриценко Н.Н., Шарков Ф.И. Социальное государство. М.: Дашков и Ко, 2003
2. Башмаков В.И. Проблемы мотивации работников и подбора персонала на муниципиальном предприятии // Вестник ГУУ. М.: 2004.
3. Сурков С.А. Практические основания для выбора механизмов мотивации персонала // "Кадры предприятия", 2005, № 6.
4. Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б. Современный экономический словарь. http://www.smartcat.ru/referat/gtqemramramtt/more%20c.shtml./
5. Понятие организационной культуры и ее элементы. allendy.ru/teoria-orq/322-ponjatie-orq kulturi.html.
6. Проблема адаптации работника в трудовом коллективе. http://5 ballov.gip.ru/referate/preview/34011;http://5ballov.qip.ru/referats/preview/72485/2/referat-problema-adaptatsii-rabotnika-v-trudovom-kollektive
7. Рубинштейн С.Л. Основы общей пихологии. М.: Педагогика, 1989.
8. Сойникова А.В. Профессиональная мотивация как предмет социологического анализа // "Историческая и социально-образовательная мысль". 2010, № 5, с. 118-122
9. www.bidprice.ru/motivasiya-rabotnikov/vnutrennaya-i-vneshnyaya.html.

10. Выготский Л.С. Педагогическая психология. М.: 1992.
11. Социальное обслуживание. http://5ballov.qip.ru/referats/ preview/36047/?kursovaya-sotsialnoe-obslujivanie.
12. Теория человеческих отношений / Философский энциклопедический словарь. М.: "Советская энциклопедия", 1983.
13. Нечепученко Е.К. Социально-трудовые конфликты и протестное поведение рабочих // "Современные научные исследования и инновации". 2011, №1, май, http.//veb.snauka.ru/ issues/2011/05/287.
14. Анцупов А.С., Шипилов А.И. Конфликтология. М.: ЮНИТИ, 1999.
15. Информационное обеспечение предприятия. http://revolution.allbest.ru./finance/ 00010563_ 0. html
16. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası. IV qurultay. Hesabat məruzəsi. Bakı: 2013, daha ətraflı bax: H.T.Qaraşov. Həmkarlar ittifaqları hərəkatının əsasları. Bakı: 2011.
17. "2013-2018-ci illər üçün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinin əsas istiqamətləri". Bakı: 2013.

Гусейн Гарашов

РОЛЬ ПСИХОЛОГИЧЕСКИХ ЗНАНИЙ В ПРОФСОЮЗНОЙ ДЕЯТЕЛЬНОСТИ

Резюме

В статье отмечается, что в современных условиях совершенствование системы мотивации профсоюзов имеет первостепенное значение. В этот раз особое внимание делается поворот в сторону стимулирование труда. По мнению автора, изучение его психологических аспектов требования дня.

Большая часть исследователей выдвигают точку зрения о том, что необходим поиск механизмов побуждающие внутренние движущие силы к активной трудовой деятельности человека.

Ключевые слова: профсоюз, мотивация, социально-психологическая, трудовые отношения, трудовые коллективы

Husseyn Qarashov

THE ROLE OF PSYCHOLOGICAL KNOWLEDGE IN THE ACTIVITY OF TRADE UNIONS

Summary

The paramount importance of motivation system of trade Union is analysed in the article. The main attention is directed to the stimulation of labour. According to the author the motivation of labour and studying its psychological aspects is the demands of the time. Most of researchers analyses the internal moving forces that promoting a man to the labour activity. The researchers also consider the necessity of finding of mechanisms that helps the discovering of psychological moments just of those forces.

Key words: Union Trade, motivation, social-psychological labour collectives

UOT - 316.34

Zeynəddin Şabanov,
AƏSMA, fəl.ü.f.d., dosent

HƏMKARLAR İTTİFAQLARININ FƏALİYYƏTİNİN MOTİVASİYASINDA İNFORMASİYA MƏDƏNİYYƏTİ

İnformasiyanın strateji resurs kimi qəbul olunduğu yeni sivilizasiya mərhələsində insanların öz həyati ehtiyaclarını ödəmələri, yeni cəmiyyətdə özlərinə layiqli yer tuta bilmələri üçün İC ideologiyasının mənimsənilməsi ən vacib şərtlərdən biridir. Bu isə minnilliyin ideologiyasının məqsəd və vəzifələrinin təbliğ və tədris edilməsini zəruri edir, yaşından, sosial vəziyyətindən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin bu istiqamətdə maarifləndirilməsini günün ən aktual məsələsi kimi qarşıya qoyur [1, s.154].

Türkiyəli araşdırmaçı Sadık Günəş "İnformasiya cəmiyyətinin bütləri" adlı kitabında dünyada baş verən qlobal dəyişikliklərin insanların həyat və düşüncə tərzinə də ciddi şəkildə təsir göstərdiyini qeyd etmişdir: "İstehsal və istehlak tərzlərimiz dəyişdi; qidalanma və geyim tərzlərimiz dəyişdi; təhsil, səhiyyə, nəqliyyat, mədəniyyət, sənət, ədəbiyyat, ailə, iqtisadiyyat dəyişdi. Bütün bunlardan əlavə, düşüncə və qavrama tərzlərimiz dəyişdi. Ən əsası da məhz budur… Bir tərəfdən gülüb əylənərkən, rahatlıqdan zövq alarkən, digər tərəfdən, sürətlə yox olmaq təhlükəsi ilə üzləşdik" [2, s.8].

dan etibarən çoxsaylı əlavə və dəyişikliklərə məruz qalmış və bunun nəticəsində ilkin redaktəyə nisbətən əhəmiyyətli şəkildə dəyişikliyə uğrayan Azərbaycan SSR-in konstitusiyası, 1995-ci il Azərbaycan Respublikasının Əsas Qanunu qəbul edilənədək qüvvədə olmuşdur.

Konstitusiyanın inkişaf mərhələləri Azərbaycanın ictimai dövlət quruluşunda baş verən dəyişikliklərlə əlaqədardır. Konstitusiya dövrə uyğun dövlətə, hüquqa, onların cəmiyyətdə roluna, iqtisadi və sosial siyasətə, sovet adamının vəziyyətinə hakim baxışın izlərini özündə daşıyırdı.

Sosial tipli konstitusiyalar kimi, Azərbaycan SSR-in bütün konstitusiyalarına ümumi əlamətlər, cizgilər xasdır. Belə ki, 1921-ci il Azərbaycan SSR Konstitusiyasının keçid dövrü üçün əsas vəzifəsi mülkədar, burjua siniflərinin, insanın insan tərəfindən istismarının ləğv edilməsi və sosializmin yaranması məqsədilə şəhər və kənd proletariatı,kasıb kəndlilərin diktaturasının qurulması olmuşdur.

1936-cı il SSR-nin yeni Konstitusiyası əsasında sovet marksist-leninçi ideologiyasının təsiri altında 1937-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi.

1978-ci il Azərbaycan SSR-in Konstitusiyası 1921, 1927 və 1937-ci illər Konstitusiyaların varisi olduğunu təsdiq etdi. Bu konstitusiyada da özündən əvvəlki konstitusiyalarda olduğu kimi ölkə həyatı üçün başlıca olan kommunizm ideyaları əks olunurdu. Azərbaycan SSR-in iqtisadi sisteminin əsası kimi Azərbaycan SSR-in konstitusiyası dövlət (ümumxalq) və kolxoz-kooperativ mülkiyyətini təsdiq etdi, ciddi mərkəzləşməyə əsaslanan planlı təsərrüfatı iqtisadi sistemin əsaslarından biri kimi təsbit etdi.

Dövlət hakimiyyətinin təşkilinin əsası kimi Azərbaycan Sovet Konstitusiyaları formal olaraq sovetlərin aliliyi prinsipini müəyyən etmişdir. Əslində isə sovetlər faktiki olaraq bütün hakimiyyətə malik olan partiya orqanları ilə əvəz edilmişdir.

Azərbaycan SSR-in Əsas Qanunu vətəndaşların siyasi, sosial, iqtisadi və şəxsi hüquqlarını elan etmişdir. Lakin onların həyata keçirilməsinin (hər şeydən əvvəl siyasi, şəxsi hüquq və azadlıqların) Konstitusiya mexanizmi və təminatı olmamışdır. İnsanların Konstitusiya hüquqları və azadlıqları nəinki təmin olunmurdu, əksinə, məlum olduğu kimi, ciddi şəkildə tapdalanırdı və (məsələn, 1937-ci ildəki kütləvi represiyalar, təqiblər və cinayətlər dövrü) konstitusiya qanunları hüquqi dövlətin zəruri əsaslarından biri olan məhkəmələrin müstəqilliyini təmin edə bilmirdi.

XX əsrin 80-ci illərinin sonunda beynəlxalq aləmdə baş verən mühüm hadisələr keçmiş sovetlər məkanına da öz təsirini göstərdi və 70 ildən artıq keçmiş SSRİ dövlətinin tərkibində yaşayan xalqlar öz dövlət müstəqilliyi uğrunda mübarizəyə başladı. Bu proses kəskinləşdi və sovetlər dövlətinin dağılması beynəlxalq aləmdə yeni müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Xalqımız öz dövlət müstəqilliyini əldə etdi. 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Azərbaycanın 1978-ci il Konstitusiyasının dövlət müstəqilliyi haqqında konstitusiya Aktına zidd olmayan normaları yeni Əsas Qanun qəbul edilənədək öz hüquqi qüvvəsini saxladı. 1995-ci ilin yazında Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının yeni konstitusiyasının layihəsi hazırlanmışdır. 1995-ci ilin yayında konstitusiya komissiyası çağırılmış və 1995-ci ilin payızında konstitusiya komissiyası Azərbaycan Respublikasının yeni konstitusiyasının layihəsi üzərində öz işini davam etdirərək, onu 1995-ci il noyabr ayının 12-də ümumxalq səsverməsinə çıxarmışdır.

Yeni Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş və 27 noyabr 1995-ci ildə ümumxalq səsverməsinin nəticələri nəşr edildiyi andan qüvvəyə minmişdir. Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanı – respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən edir. Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etməklə aşağıdakı prinsipləri müəyyən etdi:

- İnsan, onun hüquq və azadlıqları ali dəyərlərdir (insan və vətəndaşın hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin vəzifəsidir);
- Suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır;
- Sosial siyasət insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaranmasına istiqamətlənib;
- Dövlət, xüsusi və bələdiyyə mülkiyyət formaları eyni qaydada tanınır və müdafiə olunur;

- Dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyəti bölgüsü əsasında həyata keçirilir;

- Yerli özünüidarəetmə demokratik hüquqi dövlətin əsas elementlərindən biri kimi tanınır və ona təminat verilir;

- İdeoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq tanınır. Heç bir ideologiya dövlət və məcburi xarakterli ola bilməz;

- Beynəlxalq hüquq hamılıqla qəbul edilmiş prinsip və normalar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin tərkib hissəsidir.

Beləliklə, müstəqil respublikamızın Konstitusiyasının qəbul olunması müasir dövr milli şüurunun, milli özünüdərk ideyalarının tarixi milli özünüdərk əsasında inkişafının bariz nümunəsidir. 1995-ci il noyabrın 12-də milli özünüdərk konteksində Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını, azərbaycançılığı, xalqın milli ləyaqət hissini və milli mənini özündə əks etdirən müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Dövlətimizin tarixində ilk dəfə olaraq çoxpartiyalılıq əsasında ilk parlament seçkiləri keçirildi. "Ölkədə Konstitusiya Məhkəməsinin yaradılması, Azərbaycanda ilk dəfə olaraq xalqın özünüidarəetməsinin ən demokratik forması olan bələdiyyələrə seçkilərin keçirilməsi Heydər Əliyev dövlətçilik məktəbinin, hətta səthi və ilk baxışda nəzərə çarpan real görüntüləridir" [3, s.189]. Konstitusiyanın qəbul olunmasından sonra Azərbaycanda hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha geniş vüsət aldı [4, s.213].

1995-ci ildə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul edilməsindən ötmüş vaxt ərzində cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində köklü dəyişikliklər baş vermiş, hərtərəfli demokratik islahatlar aparılmış, o cümlədən ölkənin bütün hüquq sistemi yenidən qurulmuş, insan haqlarının daha etibarlı qorunması üçün yeni üçpilləli müstəqil məhkəmə hakimiyyəti yaradılmış, hüquq mühafizə sisteminin fəaliyyətinin demokratik dəyərlərə və beynəlxalq standartlara uyğun təşkili məqsədilə yeni qanunlar və məcəllələr qəbul edilmişdir. İctimai-siyasi həyatda baş vermiş bütün bu yeniliklər milli qanunvericilik prinsipləri ilə bilavasitə bağlı olduğu üçün ölkəmizin Konstitusiyasında da müvafiq dəyişikliklər edilməsi təbii və həm də labüd bir prosesə çevrilmişdir [5]. Azərbaycan Respublikasının Milli Məclisinin müvafiq qərarı ilə 2002-ci il avqustun 24-də və 2009-cu il martın 18-də konstitusiya islahatları ilə bağlı referendum keçirilmişdir. Bu islahatların keçirilməsi üçün sosial, iqtisadi, hüquqi və s. tarixi zərurətlər yaranmışdır.

Konstitusiya islahatları - dövlət hakimiyyətinin dövlət və ictimai quruluşda konstitusionalizm prinsiplərinin reallaşmasına yönəlmiş keyfiyyətcə yenidən təşkili deməkdir.

Hər bir dövlətin səmərəli hüquq sisteminin yaradılması ictimai dəyişikliklərin dinamikasında kifayət qədər ciddi əhəmiyyət kəsb edir. Belə sistemin mərkəzində konstitusiya dayanır.

Dövlətin yeni konstitusiyasının işlənib hazırlanması və onun təkmilləşdirilərək inkişaf etməkdə olan ictimai münasibətlərin tələblərinə uyğunlaşdırılması demokratiyanın inkişafının, hüququn və ictimai qaydanın möhkəmləndirilməsinin aktual problemlərindən biridir. Konstitusiyada dövlətçünaslığın əsasları cəmlənir. O, sosial həyatın bütün sahələrinə təsir göstərir. Konstitusiya vasitəsilə dövlətin hüquqi təbiəti, idarəetmə və dövlət quruluşu forması müəyyən edilir, dövlətin, onun region və özünüidarəetmə ərazilərinin təşkilati birliyi əldə edilir, şəxsiyyət, cəmiyyət və dövlətin qarşılıqlı münasibətləri nizamlanır. Əgər konstitusiya vasitəsi ilə yeni ictimai quruluş formalaşırsa, konstitusiya islahatları vasitəsilə mövcud quruluş modernizə olunur.

Azərbaycan Respublikasında 1991-ci ildə başlayan konstitusiya islahatları ictimai-siyasi həyatın bütün əsas sahələrini əhatə edir. Bu dəyişikliklərin mahiyyəti suveren dövlətdə yeniləşmiş cəmiyyətin hüquqi modelinin yaradılmasındadır. Konstitusiya islahatlarının miqyası bu dövlətlərin bazar iqtisadiyyatının formalaşması yolunu tutması və vətəndaş cəmiyyəti dəyərlərinə önəm verməsi ilə ölçülür. Konstitusiya islahatlarında yəni suverən dövlətlərdə baş verən dövlət suverenliyinin möhkəmləndirilməsi və bazar iqtisadiyyatına keçid dövründə cəmiyyətin siyasi- dövlət təşkilinin təkmilləşdirilməsi ilə əlaqədar sosial proseslər; ictimai münasibətlərin hüquqi tənzimlənməsinin səmərəliliyinin artırılması; insanın ali sosial dəyər kimi tanınması kimi ictimai dəyişikliklər öz əksini tapır.

Beləliklə, Azərbaycan Respublikasında konstitusiya islahatlarının ilk mərhələsini sovet dövrü konstitusiyaların ənənəvi modeli və məzmunundan imtina, şəxsiyyətin konstitusiya statusunun ta-

nınması və yüksəldilməsi, yeni dövlət hakimiyyəti və idarəetmə modelinin başlanğıcı kimi xarakterizə etmək olar. Ölkədə konstitusiya islahatlarının aparılması suveren milli dövlətçiliyin möhkəmləndirilməsini, sosial-iqtisadi inkişafın yeni modelinin hazırlanmasını, vətəndaş cəmiyyəti və yeni dövlət hakimiyyəti institutlarının formalaşmasını,insan və vətəndaş hüquq və azadlıqlarının genişləndirilməsini stimullaşdırır.

Açar sözlər: konstitusiya, insan azadlığı, konstitusiya islahatları, dövlət müstəqilliyi, vətəndaş cəmiyyəti

İstifadə edilmiş ədəbiyyat

1. Çirkin V. Xarici ölkələrin konstitusiya hüququ (tərcümə). Bakı: 2000, 724 s.
2. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990.
3. Çaxmaqlı Q. Yeni əsrdə yeni lider. Bakı: Araz, 2002, 238 s.
4. Orucov Ə. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu-XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa, 2012, 251 s.
5. Həsənəliyev F. İnsan hüquq və azadlıqlarına daha etibarlı təminat mexanizmi. "Xalq" qəzeti, Bakı, 2009, 17 fevral.

Алияр Оруджев

ОБ ИСТОРИИ ПОЭТАПНОГО РАЗВИТИЯ КОНСТИТУЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Резюме

В истории человечества были такие нормативные документы, которые повлияли на политическую систему общества, на его передовое развитие, и сыграли бесценную роль в обеспечении гражданских прав человека и постоянной деятельности Института Государственной Власти. В статье говорится о начале создания Конституции Азербайджана. Проводится сравнительная параллель между Конституциями Советского Азербайджана - 1921, 1927, 1937 и 1978-х годов. Одновременно, широко исследуются и комментируются конституционные традиции, соответствующие Конституции Независимого Азербайджана принятой в 1995 году.

Ключевые слова: конституция, свобода человека, конституционные реформы, государственная независимость, гражданское общество

Aliyar Orucov

ABOUT THE HISTORY OF MILESTONES OF DEVELOPMENT OF THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN

Summary

There were some normative documents influencing the political system and progressive development of society in the history of mankind which had inaluable role in providing the stable activity of human and civil rights and state institutions. The article is about the beginning of the constitution making process. The author has compared the Constitutions existing in Soviet Azerbaijan in 1921, 1927, 1937 and 1978. At the same time, the Constitution of Independent Azerbaijan adopted in 1995 was studied and interpreted respectively to the constitution tradition.

Key words: constitution, freedom of humans, constitutional reforms, independence of state, civil society

UOT - 17.2

Elşən Allahverdiyev
AMEA Fəlsəfə və Hüquq İnstitutu

MİLLİ-DİNİ DƏYƏRLƏRİN TƏRƏQQİSİ

İslam dünyasının kiçik bir hissəsi olan Azərbaycan, Qafqazın ən böyük müsəlman respublikası sayıldığına görə, Bakıda beynəlxalq konfranslar və simpoziumlar keçirilməsi təbiidir. Dövlətimiz həmişə İslam dininin bəşəri dəyərinin gücünə arxalanır, xalqımızın milli-mənəvi birliyinin qorunub saxlanılmasına çalışır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev qeyd edir: "...Azərbaycanda din, vicdan azadlığı tam şəkildə təmin edilibdir. Biz müqəddəs dinimizə - İslam dinimizə sadiq olan xalqıq. Biz İslam dəyərlərini dünyada təbliğ etməliyik. Bu məqsədlə Azərbaycan çox böyük işlər görür - həm Azərbaycan dindarları, həm Azərbaycan dövləti. Biz öz dinimizi həm təbliğ etməliyik, həm də əsassız hücumlardan qorumalıyıq" [3, s.9].

Cəmiyyətimizin sürətli yeniləşməsi ilə bağlı inkişafdan irəli gələn məsələlər var ki, ənənəvi "şərq mentaliteti" ilə səbəblənən problemlər də, daha doğrusu, yanaşma və üsullarda, düşüncə və vərdişlərdə özünü göstərən nöqsanlar da. Bunların içərisində ən başlıcası – mənəviyyat məsələsidir, belə ki, cəmiyyətin yetkinliyi ilk növbədə onun mənəviyyatında özünü büruzə verir. Eyni zamanda, cəmiyyət – din münasibətləri kontekstində də bu məsələ xüsusi əhəmiyyətə malikdir. Mayasında ölçü-nizam, haqq-ədalət, daxili harmoniya və gözəllik, işgüzarlıq və yaxşılıq, məsuliyyət və vicdan dayanan, maddi-iqtisadi inkişafa zinət verən mənəviyyata cəmiyyət həmişə ehtiyaclıdır. Mənəviyyat – millətin namusu və qeyrətidir! Burada ana dilinə - qayğı, torpağa, yurda, doğma ocağa - sevgi, haqq və ədalət uğrunda – mübarizə istəyi və əzmi var. Mənəviyyat – təfəkkür və əmək, davranış və münasibət mədəniyyətidir. İnsana, el-obaya, xalqa və dövlətə, bəşəriyyətə məhəbbət meyarıdır [1, s.14].

Ümummilli lider Heydər Əliyev Azərbaycanın milli-mənəvi dəyərlərini uca tutmağı və qorumağı, milli mövcudluğumuzla eyniləşdirmişdir: "Biz heç vaxt öz dilimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir" [9].

Ulu öndər Heydər Əliyev İslamın mənəvi dəyərlərindən, onun əhəmiyyətindən danışaraq deyirdi ki, ... "dövlətimiz müstəqillik əldə etdikdən sonra xalqımızın mənəvi dəyərləri canlanıb bərpa edilmişdir... Xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi İslamın bu yüksək dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik. Xalqımızın soykökünə qayıtması, İslam dininə, onun mənəvi, əxlaqi dəyərlərinə marağın getdikcə artması, heç şübhəsiz, ölkəmizdə demokratiyanın inkişafı üçün daha əlverişli şərait yaradılmasından, xalqımızın öz milli adət-ənənələrini qoruyub saxlamaq ehtiyacından, Konstitusiyamızın vicdan azadlığı hüququndakı tələb və müddəalarına əməl edilməsi zərurətindən irəli gəlir. Son vaxtlar dövlətimizin dini icmalar və qurumlar haqqında qəbul etdiyi qanun və sərəncamlar da bilavasitə bununla bağlıdır. İslam mədəniyyətinin, sağlam dini dəyərlərin öyrənilməsi, onların təbliğ edilib yayılması o vaxt səmərə verə bilər ki, ona obyektiv qiymət verərək öz yerini, rolunu düzgün müəyyən edə bilsin. Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir" [4, s.12].

Din və dövlət münasibətləri daima aktual olaraq qalır. Bu gün bəzi müsəlman əhalinin yaşadığı dövlətlərdə islam dövlət modeli yenidən aktuallaşmışdır. Lakin bu məsələlər daima böyük mübahisələrə səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyev bu məsələyə belə aydınlıq gətirmişdir: "Bizim müstəqil dövlətdə din dövlətdən ayrılır. Din dövlətin işinə qarışa bilməz. Lakin təəssüflər olsun ki, Azərbaycanda idarəetmə işləri din əsasında qurulmayıb. Bunlar xəyaldır, kim belə düşünürsə, bu yollara getmək istəyirsə, o, böyük risk edir. Çünki bunların qarşısını biz kəskin şəkildə

alacağıq. Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət yaradacağıq. Biz heç vaxt imkan vermərik ki, yaratdığımız bu gənc dövlətin xarakteri hansısa qüvvələr tərəfindən dəyişdirilə bilsin. Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzgünlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir. İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir" [10, s.21].

Professor İ.Məmmədzadə "Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında" (2009) kitabında yazır: "Azərbaycanda İslam dəyərinin artmasına baxmayaraq, o, mühüm siyasi gücü təmsil etmir. Bununla belə ölkədə müasirləşmə və transformasiya proseslərində bu "süurun" iştirakı olmadan müsbət nəticələr gözləmək çətindir" [7, s.170].

Dinimiz milli-mənəvi dəyərlərimizin başında gəlir. Əsrlərcə öz dini və milli dəyərlərindən uzaq düşmüş bir nəsil üçün, İslami dəyərlərə qayıdış Azərbaycanda sevilə-sevilə qarşılandı. Çünki illər keçdikcə, xüsusilə də, gənclərimiz öz dəyərlərilə daha yaxından tanış olur, onlara daha dərindən yiyələnir və mənimsəyirlər. Gənc nəslin əldə etdikləri bu dəyərlərin tarixi keçmişi, sonrakı dəyişiklikləri və bu günkü əhəmiyyətini bilmək daha vacib məsələlərdəndir.

Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 18) göstərilir ki, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır; Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydaları pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəst olduğu vurğulanmışdır [8].

Azərbaycanda islami dəyərlərə özünəməxsus qayıdış, islam dinindən irəli gələn əxlaqi, humanist dəyərlərin müasir demokratik, hüquqi, dünyəvi, mütərəqqi inkişaf meyarları ilə uzlaşması millidünyəvi dəyərlərin tərəqqisi, cəmiyyətdə inam hissinin möhkəmlənməsi baxımından müstəsna rol oynayır. Digər tərəfdən, müəyyən xarici təzyiq qruplarının, öz mənafelərini Azərbaycanın sosial-dini strukturunun dəyişdirilməsi yolu ilə təmin etmək istəyən maraq dairələrinin müxtəlif vasitələrlə qeyri-ənənəvi dinlərin, təriqətlərin yayılmasına səy göstərməsi müəyyən neqativ dini davranış təmayüllərin meydana çıxmasına yol açır.

Nedim Kaya (Türkiyə) "Müsəlman qardaşlar haqlı idilərmi?" məqaləsində qeyd edir ki, İslam hərəkatları İslam dinini və müsəlmanları yer üzündən silmək, yaxud atalətə sürükləmək istəyən hər cür sistemə qarşı mübarizə əhval-ruhiyyəsinə malikdir. Cavabın dolaşıqlığı isə bundadır ki, İslamı fəallıqdan məhrum etmək istəyən qüvvələr o qədər çox və rəngarəngdir ki, onları seçib tanımaq olduqca çətindir. İslami hərəkatlar bu düşmən qüvvələrin ən klassik nümunəsi olan Qərb imperializmi və sionist intriqalardan tutmuş, hərəkatın öz daxilindəki gizli müxalifət kimi qorxunc qüvvəyə qədər bir çox cəbhəyə qarşı yönəlmişdir.

İslam dini başqa dinlərdən xeyli sonra meydana gəlməsinə baxmayaraq, həm də onlardan fərqli olaraq müasir dünyada bütün ölkələrə yayılır və öz çiçəklənmə dövrünü yaşayır [3, s.54]. İslam dini yalnız quru inamdan ibarət deyildir, bu din ictimai-sosial quruluş, idarəçilik, ailə və məişət, həm də əxlaqi-hüquqi münasibətləri müəyyənləşdirir. Bir sözlə, İslam digər dinlərə nisbətən insanların bütövlükdə dünyagörüşünü, sadəliyini, saflığını və hüququnu, azadlığını qoruyan bir dindir.

İnsan həyatının mənası, dünyada insanın yeri, sosiallaşma müstəvisində insan azadlığı, həqiqət və azadlıq, bəşəriyyətin məqsədi və bu məqsədin Tanrı Yoluna uyğunluğu, sosial davranışın məntiqi və onun ilahi tələblərə müvafiqliyi, dünyanın bütövlük kimi qavranılması, şəxsi seçimin obyektiv əsası və mümkünlüyü, dünyada və cəmiyyətdə sosial ədalət məsələsi, ideya-siyasi cərəyanlar və ilahi hökm, din və ideologiya, dünyagörüşündə (qlobal və lokal mənada) ictimai-faydalı əməyin yeri və rolu, texniki-texnoloji inkişaf və insanın təkamülü, tarixi və sosial zamanda insanın kamilləşməsi (və əksinə - deqradasiyası) – bütün bu qeyd etdiyim problemlər həmin qəbildəndir. Şübhəsiz ki, onların sayını artırmaq da olar, ancaq məsələnin məğzi heç də sayda, hansısa cəbri hesablamada və yanaşmada deyil [1, s.24].

Milli ideologiya sistemində İslam dini-mənəvi dəyərlərinin mühüm yeri və əhəmiyyəti danılmazdır. Azərbaycanda milli ideologiyanın formalaşmasında müsbət rol oynayan İslam dini dəyərləri Azərbaycandakı bütün müsəlmanların mənəvi varlığının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda türk-islam mədəniyyəti əsrlər boyu inkişaf etmiş və güclü təsirə malik amillərdən birinə çevrilmişdir. Azərbaycan xalqının mədəniyyətini, mənəviyyatını, həyat tərzini İslam dini-mənəvi dəyərləri olmadan təsəvvür etmək çətindir.

Azərbaycan xalqı həm ümumi islam mədəniyyəti, həm də xüsusi, spesifik Azərbaycan mədəniyyətinin daşıyıcısıdır: "İslam mədəniyyəti orbitinə daxil olan xalqların sintezi bir sıra müsəlman xalqlarını birləşdirən ümumi, vahid olan mədəniyyət yaratmışdır ki, bu da uzun əsrlər üçün həmin xalqların dünyagörüşünü, ənənələrini, həyat tərzini, mənəvi norma və ideallarını, psixologiyasını, ictimai təsisatlarını və davranış modellərini müəyyən etmişdir".

Dəyərlərə daha çox təsir göstərən isə bütün dünyanı ağuşuna almış inteqrasiya və qloballaşma prosesləridir. Qloballaşma inkişaf dərəcəsindən asılı olmayaraq bütün cəmiyyətlərə təsir edətrək onlara həm müsbət, həm də mənfi təsir göstərə bilir. Təsadüfi deyil ki, ABŞ-ın iki prezidentinin (Nikson və Reyqanın) müşaviri işləmiş, 1992-ci və 1996-cı illərdə Respublikaçılar partiyasından prezidentliyə namizəd olmuş Patrik Con Byükenen 2002-ci ildə yazdığı "Qərbin ölümü" kitabında yazır: "2000-ci ilin bütün seçki kampaniyası boyunca bir çox adamlardan tez-tez bu dərdli-qəmgin cümləni eşidirdim – "Pat, biz doğulduğumuz ölkəni itiririk". Əsərdə artıq mövcud vəziyyətdən narahatçılıq və mümkün ola biləcək fəlakətdən ehtiyatlanma bildirilir, həyəcan təbili çalınır. Dünyanın ən güclü və qüdrətli ölkəsi olan ABŞ-da, inkişaf etmiş ölkələr sayılan Qərbi Avropa ölkələrində ictimai və fərdi şüurda, mədəni dəyərlərdə, əxlaqi prisiplərdə, cəmiyyətin durumunda, insan psixikasında baş verən və heç də ürək açmayan ciddi dəyişiklərin, mənfi meyillərin mövcudluğu göstərilir və həmin vəziyyətin aradan qaldırılması üçün yollar aranır. Əxlaqın, mənəviyyatın, insani əlaqələrin, sosial davranış qaydalarının, ənənəvi ictimai və əxlaqi normaların, sosial institutların, o cümlədən ailənin Amerikada sürətli deqradasiyasından yazan P. Byükenen bu proseslərdə dinə və dini təhsilə, təlim-tərbiyəyə göstərilən mənfi münasibətin də rolunu xüsusi qeyd edir [1, s.28].

Sovet dövründə islam dini-mənəvi dəyərləri sıxışdırıldı və ateizmə söykənən kommunist ideologiyası bərqərar oldu. Sovet "mədəni inqilabının" əsas məqsədlərindən biri şüurun bütün formaları üzərində kommunist ideologiyasının inhisarını təmin etmək idi.

Mənəvi həyatda güclü təsirə malik olan islam milli-mənəvi dəyərləri sıxışdırıldı. 1920-ci il mayın 15-də "Vicdan azadlığı haqqında" dekretdə dini etiqad azadlığı elan edilsə də, 20-ci illərin ikinci yarısından məscidlər bağlanmağa, dini mənəvi-dəyərlərə, dini adət-ənənələrə qarşı zorakı tədbirlər görülməyə başlandı.

Din əleyhinə komissiyalar, allahsızlar ittifaqları yaradıldı, dini mərasimlər, hətta Novruz bayramının keçirilməsi yasaq edildi. "Bolşevik ideoloqlarının xalqı öz tarixi köklərinə, milli dəyərlərinə özgələşdirmək üçün mədəni irsə nihilist münasibət yaratmaq kimi, hətta Lenin tərəfindən tənqid edilən proletkultçu metodlardan istifadə edilirdi" [5, s.79].

Sovet hökuməti islam mənəvi dəyərlərini sıxışdırmaq üçün dünyəviliyi gücləndirdi. ABŞ tədqiqatçısı Svyatoçovski islam əleyhinə çevrilmiş amansız və sərt kampaniyanın nəticəsindən danışaraq yazır: "Öz təbiəti etibarilə İslam nəinki sadəcə olaraq etiqad, həm də həyat tərzidir. Adətlərin, ənənələrin və yasaqların toplusu kimi o, günümüzə qədər gəlib çıxmışdır və müsəlman qaydalarının aradan çıxması Orta Şərqin sürətlə müasirləşən cəmiyyətlərində hər hansı bir yerdə olduğundan daha güclü idi. Bir tərəfdən İslam kimliyini nümayiş etdirən beş əməli cəhət (Allaha inam, namaz, oruc, Həccə getmək, zəkat vermək) təkcə zəkat vermək istisna olmaqla aradan qalxdı. Qanunla qadağan olunmuş çoxarvadlılıq da yasaq edildi… Bir din kimi, islam açıq-aşkar repressiyaya və terrora məruz qalmışdı. Bir vaxt nəinki islamın beş əsas cəhətinə riayət olunmadı, həmçinin gənc nəslə islamın prinsip və qaydaları haqqında məlumat vermək çox təhlükəli iş sayılırdı" [2].

Azərbaycana gəldikdə isə qeyd etmək lazımdır ki, ölkəmiz tarixən milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Azərbaycan xalqının tolerant bir xalq olduğunu, həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar təsdiq etmiş və etməkdədirlər. Azərbaycanda tarixən çoxsaylı etnosların və müxtəlif dinlərin birlikdə yaşamasına baxmayaraq, (Azərbaycan ərazisində yaşayan ermənilərin zaman-zaman azərbaycanlılara qarşı qaldırdıqları torpaq id-

diaları ilə bağlı münaqişələri çıxmaq şərtilə) indiyə kimi heç vaxt bu ərazidə milli ayrı-seçkilik baş verməmiş və dini qarşıdurma olmamışdır.

Bəzi əcnəbi ölkələrdə çap olan bizim əxlaqımıza zidd jurnalların ölkəyə gətirilməsi, yayılması, eləcə də respublikamızda nəşr edilən bəzi jurnallar, sarı piarlar, qəzetlər, sözsüz ki, Azərbaycan ailəsinə daxil olur, oxunur və baxılır. Bəzi televiziyalardakı istedadsız və şəxsiyyətsiz şou-biznesin bəzi nümayəndələrini, onların guya bariz olan əməllərini təbliğ edən üzdəniraq verilişlər, porno momentlər əks olunan reklam çarxları, kinofilmlər, insan heysiyyatına ləkə gətirən məqamlar, zorakı filmlərin nümayişi, əslində efiri doldurmaq məqsədi olsa da, sözsüz ki, insanların əxlaqi dəyərlərinin aşınmasına hesablanmış vasitələrdir. İngilis şairi Corc Herbert demişkən: "Əxlaqdan məhrumsansa, nə qədər yüksəyə qalxsan da, yenə heçsən" [1, s.22]. Mənəvi dəyərlərin qorunmasının zəruriliyinə diqqət çəkən professor Səlahəddin Xəlilovun fikrincə, "bu gün mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə elmi-nəzəri əsaslara malik olmalıdır. Xüsusən, televiziyanın, mətbuatın milli mənəviyyata yad elementlərlə dolduğu bir vaxtda mənəvi mühitin qorunması problemi çox aktualdır" [5, s.248].

Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli layihələr də diqqətçəkəndir. Fond Azərbaycanın muğam sənətinin, eləcə də çoxəsrlik abidələrinin qorunması, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin ölkə hüdudlarından kənarda təbliğinə böyük qayğı göstərir. Bütün bu tədbirlərin əsasında isə mütləq milli-mənəvi dəyərlər sistemi dayanır və ona dəlalət edir ki, Azərbaycan xalqı klassik Avropa dəyərlərinə yüksək qiymət verməklə öz milli-mənəvi dünyasını zənginləşdirməkdədir. Bir azərbaycanlı kimi milli-mənəvi dəyərlərimiz barəsində düşünərkən sevinir, qürurlanırıq. Dərindən düşünsək, bir daha şahidi olarıq ki, milli-mənəvi dəyərlərimiz, həqiqətən, bizim qürur mənbəyimizdir [8, s.17].

Gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətində işlər görülməli, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilməlidir. Xüsusən, bu istiqamətdə təhsil prosesinin keyfiyyətini artırmalı, elmi-nəzəri və metodiki tövsiyələr işləyib hazırlanmalı, normativ-hüquqi bazanın yaradılmasına nail olunmalıdır. Qanunvericiliyin ifrat dərəcədə beynəlmiləlləşdirilməsinə də son qoyulmalı, qanunvericilik aktlarında, xüsusən, ailə-nikah münasibətləri sferasında milli xüsusiyyətlər nəzərə alınmalıdır. Gənclərin yad təsirlərdən qorunması üçün həm ailə daxilində, həm də təhsil ocaqlarında tərbiyəvi işlər aparılmalıdır. Bütün bunlar hamısı dövlətin bilavasitə nəzarəti altında məqsədyönlü şəkildə aparılmalıdır [6, s.34].

Ulu öndər Heydər Əliyev əxlaqi, mənəvi dəyərlərdən, onun əhəmiyyətindən danışaraq deyirdi ki, ... "dövlətimiz müstəqillik əldə etdikdən sonra xalqımızın mənəvi dəyərləri canlanıb bərpa edilmişdir... Xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi İslamın bu yüksək dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik. Xalqımızın soykökünə qayıtması, İslam dininə, onun mənəvi, əxlaqi dəyərlərinə marağın getdikcə artması, heç şübhəsiz, ölkəmizdə demokratiyanın inkişafı üçün daha əlverişli şərait yaradılmasından, xalqımızın öz milli adət-ənənələrini qoruyub saxlamaq ehtiyacından, Konstitusiyamızın vicdan azadlığı hüququndakı tələb və müddəalarına əməl edilməsi zərurətindən irəli gəlir. Son vaxtlar dövlətimizin dini icmalar və qurumlar haqqında qəbul etdiyi qanun və sərəncamlar da bilavasitə bununla bağlıdır. İslam mədəniyyətinin, sağlam dini dəyərlərin öyrənilməsi, onların təbliğ edilib yayılması o vaxt səmərə verə bilər ki, ona obyektiv qiymət verərək öz yerini, rolunu düzgün müəyyən edə bilsin. Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir" [2, s.49].

Nəhayət, qeyd etmək lazımdır ki, həm islamaqədərki dövrdə, həm də islam dininin Azərbaycanda yayılmasından sonra müxtəlif etnosların yaşadığı bu ərazidə uzun illər qarşılıqlı etimada əsaslanan milli-mədəni və dini münasibətlər sistemi formalaşmış, insanlar əmin-amanlıq şəraitində yaşamış, burada yüksək tolerantlıq mühiti hökm sürmüşdür. Bu ərazidə tarixən müxtəlif dinlər və et-

noslar arasında tolerantlıq mədəniyyətinin indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının və islam dininin mühüm rolu olmuşdur.

Açar sözlər: dəyər, milli-mənəvi, dini, tolerantlıq, əxlaq

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Ə. Cəmiyyət və din: fəzilətləri təhdid edən səbəblər haqqında // Cəmiyyət və din: tarix və müasirlik, 2014, s.30
2. Atalızadə A. Mənəvi dəyərlərin qorunmasında ən yaxşı vasitə təbliğat və təhsildir. http://www.anl.az/down/meqale/palitra/2013/avqust/321319.htm
3. Dövlət və Din. // İctimai fikir toplusu, 2012, yanvar-fevral, s.19
4. Dövlət və Din. // İctimai fikir toplusu, 2011, mart-aprel, s.45-47
5. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı, 2009, 127 s.
6. Xaqaniqızı D. Milli-mənəvi dəyərlər hər bir vətəndaşın qürur mənbəyidir // "Təhsil problemləri" jurnalı, 2013, № 47/48, s.7
7. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009.
8. Müasir dövrdə dinşünaslığın və mədəniyyətin aktual problemləri. Bakı: Təknur, 2012, 232 s.
9. Respublika" qəzeti, 03 oktyabr 2014-cü il
10. Topbaş O.N. Dünyadakı cənnət xoşbəxt ailə yuvası. Bakı: İpəkyolu, 2008, 192 s.

Елшян Аллахвердиев

РАЗВИТИЕ НАЦИОНАЛЬНО-РЕЛИГИОЗНЫХ ЦЕННОСТЕЙ

Резюме

Обоснована необходимость защиты в современном мире национальных и религиозных ценностей. Подчеркивается что, в отношении общечеловеческих ценностей, следует верными моральным ценностям, которая длжна быть защищена от деградации.

Ключевые слова: ценность, национально-нравственный, религиозный, толерантство, мораль

Elshen Allahverdiyev

THE DEVELOPMENT OF THE NATIONAL – RELIGIOUS VALUES

Summary

The article analised the need for the protection of the national and religious values in the modern world. Emphasizes that in the ratio of human values and at the same time staying true to our national values, it is projected from these degrations.

Key words: value, national-moral, religuos, tolerance, morality

UOT - 930.2

Ramil Allahverdiyev
FHNA

ƏRAZİ İDDİALARI ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI SOYQIRIM SİYASƏTİNİN ƏSASI KİMİ

Ermənilərin azərbaycanlılara qarşı soyqırımının əsas səbəbi ərazi iddialarıdır. Belə ki,"bizim eranın IV əsrində ermənilərin sonuncu icmaları da dağılır, özləri isə şəxsi mənafelərini yaşadıqları torpaqlardan üstün tutaraq zəngin yaşamaq naminə dünyaya səpələnmişlər. Sual yaranır: axı doğma torpaq işğal altında olsa da, onu atıb birdəfəlik getmək olarmı? Bütün millətlər, o cümlədən ermənilər deyəcəklər ki, ana yurdu atıb getmək olmaz. Məsələn, qeyd edək ki, Azərbaycan torpaqları tarix boyu uzunmüddətli işğallara məruz qalıb. Ancaq biz - azərbaycanlılar ölümə də, köləliyə də razı olmuşuq ki, vətənimizdə, torpaqlarımızda qalaq. Belə də etmişik... sonralar yenə qalxmışıq, mübarizə etmişik, yenə azad olmuşuq...yenə...yenə...yenə də...və ən nəhayət, birdəfəlik azadlığımızı almışıq. Torpağa, vətənə bağlılıq da kökdən gəlir və bu azərbaycanlıların mənəviyyatının tərkib hissəsidir və yenə sual yaranır, görəsən, onda ermənilər nə üçün torpaqlarını atıb didərgin düşmüşlər? Cavab yenə birinci cavabdadır - bir qədər də açıqlayaq: sirr ondadır ki, atıb getdikləri torpaqlar da onlara məxsus deyil, buna görə də onlarda vətən sevgisi, torpaq sevgisi yoxdur. Bu barədə tanınmış erməni tarixçisi Aslanyanın fikirləri də çox maraqlıdır. O, bu barədə yazırdı: "Ermənilər dağınıq halda yaşamışdılar. Bir-birlərinə vətən hissi ilə bağlı deyillər, aralarında siyasi bir bağlılıq yoxdur. Vətənpərvərlikləri dağınıq sərhədlərilə və bölgələri ilə bitir. Bir-biri ilə bağlılıqlarını dilləri və dinləri təmsil edir" [1, s.12].

Aslanyanla bərabər digər erməni daşnak Ermənistanının baş naziri olmuş Ovanes Kaçaznuni etiraf edirdi ki, biz "Öz şəxsi arzularımızı başqalarının boynuna qoyduq, məsuliyyətsiz adamların mənasız sözlərinə böyük əhəmiyyət verdik, özünüinandırmanın təsiri altında həqiqəti başa düşmədik və xəyala qapıldıq...Erməni xalqının gücünü, onun siyasi və hərbi əhəmiyyətini, həmçinin də ruslara göstərdiyi köməyi həddindən artıq qiymətləndirirdilər. Bizim olduqca az ləyaqətimizi həddən artıq şişirdərək, söz yox ki, ümidlərimizi də artırırdılar" [3, s.34].

Bəli, erməni aliminin və siyasi xadiminin sözünə şərh gərək deyil. Lakin etiraf etməliyik ki, ermənilərin başbilənləri hələ XX əsrin 70-ci illərində keçmiş SSRİ-nin nüfuzlu nəşrlərində arzuladıqları başqa xalqların torpaqlarının guya onlara məxsus olduğu barədə çoxlu məqalə və kitablar çap etdirirdilər və dünya ictimaiyyətində istədikləri fikirləri yaradırdılar. Məsələn, Türkiyənin Ağrıdağının (Ararat adı ilə), Van gölünün, Azərbaycanın Dağlıq Qarabağ və alban kilsələri mövcud olmuş ərazilərinin guya onlara məxsus olduğu barədə yazılar var.Yazıçı və tarixçi Baqrat Ulubabyan Azərbaycanın bir sıra tarixi ərazilərinin guya ermənilərə mənsub olduğu barədə bir neçə məqalələr yazmışdır: "Erməni dilinin və Ərsaq şivəsinin şimal-şərq sərhədləri barədə", "Albaniya","Aqvan" və "Aran" toponimləri haqqında), Suren Ayvazyan "Erməni taleyi" [12, s.377, 379] romanında yazır ki, nə qədim dövrdə, nə də təsvir olunan XVII-XVIII əsrlərdə Azərbaycan xalqı olmamışdır. Ayvazyan yazır ki, Naxçıvanın və Qarabağın əsl sahibləri ermənilərdir, "müsəlmanlar" (azərbaycanlılar) isə bu ərazilərə gəlmədirlər. O həmçinin yazır ki, Armeniyanın sərhəddi Bakı və Şamaxının yaxınlığından keçir, Şəki, Gəncə və digər vilayətlər də ermənilərə məxsusdur. Eyni zamanda romanda Azərbaycan xalqının minilliklər boyu yaratdığı maddi-mədəniyyəti də ermənileşdirilmiş, kənd və şəhərlərin adları saxtalaşdırılmışdır.

Türkmənçay müqaviləsindən dərhal sonra Rusiya imperatoru I Nikolay 21 mart 1828-ci il fərmanı ilə Azərbaycanın İrəvan və Naxçıvan xanlıqlarının ərazisində, İrəvan şəhəri də daxil olmaqla, "Erməni vilayəti" yaratdı. Həmin dövrdə İrəvan şəhərində 7331 nəfər Azərbaycan türkü, 2369 nəfər gəlmə erməni yaşayırdı [2, s. 213].

Rusiyada 1897-ci ildə keçirilmiş əhalinin siyahıya alınmasının nəticələrinə görə Cənubi Qafqazda 313178 Azərbaycanlı yaşayırdı.

30 noyabr 1920-ci il tarixdə daşnak Ermənistanında sovet hakimiyyətinin elan edilməsi münasibətilə Moskvadan idarə olunan Cənubi Qafqaz kommunistləri, o cümlədən Azərbaycan kommunistləri də bu hadisəni "böyük ruh yüksəkliyi" ilə qarşıladılar. Ertəsi gün də Lenin hökumətinin Mi-

koyan, Orconikidze və bəzi başqa canişinlərinin göstərişi ilə Mərkəzi Komitənin Siyasi və Təşkilat bürolarının birgə iclasını keçirdilər və ermənilərin xeyrinə aşağıdakı qərarları qəbul etdilər A) Göstərilsin ki, sovet Azərbaycanı və sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur... B) Zəngəzur və Naxçıvan Ermənistana verilir... C) Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir [9, s.301].

Naxçıvan sovet - türk razılaşmasına görə verilə bilməzdi, lakin böyük bölgə olan Zəngəzur birdəfəlik Azərbaycanın əlindən çıxdı.

Ermənilər tərəfindən Azərbaycana qarşı məkrli ərazi iddiaları sonralar da qaldırıldı və bu gün də davam etməkdədir.

Erməni silahlı və terrorçu təşkilatları Osmanlı dövlətinin ərazisində öz mənfur məqsədlərinə çata bilmədikdən, yerli türk və öz millətini qana buladıqdan sonra öz aqibətlərindən qorxaraq Qafqaza, o, cümlədən Azərbaycana qaçaraq yenidən müsəlmanlara qarşı, əsasən də Azərbaycan türklərinə qarşı soyqırım fəaliyyətlərinə başladılar.

Ermənilərin törətdikləri soyqırım faktları sovet tarıxşünaslığında vətəndaş müharibəsi kimi xalqlara çatdırılmışdır, lakin arxiv materialları göstərir ki, bu öncədən planlaşdırılmış və qərəzli olaraq məhz erməni millətçiləri tərəfindən törədilmişdir. 1905-1906 cı illərdə törədilən qırğınlar hələ bir neçə il əvvəldən hazırlanmışdr. Belə ki, 2 sentyabr 1903-cü ildə, Bakıda Erməni kilsəsinin yanında xeyli silahlı erməni kütləsi toplanmışdır. Onların burada məqsədi minbir bəhanə tapıb azərbaycan türklərinə qarşı soyqırım həyata keçirmək idi. Dağılışmaları üçün polislərin verdikləri xəbərdarlığa cavab olaraq ermənilər atəş açdılar. Nəhayət, onlardan 45 nəfəri həbs edildikdən sonra qalan erməni quldur dəstələri qorxub dağılışdılar və beləliklə də həmin vaxt erməni vəhşiliyinin qarşısı müvəqqəti də olsa alındı. Erməni kilsəsindən çoxlu miqdarda silah sursat tapıldı.

12 sentyabr 1903-cü ildə, Şuşa şəhərində "Erməni kütləsi həmçinin qayda-qanunu pozaraq xeyli dağıntılar törətmişdilər [8, s.77-79].

1904-cü ildə Bakıda Erməni terrorçuları bir neçə azərbaycanlını qətlə yetirdilər.

Ermənilərin məkrli planlarında birinci növbədə Bakıda hökmranlıq etmək dururdu. Ermənilərin dırnaqarası məkrli planı çoxdan hazırlanmışdır. "OnlarAzərbaycan türklərinin soyqırımını 1905-1906-cı illərdə rus hökumətinin birbaşa dəstəyi ilə həyata keçirirdilr. Hadisələr isə belə başlandı: 2 fevral 1905-ci il tarixdə Bakının Quba meydanında Ağarza adlı bir Azərbaycan türkünü ermənilər qətlə yetirdi. 6 fevralda isə başqa bir Azərbaycan türkünü istintaqa aparan erməni əsgəri öldürdü.

Polis və ordu etinasızlıq göstərirdi. Nəticədə yüzlərlə Azərbaycan türkü ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Bu qırğınlar, qətliamlar təkcə Bakıda bitmirdi. Bakıdan sonra 1905-ci ilin may-iyun aylarında erməni – müsəlman qırğını İrəvanda, Naxçıvanda, Şuşada, Cəbrayıl və Qaryagində (indiki Füzulidə) davam etdirilirdi" [2, s.257-258]. Sentyabrda Qazaxda, 15-18 noyabrda Gəncədə, 20-24 noyabrda – Tiflisdə qanlı erməni-müsəlman toqquşmaları baş verdi. Bu illərin müxtəlif məlumatlarına görə 10 minədək azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə məhv edilmişdir. 1906-cı ilin avqustunda molla Həsən Əfəndi bir dəstə qadın, uşaq, qoca ilə erməni cəlladlarının əlindən Zəngəzurdan qaçıb Ordubada döğru irəliləyən də onları yolda saxlayırlar. Həsən Əfəndinin əlində olan quranları süngülərinə keçirib yandıran ermənilər onun özünü və onunla olanları qəddarlıqla öldürmüşlər. Təkcə bu hadisədə 15 nəfər körpə uşağın başı kəsilmişdir.

1914-cü ilin qışı və 1915-ci ilin ilk aylarında bütün ermənilər sevinirdilər ki, Birinci dünya müharibəsində Rusiya qalib gələcək və ermənilərin məsələlərinin hamısını həll edəcəkdir, çünki Osmanlı dövləti məğlub olacaqdır, Osmanlı və Azərbaycan ərazilərində ermənilərə müstəqil dövlət qurmaq üçün ərazilər ayrılacaqdır. Qeyd edək ki,ermənilər Azərbaycan türklərinin soyqırımını əvvəlcədən planlaşdırmışdılar və bu soyqırımın 1917-ci ildən Qərbi Azərbaycan torpaqlarından başlandığı, 1918-ci ilin mart soyqırımı isə bu hadisənin zirvəsi olduğu faktlarla, sənədlərlə sübut edilmişdir.

Qərbi Azərbaycanda 1917-ci ilin qanlı olaylarını erməni qəzeti "Aşxatavor" daima saxtalaşdırırdı. Ona cavab olaraq Gürcüstan mətbuatında ciddi materiallar dərc olundu. İndi faktlara müraciət edək. Belə ki, gürcü mətbuatı üzünü erməni qəzetinə tutub ondan soruşur: "Ona məlumdurmu ki, 1917-ci il may ayının 24-də Pirimovun başçılığı ilə beşinci erməni taboru Şorbəyli qala kəndində 400 qadın və uşağı qırmışdır? Ona məlumdurmu ki, məşhur Dro mütəşəkkil erməni qoşunlarının köməyi ilə dəmir yolunun hər iki tərəfində müsəlman əhalini soyub qıraraq qətliam törətmişdir. Buna onunla haqq qazandırırdı ki, bu bölgəni müsəlman əhalidən "təmizləmək" lazımdır?

...Ona məlumdurmu ki, Tuz kəndində bütöv bir hovuz kəsilmiş müsəlman başları ilə doldurulmuş, üzərini isə qan siləmişdir və sağ qalan müsəlmanları hovuzdan aşıb-daşan bu qanla dəstəmaz almağa məcbur etmişlər... Qars quberniyasında, Aleksandropolda, Ərdəhanda və s. yerlərdə müsəlmanların ermənilər tərəfindən döyülməsinin bütün təfərrüatı ona məlumdurmu?... Ona məlumdurmu ki, ermənilər müsəlman əhalini necə döymüşlər?...Erməni əsgərlərinin müsəlman qadının qarnını yararaq bətnində artıq formalaşmış uşağı çıxarıb onun başını kəsmələrinə bənzər vəhşiliklərin foto-şəkillərini görübmü?

Bir neçə faktı qeyd etmək istərdim:

1. Kürdlər kəndi 1917-ci ilin dekabrında darmadağın edilmiş və 150 min rublluq ziyan vurulmuşdur.

2. Drimiş kəndi həmin ilin dekabr ayında darmadağın edilmiş 6 nəfər öldürülüb, 180 min rublluq ziyan vurulmuşdur.

3. Bəhrili kəndi elə o zaman dağıdılmış; 9 nəfər öldürülmüş, vurulmuş ziyan 100 min rubl idi.

4. Dulus kəndi də həmin vaxt darmadağın edilmiş; dəymiş ziyan 90 min rubla çatırdı.

5. Karaklis kəndi 1918-ci ilin yanvarında darmadağın edilib; 49 nəfər azərbaycanlı öldürülmüş, vurulmuş ziyan 9 milyon rubla ölçülürdü.

6. Pulkənd kəndi elə o vaxt dağıdılıb;19 nəfər öldürülmüş; dəymiş ziyan 160 min rubla bərabərdir".

Azərbaycanın Daxili İşlər Nazirliyi nəzdində xüsusi polis şöbəsinə" (Zəngəzur qəza rəisinin 12 oktyabr 1918-ci il tarixli məruzəsi [5, s.17, 18, 19].

Qərbi Azərbaycanın Zəngəzur diyarının 16 kəndində baş vermiş olayların təhlili də mənbədə verilmişdir. Hesablamalara görə ermənilər tərəfindən 677 yerli etnik Azərbaycan türkü vəhşicəsinə məhv edilmişdir.

Azərbaycanın doğma qərb ərazilərində 1918-ci ildə 575000 yerli Azərbaycan türkü yaşayırdı. Lakin 1918-ci ildə onların bu dədə-baba torpaqlarında yaradılmış Ermənistan adlı dövlətin 1918-1920-ci illəri əhatə edən dövründə 575000 Azərbaycan türkünün 565000 nəfəri öldürülmüş və doğma yerlərindən qovulmuşdur. Daşnaklardan sonra 1920-ci ildə sovet Ermənistanında türk (azərbaycanlı) əhali 10000 nəfərdən azacıq artıq saya malik idi.1922-ci ildə 60000 qaçqının qayıdışından sonra burada azərbaycanlıların sayı cəmisi 72596 nəfər idi [7, s.10].

"Göründüyü kimi, ermənilər tərəfindən Azərbaycan türklərinin ikinci soyqırımı 1917-ci ildən qərbi Azərbaycandan - İrəvandan, Azərbaycanın qədim Cuxur-Səd, Göyçə, Zəngəzur ərazilərindən başlamışdır. Heç kəs buna tərəddüd edə bilməz, çünki o vaxtlar erməni dövləti yox idi və ermənilər Azərbaycan ərazisinə gəlmədirlər. Baxmayaraq ki, ermənilərin dəstələri fərarilərin hesabına yaxşı silahlanmışdılar. Bakı sovetinin sədri Şaumyan Stalinə məktub yazıb 10 milyon rubl pul istəmiş, menşeviklər və sosialinqilabçılar öz növbəsində Şaumyanın tərəfini saxlayacaqlarını bildirmişdilər. Bu dövrdən Bakı Soveti və "Daşnaksütyun" Azərbaycan diviziyasının Bakıdan çıxarılmasını tələb etdilər. Son məqamda onlar buna nail oldular.

Müsavatçılar gördülər ki, vəziyyət günü-gündən ermənilərin, Bakı Sovetinin xeyirinə dəyişir. Məşədi Əzizbəyov Bakının müsəlman hissəsinə sovetlər tərəfindən məsul təyin edilmişdir. Ermənilərin və Sovetlərin gəlib müsəlmanların məhlələrində evlərə soxularaq onların əlindən hətta çörək bıcaqlarını almaları nəticəsində bütün Azərbaycan türkləri tərksilah edilmiş oldular. Daşnaklar və sovetlər bütün bu işlərdən arxayın olduqdan sonra Azərbaycan türklərinin genişmiqyaslı soyqırımına başlaya bilərdilər.

14 mart 1918-ci il tarixdə Azərbaycan türklərinin nümayəndələri, müsavatçılar onlardan alınmış silahların qaytarılmasını tələb etdilər. Şaumyanın silahdaşı Caparidze tələbi yerinə yetirməyə söz verdi... lakin nə o, nə də Stepan Şaumyan verdikləri sözlərinə əməl etmədilər. "Müsavat" partiyası tam təcrid edilmişdi. Bu barədə "Açıq söz" qəzeti yazırdı ki, bütün il boyu menşeviklərlə mübarizə edənlər indi hətta kadetlər və daşnaklarla birləşirlər.Bu cür əməkdaşlıq yalnız milli zəminlə izah oluna bilər, yəni, bütün digər partiyalar aralarında olan ziddıyyətlərə baxmayaraq, "Müsavat" partiyasına qarşı birləşirdilər...bir milləti o birinin üzərinə qaldırmaq demokratiyanın faciəli iflasıdır. Ermənilər tərəfindən Azərbaycan türklərinin qırğınının başlanması tarixi son illərədək mübahisəli olmuşdur. Lakin yeni araşdırmalar göstərir ki, əslində qırğın martın 30-da yox, 18-də başlamışdır: "1918-ci il martın18-də döyüş təcrübəsi olan Baksovetin 6 minlik qoşunu və 5 minə qədər daşnaklardan, 9 min adi ermənilərdən ibarət fərari əsgər və zabitlər təpədən dırnağadək siahlanmış hal-

da, üstə gəl Rusiyanın verdiyi toplar və pulemyotlar (həmçinin təyyarələr, yerli azərbaycanlılar yaşayan məhəllələrə hücum edərək amansız soyqırıma başladılar və bu hərbi-siyasi cinayətə Şaumyan "vətəndaş müharibəsi" adı verdi). Menşevik qəzeti olan "Naş qolos" da bu hadisələri milli soyqırım adlandırdı. Əsərlərin birində bir arxiv sənədi göstərilib.Onda deyilir ki, vətəndaş müharibəsi Bakıda martın 18-də başladı. Qəti bildirirəm ki, martın 19-da gündüz saat 12-də bu vətəndaş müharibəsinə çevrildi:

Sitat

Leninin məktubu

Hörmətli yoldaş Şaumyan: Məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir və indiyədək biz yalnızca imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu konfliktləri işlətməyi öyrənin, hal-hazırda diplomatiya öyrənmək vacibdir.

Bütün dostalara xoş arzular və salamlar.

Kim müsəlman əhalinin silahlı erməni dəstələr tərəfindən məhv edilməsini vətəndaş müharibəsi adlandıra bilər? "Hümmət" partiyasının Şaumyanın iştirakı ilə keçirilən iclasında Nəriman Nərimanov ondan qəti surətdə tələb etdi ki, müsəlman əhalinin soyqırımını dərhal dayandırsın. Lakin Şaumyan onun tələbinə məhəl qoymadı və nəticədə yalnız Bakı şəhərində 12 mindən artıq Azərbaycan türkü amansızcasına məhv edildi.

Azərbaycan türklərinin soyqırımının qərəzlə hazırlanıb həyata keçirilməsini ermənilərin özləri belə etiraf etmişlər. Kommunist-daşnak Şaymyanla daşnak Zərəfyan bu məsələdə mübahisə edirlər. Belə ki, "7 iyun 1918-ci il tarixdə Bakı Sovetinin iclasının bitməsinə az qalmış daşnak fraksiyasının lideri Zərəfyan iclasa sədrlik edən Şaumyandan söz istəyir. O, mart qırğınlarının birtərəfli şərh edilməsi ilə razılaşmamışdı. Şaumyan ifşa olmasından qorxaraq ona söz vermək istəmirdi. Axırı ona söz verilir və o, çıxışını belə bitirir ki, bu işlərdə bolşeviklər günahkardı, onu araşdırmaq üçün komissiya yaradılsın və o, dediyini sübut edər. Şaumyan yenə də ifşa olunacağından qorxaraq əsəbi halda deyir:

- Təhqiqat təyin olunmayacaq. Heç kəs də onun sübutlarını dinləməyəcək!

Şaumyan çıxışını Zərəfyanı təhqir etməklə bitirdi.

Bu iki erməni arasında azərbaycanlıların Şamaxı soyqırımı nəzərdə tutulmaqla qısa, lakin tutarlı deyişməsi baş verdi.

ZƏRƏFYAN: Şamaxıda olan bəs sizin sovet dəstəniz deyildi?...

ŞAUMYAN: ...Mən xahiş edirəm bu dəlini qayda-qanuna əməl etməyə çağırasınız!

ZƏRƏFYAN: ...Əmirovu siz təyin etmişdiniz!...

(bərk səs-küy)

Bəli, soyqırımın (genosidin) mahiyyəti isə ilk öncə hər hansı bir millətin planlı şəkildə məhv edilməsindən ibarətdir [5, s.31-32].

Sonralar yenə də ermənilər azərbaycanlılara qarşı soyqırım siyasətindən əl çəkmədiər. Erməni quldurları minlərlə Azərbaycan türkünün soyqırımını həyata keçirməklə kifayətlənməyib 1917-1920-ci illərdə 100 mindən artıq Azərbaycan türkünü doğma dədə-baba torpaqlarından didərgin salaraq onların ev-eşiklərinə, varidatına sahib çıxmışlar. General Areşevlə kapitan Movsesyanın quldur dəstələri görünməmiş vəhşiliklə 82 müsəlman kəndini əhalisi ilə birlikdə yer üzündən sildilər.

1918-ci ilin yayında Andranikin vəhşi dəstələri Azərbaycanın Zəngəzur diyarına soxularaq orada saysız hesabsız qırğınlar törətmişlər. Erməni quldur dəstələrinin vəhşiliyi nəticəsində 115 Azərbaycan kəndi yerlə yeksan edilmiş, 3257 kişi, 2276 qadın və 2196 nəfəri uşaq olmaqla 7729 nəfər dinc azərbaycanlı qəddarlıqla qətlə yetirmişlər. Bu hadisədən dərhal sonra 50 min Azərbaycan türkü doğma yurdlarını atıb qaçmaq məcburiyyəti qarşısında qaldılar. Erməni tarixçi-alimi Lalayanın hesablamasına görə erməni silahlı dəstələri yalnız Ermənistanda 1918-1920-ci illərdə azərbaycanlı əhalinin 60 faizini yer üzündən siliblər. Beləliklə, ermənilər qərbli-şərqli Azərbaycanda Azərbaycanın 1 milyondan artıq yerli etnik əhalisini, yəni, Azərbaycan türklərini kütləvi soyqırıma məruz qoymuşlar.Bu proses bu gün də davam etdirilir. XX əsrin 80-ci illərində başlayan erməni-azərbaycan etnik münaqişəsi böyüyərək tam qarşıdurmaya Azərbaycan-Ermənistan müharibəsinə səbəb olmuşdur. Müharibə nəticəsində torpaqlarımızın 20%-i işqal olunmuş,milyondan artiq dinc azərbay-

canlı öz doğma torpaqlarından qaçqın düşmüşdür.İşğalçı Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından qeydsiz və şərtsiz çıxarılması barədə BMT-nin verdiyi 822, 853, 874, 884 saylı qətnamələrinə, çox təəssüf olsun ki, bu gün də əməl olunmur və dünya ictimaiyyəti bu məsələyə biganə münasibət bəsləyərək susur.

Açar sözlər: soyqırım, erməni terroru, ərazi iddiaları, erməni məkri, daşnaksütyun

İstifadə edilmiş ədəbiyyat

1. Allahverdiyev R. Ermənilər tərəfindən Azərbaycan türklərinin soyqırımı tarixindən. Bakı, 2014.
2. Azərbaycan tarixi. Bakı: AAHM mətbəəsi, 2002.
3. Azərbaycanlı və erməni şüurunda vətənə bağlılıq anlamı. "Sirlər açılır" qəz., 2002, mart
4. Айвазян С. Судьба армянская. М.: 1976.
5. Kazımoğlu N. "Qırğın"- sənədlər və gerçək tarix. Bakı, 2010.
6. Kazımoğlu N. Azərbaycanın ruslaşdırılması tarixindən. "İşıqlı yol"qəz., 2006, 01-07 iyun
7. Коркодян К. Население Советской Армении 1831-1931. 1932
8. Мархулия Г. Армяни в поисках Армении. Тб.: 2009.
9. Məhərrəmov N. Azərbaycan Sovet Sosialist Respublikası. "Azərbaycan tarixi", Bakı, 2002.
10. N.Məhərrəmovun şəxsi arxivi. Qovluq - 4, sən. 3
11. Petrosyan V. Erməni eskizləri. Y.: 1975.
12. Şaumyan S. Seçilmiş əsərlər. M: 1978.

Рамиль Аллахвердиев

НА ОСНОВАНИИ ПОЛИТИКИ ГЕНОЦИДА АРМЯН ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ СТОЯТ ТЕРРИТОРИАЛЬНЫЕ ПРЕТЕНЗИИ

Резюме

На основании политики геноцида армян против азербайджанцев стоят территориальные претензии. В начале XX века против азербайджанцев проведенный геноцид начался в 1917 году с Западного Азербайджана. Автор в статье исследовал эти факты на основе исторических документов.

Ключевые слова: геноцид, армянский терроризм, территориальные претензии, армянский сюжет, дашнакцютюн

Ramil Allahverdiyev

TERRITORIAL PRETENSIONS ON THE BASIS OF ARMENIANS GENOSIDE POLICY AQAINS AZERBAIJANIS

Summary

In the article the territorial pretensions take main place on the basis of Armenians genocide policy against Azerbaijanis. In the beginning of the XX century genocide which is taken off against Azerbaijanis on purpose began from western Azerbaijan in 1917. In the article the author has investigated these facts on the basis of historical documents and has come to the definite scientific conclusion.

Key words: genocide, the armenia nterror, the territorial pretensions, the armenian insidiousness, daşnaksutyun

UOT - 327

Tağı Davudi
BDU, siy.e.ü.f.d.

DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ İRANIN MÖVQEYİ

Ermənistan dövlətinin açıq hərbi təcavüzü və sovet ordusunun hərtərəfli yardımı və dəstəyi olmadan, Dağlıq Qarabağda məskunlaşan ermənilərin təcavüzkarlığa əl atmağa cəsarətləri çatmazdı. Buna görə də bu açıq təcavüzün əsas daşıyıcısı olan erməni dövləti təcavüzkar bir dövlət olduğundan, BMT Nizamnaməsini kobud şəkildə pozduğuna görə Beynəlxalq Birlik tərəfindən məzəmmət olunmalı, Azərbaycanın işğal olunmuş ərazilərini qısa bir müddətdə qeyd-şərtsiz tərk etməlidir. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi isə Azərbaycanın daxili işi olduğundan bu ölkənin qanunları ilə təmin olunmalıdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü İran rəhbərliyi tərəfindən qətiyyətlə pislənir və problemin yalnız danışıqlar yolu ilə həllini mümkün sayır. Bununla bağlı nəinki İranın, həm də İslam dünyasının görkəmli və nüfuzlu şəxsiyyəti olan Ayətulla Xamenei Ermənistanın Azərbaycana silahlı təcavüzünü pisləyərək bəyan etmişdir: "Azərbaycan ermənilərin təcavüzünə məruz qalmışdır və bu döyuşlərə Ermənistan dövləti müdaxilə edir. Elə buna görə də Ermənistan dövləti təcavüzkardır. İran Ermənistan dövlətinin təcavüzünü pisləyir... Ümidvarıq ki, bu məcburi haqq və ədalət cəbhəsinin qələbəsilə başa çatacaq" (8, s.30).

Ali dini rəhbərdən başqa İranın digər görkəmli şəxsiyyətləri də Ermənistan-Azərbaycan münaqişəsinə münasibətlərini müxtəlif şəkildə açıqlamışlar.

İran İslam Respublikasının sabiq Prezidenti Əkbər Haşimi Rəfsəncani Ermənistanın təcavüzü barədə Azərbaycan Prezidenti Heydər Əliyevlə Tehranda görüşü zamanı öz fikrini belə izhar edib: "İran İslam Respublikası dünya ölkələri tərəfindən ərazi bütövlüyü tanınan ölkələrin ərazi bütövlüyünü rəsmən tanıyır. Biz Azərbaycan ərazisinin Ermənistan ordusunun işğalından azad olunmasını istəyirik. İnanıram ki, bu münaqişə müharibəsiz və müdriklik sayəsində sona çatacaqdır və təcavüz nəticəsində öz ev-eşiklərindən didərgin düşən insanlar öz evlərinə qayıdacaqlar" (3, s.16).

Ermənistanın Azərbaycana təcavüzü və işğal etdiyi torpaqlardan geri çəkilməməsi İslam ölkələri başçıları, bəzi rəsmi və qeyri rəsmi dairələr, Türkiyə rəhbərliyi və İran İslam Respublikasının Prezidenti Məhəmməd Xatəmi tərəfindən yüksək səviyyədə pislənilib və müxtəlif səviyyəli bu çıxışlarda torpaqların azad olunması qətiyyətlə irəli sürülüb. Məhəmməd Xatəmi Heydər Əliyevin 18 may 2002-ci ildə İrana səfəri zamanı bu problemlə bağlı bir daha demişdir: "Biz Ermənistanın Azərbaycana təcavüzünü pisləyərək və bu mövqeyimizi biz, yüksək səviyyədə və müxtəlif beynəlxalq təşkilatlarda elan etmişik». Bu təcavüzün məntiq və ümumi fikir sayəsində sona yetəcəyinə və əziz Azərbaycan xalqının öz vətənlərinə qayıdacaqlarına inanırıq" (2, s.78).

Ermənistan-Azərbaycan münaqişəsilə bağlı müxtəlif səviyyədə izhar edilmiş fikir və mülahizələrin mərkəzində yalnız bir təklif öz ifadəsini tapıb; bu problem yalnız danışıqlar yolu ilə, ədalət prinsipi əsasında və Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə öz həllini tapmalıdır.

Bu problem BMT xəttilə öz həllini tapa bilmədiyindən, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) həvalə olundu və bu Qurum 1992-ci ilin fevralından problemlə bağlı fəaliyyətə başladı.

Əlavə edək ki, Beynəlxalq hüquqa görə vasitəçilik missiyası ilə hər hansı dövlət, beynəlxalq təşkilat və ya tanınmış şəxsiyyət o zaman çıxış edə bilər ki, münaqişədə iştirak edən tərəflər vasitəçiliyi öhdəsinə götürmək istəyənlə razı olsunlar. Vasitəçilər problemin həllinə tam bitərəf mövqedən yanaşmaqla ədalət prinsipi üzərində qurulan tövsiyələrlə çıxış etməlidirlər. Lakin Minsk qrupunun tərkibi müəyyən olunarkən bu tələblərə riayət olunmadığından proble-

min həlli indiyə kimi uzanır, bu da Azərbaycanın haqlı narazılığı ilə qarşılanır (2, s.165).

Münaqişənin həllilə məşğul olan Minsk qrupunun həmsədrindən ən azı ikisi Rusiya ilə Fransa ermənipərəstdir və onların problemin həllinə bitərəf mövqedən yanaşmaları şübhə oyadır. Bu da Beynəlxalq hüququn vasitəçilik institutu ilə bağlı normaları ilə ziddiyyət təşkil edir.

1992-ci ilin mart ayında Minsk qrupu Qarabağ münaqişəsinin həllini on bir ölkənin iştirakı ilə öz üzərinə götürdü. Bu qurum Minsk qrupu adı ilə tanınır. Bu qrup özünün ilk qərarı ilə Ermənistan tərəfindən işğal olunmuş bütün torpaqların boşaldılmasını tələb edərək, işğalçı hərbi qüvvələrin Azərbaycanın zəbt olunmuş ərazilərindən çıxmaq qərarını verdi. Lakin vasitəçilərin bu qərarın həyata keçirməsilə bağlı cəhdləri bu təşkilatın işğalçıya güc tətbiq etmək mexanizminə malik olmaması ucbatından nəticəsiz qaldı və indiyə qədər bu sahədə heç bir irəliliyiş əldə olunmamışdır (1, s.213).

Dağlıq Qarabağ müharibəsi həm də birbaşa İranın təhlükəsizliyinə qarşı yönələn bir münaqişədir, hərbi qarşıdurmadır. Çünki münaqişə başlanan andan 1993-cü ilin yayına qədər döyüşlər İranın sərhədləri yaxınlığında baş verirdi. Müharibənin davam etməsi Azərbaycandan İrana qaçqın selinin, silah alverinin, xarici muzdurların Qafqaz regionuna axının və hətta Rusiya-Türkiyə münasibətlərində gərginliyin artmasına səbəb olmuşdur. Başqa ölkə və təşkilatlar kimi İranın bu münaqişədə vasitəçiliyi müvəffəqiyyətli olmasa da, Tehran regionda və dünyada sülh və barışığın tərəfdarıdır və bu problemin də sülh yolu ilə həllini müdafiə edir. 1994-cü ildə Rusiyanın vasitəçiliyi ilə əldə olunan atəşkəsin indiyə qədər davam etməsi, İran rəhbərliyi tərəfindən razılıq hissilə qarşılanır. Vasitəçinin hansı ölkəyə mənsub olmasından asılı olmayaraq İran münaqişələrinin yalnız sülh yolu ilə həllini dəstəkləyir (6, s.46-47).

İranın Ermənistan-Azərbaycan münaqişəsilə bağlı fəaliyyətini əsasən üç mərhələyə bölmək olar:

Birinci mərhələdə Əliəkbər Vilayəti 1991-ci il noyabrın əvvəllərində Ermənistan Xarici İşlər Naziri ilə müzakirələr apardı və İranın vasitəçilik təklifini irəli sürdü, lakin tərəflər bu təklifə cavab vermədilər və Tehranın sülh təşəbbüsü nəticəsiz qaldı.

İkinci mərhələ, 1992-ci ilin fevral və may ayları arası İranın fəaliyyətinin ən mərkəzləşmiş və problemə fəal müdaxilə dövrü sayılır. Bu səylər qısa müddətli atəşkəsə səbəb oldu. Başçıların üçtərəfli görüşü də Tehranda həyata keçdi, lakin erməni qüvvələrinin Şuşa və Laçını müəmmalı şəkildə işğal etdikləri üçün bu missiya da nəticəsiz qaldı. Əlavə edək ki, Tehranda keçirilən üçtərəfli müzakirələrdə problemin həllinə doğru real addımlar atıldı. Lakin Tehran danışıqlarının müsbət nəticə ilə qurtarmasından təşvişə düşən bəzi daxili və xarici qüvvələr bu danışıqların müsbət nəticələrini heçə endirmək məqsədilə, ermənilərı döyüşlərin başlanmasına sövq etdilər və buna da nail oldular. Xatırladaq ki, Dağlıq Qarabağ problemindən bəzi xarici dövlətlər özlərinin siyasi, iqtisadi və hərbi-strateji maraqları üçün istifadə edir və buna görə də onun "ömrünü" süni surətdə uzadırlar. Bu problem istər daxili və istərsə də xarici qüvvələr tərəfindən münaqişədə iştirak edən tərəflərə təzyiq vasitəsi kimi istifadə olunur və nəticədə ən çox ziyan çəkən hərbi təcavüzə məruz qalan Azərbaycan vətəndaşlarıdır.

Üçüncü mərhələ 1994-cü ilin əvvəllərində başlanan vasitəçilik missiyasıdır. Bu mərhələdə İranla Rusiyanın səyləri nəticəsində 1994-cü ilin mayında atəşkəs rejiminin bərqərar olunmasını nəzərdə tutan Bişkek protokolunun imzalanması oldu (4, s.47).

Tehranda çap olunan "Mərkəzi Asiya və Qafqaz" jurnalı London Beynəlxalq Araşdırmalar Mərkəzinin üzvü Edmond Herzikə istinadən Ermənistan-Azərbaycan münaqişəsilə bağlı yazır: "Mən də başqa həmkarlarım kimi bu fikirdəyəm ki, İran region böhranlarının həllində müvəffəqiyyətli rol oynamışdır. Bu barədə rəy müxtəlifliyi yoxdur. Bu elə bir məsələdir ki, hamı onu müsbət qiymətləndirir. Dost da, düşmən də İranın əhəmiyyətli rolunu təsdiqləyir. Lakin atəşkəs əldə olunmasına baxmayaraq, bu qarşıdurmanın birdəfəlik həll olunmasına çox vaxt var. Qarabağ münaqişəsində regiona sülhün qayıtması üçün İran çoxlu səy etdi, lakin atəşkəs Rusiyanın təşəbbüsü idi. Hər halda İran tərəfləri bir-birinə yaxınlaşdırmaqda və sülhə meyilli etməkdə həlledici rol oynamışdır" (6, s.213).

İrəlidə qeyd etdiymiz kimi, İran İslam Respublikası Dağlıq Qarabağ probleminin ədalətli prinsip əsasında həll olunması mövqeyindən çıxış edir. Bu mövqeyin formalaşmasına səbəb olan məram və məqsədlər sırasından aşağıdakıları qeyd etmək olar:

İranın vasitəçiliyilə münaqişə danışıqlar masası arxasında həll olunmalı və belə olan təqdirdə, Tehranın Cənubi Qafqaz regionunda mövqeyi möhkəmlənərək İslam Respublikası sülhpərvər və xeyirxah bir dövlət kimi beynəlxalq münasibətlərdə tanınmış olacaqdır.

İran özünün şimal sərhədləri boyunca bölgələrdə sülhün, sabitliyin və əmin-amanlığın bərqərarına nail olmuş olardı. Bu da İranın milli təhlükəsizliyilə bibaşa bağlılığı olan bir məsələdir.

Cənubi Qafqazda sülhün bərqərar olması, İranın Avropa ilə, xüsusən Rusiya ilə əlaqələri daha da genişlənəcək, çünki bir çox beynəlxalq kommunikasiya xətləri bu regiondan keçir. Bu da İranın xarici ticarət əlaqələrinin inkişafı üçün əlverişli şərait yaratmış olardı.

Qeyd etmək lazımdır ki, Tehran danışıqlarının pozulması münaqişədə iştirak edən tərəflərin xeyrinə olmamaqla yanaşı, həm də İranın əleyhinə doğru atılmış addım idi. Bu addım da, əsasən Ermənistan tərəfindən atıldı, bununla da Tehranın sülhsevər təşəbbüsü havadan asılı qaldı.

Ancaq bununla belə İran yenə də bu problemin həlliylə bağlı vasitəçi missiyası qismində çıxış etmək niyyətində olmasını dəfələrlə bəyan edib. Ümid var ki, bu dəfəki vasitəçilik təşəbbüsü əgər baş tutarsa, uğurla başa çatmış olacaqdır.

Azərbaycanlı hüquqşünas Əmir Əliyev problemin BMT-də baxılması ilə əlaqədar yazıb: "...Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində daim dinc vasitələrlə çıxış etməsinə baxmayaraq, Ermənistan təcavüzkar siyasətini yeritməkdə davam edir və beynəlxalq təşkilatların qərarlarına bütövlükdə hörmətsizliklə yanaşır..." (2, s.83).

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan-Ermənistan münaqişəsinə dair 822, 852, 874 və 894 saylı qətnamələr qəbul etmişdir. Onların hamısında təcavüzkar Ermənistandan tezliklə işğal etdiyi əraziləri boşaltması tələb olunur. Lakin bu qətnamələr BMT-nin üzvü olan Ermənistan tərəfindən hələ də icra olunmayıb. Bu ölkə dünyanın ən mühüm orqanlarından olan BMT-nin qərarını həyata keçirməkdən belə boyun qaçırır.

Rus dövlətinin hərtərəfli yardımına söykənən ermənilər nəinki Azərbaycan ərazilərini işğal etmişdir, həm də zaman-zaman müsəlmanlara qarşı insanlıqdan uzaq soyqırım və etnik təmizləmə siyasəti həyata keçiriblər.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım əməllərini şərh edən İranlı tədqiqatçı Məhəmməd Hafizzadə bu barədə yazıb: "Ermənilər çar təcavüzkarlarının və Kremlin milli təmizləmə siyasətinin dəstəyi ilə keçmişdə törətdikləri cinayətlərdən əlavə, təkcə 1988-ci ildə iki yüz əlli mindən artıq azərbaycanlını Ermənistandan, onların dədə-baba torpaqlarından qovdular və onların mal-dövlətlərini ələ keçirdilər. Onlar bu əməlləri ilə kifayətlənməyərək Azərbaycanın qədim mədəniyyət və sivilizasiya mərkəzi olan Qarabağı işğal edərək, bir milyondan çox günahsız insanı didərgin və evsiz-eşiksiz qoydular". Təkcə 26 fevral 1992-ci ildə ermənilər törətdikləri Xocalı faciəsini xatırlamaq, onların törətdikləri cinayətin həcmini və azərbaycanlıları soyqırıma məruz qalmasının kəskinliyini başa düşmək üçün inkar olunması çətin olan faktdır. Müasir dövrdə baş vermiş bu böyük faciədə bütöv bir şəhər erməni əsgərləri tərəfindən yerlə-yeksan edilmişdir. Azərbaycanlılardan 169 nəfər, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər isə yaralanmışdır. 1275 nəfər qoca, qadın və uşaq işğalçılar tərəfindən əsir aparılaraq ən vəhşi təhqirlərə məruz qalmışlar .

Bu münaqişə, ələlxüsus Ermənistanın hərbi təcavüzünün ziyanları və törətdiyi vəhşiliklər İranın kütləvi informasiya vasitələrində də işıqlandırılır, bu problemə münasibət bildirilir. Tehranda çap edilən çoxtirajlı "Həmşəhri" qəzeti yazıb: "Azərbaycan Respublikasının sərhəd şəhərləri yandırılmışdır. Ermənistan ordusunun işğal olunmuş Azərbaycan ərazilərində yanmış torpaq siyasəti nəticəsində respublikanın Xudafərin sərhədlərindən Aslandüzə qədər bütün şəhərləri hələ də yanmaqdadır. İran İslam Respublikasının xəbərlər agentliyinin yanğınların canlı şahidlərinə əsasən verdiyi məlumata görə erməni silahlı qüvvələri Füzuli, Qubadlı, Horadiz,

Cəbrayıl, Zəngilan və başqa şəhərləri tamam işğal etməklə bu respublikanın cənub-qərbinin bütün şəhərlərindəki binalar, idarələr və bəzən meşələri belə yandırmışlar". Sonra əlavə edir: "Hal-hazırda bu şəhərlərin başqa şəhərlərlə əlaqəsi tamamilə kəsilib və Ermənistan hərbi qüvvələri İran İslam Respublikasının sərhədlərinin yaxınlığında yerləşiblər" (4).

Münaqişəni həll edən qruplar, o cümlədən Minsk qrupu, ATƏT və Birləşmiş Millətlər Təşkilatı və regionun üç aparıcı ölkəsinin - Rusiya, İran və Türkiyənin iştirakı ilə işğalçı erməni qüvvələrini qeyd-şərtsiz Azərbaycan ərazilərini boşaltmağa ciddi yanaşıb, işğalçıları Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmağa məcbur etməyə qadirdilər. İranlı tədqiqatçı Tağı Kağəzçinin fikrincə, yalnız "bundan sonra humanitar yardımlar, təhlükəsizlik, yenidənqurma və digər zəruri məsələlərdən tam arxayınlıqla söhbət açmaq olar" (4).

Bu gün də İran dövlətinin rəhbərləri Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində müxtəlif təkliflərlə çıxış edir, doğma yurdundan didərgin düşmüş əhalinin daha sivil yollarla geriyə qayıtmasının təşkili üçün səylərini birləşdirir, münaqişə tərəflərinin qarşılıqlı razılığa gəlmələri naminə yeni-yeni fikirlərini ortaya qoyur. Bu müharibənin ən az itki ilə və ədalətlə başa çatması İranın böyük maraq göstərdiyi məsələlərdən biri olmaqla dövlətin regiondakı siyasətində prioritet təşkil edir.

Acar sözlər: region, müharibə, işgalcılıq siyasəti, soyqırım, sülh

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr), Bakı, 2003.
2. Əliyev Ə. Beynəlxalq ümum hüquq. Bakı: Şirvanşahlar, 2004.
3. Heydər Əliyev və Şərq: İran İslam Respublikası. Bakı: Çaşıoğlu, 2005.
4. "Həmşəhri" qəzeti, 2004, 16 yanvar, №254.
5. İsmayılzadə R. Dostluq əli, Bakı, Əlhudə, 2004.
6. "Mərkəzi Asiya və Qafqaz" jurnalı, Tehran: 2003, № 4.
7. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik, Bakı, 2005.
8. Səfərli Ə., Əlibəyli H. Tarixin dörd günü. Tehran: Şuruş, 1994.

Таги Давуди

РОЛЬ ИРАНА В РЕШЕНИИ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА

Резюме

В статье анализируется миротворческая роль Ирана в решении Азербайджано-армянского конфликта по Нагорному Карабаху, в том числе, раскрывается предложение Ирана по прекрашении огня. Особенно уделяется внимание на справедливую позицию Ирана в решении данной проблемы, говорится о том что, и сегодня Иран последователен в этой политике, критикуется оккупантская позиция армян и отдается предпочитение в решении проблемы переговорам.

Ключевые слова: регион, война, оккупационная политика, геноцид, мир

Taqi Davudi

IRAN'S ROLE IN SOLVING THE NAGORNO-KARABAKH CONFLICT

Summary

The article analyses the peacekeeping role in solving the Iranian Azerbaijani-Armenian conflict over Nagorno-Karabakh. In particular, disclosed the proposal of termination of Iran's fire. Particular attention is paid to the fair position of Iran in solving this problem, stating that, and today Iran is consistent in this policy, criticized the position of the occupant of the Armenians and gives preferment in dealing with negotiations.

Key words: region, war, occupation policy, genocide, peace

UOT - 82

Sərraf Mirzəyev
AƏSMA

İNGİLİS VƏ AZƏRBAYCAN ATALAR SÖZLƏRİNİN QARŞILIQLI MƏNA ÇALARLARI

Atalar sözləri xalq müdrikliyinin, xalq zəka və düşüncəsi, xalqın həyat təcrübələrinin nəticələrini əks etdirən, qısa və dolğun, yığcam və mənalı bir şəkildə, aforizmlər – halında ifadə etmək formasıdır. Hər bir atalar sözü,öz mahiyyəti etibarı ilə maddi aləmdə və onun mənəvi inikasında vaxt-aşırı baş verən oxşar hadisələrin işarəsidir. Atalar sözlərini öyrənmək, onlardan geniş şəkildə istifadə etmək yalnız qələm əhlinə deyil, bədii sözün qüdrəti ilə məşğul olan hər bir şəxsə və ilk növbədə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərə, xüsusilə, lazım və vacibdir.

Qeyri-standart tədris materiallarından, xüsusilə atalar sözlərindən, məsəllərdən mütəmadi olaraq geniş istifadə edilməsi tələbələrin nitq mədəniyyətinin inkişafında, bilik və bacarıqlarının təkmilləşməsində, onlarda xarici dilin öyrənilməsinə marağın artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan Azərbaycan ədəbi dil mühitində ingilis dilini öyrənən tələbələrlə aparılan praktik məşğələlərdə xalq ədəbiyyatının ən mühüm qollarından biri olan atalar sözlərinin öyrənilməsi olduqca vacibdir.

İngilis atalar sözlərinin işlədilməsi və tərcüməsi ilə bağlı materialların, çalışmaların tətbiqi xarici dilin tədrisi prosesində nitq bacarıq və vərdişlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət edən ən səmərəli metodik üsullardan biridir.

Atalar sözlərinin, məsəllərin öyrənilməsi xarici dili öyrənərkən xüsusi əhəmiyyət kəsb edir. Danışıq dilində bu ifadələrin işlədilməsi fikri daha canlı, daha lakonik, daha gözəl ifadə etməyə yardım edir. Tədris prosesində keçirilən mövzuya aid atalar sözündən istifadə etmək, həmin mövzuya uyğun atalar sözü işlətmək tələbələrin dünyagörüşünü formalaşdırmagla bərabər, həm tələbələrə həmin xalqın folklorundan məlumat verir, həm də tələbələrdə yüksək əxlaqi dəyərlər-dostluğa sədaqət, əməyə məhəbbət, vətənpərvərlik və s. bu kimi hisslər oyadır. İngilis atalar sözlərini öyrənməklə tələbələr öz lüğət ehtiyatını artırır, ingilis dilində obrazlı danışmağı öyrənir və aktiv söz yaddaşını möhkəmləndirirlər. Atalar sözləri qısa obrazlı cümlələrdən ibarətdir və bu qısa obrazlı cümlələrdə adətən təzə söz və ifadələr asan yadda qalır. Müxtəlif xalqların atalar sözləri ilə tanış olanda tələbələr öyrənirlər ki, bir dildə olan eyni bir atalar sözü digər dillərdə (rus, ingilis dillərində) eyni cür də, yəni sözbəsöz və ya müxtəlif cür də tərcümə oluna bilər.

Məlumdur ki, atalar sözlərinin müəllifi xalqdır. Zəngin mənaya malik olan, yüksək əxlaqi dəyərlər daşıyan, tərbiyəvi əhəmiyyət kəsb edən bu ifadələrin ilk istifadəçisi müdrik atalarımızdan biri olmuşdur. Müəyyən həyat hadisələrindən doğan bu el sözü, bu xalq sözü, bu "ata sözü" sonradan dildən - dilə düşüb, müəyyən elatda, obada, diyarda yayılaraq məşhurlaşıb və əsl xalqın malı olmuşdur.

Bu yazıda bəzi ingilis və Azərbaycan atalar sözlərinin məna çalarlarının bir-biri ilə oxşar və fərqli cəhətlərinin bəzi xüsusiyyətləri haqqında fikirlərimizi bölüşmək istərdik. Bu iki dildə işlədilən atalar sözlərinin oxşar və fərqli cəhətləri var. Oxşar cəhətlər ondan ibarətdir ki, hər iki dildə işlənən atalar sözlərinin əsas qayəsi əməyə məhəbbət, dostluq, vətənpərvərlik, doğruçuluq, sədaqət, birlik və s. bu kimi əxlaqi dəyərlər ifadə etməsidir.

Fərqli cəhəti isə ondan ibarətdir ki, istər bəzi ingilis atalar sözlərini Azərbaycan dilinə, istərsə də bəzi Azərbaycan atalar sözlərini ingilis dilinə tərcümə etdikdə, müxtəlif leksik vahidlərdən istifadə edilir. Amma elə ingilis atalar sözləri də vardır ki, azərbaycan dilinə birbaşa tərcümə edilir, elələri də var ki, tamamilə başqa cür (yəni, hərfi mənasından uzaq) tərcümə edilir. Onu da qeyd etməyə dəyər ki, Azərbaycan atalar sözləri həm məna, həm məzmun, həm də mövzu əhatə etmək baxımından ingilis atalar sözlərinə nisbətən daha geniş və daha rəngarəngdir.

Məlumdur ki, atalar sözləri diyar-diyar gəzərək əsrlər uzunu müxtəlif xalqların dilində yaşayır. Dilləri bir-birinə yaxın olan xalqlarda mənaca, mövzuca oxşar olan atalar sözlərinin çox olması daha səciyyəvi hal daşıyır. Lakin eyni atalar sözü və məsəllərin müxtəlif xalqlara məxsus olmasının yeganə səbəbi heç də ancaq həmin dillərin yaxınlığı, genetik bağlılığı deyildir.

Dilləri bir-birinə yaxın olmayan, etnik cəhətcə bir-birindən uzaq olan xalqlarda da atalar sözü və məsəllərin oxşarlığına rast gəlmək olar. Məsələn: 1. ingiliscə: "Don`t count your chickens before they are hatched", azərbaycanca: "Cücəni payızda sayarlar", rusca: "Цыплят по осени считают" 2. ingiliscə: "a drawning man will a catch at a straw", rusca: "Утопающий за соломинку хватается", azərbaycanca: "suda boğulan saman çöpündən yapışar", 3. ingiliscə: "There is no smoke without fire", rusca: "Нет дыма без огня", azərbaycanca: "Od olmasa tüstü olmaz". 4. ingiliscə: "All is not gold that glitters", rusca: "не все то золото, что блестит", azərbaycanca: "hər parıldayan qızıl deyil".

Bu cür atalar sözləri onu göstərir ki, hər üç xalqın dilində həmin atalar sözləri həm mənaca, həm mövzuya görə, həm də həmin atalar sözlərində işlənən sözlərin tərcüməsi cəhətdən çox oxşardır. Lakin elə atalar sözləri də vardır ki terkibindəki sözlər tərcümə baxımdan fərgli olsalar da, mövzu etibarı ilə eynidir. Məsələn: 1. azərbaycanca: "özgəyə quyu qazan özü düşər", rusca: "не рой другому яму – сам в неё попадёшь", ingiliscə: "He that mischief hatches, mischief catches". Hərfi tərcüməsi: "Kim ki ziyanlıq törədir, özü ziyanlıq tapır". 2. azərbaycanca: "qozbeli qəbir düzəldər", rusca: "горбатого могила исправит", ingiliscə: "the leopard cannot change his spots" və ya: "you cannot make a silk purse out of a sow`s ear". 3. azərbaycanca: "Cidanı çuvalda gizlətmək olmaz", rusca: "Шила в мешке не утаишь", ingiliscə: "Murder will out".

Bu misallarda göstərilmiş atalar sözləri məna və mövzuya görə bir-birilərinə hər iki dildə (azərb., rus) çox oxşardır. Lakin bu atalar sözünün ingilis variantı həm qrammatik quruluşuna görə, həm də əsas komponentlərin leksik mənasına görə və həm də obraz etibarı ilə Azərbaycan və rus variantlarından fərqlənir. Buna baxmayaraq, həmin atalar sözləri hər üç dildə eyni mənaya xidmət edir.

Bu atalar sözlərinin ingilis varianlarını yuxarıda adı çəkilən dillərin variantından leksik komponentlər baxımından ayrı olsa da, məzmun etibarı ilə onların hər üçü eyni mövzuya aiddir. Yəni, nəsihət mənasında işlədilir.

İngilis atalar sözləri və məsəlləri Azərbaycan dilinə müxtəlif üsullarla tərcümə edilir. Elə atalar sözləri vardır ki, bir neçə məna daşıyır. Bəzən də bir mənanı verən bir neçə atalar sözləri vardır. Belə atalar sözlərinə həm ingilis, həm də Azərbaycan dilində rast gəlmək olur. Bunu da qeyd etməyə dəyər ki, Azərbaycan dilində bir atalar sözünün ingilis dilinə tərcümədə müxtəlif variantları mövcuddur. Aşağıdakı verilən nümunələrdən bunun şahidi ola bilərik.

1) Azərbaycan variantı: "Əl əli yuyar, əl də üzü".
İngilis variantı: a) "Claw me and I'll claw thee" (hərfi tərcüməsi: "tut əlimdən, mən də sənin əlindən tutacağam") və ya b) "wink at mine and I'll not see your fauluts" (hərfi tərcüməsi: "mənə göz vur, mən də sənin səhvlərini görməyəcəyəm") və ya c)" Scratch my back and I shall scratch yours".
2) Azərbaycan variantı: "Ağıl ağıldan üstündür".
İngilis variantı: a) "Two heads are better than one" – hərfi tərcüməsi: "iki baş bir başdan daha yaxşıdır".
İngilis variantı: b) "Four eyes see more than two" – hərfi tərcüməsi: "dörd göz iki gözdən daha çox görə bilər".
3) Azərbaycan variantı: "Adamın yerə baxanı, suyun lal axanı".
İngilis variantı:" Still waters run deep" "Sakit sular dərin axır" və ya "Beware of a silent dog and still water" – hərfi tərcüməsi: "Sakit itdən və sakit axan sudan özünü qoru".
4) Azərbaycan variantı: "Atı at yanında bağlasan həmrəng olmasa da, həm xasiyyət olar".
İngilis variantı: 1) Who keeps company with the wolf will learn to howe – hərfi tərcüməsi: "Canavarla yoldaşlıq edən ulamağı öyrənər".
5) Azərbaycan variantı: "Keçənə güzəşt deyərlər" və ya " olan olub keçən keçib".

İngilis variantı: a) İt is no use crying over split milk. b) What is done cannot be undone. c) Let bygones be bygones. d) The mill cannot grind the water that is past.
6) Azərbaycan variantı: "Zəhmət çəkməyən bal yeməz".
İngilis variantı: a) He who would catch fish not mind getting wet. b) A cat in gloves catches no mise. c) No sweet without sweat. d) He that would eat the fruit must climb the tree.

Azərbaycan atalar sözünün elə formaları da vardır ki, ingilis dilinə birbaşa tərcümə olunur yəni sözbəsöz. Məsələn:
1) "Dəvədən böyük fil var".
İngilis variantı: "There is an elephant bigger than the camel".
2) "Dəmiri isti-isti döyərlər".
İngilis variantı: "Strike the iron while it is hot".
3) "Dost başa baxar, düşmən ayağa".
İngilis variantı: "A friend looks at the head a for at the foot".
4) "Əvvəl düşün, sonra danış".
İngilis variantı: "First think then speak".

Elə atalar sözlərü də vardır ki, ingilis dilinə tamamilə başqa cür tərcümə olunur. Məsələn:
1) Azərbaycan variantı: "Dəvənin quyruğu yerə dəyəndə".
İngilis variantı: "When pig flies – tərcüməsi: "Donuz uçanda".
2) Azərbaycan variantı: "Eşşək nə bilir zəfəran nədir".
İngilis variantı: "honey is not for ass's mouth – hərfi tərcüməsi: "bal eşşəyin ağzı üçün deyil" və ya: "Pearls are ill valued by hungry swine" - hərfi tərcüməsi: "Ac donuz üçün mirvarinin heç bir əhəmiyyəti yoxdur".
3) Azərbaycan variantı: "Yaz yağışı bar gətirər, qış yağışı qar".
İngilis variantı: "April showers bring may flower" – hərfi tərcüməsi: "Aprel yağışı May çiçəkləri gətirər.

İngilis dilində də elə atalar sözləri vardır ki, Azərbaycan dilinə sözbəsöz tərcümə olunur: Məsələn:
1) İngilis variantı: "A good wife makes a good husband".
Azərbaycan variantı: "Əri ər edən arvad olar".
2) İngilis variantı: "A drowning man will catch at a straw".
Azərbaycan variantı: "Suda boğulan saman çöpündən yapışar".

Elə ingilis atalar sözləri də vardır ki, tərkibində olan hər hansı bir zöz (heyvan adı, quş adı, bitki adı və s.) Azərbaycan variantında başqa adla əvəz edilir. Nümunə:
1) İngilis variantı: "It would make even **a cat** laugh" - hərfi tərcüməsi: "Bu hətta pişiyi də güldürər".
Azərbaycan variantı: "Bişmiş **toyuğun** da gülməyi gəlir".
2) İngilis variantı: "After **meat mustard**" - hərfi tərcüməsi: "Ətdən sonra xardal".
Azərbaycan variantı: "**Toydan** sonra **nağara**".
3) İngilis variantı: "Necessity is the **mother** of invention" - hərfi tərcüməsi: "Vaciblik ixtiramın anasıdır".
Azərbaycan variantı: "Ehtiyac təkamülün **babasıdır**".
4) İngilis variantı: "**No pains**, **no gains** - Zəhmət yoxdursa, mənfəət olmaz".
Azərbaycan variantı: "İşləməyən dişləməz".
5) İngilis variantı: "Fall out of **the pan** into **the fire** - hərfi tərcüməsi: "Tavadan hoppandıq, oda düşdük".
Azərbaycan variantı: "**Yağışdan** çıxdıq **yağmura** düşdük".
6) İngilis variantı: "He sets **the fox** to keep **the geese** – "Tülküyə mane olsan qazı qoruyarsan".
Azərbaycan variantı: "**Qoyunu qurda** tapşırma".
7) İngilis variantı: "One **swallow** does not make **a summer**" - hərfi tərcüməsi: "bir qaranquş yay gətirə bilməz".
Azərbaycan variantı: "**Bir gül** ilə **yaz** olmaz".

8) İngilis variantı: "Kill **two birds** with **one stone** - hərfi tərcüməsi: "Bir daşla iki quş öldür".
Azərbaycan variantı: "**Bir güllə** ilə **iki dovşan** vurmaq".
9) İngilis variantı: "Like f**ather** like **son** - hərfi tərcüməsi: "Atası necə oğlu da elə".
Azərbaycan variantı: "**Ot kökü** üstə bitər".

Beləliklə, atalar sözləri dili öyrənilən ölkənin mədəniyyəti ilə yaxından tanış olmağa, ayrı-ayrı xalqların mədəniyyətləri arasında əlaqələr yaratmağa, xarici dilin daha dərindən və daha keyfiyyətli, daha bədii, daha obrazlı şəkildə mənimsənilməsinə imkan yaradır. İngilis və Azərbaycan atalar sözlərinin məna çalarlarının müqayisəli təhlili onu deməyə imkan verir ki, bu ölkələr coğrafi baxımdan çox uzaq məsafədə olsalar da, bu xalqların milli düşüncələrində, dünyaya baxışlarında fərqli cəhətlərin olması ilə bərabər, müəyyən oxşarlıqlar da vardır. Bu oxşar və fərqli cəhətləri geniş oxuculara, tələbələrə çatdırmağın ən bariz yollarından biri də, bizə elə gəlir, məhz atalar sözlərinin öyrənilməsi və onların nitq prosesində istifadə edilməsidir.

Acar sözlər: atalar sözü, məna çaları, oxşar cəhətlər, fərqli cəhətlər

İstifadə edilmiş ədəbiyyat

1. Abasquliyev T. İngilis atalar sözləri və onların azərbaycanca, rusca qarşılığı. Bakı: 1981.
2. Əhmədova X., Rəhimov İ. Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət. Bakı: 1962.
3. Буковская М.В., Зайцева Л.П. Словарь употребительных английских пословиц . М.: 1985.
4. Hüseynzadə Ə. Atalar sözü. Bakı: 1972.
5. Кунин А.В. Фразеология современного английского языка. М.: 1972.
6. Стефанович Г.А., Терещенко О.Е. Английский язык в пословицах и поговорках. М.: 1987.

Сарраф Мирзоев

ОТТЕНКИ ЗНАЧЕНИЙ ПОСЛОВИЦ НА АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Резюме

В статье отмечается использование пословиц в процессе обучения и повышения качества речевых навыков. Автор сравнивает пословицы на английском и азербайджанском языках. По мнению автора, пословицы имеют одинаковые и разные значения в этих двух языках. Отмечается, что важным способом информировать студентов об их сходствах и различиях - это использовать их в разговорной речи.

Ключевые слова: пословица, оттенки значений, сходства, различия

Sarraf Mirzayev

SHADES OF MEANING OF PROVERBE IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

Summary

The article notes that the use of proverbs in the learning process serves to improve the quality of speech skills. The author compares proverbs in English and in the Azerbaijan language. According to the author, proverbs have similar and different meanings in boath languages. It is noted that the important way to inform students of the proverbs similarities and differences is to use the proverbs in evryday speech.

Key words: proverb, shades of meaning, similarities, differences

UOT - 316.33

İlham Soltanov
AMEA Fəlsəfə və Hüquq İnstitutu

YENİLƏŞƏN AZƏRBAYCANDA MİLLİ İDEOLOGİYA MƏSƏLƏSİ

Müasir dövrdə Azərbaycanda milli ideologiya problemi müxtəlif informasiya vasitələrində, alimlərin, siyasətçilərin, ideoloqların yazılarında, çıxışlarında, ideologiyanın müxtəlif problemlərinə (millətçilik, turançılıq, türkçülük, azərbaycançılıq, islamçılıq, müasirlik prinsiplərinin mahiyyətinin açılması və s.) həsr edilmiş müxtəlif xarakterli yığıncaqlarda–konfranslarda, simpoziumlarda, diskussiyalarda çox intensiv müzakirə olunur. İdeoloji müzakirələr insanların dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Kommunist ideologiyasının məhv olmasından sonra yaranan ideoloji boşluğu doldurmaq cəhdləri, köhnə ideoloji stereotiplərlə yeni ideyaların qarşıdurması, ictimai şüurun xaricdən əxz edilən yeni ideologiyaları qavramağa hazır olmaması bu cür ideoloji axtarışların və keçirilən tədbirlərin siyasətə yenicə qoşulan gənclərin siyasi savadlanması üçün çox böyük faydası vardır.

XXI əsr fəlsəfəsinin xüsusiyyətlərindən biri onun çətinliklə, mürəkkəb və gərgin yol keçərək ideoloji pressinqdən azad olmasıdır. Uzun müddət sosialist ölkələrinin tədqiqatçıları istədikləri mövzunu tədqiq edə bilməmişlər. C.P.Sartrın, M.Haydeggerin, P.Feyerbandın, Fanonun və b. əsərləri "imperializm agentləri və qullarının" və yaxud "təftişçilərin", "mistiklərin" əsərləri kimi qələmə verilirdi. Tədqiqatçıların ideoloji möhürdən azad olması üçün xeyli vaxt lazım gəlmişdi. Avropa və Amerika alimlərinin əsərlərinin tərcümə olunması və ondan bəhrələnmə 90-cı illərdən güclənməyə başladı. Nəticədə böyük filosofların tərcümə olunmuş əsərləri geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandı. Beləliklə, tədqiqatçılar marksist metodologiyadan uzaqlaşaraq ümumbəşəri fəlsəfi nailiyyətlərə yiyələnməklə cəmiyyətdə baş verən hadisələri, o cümlədən ideoloji problemləri obyektiv və düzgün analiz etmək imkanı əldə etdilər.

İDEOLOGİYA FƏLSƏFİ-SİYASİ GÖRÜŞLƏR SİSTEMİ KİMİ

Alimlər ictimai şüurun əsas struktur komponentləri kimi ideologiyanı, ictimai psixologiyanı və elmi-nəzəri şüurun müxtəlif formalarını ayırırlar. İdeologiya fəlsəfi, siyasi, sosioloji, iqtisadi, əxlaqi, dini, bədii və digər görüşlər sistemidir. Fəlsəfənin cəmiyyətşünaslıq cəhətləri onun ideologiya ilə əlaqəsini üzə çıxarır. Bütün ictimai elmlər bu və ya digər dərəcədə ideolojidir. O cümlədən fəlsəfə də ideoloji cəhətlərə malikdir. Bu mənada ideologiya ilk növbədə fəlsəfi görüşlər sistemidir.

İdeologiya termini hazırda cəmiyyətin və ya sosial hərəkatın müxtəlif təbəqələrinin maraqlarını, dünyagörüşünü, ideallarını ifadə edən ideyalar sistemi mənasını verir. İdeologiya terminini ilk dəfə XIX əsrin əvvəllərində fransız filosofu və iqtisadçısı A.Destyut de Trasi özünün "İdeologiya elementləri" (1801) əsərində işlətmişdir. O, ideologiyaya ideyalar haqqında elm kimi məna vermişdir. Fransız aliminin fikrincə, ideologiya hissi təcrübədən yaranan ideyaların meydana gəlməsi və inkişafı haqqında elmdir. Onun davamçıları Kabanis "İnsanın fiziki və əxlaqi təbiətinin nisbəti", Volney isə "Əxlaqın fiziki prinsipləri" əsərində həmin iddiada olublar. Deməli, ideologiya terminin ("idea" və "logos") birinci mənası ideyalar haqqında elm deməkdir. Az sonra terminin etimoloji mənası unudulmuş və ideologiya mövcud ictimai quruluşu saxlamağa və ya onu dağıtmağa yönəlmiş ideyalar toplusu, sistemi mənasında istifadə edilmişdir. XIX əsrin ortaları üçün isə ideologiya cəmiyyətin həyatında ideal amillərin həlledici rolunu qəbul edən fikir və siyasi cərəyan mənasını almışdır [1, s.17]. Müasir mənada ideologiya dedikdə, insanların yaşadıqları mühitə və bir-birinə münasibətinə, siyasi, sosial-iqtisadi və mənəvi quruluşa olan baxışlar və ideyalar məcmusu kimi başa düşülür. Nəzəri cəhətdən az-çox dərəcədə sistemləşdirilmiş bu ideyalar və baxışlar məcmusu ya dəstəkləyici, ya da rəddedici mövqelərdə olur.

Müasir sosioloji cərəyanlara görə, ideologiya kollektiv inam və düşüncə səviyyəsinə qalxmış fikir və ideyaların məcmusudur. Onun siyasi cəhəti sosial gerçəkliyə spesifik münasibət ifadə edil-

məsində üzə çıxdığından, ideologiyanın təsvir etdiyi gerçəkliyə uyğunluğu tam olmaya bilər və hətta ideologiya gerçəkliyi təhrif edə bilər. K.Manheym ideologiyanı reallığı qeyri-adekvat əks etdirən ideyalar məcmusu sayırdı [14, s.126]. Bu fikrə M.Veberdə də rast gəlmək olur. Onlar ideologiyanı həm də birliklərin inteqrasiyası kimi şərh edirlər [23, s.83]. K.Manheym marksizm klassikləri kimi, ideologiyanı sinfi meyilli şüur hesab edir və göstərir ki, ideologiya myəyyən sinfi, sosial şəraitlə və maraqlarla bağlı olduğundan gerçəkliyin elmi cəhətdən dərk edilməsinə iddia edə bilməz və bu mənada, bəşər tarixində heç bir ideologiya elmi olmamışdır. Sosial həyatı yalnız siniflərin fövqündə duran ideologiya obyektiv əks etdirə bilər (məsələn, yaradıcı ziyalılar) [14, s.157]. Lakin bu idraki məhdudiyyətlərinə baxmayaraq, ideologiya müəyyən kollektiv şüur dəyərlərinə əsaslanan qrup ideyası kimi cəmiyyət həyatında mühüm funksiyaları yerinə yetirir. O hər hansı bir sinfin və ya ictimai qrupun tələbatlarını ifadə edir, onları öz maraqlarını müdafiə etməyə səfərbər edir.

İdeologiya ilə siyasət bir-birilə sıx əlaqədədir. Bu əlaqədən bəhs edən Amerika nəzəriyyəçisi H.Morqentaunun fikrincə, siyasətin mahiyyəti siyasətçinin öz fəaliyyətinin məqsədlərini bilavasitə pərdələmək üçün istifadə etməsini tələb edir [9, s.4]. Digər Amerika alimləri isə hesab edirlər ki, ideologiya siyasi inkişafın məqsədlərini və dəyərlərini işləyib hazırlayır (L. Sadjent), ideologiya həmişə status kvoya (mövcud vəziyyətə) qarşı istiqamətlənir və mühüm dəyişdirici potensialın saxlanmasının siyasi amilidir (F.Uotkins). R.Moska, R.Mixels, V.Pareto və b. siyasi ideologiyanın məzmununu həddən artıq geniş mənada qəbul edərək, dini və estetik şüur formalarını da onun təzahürü hesab edirdilər [17, s.54]. Dar mənada isə bu, ideologiyanın yayılması prosesi, kütləvi şüurda hakim ideologiyaya çevrilməsi, habelə hər bir adamın şüuruna hakim kəsilməsi deməkdir. İdeologiyanın cəmiyyətin həyatı ilə üzvi bağlılığı haqqında ideyanı T.Adorno və onun ardıcılları inkişaf etdirmişdir. Onların tənqidi nəzəriyyəsinə görə, ideologiya marksistlərin dediyi kimi, iqtisadi bazis və dövlət üzərində üstqurum deyil, müəyyən cəmiyyət tipinin ayrılmaz hissəsidir. İdeologiyanın təsir gücü ənənələrə, insanların gündəlik təcrübəsinə, habelə kütləvi şüurun dövlət və qeyri-dövlət institutlarının (televiziya, radio, mətbuat, məlumat və reklam agentlikləri) bütöv sisteminə əsaslanır [2, s.137].

İdeologiya terminin və onun haqqında təsəvvürlərin XVIII əsrdə təzahürünə baxmayaraq bəzi tədqiqatçılar iddia edirlər ki, ideologiya dövrü köhnə Avropanın süqutu və müasir dünyanın yaranması ilə başlayır. Məsələn, Fransız nəzəriyyəçisi R.Aron və Amerika tədqiqatçısı D.Bell ideologiyanın təzahürünü XVIII və XIX əsrlərdə Avropada dini etiqadın tənəzzülü və həmin dövrdə "ziyalı sinfinin" formalaşması ilə əlaqələndirirlər [3, s.208]. İdeyalar sistemini fərdlərin şüuruna yeritmək üsullarının tədqiqatçıları ideologiyanın təşəkkülünü F.Bekonun xidməti kimi qiymətləndirirlər. Onların fikrincə, Bekon insan zəkasının gerçəkliyi təhrif etmədən onu dərk edə bilməməsini izah etməyə səy göstərmişdir. Bekon dövrü tədqiqatçılar tərəfindən ictimai sərvətlərin "vahid" sisteminin dağılmasının başlanğıcı, müxtəlif ideologiyaların təşəkkülü kimi mənalandırılır.

Ən ümumi planda ideologiya dedikdə mühüm xüsusiyyəti ictimai qrupların mənafeləri və cəhdləri ilə funksional əlaqədən ibarət olan görüşlərin sistemləşdirilmiş məcmusu başa düşülür. Lakin sinfi maraqları ifadə etməyən ideologiyalar da mövcud olmuşdur (məsələn, anarxizm ideologiyası şəxsiyyətin maksimal azadlığı tərəfdarlarının cəhdlərini ifadə edir). Müasir mərhələdə sənayejə inkişaf etmiş demokratik ölkələrdə sinfi fərqlərin itməsi ilə bağlı olaraq ön plana postmaddi dəyərlər keçir (məsələn, "yaşıllar" ideologiyasında).

İdeologiya müxtəlif formalarda (siyasi, iqtisadi, dini, hüquqi və b.) ifadə oluna bilər. İdeologiya o zaman yetkin, inkişaf etmiş hesab olunur ki, siyasi ideologiyaya çevrilir. Dünyagörüşünü formalaşdırmağa yönəlmiş və onun əsasında duran ideologiyalar geniş yayılır və "total" ideologiyalar (Manheym) adlandırılır [14, s.115]. Bu cür ideologiyalara liberal, kommunist ideologiyalarını aid etmək olar. Dünyagörüşünün geniş spektrini əhatə edə bilməyən ideologiyalar isə "xüsusi" ideologiyalar adlandırılır. Məsələn, müəyyən qrupların kənd təsərrüfatı istehsalçısına möhkəm dövlət dayağı yaradılması, kənd yerlərində müasir infrastrukturun inkişaf etdirilməsi və ətraf mühitin mühafizə edilməsi kimi tələblərini əsaslandıran (kəndli ideologiyası) və i.a. ideologiyalar "xüsusi ideologiyalar" hesab olunur.

Bütövlükdə tədqiqatçıların çoxu belə hesab edir ki, ideologiya bu və ya digər şəxslər qrupunun hakimiyyət iddialarına haqq qazandıran müəyyən doktrinadır və bu məqsədlərə uyğun olaraq ictimai rəyi öz ideyalarına tabe etdirməkdir.

İdeoloji sahə insanlar arasında ictimai münasibətlərin xüsusi növüdür. İdeoloji proses geniş mənada ideoloji fəaliyyət kimi başa düşülür. İdeoloji proses strukturunda ideoloji münasibətlər xüsusi yer tutur. İdeoloji proses ictimai münasibətlərin bütün məcmusuna təsir prosesini, ideyaların subyektlər arasındakı münasibətlərdə maddiləşməsini nəzərdə tutur. Sözün geniş mənasında ideoloji proses ideoloji fəaliyyət olub, ideologiyanın işlənib hazırlanmasını, onun saxlanmasını, yeniləşməsini və müdafiəsini ifadə edir. Sözün dar mənasında isə o, ideologiyanın yayılması, hakim ideologiyanın kütləvi şüura və eləcə də hər bir ayrıca fərdin şüuruna yeridilməsidir [7, s.218]. İdeoloji prosesin əsasını "ideoloji fəaliyyət" (ideologiyanın istehsalı və yayılması üzrə fəaliyyət), "ideoloji münasibətlər" (insanlarla siyasi institutların münasibətlərinin qurulması), "ideoloji təsir" və "ideoloji təsəvvür" təşkil edir. İdeoloji münasibətlər ideoloji fəaliyyətin və onun nəticələrinin mübadiləsi formasında mövcuddur.

İdeologiyalar idraki yükünə görə elmi və qeyri-elmi, həqiqi və yanlış, doğru və illüziyalı növlərə ayrılır. Sosial yönümlərinə və funksiyalarına görə isə ideologiya mütərəqqi və konservativ, inqilabi və islahatçı, liberal və radikal, millətçi və beynəlmiləlçi, habelə, sinfi, milli və irqi, dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar, uzunmüddətli və qısamüddətli və s. növlərə ayrılır. Rasional ideologiyalar əqli (idraki) mülahizələrə, irrasional ideologiyalar hissi intuisiyaya, ehtiraslara əsaslanır. İdeya və baxışları olduğu kimi qəbul edən bütün insanlar üçün açıq olan ideologiyalar universal ideyalar sayılır (məsələn, islam, xristianlıq universal mahiyyətə malikdir). Millətçi, irqçi ideologiyalar isə partikulyar ideologiyalar sayılır. Çünki həmin ideologiyaları qəbul edən insanların əhatə dairəsi əvvəlcədən müəyyənləşdirilir və onun genişləndirilməsi üçün imkan yeri qalmır [19, s.74]. İdeologiyalar tarixi taleyinə görə də fərqlənir. Uzun müddət tarix səhnəsindən çıxmayan ideologiyalarla (məsələn, dini ideologiya) yanaşı, müəyyən tarixi mərhələdə fəaliyyət göstərən, tez bir vaxtda yaddan çıxan ideologiyalar da olur. Fəaliyyət sferasına (coğrafi məkana) görə də ideologiyaları fərqləndirirlər. Məsələn, ideologiyaların bir qrupu bütün dünyanı əhatə etdiyi halda, digər qrupu ayrı-ayrı ölkələrdə, regionlarda yayılır.

Hər bir ideologiya cəmiyyətdə mövcud olan siyasi rejimlə sıx bağlıdır. İdeologiya ya mövcud ictimai quruluş və qaydaları müdafiə etmək vəzifələrinə xidmət göstərir, ya da onu dəyişdirmək istiqamətində qərar tutur. Demokratik cəmiyyətlərdə çoxsaylı ideoloji cərəyanlar bir-biri ilə rəqabət halında fəaliyyət göstərir, totalitar sistemlərdə isə müxtəlif ideoloji cərəyanların sərbəstliyi qadağan edildiyindən, rejimə qarşı müxalifətdə olan ideologiyalar çox zaman qeyri-leqal şəkildə yayılmağa, insanları birliklər və partiyalar şəklində birləşdirməyə məcbur olur [11, s.141].

Siyasi şüurun təbiətindən danışdıqda qeyd etmək lazımdır ki, onun məzmunu, forma və tipləri hakim siyasi sistemlərlə bilavasitə əlaqəlidir. Siyasi şüur siyasi fəaliyyətin üzvi hissəsidir və "siyasi fəaliyyət formasında təzahür edir". İnsanların siyasi fəaliyyət praktik və mənəvi fəaliyyətdir. M.Veberin sözləri ilə desək, siyasət insanın bədəninin digər üzvləri tərəfindən deyil, başla həyata keçirilir. Siyasi həyat özündə praktikanın müəyyən formaları və siyasi şüurun müxtəlif təzahürlərinin dialektik surətdə çulğalaşmasını əks etdirir [23, s.94].

Həm ideologiya, həm də siyasət cəmiyyətin sosial-iqtisadi münasibətləri ilə şərtlənir. Qeyd etmək lazımdır ki, ideologiya da, siyasət də konkret təbəələrin, birliklərin mənafeyinə xidmət göstərir və hər ikisi hakimiyyət münasibətlərinə yönəlməsi ilə fərqlənir. Siyasi ideologiya siyasi fəaliyyətin nəzəri əsası kimi çıxış edir. Eyni zamanda, siyasi ideologiya siyasi hərəkatı birləşdirən amildir.

XX əsrin ortalarından başlayaraq beynəlxalq aləmdə gərginliyin yumşalması bəzi alimlərin ideologiyanın sonunun çatdığını bəyan etməsinə səbəb oldu. Belə bir fikir hakim idi ki, ənənəvi cəmiyyətlərdən fərqli olaraq industrial cəmiyyətlərdə sosial stratifikasiyada olan dəyişikliklər, əhalinin proletarsızlaşması, sosial qayda-qanunun əsası olan sosial sülhün, barışığın bərqərar olması ilə sosial münasibətlərdən ideoloji ölçülər də götürülmüş olur, yəni Amerikan təbliğatçısı, sosioloq D.Bellin sözləri ilə desək "ideologiyanın sonu gəlib çatmışdır" [3, s.227]. E.Şelz isə "ideologiyanın

sonu" konsepsiyasını ifadə etmək üçün "ideologiyasızlaşma" terminini elmə gətirdi. İndustrial cəmiyyətin ideologiyanın təsirindən bu cür azad olması "ideologiyasızlaşma" adını aldı. Bu öz əksini D.Bellin, C.Ellyulun "ideologiya nə qədər az olsa, o qədər yaxşıdır" prinsipində tapdı. İdeologiyasızlaşma tərəfdarlarının sayı artdı və bu sıraya məşhur Raymond Aron da qoşuldu [2, s.165].

Azadlıq və demokratiya kimi ümumbəşəri dəyərlər bu gün dünyanın hər yerində birmənalı olmadığı kimi, dünyanın bütün siyasi sistemlərinin siyasi simvolu da müxtəlif ideoloji rəng kəsb edir. Siyasi həyatın ideologiyasızlaşmasına çağırış əslində siyasi həyatın yenidən ideologiyalaşmasını, yəni marksist cərəyanlı sosialist ideologiyasının öz sosial xarakteri və istiqamətinə görə başqa ideologiya ilə - liberal-demokratik, dini, antikommunist ideologiya ilə əvəz edilməsini nəzərdə tuturdu.

Hakim və müxalif statusa malik olan ideologiyaların sosial imkanlarının, sosial yönümlərinin, siyasi məqsədlərinin (biri hakimiyyəti saxlamaq, ondan istifadə edərək cəmiyyəti idarə etmək, ikincisi isə hakimiyyətə gəlmək məqsədilə iqtidarı tənqid etmək məqsədini güdür), sosial gerçəkliyə və ölkədəki vəziyyətə münasibətlərinin (iqtidar ideologiyası gerçəklikdəki müsbət cəhətləri şişirtməyə, mənfi cəhətlərəi isə kiçiltməyə, ya da heç görməməyə, müxalif ideologiya isə əksinə, nöqsan və çatışmazlıqları şişirtməyə, özünün təklif etdiyi ideya və prinsipləri utopikləşdirməyə meyillidir) müxtəlif, fərqli, çox hallarda isə zidd olmasına baxmayaraq, ideologiyaların funksional yükündə bir ümumilik müşahidə olunur. Bu ümumilik ideologiyanın funksiyalarını müəyyən etmək üçün zəmin yaradır [4, s.115].

İdeologiyanın ümumi və siyasi funksiyaları vardır. Bu funksiyalara aşağıdakılar aiddir:

- tarixi prosesin mahiyyəti, onu təyin edən amillər, sosial qurumlar və strukturların fəaliyyəti və idarəetmə haqqında optimal saydığı ideya və prinsiplərin müəyyənləşdirilməsi;
- ideologiyanın daşıyıcısı olaraq siyasi qüvvənin fəlsəfi-dünyagörüşü əsaslarının hazırlanması;
- keçmişin, indinin və gələcəyin qiymətləndirilməsi meyarının müəyyənləşdirilməsi;
- rəhbər tutduğu ideya və prinsiplərin doğruluğu və səmərəli olacağını əhaliyə təsdiqləmək üçün ictimai şüura təsir mexanizmi və vasitələrinin hazırlanması;
- hakimiyyətin saxlanması və fəaliyyəti (hakim ideologiya üçün), yaxud hakimiyyətə gəlmə uğrunda (müxalif ideologiyalar üçün) mübarizə prosesini təşkil etmək.

Bu funksiyaların müəyyən edilməsində ideologiyanın hansı məqsəd və vəzifələrə xidmət göstərdiyi, cəmiyyətin həyatında oynadığı rol əsas götürülür. Reallığın özünəməxsus obrazının yaradılması, ictimai şüurun zəbt edilməsi, ictimai şüura yeni dəyərlərin tətbiq edilməsi, təbliğ edilən cəmiyyətin modelinin yaradılması və s. ideologiyanın ümumi funksiyalarına daxildir. İdeologiya həmin funksiyaları yerinə yetirməklə ictimai şüurun konkret forması kimi dərketmə, qiymətləndirmə və proqnozlaşdırma vəzifələrini özünəməxsus şəkildə həyata keçirmiş olur. Cəmiyyətin siyasi inkişafının istiqamətlərinin və başlıca aparıcı qüvvələrinin müəyyən edilməsi, ideologiyanın daşıyıcılarının və tərəfdarlarının vahid məqsədi həyata keçirmək uğrunda səfərbər edilməsi, ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi və s. ideologiyanın siyasi funksiyalarına daxildir.

AZƏRBAYCANDA MİLLİ İDEOLOGİYANIN FORMALAŞMASININ MƏNƏVİ-İDEOLOJİ ƏSASLARI

Müasir dünyada təzahür edən və böyük rol oynayan ideoloji cərəyanlardan biri də milli ideologiyadır. Nasionalizm (millətçilik) bir millətin gücləndirilməsinə yönəlik ideoloji sistem kimi düşünülüb.

Azərbaycanın milli ideologiyasının tarixən formalaşmasında böyük xidmətləri olmuş M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, N.Nərimanov, Ü.Hacıbəyov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə. Rəsulzadə kimi görkəmli şəxsiyyətlərin adlarını da çəkə bilərik. Ancaq çox güman ki, ümumi bir məfkurə, milli dirçəliş və tərəqqi naminə çalışanlar üçün daxili dialoq, seçimetmə, götür-qoy və bütün bunların nəticəsində "ümumi məxrəc"in tapılmasına cəhd və fəallıq daha xarakterik olmuşdur. Demokratik cəmiyyətlərdə fikir plüralizmi hakim olduğu üçün milli ideologiyaya ehtiyac olmur. Totalitar və avtoritar rejimlərdə, keçid dövrü şəraitində, başqa bir sıra hallarda dövlət tərəfindən dəstəklənən bir ideoloji görüş (məsələn, doktrina şəklində və s.) ümummilli ideologiya kimi qəbul oluna bilər.

Müasir qloballaşma şəraitində milli mənəvi dəyərlərimizin qorunması milli ideologiyanin formalaşması ilə mümkündür [8, s.81].

Milli ideologiyanın inkişafı tarixən orta əsr strukturlarının dağılması və yeni ictimai-iqtisadi quruluşun təşəkkülü ilə əlaqədardır. Bu mənada millət ideyası yeni dövrün demokratiyasının hüquqi və ideoloji-əxlaqi cəhətdən əsaslandırılmasıdır. Milli birliklərin təşəkkülü prosesinin təzahür etdiyi ölkələrdə mono və ya yarımetnik əsasda dövlətin möhkəmləndirilməsi həyata keçirilir. Praktika təsdiqləyir ki, həmin prosesdə milli ideologiya ciddi siyasi rol oynayır.

Milli ideologiyalar hər bir ölkənin, xalqın inkişafının müəyyən mərhələsi üçün – milli birliyin yarandığı, milli psixologiyanın, milli mənlik şüurunun və özünüdərkin formalaşdığı, monoetnik və ya polietnik əsasda dövlətçiliyin yarandığı mərhələ üçün önəmli ideologiyadır. Təsadüfi deyil ki, müstəmləkəçilikdən azad olmuş və ya imperiyanın dağılması nəticəsində müstəqilliyini qazanmış xalqların (keçmiş SSRİ ərazisindəki bir çox xalqların, Yuqoslaviya Federasiyasında yaşayan xalqların) milli özünütəsdiqi və milli özünüreallaşdırması üçün milli ideologiyaların rolu sıçrayışla artdı. Bu prosesdə dini-konfessional amilin də rolu var ("xristian qardaşlığı", "islam qardaşlığı", Hindistanda siqhizm və s.). Hazırkı şəraitdə postsovet məkanında – Yuqoslaviyada, Rusiyada, keçmiş SSRİ-nin əksər respublikalarında milli ideologiya cəmiyyətin siyasi həyatında myəyyənedici rol oynayır. Bütövlükdə ideologiyanın milli tipi vətəndaşların siyasi tələblərini ifadə edir, onların sosial statusunu milli mənsubiyyətlə yüksəltməyə istiqamətlənir [13, s.34].

Millətçilik ideologiyası - millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güclənməsini şərtləndirir. Millətçilik ideologiyası rasional-pozitiv çalardan tutmuş mürtəce-şovinist çalarlaradək çox mürəkkəb və qeyri-yekcins təbiəti ilə fərqlənir. Milli mənafeləri obyektiv şəkildə əks etdirən mütərəqqi xarakterli milli ideologiyalar etnik birliyin sosial-siyasi və mənəvi yüksəlişinə güclü təkan verdiyi halda, millətin tələb və ehtiyaclarını təhrif edilmiş şəkildə ifadə edən, şovinist-mürtəce, separatçı məqsədlər güdən millətçilik ideologiyaları isə əksinə, xalqlar arasında nifaq salaraq ictimai-siyasi sabitliyin, sülh və əmin-amanlığın dayaqlarını laxladır, sosial tərəqqinin qarşısında əngələ çevrilir. Yeni və ən yeni tarixi dövr burjua tarixşünaslığında millətçilik dövrü kimi də xarakterizə olunur. Böyük Fransa inqilabından sonra Avropa ölkələrinin əksəriyyəti millətçiliyi və şovinizmi dövlət siyasəti səviyyəsinə qaldırmışdı. Eyni proses tədricən Şərqə köçərək milli azadlıq hərəkatlarına güclü təkan vermişdir. Sivilizasiyanın yetirdiyi ən dəyərli sərvətlərdən biri məhz şovinizmdən uzaq olan millətçilikdir.

Azərbaycan milli ideologiyası Azərbaycanda yaşayan yerli xalqların vahid dünyagörüşünə çevrilməli, bu ideologiya Azərbaycan dövlətçiliyini möhkəmləndirib inkişaf etdirməlidir. Azərbaycanın əsas milləti olan türklərlə azlıqda qalan, lakin tarixən bu torpaqda yaşayan xalqlar vahid Azərbaycan xalqını təmsil edir. Yeri gəlmişkən qeyd edək ki, əsas millət, adətən, bu və ya digər ərazidə sıx şəkildə yaşayan, mövcud dövlət birliyi onun adı ilə adlandırılan millət hesab olunur. Qeyri-əsas millətlərə isə əsas millətlərin ərazisində yaşayan azlıqlar (qruplar) daxildir.

Milli ideologiya ilə, yəni millətçiliklə stimullaşan siyasi hərəkat bəzi ölkələrdə millətlərarası münaqişələrin həllinə, mədəni yekcinsliyin güclənməsinə imkan yaratmaqla cəmiyyətin inteqrasiyasını şərtləndirir. Digər ölkələrdə isə separatizmə və etnik hegemonluğa rəvac verməklə (məsələn, Ermənistandan azarbaycanlıların zorla köçürülməsi, Bosniyada serblərin hərəkatı və s.) millətçilik cəmiyyətin bütövlüyünə xələl yetirir, siyasi idarəçiliyin sabitliyini pozur. Qeyd edək ki, milli ideologiya dövlətlərəarası (məsələn, Türkiyə-Azərbaycan) münasibətlərin möhkəmləndirilməsinin mənbəyi kimi də çıxış edə bilər.

Milli məsələ millətlərin qarşılıqlı əlaqədə olan inkişaf problemləri sistemini və milli münasibətləri səciyyələndirir. Müasir dövrdə milli məsələnin məzmunu bütün millətlərin azad və hərtərəfli inkişafından, onların əməkdaşlığının genişlənməsi və milli mənafelərinin ahəngdar surətdə əlaqələndirilməsindən ibarət olmalıdır. Sözsüz ki, milli məsələ sivil və demokratik yolla tənzimlənməlidir. Lakin bu heç də azlıq təşkil edən millətlərin bəzisinin, məsələn, Azərbaycan ərazisində yaşayan, onun vətəndaşı sayılan Dağlıq Qarabağ ermənilərinin özbaşınalığı ilə hesablaşmağı nəzərdə tutmur. Milli azlıq kimi ermənilərin dövlət daxilində "dövlət" yaratmaq cəhdləri heç bir hüquqi normaya

uyğun gəlmir. Belə qeyri-qanuni və qeyri-insani cəhdlər vaxtında bütün vasitələrlə aradan qaldırılmalıdır. Etnik oyanma ilə etnik iddianı fərqləndirmək lazımdır. Ermənisayağı etnik ərazi iddiaları – milli həyasızlıq mütərəqqi etnik oyanma anlayışı ilə heç bir mənada, heç bir səviyyədə bir araya sığmır.

Millətçi və separatçı siyasət, eləcə də böyük dövlətçilik şovinizmi nəticə etibarilə milli münaqişələrə gətirib çıxarır. Millətlərarası münaqişələrə sosial-iqtisadi, mədəniyyət və dil, ərazi status, separat münaqişələr daxildir. Bu münaqişələri bəzi avantürist siasətçilər də yarada bilir. Münaqişədə iştirak edən tərəflərin hərəsi öz mövqeyini, tələblərini müxtəlif ideoloji vasitələrlə irəli sürürlər. Bunun da nəticəsində konfliktlər dərinləşib yeni mərhələyə qədəm qoyur, daha çox və yeni qüvvələri öz ətrafında toplayır. Bu məqsədləri başa düşməyən xalq həmin münaqişələrə cəlb olunur və siyasətçilərin millətin mənafeyindən yüksək duran cılız şəxsi niyyətinin qurbanı olur.

Millətçilikdə etnik (kultural) və vətəndaş (siyasi) millətçiliyi fərqləndirmək lazımdır. Belə ki, kultural millətçilik yerli dili, ənənəvi həyat tərzini, adətləri və s. saxlamaq tərəfdarı kimi çıxış edir. Vətəndaş millətçiliyi isə hər şeydən əvvəl siyasi muxtariyyəti və suvereniteti qoruyub saxlamaq uğrunda mübarizə aparır. Türkçülük kultural millətçiliyə, azərbaycançılıq isə vətəndaş millətçiliyinə aid edilə bilər. Təqribən bu cür mövqedən çıxış edən digər tədqiqatçıların fikrincə, "milli ideologiya" və "millətçilik ideologiyası" terminlərini fərqləndirmək lazımdır [18, s.184]. Onlar öz fikirlərini belə əsaslandırırlar ki, "milli" anlayışı ilə "millətçilik" anlayışını qarışdırmaq düzgün deyildir. Belə ki, "millətçilik" anlayışı bir millətin keyfiyyətlərini şişirtmək, nöqsanlarına isə göz yummaq yolu ilə onu digər millətlərə qarşı qoymaqdırsa, "milli" anlayışı millətin öz milli mənliyini, milli şüurunu, mədəniyyətini, dinini, tarixini, adət ənənəsini və s. layiqincə qiymətləndirilməsini, bununla yanaşı digər millətlərə də hörmət və ləyaqətlə yanaşmasını ifadə edir. Dar mənada "millətçilik" anlayışı hər hansı bir millətə olan mənsubiyyəti, milli dili, mədəniyyəti, milli psixologiyanı, mənlik şüurunu ifadə edirsə (məsələn, milli dil, milli psixologiya, milli mənlik şüuru, milli təəssübkeşlik, milli mentalitet, milli özünüdərk, milli mənsubiyyət və s.), "milli" anlayışı "dövlət" anlayışı ilə sinonim (milli iqtisadiyyat, milli ordu, milli sərhədlər, milli ərazi, milli komanda və s.) işlənir. Müasir mənada ideologiya cəmiyyətin onun siyasi sisteminin iqtisadi, siyasi, ictimai və mənəvi fəaliyyətində əsas kimi qəbul etdiyi və rəhbər tutduğu ideya və prinsiplərin cəmini ifadə edir. Məhz bu səbəbdən də ideologiya heç vəchlə sözün dar mənasında tamamilə milli məzmun ala bilməz. Bu, ideologiyanın məhdudlaşdırılması və cılızlaşması, ucuz populist məzmun alması olardı. Hər bir cəmiyyətin müxtəlif həyat sahələrinin idarə edilməsi konkret ölkənin bütün spesifik cəhətləri nəzərə alınmaqla bəşəri ideya və prinsiplər, bu ideya və prinsiplərin zəminində duran sosial, siyasi və iqtisadi qanunlar əsasında həyata keçirilməlidir. Bir cəhəti də qeyd etmək lazımdır ki, milli ideologiyanın rolunu mütləqləşdirmək olmaz, o müvəqqəti və keçicidir [22, s.235]. Ümumiyyətlə, heç zaman, heç yerdə xalis milli ideologiya ola bilməz. Hər xalq, hər ölkə xalqlar və sivilizasiyalar şəbəkəsində yaşayır, onlar bir-birindən təcrid ola bilməzlər. Yalnız milli ideologiyaya qapanmaq cəhdi faciələrlə nəticələnə bilər.

Millətçilik tez-tez siyasi və etnik vahidlərin birləşdirilməsi tələbinin prinsipi kimi şərh olunur, eləcə də mövcud siyasi vahidlər daxilində idarə edənlərin və idarə olunanların eyni etnosa mənsub olması kimi əsaslandırılır. Milli ideologiyaya belə mövqedən yanaşmaq millətin yaradıcı surətdə özünü açıqlaması sferası, xalqın özünü tənzimləməsinin və inkişafının güclü vasitəsi kimi izah olunur. Yeri gəlmişkən qeyd edək ki, son zamanlar Azərbaycanın vahid milli dövlət ideologiyasının formalaşdırılması zərurətindən danışılanda da əsas diqqət birləşdirici amill kimi ümummilli maraqları əks etdirən azərbaycançılıq ideologiyasının təbliğinə verilir. Cəmiyyətin müxtəlif sinif, təbəqə, etnos və qruplarının plüralist maraqlarının harmonik şəkildə milli ideologiyada birləşdirilməsi, dünya mədəniyyətinin mütərəqqi yenilikləri ilə harmonik vəhdətinə əsaslanaraq, demokratik prinsiplərlə ümummilli maraqları özündə birləşdirən yeni ideologiyanın yaranması vəzifə kimi göstərilir [1, s.56].

Azərbaycanda müstəqilliyin ilk illərində milli ideologiya probleminə yanaşmada müxtəlif fikirlər mövcud idi. Bəziləri islamda, digərləri türkçülükdə görürdü. Məsələn, belə fikirlər səslənirdi

ki, dövlətçilik, millətçilik, demokratizm və azərbaycançılıq ideyaları türkçülük və islamçılığı (islam fundamentalizmi istisna olmaqla) özündə birləşdirərək yeni bir xətt götürmək lazımdır.

Cəmiyyətimizin gələcək həyatında islam dini dəyərlərini yüksək tutmaqla müasirlikdən irəli gələn dünyəvlik prinsipi aparıcı olmalıdır. İnsanların həyatında, cəmiyyətin keçmişində, indisində və gələcəyində dinin oynadığı və oynayacağı rol nə qədər böyük olsa da, unudulmamalıdır ki, inam və etiqad hər bir vətəndaşın vicdan məsələsidir. Bu mənada, dindən siyasi məqsədlər üçün istifadə etmək heç cür məqbul sayılmamalıdır. Türkçülük prinsipi məhz azərbaycançılığı qoruyan prinsipdir. Azərbaycanın gələcəyini bu prinsipi yüksək tutan xalqımız qura bilər. Həm sosial, həm də coğrafi mənada konkret tarixi şəraitdən asılı olaraq aktuallaşan azərbaycançılıq türkçülyü tamamlayan prinsip olmalıdır. Beləliklə, bizim ideologiyamız azadlığa, dövlətçiliyə, ədalətə, türkçülüyə, azərbaycançılığa, müasirliyə və dünyəviliyə əsaslanan bir ideologiya olmalıdır. Azərbaycançılıq, əslində dövlət ideologiyası kimi milli-mənəvi dəyərlərin qorunmasında əsas amillərdən biridir [8, s.81].

İnsana öz həyatının mənasını anlamaqda, axtarıb-tapmaqda və reallaşdırmaqda fundamental əsası olan milli ideologiya, hər şeydən əlavə, insanda və cəmiyyətdə insanlıq uğrunda mübarizədir, vicdana və məsuliyyətə çağırışdır. Bu çağırış bir çoxları üçün nə qədər də arxaik, dəbdən düşmüş olsa da, onsuz heç bir dolğun, mütərəqqi həyat mümkün deyil.

Milli iedologiya məhz o fenomen-varlıqdır ki, bir tərəfdən, ictimai əhəmiyyətli, taleyüklü problemlər üzərində düşünməyi cəmiyyət üzvlərinə aşılayır, məna axtarışında və reallaşmasında insanı öz "həcm"indən kənara çıxmağa – transsendləşmə prosesinə sövq edir və burada ona yardımçı olur, digər tərəfdən unikal insan mövcudluğunun özü üçün oriyentirlər verir, istiqamətverici ideya və prinsiplər, təsəvvürlər sistemi ortaya qoyur.

AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov hələ 1997-ci ildə "İdeologiya və ictimai-siyasi fikir" adlı məqaləsində yazdığı kimi, müstəqilliyimizin ilk çağlarında "ideologiyasızlaşdırma kampaniyasının səbəblərindən biri, ümumiyyətlə, "ideologiya" anlayışının o vaxta qədər yeganə leqal ideoloji sistem olan kommunist ideologiyası ilə eyniləşdirilməsi idisə, digər səbəb dövlətin başında duran adamların yeni dövrün ümumi səciyyəsini vermək, siyasi, iqtisadi, mədəni inkişaf perspektivlərini müəyyənləşdirmək, xalqın, dövlətin ümummilli mənafeyini elmi şəkildə şərh etmək, mənəviyyatın bütün sahələrini əhatə edən ideyaları ümumiləşdirib konsepsiya səviyyəsinə qaldırmaq iqtidarında olmaması idi" [10, s.65].

Yeri gəlmişkən, milli ideologiyaya münasibətdə formalaşmış laqeydlik müəyyən qədər Sovetlər İttifaqının dağılması ilə bağlı olmuşdur, daha dəqiq desək, bu dağılma prosesini düzgün anlamamaq nəticəsində yaranmışdır. Bu günün özündə də çoxları belə düşünürlər: SSRİ yeganə və vahid bir hakim ideologiya – kommunist ideologiyası çərçivəsində yaşamağa iddialı və qərarlı olduğundan süquta uğradı və dağıldı, ona görə də, əgər biz demokratik cəmiyyət qururuqsa, rəsmi hakim ideologiya ola bilməz. Bəziləri isə, bir qədər də yanlışlığa vararaq və qabaqcıl ölkələrin inkişaf tarixindən səhv nəticə çıxararaq, deyirlər: "hər cür ideologiya buxovundan azad olmaq lazımdır", "cəmiyyətin mütərəqqi inkişafı onun ideologiyasızlaşdırılmasındadır".

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi" adlı məqaləsində yazır: "Ötən illərin tarixi təcrübəsi göstərmişdir ki, cəmiyyətdə canlı və anlaşıqlı ideya olmadıqda, dövlətin və millətin siyasi, iqtisadi və mənəvi inkişafının əsasları sayılan ideoloji oriyentirlər olmadıqda hökmən boşluq yaranır və o, müxtəlif və çox vaxt bir-birinə zidd, ənənəvi sosial-mədəni normalarla vəhdət təşkil etməyən siyasi nəzəriyyə və ideologiyaların qarışığı ilə dolur. Bu, dövlətçiliyin formalaşması prosesinə və millətin simasına mütləq təsir göstərir. 1991-1993-cü illərin praktikası göstərdi ki, dövləti kortəbii, situativ şəkildə idarə etməyə, ictimai şüuru zorakılıqla ideologiyasızlaşdırmağa can atmaq nəyə gətirib çıxara bilər. Odur ki, ideoloji sistemi cəmiyyəti mənən dirçəltməyə, onun yaradıcılıq potensialını gücləndirməyə, ictimai şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirməyə qadir struktur kimi qurmaq niyyəti Heydər Əliyev siyasətinin əsası olmuşdur" [15, s.457].

Müasir Azərbaycanın dirçəldilməsində və inkişafında, onun müstəqilliyinin və dövlət suverenliyinin möhkəmlənməsində, milli maraqların ardıcıl olaraq müdafiə edilməsində və reallaşdırılmasında,

milli inkişaf konsepsiyasının həm müəyyənləşməsində, həm də uğurla həyata keçirilməsində danılmaz xidmətləri olan dəyərli şəxsiyyətlərimiz dönə-dönə milli ideologiyanın vacibliyindən, əhəmiyyətindən, onun kəsb etdiyi məzmun-mahiyyətindən, səciyyəvi xüsusiyyətlərindən, məqsəd və vəzifələrindən, aparıcı ideya-prinsiplərindən danışmış, istiqamət vermişlər, eyni zamanda problemlə bağlı xeyli praktiki və nəzəri işlər görmüşlər.

Sözsüz ki, bugünkü Azərbaycan cəmiyyəti üçün milli ideya axtarışları mühüm əhəmiyyət kəsb edir, ona görə də milli ideologiyamızın nədən ibarət olacağı məsələsi bu gün istər ictimaiyyatşünas alimləri, istərsə də geniş xalq kütlələrini maraqlandıran məsələlərdən biri sayılır. Tədqiqatçıların bir qrupu demokratik cəmiyyətlərdə vahid ideologiyanın bərqərar olmasını absurd sayır. Azərbaycan vətəndaşlarının vahid bir ideya-siyasi xətt ətrafında birləşməsi zərurətini cəmiyyətimizin istər iqtisadi, istərsə də sosial-siyasi sahələrdə keçid dövrünü yaşaması, respublikamızın ərazisinin təcavüzə məruz qalması, qaçqınlıq, məcburi köçkünlük, işsizlik kimi sosial bəlalarla üzləşməsi ilə əlaqələndirir. Vahid milli ideologiyanın yaradılması cəmiyyətdə milli həmrəyliyin yaradılmasına xidmət etməlidir. Milli ideologiya azərbaycanlıların milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, respublikanın ərazi bütövlüyünün qorunub saxlanmasına, xarici təcavüzlərdən etibarlı müdafiə olunmasına və bu işdə etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların iştirakının təmin olunmasına xidmət etməlidir. Milli ideologiya, habelə azərbaycanlıların bir millət kimi formalaşmasına, azərbaycançılıq şüurunun bütün vasitələrlə inkişaf etdirilməsinə, Azərbaycan Respublikasına mənsubluq, onun maddi və mənəvi sərvətlərinin tam və bərabərhüquqlu sahib olmaq şüurunun möhkəmləndirilməsinə xidmət etməlidir.

Açar sözlər: azərbaycançılıq, modernləşmə, ideologiya, qloballaşma, dəyər

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanda yeniləşmə prosesinin sosial-fəlsəfi problemləri (məqalələr toplusu) / Bakı: "Elm", 1998,95 s.
2. Арон Р. Демократия и тоталитаризм / М.: Текст, 1993, 303 с.
3. Белл Д. Грядущее постиндустриальное общество: Опыт социального прогнозирования. Пер. с англ. под ред. В.Л.Иноземцева. М.: 1999, 956 с.
4. Бердяев. Философия свободного духа. М.: Республика, 1994, 450 с.
5. Берк Э. Размышления о революции во Франции // Социологические исследования, 1991, № 6, с. 114-121.
6. Бжезинский З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: Международные Отношения, 2000, 256 с.
7. Dahl R. Demokratiya haqqında. Bakı: Azərbaycan, 2004, 248 s.
8. Həsənov A. Milli ideologiya və milli mənəvi dəyərlər. Bakı: Təknur, 2013, 175 s.
9. Хеффе О. Плюрализм и толерантность: к легитимации в современном мире // Философские науки, 1991, № 12, с. 3-9
10. Xəlilov S.S. Fəlsəfədən siyasətə. Bakı: 1998, 340 s.
11. Kərimov Y. Demokratiya bəşəriyyətin bu günü və sabahı. Bakı: 2009, 387 s.
12. Qloballaşma və Azərbaycan mədəniyyəti / II Respublika elmi-praktiki konfransının materialları. Bakı: Araz, 2004, 440 s.
13. Гаджиев К.С. Консерватизм: современные интерпретации. / Научно-аналитический обзор. М.: ИНИОН, 1990, 50 с.
14. Мангейм К. Идеология и утопия // Утопия и утопические мышления. Пер. с общ. ред. В.А.Чаликовой. М.: Прогресс, 1991, 404 с.
15. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. I cild. Bakı: 2008, s. 457-458
16. Мельвиль А.Ю. Социальная философия современного американского консерватизма. М.: Политиздат, 1980, 143 с.

17. Михельс Р. Рабочие вожди пролетарского происхождения //Диалог, 1990, №18, с.53-56.
18. Parenti M. Seçilmişlər üçün demokratiya. Bakı, 2008, 512 s.
19. Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi (mühazirə kursu). Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2000, 318 s.
20. Смит А. Исследование о природе и причинах богатства народов (Вступ. статья и коммент. В.С.Афанасьева). М.: Соцэкгиз, 1962, 684 с.
21. Современный консерватизм / (К.С.Гаджиев, С.П.Перегудов, В.А.Скорорходов и др.; Отв. ред. С.П.Перегудов, В.А.Скорорходов); Рос. АН, Ин-т мировой экономики и междунар. Отношений. М.: Наука, 1992, 262 с.
22. Stiqlitz J. Qloballaşma və onun doğurduğu narazılıqlar / İngilis dilindən tərcümə. Bakı: Xəzri Ekspress MMC, 2004, 317 s.
23. Вебер М. Избранные произведения / Пер. с нем. Сост., общ. ред. и послесл. Ю.Н. Давыдова; Предисл. П. Гайденко. М.: Прогресс, 1990, 804 с.

Илхам Солтанов

РОЛЬ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ И ИНФОРМАЦИИ В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

РЕЗЮМЕ

В статье анализируются моральные и идеологические аспекты формирования национальной идеологии в Азербайджане, были выдвинуты мнения ученых и исследователей, изложивших свои взгляды и мнения по поводу этой сферы. Отмечено, что, в условиях модернизации должна быть связь между новыми и национально-нравственными ценностями. Развитие национальной идеологии имеет важное значение с точки зрения сохранения национально-нравственных ценностей и это служит обеспечению идеологической сохранности. В то же время отмечено, что национальная идеология должна служить обеспечению свободы и независимости, национальному развитию, сохранению территориальной целостности республики, надежной защиты от внешних агрессий.

Ключевые слова: азербайджанство, модернизация, идеология, глобализация, ценность

Ilham Soltanov

ROLE OF NATIONAL IDEOLOGY AND INFORMATION IN THE DEVELOPMENT OF THE AZERBAIJAN STATE

SUMMARY

Moral and ideological aspects of formation of national ideology in Azerbaijan are analysed, opinions of the scientists and researchers who stated opinions on this sphere were put forward in the article. It is noted that, in the conditions of modernization there has to be a communication between new and national moral values. Development of national ideology is important from the point of view of preservation of national and moral values and it serves ensuring ideological safety. At the same time it is noted that the national ideology has to serve ensuring freedom and independence, national development, preservation of territorial integrity of the republic, reliable protection against external aggressions.

Key words: azerbaijanism, modernization, ideology, globalization, value

UOT - 316.33

Anar Həsənli
Binəqədi Rayon İcra Hakimiyyəti, fəl.ü.f.d.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİQRASİYA SİYASƏTİ

"Azərbaycanlılar dünyada gedən miqrasiya prosesi nəticəsində bir çox ölkələrə səpələnmişlər. Bu, təbii bir prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən müsbət xarakter daşıyır. Doğrudur, indi müstəqil dövlət olandan sonra bəzi müxalifət dairələri bizi tənqid edirlər ki, Azərbaycan əhalisinin xeylisi - biri deyir 1 milyon, biri deyir 2 milyon - kənarda yaşayır. Ancaq mən bunu heç də mənfi bir hadisə kimi qəbul edə bilmirəm. Çünki hər bir millət, hər bir xalq yalnız öz doğma torpağı çərçivəsində, milli məhdudiyyət şəraitində yaşaya bilməz. Bir də qeyd edirəm, dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir. Əgər azərbaycanlılar bu proses nəticəsində dünyanın bir çox ölkələrində məskunlaşıblarsa, orada özləri üçün həyat qurublarsa, özlərinin həyat şəraitini təmin ediblərsə - bunlar hamısı dünyada azərbaycanlıların nə qədər geniş şəkildə yayıldığını göstərir".

Heydər Əliyev

1991-ci ildə Sovetlər Birliyinin dağılması ilə müstəqillik qazanmış Azərbaycan dövlətinin bir dövlət kimi varlığı hakimiyyətdə sərişləsiz rəhbərlərin olmasından təhlükə altına salındı. Düzgün həyata keçirilməyən siyasət nəticəsində dövlətimiz təcrid vəziyyətinə düşərək, siyasi-iqtisadi böhranla üzləşdi. Belə bir şəraitdə, 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıtdı. Ulu öndərin "Mən ömrümün qalan hissəsini xalqıma bağışlayıram" amalı nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi, iqtisadiyyatdakı tənəzzülün qarşısı alındı, qısa bir zamanda ölkəyə xarici investisiya axını üçün zəruri şərait yaradıldı və Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyasının təməli qoyuldu. Heydər Əliyevin təşəbbüsü və şəxsi səyləri nəticəsində 1994-cü ildə neft kontraktlarının imzalanması ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı idi. Bu dövrdən başlayaraq xarici ölkələrə üz tutan vətəndaşlarımızın sayı getdikcə azalmağa başladı və qısa müddətdə Azərbaycanın miqrasiya saldosu müsbətə doğru artdı.

Hələ ulu öndər Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçildikdən sonra demoqrafik siyasət istiqamətində qətiyyətli addımlar atmağa başladı. 1980-ci ilin əvvəlində ilk dəfə olaraq Heydər Əliyev dövlət səviyyəsində "Respublikanın demoqrafik inkişafı və əhalinin işlə təmin olunması üçün elmi surətdə əsaslandırılmış uzunmüddətli konsepsiya"nın işlənib hazırlanması vəzifəsini irəli sürmüşdür. Müxtəlif səbəblərə görə uzun müddət icra edilməmiş bu məsələyə Heydər Əliyev Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 29 dekabr 1998-ci ildə qayıtmış və "Azərbaycanın Demoqrafik İnkişaf Konsepsiyası"na dair Fərman imzalamışdır. Konsepsiyanın əsas məqsədi demoqrafik proseslərdə yaranmış neqativ meyilləri aradan qaldırmaq, ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etməkdən ibarət olmuşdur.

Bu Konsepsiyanın məntiqi davamı olaraq, Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, dövlət proqramının əsas məqsədi Azərbaycan Respublikasında demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq, əhalinin orta ömür yaşını artırmaq, ana və uşaqların sağlamlığının, ailənin möhkəmləndirilməsinin və miqrasiyanın tənzimlənməsinin təmini üçün Dövlət Proqramı hazırlanması və təsdiq edilməsi idi [1].

Məlum olduğu kimi Azərbaycan məcburi miqrasiya prosesləri ilə üzləşən ölkələrdən birdir. "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni qəsbkarları 1905-1907, 1918-1920, 1948-1953, 1988-1994-cü illərdə azərbaycanlılara qarşı qanlı aksiyalar həyata keçirmiş, müharibə elan etmədən hərbi yolla 1988-1994-cü illərdə torpaqlarımızın 20 faizini işğal edərək, 1 milyondan çox əhalini öz doğma yurdlarından didərgin salmışlar.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşmüş bir milyonadək qaçqın və məcburi köçkünlərin qayğıları, sosial problemləri ümummilli lider Heydər Əliyevin gündəlik qayğısına çevrilmiş, görülmüş tədbirlər nəticə-

sində çadır düşərgələrində yaşayan məcburi köçkünlər qısa bir müddətdə yeni tikilmiş qəsəbələrə köçürülmüş, onlara torpaq sahələri ayrılması və yeni iş yerləri açılması yolu ilə bir sıra problemlər öz həllini tapmışdır.

Qaçqın və məcburi köçkünlərin problemləri ümummilli lider Heydər Əliyev siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzində olmuş, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Hələ 2003-cü il prezident seçkiləri ərəfəsində keçirilən görüşlərdə cənab İlham Əliyev "Ölkədə bir dənə də çadır düşərgəsi qalmayacaq" deyə vurğulamış, bu bəyanat qısa müddətdə reallığa çevrilərək, respublikamızda qalan 7 çadır düşərgəsi də ləğv olunmuşdur.

Ulu öndər Heydər Əliyevin əsas məqsədlərindən biri azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırım cinayətlərinə siyasi qiymət verilməsi idi. Heydər Əliyevin 19 dekabr 1997-ci ildə imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı xalqımıza qarşı həyata keçirilən cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məqsədini daşıyırdı. Deportasiya nəticəsində minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürməyə və kəskin iqlim dəyişikliyinə dözməyərək həlak olmuşdur. Bütün bunlar ötən 50 il ərzində lazımınca araşdırılmamış, hadisələrə hüquqi qiymət verilməmişdir. Ulu öndərin göstərişi ilə azərbaycanlılara qarşı edilən bu vəhşiliklərə bütün cəmiyyət tərəfindən qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradıldı. Heydər Əliyevin 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" yeni bir Fərmanı ilə Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı günü kimi elan edildi. Heydər Əliyevin tapşırığı ilə 31 mart 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirərək XIX-XX əsrlərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətini tanımaq məqsədilə beynəlxalq təşkilatlara müraciət etmişdir.

Azərbaycan Respublikasında miqrasiya formalarından biri də xarici miqrasiyadır. Bu gün ölkədə hər bir şəxsin qanuni olaraq ölkədən getməsi, ölkəyə gəlməsi üçün hər cür şərait və hüquqi baza yaradılmışdır. Ulu öndər dövlətin əsas vəzifəsinin bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqətin göstərilməsində olduğunu bildirirdi. Ulu öndər hər dəfə xarici ölkələrə rəsmi səfərləri zamanı orada yaşayan azərbaycanlılarla görüşmüş, problemləri ilə tanış olmuşdur. Heydər Əliyevin "Azərbaycanlılar harada yaşayırlarsa-yaşasınlar, bir-biri ilə bir olmalıdırlar", "Biz heç zaman milli köklərimizi unutmamalıyıq" müraciəti və "Hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir, həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri xarici ölkələrdə yaşayan azərbaycan xalqının vahid diaspora halında birləşməsinə, eyni zamanda azərbaycançılıq ideyalarının daha da möhkəmləndirilməsinə xidmət etmiş oldu. Dünya Azərbaycanlılarının I qurultayındakı nitqində Heydər Əliyev demişdir; "Biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin öz ölkəsində yaxşı yaşamasını, öz mövqeyini möhkəmləndirməsini, öz rifah halını yaxşılaşdırmasını arzulayırıq. Arzulayırıq ki, hər bir azərbaycanlı yaşadığı ölkədə ictimai-siyasi həyatda fəal iştirak etsin, özünə görkəmli bir yer tutsun, müəyyən təsir imkanına malik olsun" [3].

Ümummilli lider Heydər Əliyevin Fərmanı ilə 2002-ci il iyulun 5-də Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin ilin dekabr ayının 27-də "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılmasına, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaratdı.

Xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının qorunması, sosial müdafiələrinin təmin olunması Prezident cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)" xarici ölkələrdə işləyən Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, habelə sosial müdafiələrinin təmin edilməsi prioritet istiqamət olaraq seçilmişdir. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Ümumrusiya Azərbaycan Konqresinin təsis qurultayında "Rusiyada yaşayan və ailəsinə çörək qazanan, eyni zamanda bu və ya başqa regionun ictimai həyatında iştirak edən hər bir azərbaycanlı hörmətə layiqdir və biz

onun maraqlarını qorumalıyıq" deyən ulu öndərin siyasətinin davamçısı Cənab İlham Əliyevin 22 noyabr 2006-cı il tarixli Sərəncamı ilə Rusiya Federasiyasında işləyən Azərbaycan vətəndaşlarının problemlərinin həllinə köməklik məqsədi ilə Dövlət Komissiyası yaradılmışdır.

Miqrasiya siyasətinin əsas vəzifələrindən biri kimi beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə 2000-ci ildə Beynəlxalq Miqrasiya Təşkilatının baş katibi Brunson Mak Kinlini qəbul edən Heydər Əliyev təşkilatla əlaqələrin vacibliyini vurğulamış və Azərbaycan Respublikası 2001-ci ildən Beynəlxalq Miqrasiya Təşkilatının üzvlüyünə qəbul olmuşdur.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial yönümlü siyasət bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq təkcə neft sektoru deyil, qeyri-neft sektorunda da dinamik inkişafa nail olunmuşdur. "Mən şübhə etmirəm ki, yaxın zamanlarda Azərbaycan daha da inkişaf edəcəkdir. Bizi ən çox narahat edən problem – yoxsulluq, onun səviyyəsi daha da aşağı düşəcək, işsizlik tamamilə aradan qaldırılacaqdır. Mən buna inanıram" deyən cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində respublikamızda son 10 il ərzində 1 milyon iş yeri açılmış, yoxsulluğun səviyyəsi 5,3 faizə enmiş və beləliklə, ölkənin uğurlu, dayanıqlı və sürətli inkişafı təmin edilmişdir.

Cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən daxili və xarici siyasət nəticəsində son illər ölkə iqtisadiyyatının sürətli inkişafı, stabil siyasi-iqtisadi vəziyyət, təhlükəsizlik və cəmiyyətində mövcud tolerantlıq imkanı, neft yataqlarının işlənməsi ilə bağlı irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, eləcə də qeyri-neft sektorunun inkişafına xarici sərmayənin cəlb olunması və biznesin inkişafı üçün əlverişli mühitin yaradılması Azərbaycanı əcnəbi işçi qüvvəsi üçün getdikcə daha artıq dərəcədə cəlbedici ölkəyə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasda çıxışında ölkəmizə gözlənilən immiqrant axının tənzimlənməsinə indidən hazırlıq görülməsi ilə bağlı dövlət orqanlarının qarşısına mühüm vəzifələr qoyulmuşdur. İclasda cənab İlham Əliyev vurğulamışıdır ki, "Yəqin xatırlayırsınız, mən təxminən bir il, bəlkə, bundan da əvvəl bu məsələyə toxunaraq demişdim ki, biz gələcəkdə miqrasiya məsələlərinə ciddi fikir verməliyik. Çünki mən görürdüm ki, bu vaxt gələcək. Azərbaycanda aparılan islahatlar, icra olunan layihələr, bütövlükdə bizim iqtisadi inkişafımız, neft satışından əldə ediləcək gəlirlərimiz artıq göstərirdi ki, bu vaxt gələcək və vaxtında biz Dövlət Miqrasiya Xidmətini yaratdıq. İndi elə etməliyik ki, Azərbaycana işləməyə gələn xarici işçi qüvvəsi yerli vətəndaşların iş yerlərini almasınlar, onlara rəqabət yaratmasınlar. Eyni zamanda, Azərbaycanda özlərini bizim adət-ənənələrimizə uyğun şəkildə aparsınlar, qanunlara uyğun şəkildə aparsınlar. Dövlət bu sahədə siyasətini çox ciddi tənzimləməlidir" [2].

Miqrasiya proseslərinin idarə olunması və tənzimlənməsi məqsədilə həm qanunvericilik, həm də institusional sahədə bir sıra ciddi addımlar atılıb, əsaslı tədbirlər həyata keçirilib. Bu günədək Azərbaycan Respublikasında miqrasiya məsələlərinə aid olan 20-dən artıq normativ akt qəbul edilmişdir. 2004-cü ildə qəbul edilmiş "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası"nın məqsədi miqrasiya sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi və idarə olunması siyasətinin formalaşdırılmasıdır. Konsepsiyanın gerçəkləşdirilməsi və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün "Azərbaycan Respublikasının 2006-2008-ci illər üçün Dövlət Miqrasiya Proqramı" təsdiq edilib. Proqramda əsas fəaliyyət istiqamətləri olaraq, miqrasiya sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi, bu sahədə dövlət tərəfindən tənzimlənmənin səmərəliliyinin artırılması, aidiyyəti dövlət orqanlarının miqrasiya sahəsində işlərinin əlaqələndirilməsi, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, qeyri-qanuni miqrasiyanın qarşının alınması üzrə kompleks tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Proqramın icrası üzrə 2007-ci ildə dövlətin miqrasiya siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərini nizamlamaq və proqnozlaşdırmaq, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti yaradılıb. 2009-cu ilin martın 4-də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Miqrasiya proseslərinin idarəolunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında fərmanı miqrasiya proseslərini tənzimlənməsi üçün çox əhəmiyyətli sənəddir. Fərmanda miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində qanuni əsaslarla yaşamaları və əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurunun sadələşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi məsələləri önə çəkilir. Bu fərmanla Azərbaycan Res-

publikasında miqrasiya proseslərinin daha yaxşı səviyyədə tənzimlənməsi yeni mərhələyə keçmişdir. Bu proseslərin məntiqi nəticəsi olaraq, Miqrasiya Məcəlləsi qəbul edilmiş və 1 avqust 2013-cü il tarixindən qüvvəyə minmişdir.

Qeyri-qanuni miqrasiyanın bir təzahürü kimi qəbul edilən insan alverinə qarşı mübarizəyə dair 2004-cü və 2009-cu ildə Azərbaycan Respublikasının Milli Fəaliyyət Planı təsdiq edilmiş, 2005-ci ildə İnsan Alverinə qarşı mübarizə haqqında Qanun qəbul edilmişdir. Qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə Dövlət proqramı qəbul edilmişdir.

Əgər 90-cı illərin əvvəllərində Azərbaycanın miqrasiya mənzərəsi tam fərqli idisə, bu gün artıq tamamilə yeni bir mənzərə ilə üzləşirik. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə ABŞ-ın nüfuzlu yəhudi təşkilatlarının rəhbərləri ilə görüşündə söylədiyi fikirlər bu baxımdan xüsusi maraq doğurur: "Bilirsiniz, təxminən 1988, 1989-cu illərdən başlayaraq Sovetlər İttifaqından Qərb ölkələrinə, Amerikaya, İsrailə yəhudilərin axını güclü olmuşdur. Azərbaycandakı bu proses, eyni zamanda, Azərbaycanda gedən ictimai-siyasi proseslər Ermənistan-Azərbaycan müharibəsinə görə və daxildə vəziyyət çox gərgin olduğuna görə daha da çətin olmuşdur. Ancaq 1993-cü ildən biz Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik və insanların miqrasiyası çox kəskin şəkildə dayandı. Hətta sizə deyə bilərəm ki, vaxtilə Azərbaycandan İsrailə köçmüş insanlar - yəhudilər indi artıq Azərbaycana dönürlər".

90-cı illərin əvvəllərində Azərbaycandan xaricə çox böyük miqrasiyanın şahidi olurduqsa, bu gün artıq xaricdən ölkəmizə immiqrasiya meyillərinin artması müşahidə olunmaqdadır. Azərbaycan bu gün artıq xarici miqrantlar üçün çox cəlbedici bir ölkəyə çevrilib ki, bunun da, heç şübhəsiz, əsas səbəbi ulu öndər Heydər Əliyevin vaxtilə həyata keçirdiyi miqrasiya siyasətinin uğurlu nəticələridir ki, bu gün öz bəhrəsini verməkdədir.

Açar sözlər: miqrasiya, demoqrafiya, soyqırım, qaçqın, məcburi köçkün.

İstifadə edilmiş ədəbiyyat

1. "Azərbaycanın Demoqrafik İnkişaf Konsepsiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli 517 nömrəli Sərəncamı.
2. Xalq qəzeti, 2008, iyul.
3. www.President.az

Анар Гасанлы

ГЕЙДАР АЛИЕВ И МИГРАЦИОННАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНЕ

В статье анализируется развития миграционной политики, а также политики, проводимой в этой области общенациональным лидером Гейдар Алиевым. А также проанализированы исторические услуги общенационального лидера в регулировании миграционных процессов.

Ключевые слова: миграция, демография, геноцид, беженцы, внутренне перемещенные лица

Anar Hassanli

HEYDAR ALIYEV AND MIGRATION POLICY IN AZERBAIJAN

The article analysed the development of migration policy, and the policy carried out in this field by the national leader Heydar Aliyev. It is also analysed the national leader's historical services in the regulation of migration processes.

Key words: migration, demography, genocide, refugees, internally displaced persons

УДК - 327

Шарафеддин Шарифов
ААТСО
Камал Гаджиев
ААТСО

ДЕЯТЕЛЬНОСТЬ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ ПО УСТРАНЕНИЮ ПОСЛЕДСТВИЙ НАГОРНО-КАРАБАХСКОГО СЕПАРАТИЗМА

Кавказ, являясь важным географическим и стратегическим регионом, находится в центре Евразийского континента и занимает важное положение на стыке Азии и Европы, в том числе в мире. В 90-х годы XX столетия на Кавказе произошли коренные изменения, вследствие которых Азербайджан, Грузия и Армения приобрели независимость. Накануне распада Советского Союза Нагорно-Карабахский конфликт, основу которого составляет армянский сепаратизм, усилился и в настоящее время является дестабилизирущим фактором на Кавказе.

Для научного исследования его причин и устранения последствий необходимо определить содержание ключевых понятий.

Сущность, в том числе и содержание, **конфликта** определяются как объективно – субъективное явление, состояние, реальность, присущая общественным отношениям.

Глубинная причина конфликтов – противостояние различных потребностей, интересов, ценностей конкретных субъектов политики, составляющих социальную структуру. В основе противоборства конфликтующих сторон находятся объективные противоречия.

Международным правом **сепарати́зм** (фр. séparatisme от лат. separatus в отдельный), **отделенчество,** расценивается как политика и практика обособления, отделения части территории государства с целью создания нового самостоятельного государства или получения статуса очень широкой автономии (индивидуальная свобода действия; самостоятельность) **в обход международного права**.

В мире насчитывается 50 основных очагов сепаратизма, которые вместе занимают территорию в 12,7 млн. км² с населением в 220 млн. человек. При этом в 20 очагах конфликты носят вооружённый характер, что особенно характерно для Азии. Сепаратизм сегодня создает немало сложных и острых проблем в жизни как развитых (Канада, Испания, Азербайджан и др), так и развивающихся (Индия, Пакистан, Ирак, многие африканские государства) стран.

Сепаратизм ведёт к нарушению суверенитета, единства и территориальной целостности государства, принципа нерушимости границ и, как показывает опыт, может явиться источником острейших межгосударственных и межнациональных конфликтов. Свою роль сепаратизм сыграл в распаде СССР, бывшей Югославии, Чехословакии.

Специально занимавшийся карабахской проблемой шведский ученый Сванте Корнелл приводит данные российской переписи, согласно которым в 1823 году армяне составляли 9 процентов от общего населения Карабаха (остальные 91 процент были зарегистрированы как мусульмане), в 1832 году - 35 процентов и только в 1880 году достигли большинства - 53 процентов [35].

По переписи 1989 года на территории этой автономной области, площадью немногим более 4 тысяч квадратных километров, проживали около 140 тысяч армян и 45 тысяч азербайджанцев. Эмоциональные лозунги "о справедливой борьбе армян Нагорного Карабаха за свободу и безопасность", в действительности, камуфлировали территориальные притязания Армении к Азербайджану. В юридических понятиях это сецессия, а политически, - сепаратизм [18].

Для устранения последствий Нагорно-Карабахского сепаратизма, в результате которого Армения оккупировала 20 процентов азербайджанской территории, более миллиона человек подверглись этнической чистке со стороны Армении, разрушено множество исторических памятников и нанесен огромный материальный вред, приложено немало усилий.

В 1991 году президент России Б.Ельцин и президент Казахстана Н.Назарбаев, совершив первую попытку в решении Нагорно-Карабахского конфликта, предложили в качестве условий:

- прекращение огня;
- новые выборы;
- возвращение беженцев;
- создание государства в Нагорном Карабахе.

Но данная попытка не была успешной.

В августе 1992 года президентом Н.Назарбаевым была осуществлена еще одна попытка для урегулирования Нагорно-Карабахского конфликта. Но и эта попытка не была успешной по той же причине, поскольку армянская сторона выдвинула обвинение Назарбаеву в том, что он поддерживает территориальную целостность и выступает за сохранение границ [15, с 93].

В дальнейшем ситуация в Нагорном Карабахе привлекла внимание мировой общественности.

Конфликт заставил международные организации, в том числе **ООН и ОБСЕ** принять участие в его разрешении.

Организация Объединенных Наций занимает центральное место в системе межгосударственных организаций, играя исключительную роль в современном международно-политическом развитии.

Созданная в 1945 г. как универсальная международная организация, ООН имеет своей целью поддержание мира и международной безопасности и развитие сотрудничества между государствами. ООН объединяет в настоящее время 193 стран мира.

Роль ООН на современных международных отношениях определяется следующими основными факторами:

- ООН является самой представительной трибуной для дискуссий по международным вопросам;
- ООН является фундаментом современного международного права. Устав ООН есть общепризнанный кодекс поведения и взаимоотношений государств.

При этом международные договоры и соглашения сверяются на основе следующих принципов деятельности ООН:

1. Уважение суверенитета;
2. Неиспользование вооруженных сил;
3. Неприкосновенность границ;
4. Территориальная целостность государств;
5. Мирное разрешение конфликтов;
6. Невмешательство в чужие дела;
7. Уважение прав и свобод человека;
8. Равноправие наций и уважение прав народов на самоопределение;
9. Межгосударственное сотрудничество;
10. Честное выполнение обязательств о международном праве.

Эти принципы построения деятельности ООН (прежде всего в предоставлении особого статуса постоянным членам Совета Безопасности) отражают объективные реалии международно-политической системы.

По инициативе и в рамках ООН заключены сотни международных конвенций и договоров, регулирующих положение дел в самых разнообразных сферах общественной жизни.

Большое число межправительственных организаций осуществляют регулирование международной жизни под эгидой ООН и в рамках своего функционального предназначения. ООН наделена исключительно важной компетенцией, - решать вопросы войны и мира, в том числе и путем использования вооруженной силы.

После окончания холодной войны возник мощный импульс для активизации деятельности ООН и ее превращения в действенный механизм организации международной жизни. Придавая особое значение усилиям поддержанию мира ООН, за первые четыре десятилетия своего существования ООН осуществила множество различных миссий и операций с направлением наблюдателей, посредников или военного персонала в районы конфликтов. С 1988 г. были инициированы 33 миротворческие акции. Пик активности в этой области пришелся на 1995 г., когда общее число задействованного в миротворческой деятельности ООН персонала составило почти 70 тыс. человек (включая 31 тыс. военнослужащих) из 70 стран. Значительное развитие в деятельности ООН получили превентивная дипломатия (миссии по установлению фактов, усилия по примирению сторон, посредничество и т.п.), организация наблюдения за перемирием, гуманитарные операции (оказание помощи беженцам и другим жертвам конфликтов), содействие после конфликтной реабилитации.

Совет Безопасности использовал также определенные санкции: экономические, политические, дипломатические, финансовые и иные принудительные меры, не связанные с использованием вооруженных сил и принудительное разоружение (в отношении Ирака).

Вместе с тем в условиях биполярного противостояния на международной арене эффективность деятельности ООН часто оказывалась невысокой. Политическая, военная и идеологическая конфронтация двух сверхдержав и их союзников оказывала парализующее воздействие на деятельность основных структур и институтов ООН.

Прекращение холодной войны открыло новые возможности для ООН и одновременно показало присущие ей недостатки, которые ранее не обнаруживались. Речь идет об издержках существования огромного бюрократического аппарата ООН, его неповоротливости, неэффективности и параллелизме в процессе принятия решений, перегруженности организации многочисленными структурами.

Поэтому, необходимо определить концептуальные вопросы деятельности ООН. При этом должно быть исследовано: система ее приоритетов, условия делегирования ее функции региональным организациям или коалициям государств, условия и пределы вмешательства ООН во внутренние дела суверенных государств, пути достижения оптимального сочетания демократизма и оперативности в деятельности ООН, совмещение принципа ее универсальности с особым статусом постоянных членов Совета Безопасности.

Исследованием проблемы о реформе ООН обнаруживаются глубокие расхождения между участниками этой организации по вопросам очередности реформ, степени их радикальности и самого содержания преобразований. В самом общем плане можно выделить несколько основных тем, связанных с обсуждаемой проблемой: обеспечение большей эффективности ООН при обращении к вопросам международной безопасности и совершенствование инструментария миротворчества и кризисного регулирования, расширение возможностей вовлечения ООН во внутренние дела государств, в связи с политической нестабильностью, нарушением прав человека, экологическими или гуманитарными катастрофами; повышение роли ООН в "нетрадиционных" областях (экология, миграция, регулирование информационных потоков и т.п.); изменение порядка финансирования деятельности ООН и принципов использования ее финансовых ресурсов; модификация роли Генеральной Ассамблеи с целью повысить ее способность принимать действенные решения; более четкое определение статуса Генерального Секретаря ООН и радикальная перестройка работы Секретариата ООН; уточнение функций и роли специализированных учреждений ООН, координация их деятельности, расширение полномочий Международного Суда; повышение эффективности работы Совета Безопасности и изменение его состава. Последняя из отмеченных выше тем

стала предметом особого внимания в дискуссиях о реформировании ООН. Существует более или менее широкое согласие относительно необходимости увеличить число членов Совета Безопасности и сделать его состав репрезентативным.

Значительно более сложным является вопрос о категориях членства в Совете Безопасности. Наиболее очевидными кандидатами на включение в число постоянных членов являются Германия и Япония, однако при этом неизбежны притязания на аналогичный статус со стороны ряда развивающихся стран - Индии, Бразилии или Мексики. Кроме того, расширение круга стран, обладающих правом вето, способно парализовать работу Совета Безопасности. Вместе с тем сам вопрос о праве вето является одним из центральных. Хотя отмена этого института (по мотивам преодоления неравенства стран-членов) практически нереальна, внесение в него определенных корректировок представляется вполне возможным. В целом же предпосылки для радикальной трансформации ООН в настоящее время выглядят не очень значительными – как по причине несовпадающих взглядов государств-членов (и нежелания многих из них пойти на слишком крутые перемены), так и ввиду отсутствия необходимых финансовых ресурсов (из-за чего уже сегодня приходится идти на определенное свертывание миротворческой деятельности).

Однако эволюционная адаптация организации к меняющимся условиям настоятельно необходима. Данное обстоятельство подтверждается тем, что четыре Резолюции ООН:

- Резолюция 822 (1993) от 30 апреля 1993 года;
- Резолюция 853 (1993) от 29 июля 1993 года;
- Резолюция 874 (1993) от 14 октября 1993 года;
- Резолюция 884 (1993) от 12 ноября 1993 года Арменией по сей день не выполняются.

В статье проанализировано творчество одного из классиков мировой литературы, произведения Нобелевского лауреата Генриха Белля, раскрывается социально-политические мотивы в произведениях Генриха Белля. В ходе анализа рассматриваются послевоенные события, "данные в подарок" войной, боли и страдания людей, переживших ужасы войны, их психологическое состояние и пути выхода из этой сложной ситуации.

Ключевые слова: война, человек-общество, страдание, голод, справедливость

Sevil Aliyeva

SOCIO-POLITICAL MOTIVES IN HEINRICH BOLL'S WORKS

Summary

In the article is given review to literary creativity of one of prominent representatives of the world literature, the Nobel Prize laureate Heinrich Böll, and reveal socio-political motives in Heinrich Böll's works. During the analysis post-war events, "data as a gift" by war, pains and sufferings of the people who endured horrors of war, their psychological condition and ways of an exit from this difficult situation are considered.

Key words: war, person-society, suffering, hunger, justice

İQTİSADİYYAT VƏ İDARƏETMƏ BÖLMƏSİ

UOT - 332.012.3

Tərbiz Əliyev
AMEA, Elmi İnnovasiyalar Mərkəzi, i.ü.e.d., professor
Anar Əlirzayev
SDU, doktorant

AZƏRBAYCANDA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN GENİŞLƏNDİRİLMƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

Azərbaycanda müstəqillik və iqtisadi islahatlar dövründə əsas tələblərdən biri dünya bazarında məhsulun rəqabət dözümlülüyünü təmin edən innovasiya fəaliyyətinin yaxşılaşdırmaq və elmi-texniki nailiyyətlərdən təcrübədə istifadə etməklə dayanıqlı inkişafa nail olmaqdır. Tədqiqat zamanı aparılan kompleks təhlil bir daha sübut etdi ki, ölkəmizin emal sənayesində mövcud olan sahibkarlıq subyektlərinin innovasiya aktivliyi aşağı olduğundan onların bir qismi müflisləşir və fəaliyyətlərinə xitam verirlər. Odur ki, son illər ölkə rəhbərliyi tərəfindən imzalanan bir çox normativ-hüquqi sənədlərdə və təsdiq edilən proqramlarında qarşıya qoyulan başlıca məqsəd innovasiyanın inkişafı üçün əlverişli sosial-iqtisadi, təşkilati və hüquqi şəraitin yaradılmasıdır. Bu sahədə önəmli metodoloji və təcrübi əhəmiyyətli təklif və tövsiyələrin işlənilməsinə ehtiyac duyulur.

İnnovasiya strategiyasının formalaşdırılması. Elmtutumlu texnologiyaların mənimsənməsində, innovasiya məhsulların istehsal həcminin və ixracın artırılmasında müvəffəqiyyətlər əldə edilən ölkələrin iş təcrübəsi göstərir ki, innovasiya sahəsində dövlət siyasətinin prioritet istiqamətləti sırasında innovasiya sahəsində strategiyanın formalaşması vacib şərtlərdəndir. Nəzərə alsaq ki, mövcud sənaye müəssisələrinin 51,0%-i iqtisadi rayonlarda yerləşir, onda innovasiya strategiyasının formalaşması və innovasiya siyasətinin həyata keçirilməsi üçün sahə regional səviyyələrdə zəruri şərtlər nəzərə alınmalıdır. Fikrimizcə, ölkə sənayesinin innovativ inkişafının mövcud durumu konteksində innovasiya siyasətinin həyata keçirilməsi üçün aşağıdakılar qaçılmazdır:

- qanunun alt aktlarının və proqramların hazırlanması və təsdiqi;
- sahə proqramların maliyyələşdirilməsi;
- innovasiya siyasətinin reallaşdırılması üçün elmi-texniki və material təminatı;
- sahə innovasiya proqramların işlənilməsi və həyata keçirilməsi;
- sahibkarlığın inkişafına kömək;
- innovasiya fəaliyyəti sahəsində sahə və sahələrarası strukturların əlaqələndirilməsi.

Regional səviyyədə isə əsas diqqət aşağıdakılara yönəldilməlidir:

- hər bir regional coğrafi-iqtisadi xüsusiyyətləri və sosial-iqtisadi durumu nəzərə almaqla yerli innovasiya proqramlarının hazırlanmasının təşkili, təsdiqi və həyata keçirilməsi;
- innovasiya siyasətinin səmərəli reallaşdırılması üçün elmi-texniki, material və digər ehtiyatların cəlb edilməsi;
- regional, sahə və yerli səviyyələrdə mövcud innovasiya strukturları fəaliyyətinin əlaqələndirilməsi;
- yerli səviyyədə innovasiya fəaliyyətinin həyata keçirilməsinə nəzarət.

Həmin strateji istiqamətlərin və dövlət siyasətinin prioritetlərinin həyata keçirilməsi zərurəti isə - emal sənayesinin sahibkarlıq subyektində innovativ inkişafa mənfi təsir göstərən çoxsaylı təşkilati-iqtisadi, texniki-texnoloji və menecmentin səmərəli təşkili üzrə bu vaxtadək həllini gözləyən məsələlərdir. Onları şərtləşdirən səbəblərin təsnifatı 1 saylı şəkildə öz əksini tapmışdır.

Sahibkarlıq subyektlərinin innovativ inkişaf konsepsiyası və onun həyata keçirilməsi mexanizmi. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə innovasiya proseslərinin təşkilinə dair məlumatların təhlili göstərir ki, iri müəssisələrin innovasiya aktivliyi daha yüksəkdir. Avropa İttifaqına daxil olan ölkələrdə iri müəssisələrin 80%-i, kiçik müəssisələrin isə - yalnız üçdə biri innovativ fəal

müəssisələrə aid edilir. Azərbaycanda "Azərsun", "Gilan Holdinq", "Qaradağ sement", "Embawood", "Azgüntex", "Gəncə Alüminium DET-Al", Sumqayıt şəhərində texnoparka daxil edilən müəssisələr, emal, tikinti aqrar sferada yaradılan, xarici və müştərək müəssisələr istisna olmaqla, digər orta və iri müəssisələr innovativ aktiv deyildirlər.

Azərbaycanda fəaliyyət göstərən innovasiyayönümlü kiçik müəssisələr olduqca azdır. Onlar əsasən peşə, elmi-texniki fəaliyyətlə məşğul olur, informasiya, rabitə və təhsil sistemində mövcuddur. Onların bütün kiçik müəssisələrin tərkibindəki xüsusi çəkisi 7,6%-dir.

Bütün bu faktlar onu göstərir ki, ölkəmizin emal sənayesində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri üçün təkmil innovasiya mexanizmi işlənilməlidir. Bunun üçün sahibkarlıq subyektlərinin inkişaf konsepsiyası və onun həyata keçirilməsi mexanizmi olmalıdır. Fikrimizcə, bazar iqtisadiyyatı şəraitində həmin subyektlərin innovativ inkişaf konsepsiyası aşağıdakılara söykənməlidir:

a) sahibkarlıq təcrübəsinin ötürülməsi ənənələrinin formalaşdırılmasına;

b) əhalinin işgüzar aktivliyinin qorunub-saxlanması üçün münbit şəraitin yaradılmasına.

Həmin istiqamətlər özlüyündə məqsədə çatmaq mexanizminin (təkmil normativ-hüquqi sənədlərin mövcudluğu; maliyyə mənbələrin müəyyən edilməsi; kadrların idarə edilməsi; struktur dəyişiklikləri) işlək olmasını şərtləşdirməlidir. Bu mexanizmin elementləri içərisində davamlı innovativ inkişafa birbaşa təsir göstərən aspekt fasiləsiz struktur dəyişikliyinə nail olmaqdır. Bu dəyişiklik istehsalın ixtisaslaşmasına və diversifikasiyasına, onlar isə, öz növbəsində, aşağıdakılara söykənməlidir:

- Yerli xammala istiqamətlənmək;
- Sürətli innovativ inkişaf;
- İstehsal-təsərrüfat fəaliyyətinin son istehlakçılara yönəldilməsi;
- Dəyişən tələbata çevik reaksiya vermək. (şəkil 2)

İnnovasiya məhsullarının xüsusi çəkisi yüksək olan ölkələrin qabaqcıl firmalarında innovasiya mexanizminin sistemini formalaşdırarkən haqlı olaraq aşağıdakı aspektlərə üstünlük verirlər:

- innovasiya fəaliyyətinin təşkilinin mexanizmi;
- innovasiyaların hazırlanması və tətbiqi mexanizmi;
- innovasiya fəaliyyətinin maliyyələşdirilməsi və stimullaşdırılması mexanizmləri;
- texnoloji transfert mexanizmi;
- intellektual mülkiyyət mexanizmi.

İnnovasiya fəaliyyətinin təşkili və idarə edilməsinə həsr edilmiş bir çox ədəbiyyatlarda [5; 6; 7; 8] innovasiya mexanizmlərini: makro, regional və müəssisə səviyyələrində formalaşması zəruri hesab edilir. Lakin, bizim fikrimizcə, həmin səviyyələrin sırasına sahə səviyyəsini də əlavə etmək lazımdır, çünki emal sənayesinin ayrı-ayrı müəssisələri məhz sahədə formalaşan spesifik konsepsiyaya sahə siyasətinə söykənir.

İnnovasiya mexanizmlərinin qeyd edilən səviyyələrdə işlək olmasının ən mühüm şərti isə - onun maliyyə təminatıdır. Son illər bir çox xarici ölkələrdə innovasiya sferasının inkişafı üçün büdcədən maliyyələşdirmə meyli azalmış və xüsusi mənbələrdən ayırmalar isə - dinamik xarakter almışdır (şəkil 3).


Bu proses Azərbaycan üçün də xarakterikdir. Belə ki, 2003-cü ildə emal sənayesində texnoloji innovasiyalara çəkilən xərclərin 63,1%-ni müəssisələrin öz vəsaiti və yalnız 13,6%-ni dövlət büdcəsinin vəsaiti təşkil etmişdir. [3; s.94]. Lakin şəkildə göstərilən ölkələrdən fərqli olaraq Azərbaycanda innovasiya prosesinə ayrılan xərclərin mütləq hissəsini amortizasiya ayırmları təşkil edir. İnnovasiya xərclərinin içərisində özəl sektorun payının çoxalması isə balanslaşan idarəetmə modelinin yaradılmasının zəruriliyini ön plana çəkir. Balanslaşan idarəetmə modeli dedikdə, ilk növbədə, tədqiqatların və işləmələrin özünün istiqamətlərində prinsipial restrukturizasiyası, innovasiya sisteminin bütün səviyyələrində istifadə edilən resursların forma və metodlarının əsaslı şəkildə modernizə olunması, cəmiyyətin, hakimiyyətin, biznesin və elmin qarşılıqlı əlaqəsinin köklü transformasiyası kimi, başa düşülməlidir.

Bizim fikrimizcə, innovasiyayönümlü iqtisadiyyata hədəflənən Azərbaycan üçün məhz balanslaşan idarəetmə modeli çox vacibdir. Sənaye sahələri inkişaf edən qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, özəl investorların maliyyə vəsaitini ayırmaq arzusu innovasiya fəaliyyətinin yüksək səmərəli olmasını şərtləşdirir.


İnnovasiya fəaliyyətinin dayanıqlı inkişaf modeli. İnnovasiya fəaliyyətinin idarə edilməsi özü-özlüyündə mürəkkəb və dinamik xarakter daşıyan sistem olub, idarə etmənin müxtəlif metodları, amilləri və orqanlarının qarşılıqlı əlaqəsini təmin edir və aşağıdakıları özündə cəmləşdirir: elmi tədqiqatlar; yeni məhsulun yaradılması; yeni texnika; texnologiya və qabaqcıl təcrübə əsasında texnoloji proseslərin, istehsalın təşkili formalarının, avadanlıqların, əmək cisimlərinin təkmilləşdirilməsi elmi-texniki tərəqqinin planlaşdırılması, maliyyələşdirilməsi və koordinasiya olunması; iqtisadi stimulların və qolların təkmilləşdirilməsi; ETT-nin intensiv inkişafının sürətləndirilməsinə və onun sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsinə yönəldilən kompleks xarakterli tədbirlərin işlənilməsi.

Təşkilat-iqtisadi	**Texniki – texnoloji**	**Menecmentin səmərəli təşkili**
- innovasiya layihələrinin hazırlanması səviyyəsinin aşağı olması və onların ləng tətbiq edilməsi; -innovasiya infrastrukturunun az inkişaf etməsi və mütərəqqi idarəetmə formalarından lazımınca istifadə edilməməsi; - mövcud idarəetmə strukturunun qeyri təkmil olması; -sahədə innovasiya sisteminin funksional ierarxiya modelinin qurulmaması; - uzunmüddətli dövr üçün innovasiya proqramının işlənilməməsi; - innovasiya fəaliyyəti üzrə strateji planların olmaması; - kiçik və orta biznesdə innovasiya müəssisələrinin xüsusi çəkisinin aşağı olması; - 1 man innovasiya məhsuluna çəkilən xərclərin minimum həddə çatması	- ƏİF-in aşınma dərəcəsinin yüksək olması; - ƏİF-in aktiv hissəsinin ləng yeniləşməsi; - proses innovasiyasının zəif tətbiqi; - istehsalın ixtisaslaşdırılması və diversifikasiyası arasında optimal nisbətin pozulması; - məhsulun təkmilləşdirilməsi konsepsiyasının işlənilməməsi; - innovasiya və rəqabətqabiliyyətli məhsulların istehsalı üçün texnoloji prosesin təşkil edilməməsi; - texnoloji innovasiyalara vəsaitlərin qeyri-bərabər yönəldilməsi.	- elm və istehsalat arasında əlaqənin zəif olması; - müəssisələrin sinerji effektivliyinin alınmasına az səy göstərilməsi; - sürətli amortizasiya normalarının tətbiq olunmaması; - yeni növ məhsulun və texnologiyaların yaradılmasının stimullaşdırılması üzrə təkmil mexanizminin işlənilməməsi; - texnoloji innovasiyalara çəkilən xərclərin bu gün idarə olunmaması; - məhsulun keyfiyyətinin idarə olunması sisteminin düzgün formalaşdırılmaması; - kadrların yaradıcılıq səviyyəsinin stimullaşdırılması mexanizminin olmaması; - innovasiya menecerlərinin çatışmazlığı.

Şəkil 1. Emal sənayesində mövcud olan sahibkarlıq subyektlərində innovasiya fəaliyyətinin genişləndirilməsinə mane olan səbəblər.




Şəkil 2. Sahibkarlıq subyektlərinin innovativ inkişaf konsepsiyasının mexanizmi.



Şəkil 3. Dünyanın qabaqcıl ölkələrində ETKTİ-nə çəkilən xərclərin maliyyələşdirilməsində dövlət və biznes sektorunun payı.

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, innovasiya fəaliyyətinin həyata keçirilməsinin uğuru: müəssisənin sərəncamında olan zəruri resursların həcmindən; innovasiya layihələrinin həyata keçirilməsi üçün tətbiq edilən təşkilati-idarəetmə mexanizminin səmərəliliyindən; müəssisənin fəaliyyətini tənzimləyən innovasiya infrastrukturunun inkişaf səviyyəsindən asılıdır. Bu, onu göstərir ki, müəssisənin innovasiya sistemi üçbucaq şəklində təzahür olunur və onun hər bir tərəfi bir amil kimi innovasiyanın işlənilməsinə, yayılmasına və istifadəsinə, daha doğrusu, innovasiya fəaliyyətinin həyata keçirilməsinə birbaşa təsir göstərir. Üçbucağı əhatə edən resursların hər biri özünün unikallığı, qarşılıqlı əvəz edilməsi və məhdudluğu ilə innovasiya prosesində öz yerini və rolunu möhkəmlədir (şəkil 4).



Şəkil 4. Sahibkarlıq subyektlərinin innovasiya sisteminin qrafiki təsiri.


İnnovasiyayönümlü iqtisadiyyata keçid modeli kontekstində emal sənayesi müəssisələrinin sosial-iqtisadi təhlili göstərir ki, sahənin dayanıqlı inkişafı bir sıra kompleks amillərdən asılıdır və onların içərisində yaxın dövr üçün ən vacibi innovasiya-texnoloji amildir, çünki məhz həmin amilin nəzərə alınması sahənin sürətli innovativ inkişafına təkan verə bilər. Kompleks amillərin təsnifatı və onların məzmunu 1 saylı cədvəldə əks etdirilmişdir.

Cədvəl 1

İnnovativ iqtisadi modelə keçid konteksində emal sənayesinin dayanaqlı inkişaf amillərinin təsnifatı və onların məzmunu

Amillərin adları	Amillərin məzmunu və onların sahənin dayanıqlı inkişafına təsirinin təmin edilməsi
Siyasi-hüquqi amil	Normativ-hüquqi aktların sahə proqramlarının işlənilməsi əsasında sosial-iqtisadi proseslərin dövlət tənzimlənməsinin zəruriliyi
Təhsil amili	"Təhsil bütün həyat dövründə" prinsipinə əsaslanaraq sahədə zəruri kadr potensialının mövcudluğu və innovasiya təhsil səviyyəsinin gücləndirilməsi
Ekoloji amil	Təbii resursların qorunması və təkrar istehsalı
İnnovasiya-texnoloji amili	Sahənin dayanıqlı inkişafına təminat yaradan, innovasiya iqtisadiyyatının mexanizmi kimi, sahə innovasiya sisteminin səmərəli təşkili və rəqabət qabiliyyətli məhsulun istehsalı üçün imkanların olması
İqtisadi-maliyyə amili	İnnovasiya prosesinin və ekoloji mühitə təsirin tənzimlənməsi üçün sahədə səmərəli iqtisadi-maliyyə sisteminin yaradılması
Struktur dəyişiklikləri amili	Elmtutumlu və yüksək texnoloji məhsulların istehsalı üçün emal sənayesinin alt sahələrinin struktur dəyişikliklərinin aparılması
İnnovasiya amili	Sahənin idarəedən sisteminin lazımi və dəqiq məlumatlarla təmin edilməsi
Kommunikasiya amili	Sahədə iqtisadi artımın təmin edilməsində istehlakçılar innovasiyanın vacibliyini aşılamaq üçün onların informalaşdırma səviyyəsinin yüksəldilməsi
Sosial amil	Sahənin bütün işçilərinin dayanıqlı innovativ inkişaf yoluna keçməsi prosesinə cəlb edilməsi
Təkrar istehsal amili	Sahənin innovasiya aktivliyini yüksəltmək üçün əsas fondların yeniləşməsinin və təkrar istehsalın optimallaşdırılması
Qloballaşma amili	Sahədə çalışan işçilərin eko-iqtisadi davranışına təsir edən təhsil səviyyəsinin informasiyalaşma və kompüterləşmə əsasında yüksəldilməsi, müxtəlif texnologiyaların transferi
İnstutisional amil	Səmərəli təşkilati forma və mexanizmlər yaratmaqla sahənin dayanıqlı və innovativ inkişafının təmin edilməsi

Emal sənayesində innovasiya fəaliyyətinin idarə edilməsi mexanizmini idarəetmə prosesi ilə eyniləşdirmək olmaz, çünki o, idarəetmə sistemində sərbəst alt-sistem kimi çıxış edir və idarəetmə prosesinin sinonimi deyildir. Sahədə innovasiya fəaliyyətinin idarə edilməsi mexanizminə qiymət verərkən nəzərə almaq lazımdır ki, o, idarəetmənin həyata keçirilməsi vasitəsi kimi çıxış edir, idarə-etmənin obyektinə və subyektinə təsir göstərir (şəkil 5).



Şəkil 5. Sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin idarə edilməsi prosesinin prinsipial sxemi.

Digər tərəfdən həmin mexanizmin işlək olması üçün idarəetmənin prinsipləri, funksiyaları və metodları təsiredici və təminedici rolunu oynamalıdır. Sahibkar firmalarda baxılan mexanizm çərçivəsində monitorinq keçirilməsi və firmanın idarə edilməsi sisteminin qiymətləndirilməsi tədqiq edilən sahənin dayanıqlı inkişafı üzrə tədbirlərin işlənilməsinə əməli köməklik göstərmiş olacaqdır. Emal sənayesində idarəetmə mexanizminin təsiri ilə həll edilən innovasiya fəaliyyətinin idarə olunmasının əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:


- Sənayedə və onun alt-sahələrində elmi-texnoloji inkişafın təhlili və modelləşdirilməsi;
- Sənayedə innovasiyanın inkişafının əsas prioritetlərinin müəyyən edilməsi;
- Sahə innovasiya sisteminə daxil olan müxtəlif strukturların dayanıqlığının və mövqeyinin möhkəmləndirilməsinə şəraitin yaradılması;
- Sahə innovasiya sisteminin potensiallarından istifadənin vəziyyətinin təhlili və inkişafının proqnozlaşdırılması;
- Sahə üçün vacib innovasiya infrastrukturunun formalaşdırılması;
- Sahədə innovasiya fəaliyyətinin idarə edilməsi prosesində, idarəetmənin bütün səviyyələri və orqanları arasında razılaşdırılmış qarşılıqlı əlaqənin təmin edilməsi;
- Sahədə innovasiya fəaliyyətinin səmərəli dövlət tənzimlənməsinin təmin edilməsi.

Dünya təcrübəsində bir daha sübut edilmişdir ki, inkişaf etməkdə olan ölkələrdə innovasiya fəaliyyəti iqtisadi sistemin modernləşdirilməsinin başlıca şərtidir. Odur ki, artıq beynəlxalq miqyasda öz ekstensiv və intensiv imkanlarını başa vuran sahələrin əvəzinə ən yeni texnologiyaya əsaslanan yeni sahələr yaranır. Məsələn, Almaniyada ÜDM-in tam artımı elmi-tədqiqatların nəticələrinin və innovasiyaların tətbiqi hesabına təmin olunmuşdur. Tayvanda yüksək texnologiyalardan istifadə əsasında eləcə də kiçik və orta biznesin uğurlu fəaliyyəti nəticəsində ölkə üzrə ÜDM-in 45%-i və məşğulluğun 78%-i təmin edilmişdir. Sənayedə yeni texnologiyaların tətbiqi dünya əmtəə və xidmət bazarlarına keyfiyyətli keçidə imkan vermişdir. Bu gün əminliklə söyləmək olar ki, XXI əsrdə sosial-iqtisadi inkişafın təntənəsi həyata keçirilən innovasiya siyasətinin səmərəliliyi ilə ölçülür. Son il-

lərin statistik məlumatları göstərir ki, dünya bazarında Rusiyanın elmtutumlu məhsulunun xüsusi çəkisi 0, 13%-dir. Həmin göstərici Çin üzrə - 2%; Cənubi Koreya - 4%; Yanponiya - 11%; ABŞ - 25%; Avropa İttifaqı - 35%; təşkil edir. Azərbaycan üçün bu göstərici çox aşağıdır. Bu sahədə uğur qazanmaq üçün yuxarıda şərh edilən bütün metodiki və praktiki aspektlər sənaye sahələrində tətbiq olunmalıdır.


Deməli, "Azərbaycan – 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində innovasiya potensialının artırılması bütün iqtisadi fəaliyyət sahələrində həlli vacib məsələdir.

İnnovasiya potensialı çox vaxt iqtisadi resursların miqdarı kimi çıxış edir və cəmiyyət üzvləri hər vaxt onu özünün inkişafı kimi istifadə edirlər. Həmin resurslar makro sistemin aşağıdakı üç əsas sektoru arasında bölüşdürülmüşdür: elmi-texniki, təhsil və investisiya. Nəticədə, elmi-texniki potensial, təhsil potensialı və investisiya potensialı əmələ gəlmişdir ki, onların da məcmusu makro-sistemdə innovasiya potensialını formalaşdırmışdır. Lakin dissertasiya işinin mövzusuna uyğun, həmin aspektləri mikro-səviyyədə araşdıracağıq ki, onun da əsasını sahibkarlıq strukturunun innovasiya potensialı təşkil edir. Bu növ potensial bu və ya digər funksional məsələləri həll etmək üçün bütün mövcud iqtisadi resurslardan maksimum istifadəni özündə əks etdirir. Sahibkarlıq strukturunun innovasiya potensialı və onun elementləri 6 saylı şəkildə əks etdirilmişdir.



Şəkil 6. Sahibkarlıq subyektlərinin innovasiya potensialı və onun əsas elementləri.


Şəkildən göründüyu kimi, sahibkarlıq subyektlərin innovasiya potensialı emal sənayesində innovasiyaların həyata keçirilməsini təmin edən infrastrukturun əsasında formalaşmalı və bu zaman müvafiq resurs təminedicilərin mövcudluğu çərçivəsində fəaliyyətə dövlətin dəstəyi və istehsalat sisteminin səmərəliliyi təmin olunmalıdır. Lakin ölkəmizin emal sənayesində və onun alt-sahəsi hesab edilən dəri, dəri məmulatları və ayaqqabı istehsalı sferasında istehsalat sisteminin səmərəliliyi çox vaxt təmin olunmur. Bunun əsas səbəbi isə, fikrimizcə, həmin alt-sahənin dinamikliyinin dayanıqlığı və sabitliyini təmin edən innovasiyanın inkişaf modelindən istifadə edilməməsidir. Hesab edirik ki, iqtisadi inkişafın bütün səviyyələrdə innovasiya modeli: "İnnovasiya potensialı – rəqabət qabiliyyəti – iqtisadi təhlükəsizlik" parametrlərinin qarşılıqlı əlaqəsinə əsaslanmalıdır (şəkil 7).



Şəkil 7. Sahibkar firmaların təsərrüfat sistemlərinin innovasiyanın inkişafı modelinin qurulu-şu.

İnnovasiya fəaliyyətinin təkmilləşdirilməsi. Hesab edirik ki, emal sənayesinin innovasiya potensialının aşağı olduğu bir vaxtda adı çəkilən inkişaf modelindən sahədə istifadə olunması idarəetmə kontekstində fayda verə bilər, lakin onun əsasını müəssisənin innovasiya fəaliyyəti təşkil etməlidir ki, o da – istehsalın təşkili və texnologiyanın təkmilləşdirilməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi və çeşidinin artırılması məqsədi ilə innovasiyaların axtarılması və onların həyata keçirilməsi istiqamətləri əsaslanmalıdır.

Sahibkar firmaların innovasiya fəaliyyətinə: mövcud problemlərin aşkar edilməsi; innovasiya prosesinin həyata keçirilməsi və innovasiya fəaliyyətinin təşkili daxildir. Həmin elementlərin qarşılıqlı əlaqəsi və innovasiya fəaliyyətinin tədqiq edilən alt-sahədə təkmilləşdirilməsi istiqamətləri 8 saylı şəkildə əks etdirilmişdir.



Şəkil 8. Sahibkar innovasiya fəaliyyətinin formalaşması və təşkilinin təkmilləşdirilməsi istiqamətləri.

Əlbəttə, şəkildə göstərilən istiqamətlərin dəri məmulatları və ayaqqabıların istehsalı ilə məşğul fərdi sahibkarlar və kiçik müəssisələr tərəfindən (onların iqtisadi, texniki və texnoloji durumunun hazırki mərhələsində) həyata keçirilməsi bir çox təşkilati çətinliklərlə əlaqədardır. İlk növbədə həmin sferanın fəaliyyətini tənzimləyən və cavabdehlik daşıyan birbaşa idarə orqanı yoxdur. Digər tərəfdən, həmin subyektlər daxili və xarici bazarı tədqiq edə və innovasiya layihələrin tətbiq edə bilməməsi səbəbindən fasiləsiz yaxınlaşdırma sistemindən yararlana bilmirlər. Üçüncüsü, adı çəkilən istehsal və xidmət sferasında yeniliyin mükafatlandırılması və motivləşdirilməsinin həyata keçirilməsi imkan xaricindədir. Deməli, ölkənin emal sənayesi və onun alt-sahələrində innovasiya fəaliyyətini həyata keçirən və innovasiyaları idarə edən, dünya təcrübəsində geniş tətbiq edilən xüsusi və ixtisaslaşdırılmış təşkilati strukturların yaradılmasına zəruri ehtiyac duyulur. Həmin strukturlar aşağıdakılardan ibarətdir:

- intraprenerstvo (firmadaxili riskli sahibkarlıq subyekti);
- vençur firmaları;
- injinizinq firmaları;
- biznes inkubatorlar;
- texnoparklar;
- elmi-maliyyə sənaye qrupları EMSQ (elmi və elmi-təhsil təşkilatları, maliyyə qrupları, banklar, sənaye müəssisələri və regional inzibati orqan).

Mövcud iqtisadi ədəbiyyatlarda həmin infrastrukturun idarə edilməsi prinsipləri bu və ya digər səpkidə açıqlanmış və onların bəziləri artıq ölkəmizin ayrı-ayrı şəhər və regionlarında yaradılmışdır. Odur ki, hər bir infrastruktur haqqında fikir söyləmək yersizdir. Lakin tədqiq edilən sahə üçün tətbiqi mümkün olan bəzi infrastrukturun xarakterik xüsusiyyətini burada qısa da olsa, açıqlamağa üstünlük veririk. Onların içərisində ölkəmizdə hələlik tətbiq edilməyən "intraprenerstvo"- firmadaxili riskli sahibkarlıq subyektidir. Onun məqsədi firma daxilində yaradıcı – innovasiya sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasıdır.

Belə müəssisələrin xarakterik cəhəti aşağıdakılardır:

- maliyyə, material və kadr resurslarından istifadə azaddır;
- sərbəst şəkildə bazara çıxa bilir;
- yarana biləcək risklərin bir hissəsini öz üzərinə götürür;
- layihələrin uğurlu icrası zamanı əldə edilən mənfəətin bir hissəsinə sahib olur;
- özünün xüsusi səhmini buraxır və korporasiya daxilində onları yayır.

İnjinirinq firmaları – elmi-tədqiqat işləri ilə istehsalat arasında birbaşa əlaqə yaradır. Onun fəaliyyəti əsasən aşağıdakılardan ibarətdir:

- Sənaye təyinatlı intellektual mülkiyyət obyektlərinin ekspertizası və qiymətləndirilməsi;
- Sənayedə elmi-texniki yeniliklərin həyata keçirilməsi istiqamətində innovasiya layihələrinin tərtibatı;
- Yeniliyin tətbiqi üçün müəssisələrdə istehsal proseslərinin yaradılması.

Elmi-maliyyə sənaye qrupları. Bu sahibkarlıq subyekti aşağıdakı məsələlərlə məşğul olur:

- Müsabiqə yolu ilə innovasiya layihələrinin seçilməsi;
- Perspektiv innovasiya layihələrinə real investisiyaların yönəldilməsi;
- Subyektin iştirakçıları ilə birlikdə müştərək istehsalat və kommersiya fəaliyyətinin təhlili;
- Mühüm sosial vəzifə kimi iş yerlərinin yaradılması;
- ETKTİ-lərin maliyyələşdirilməsi.


ENSQ-nun iş prinsipi aşağıdakılardır:

- Layihə iştirakçılarının könüllülük əsasında birləşdirilməsi və qarşılıqlı fayda əsasında onların resurslarının inteqrasiya edilməsi
- Məqsədli proqram fəaliyyəti;
- Layihələrin müxtəlif mənbələrdən eyni vaxtda maliyyələşdirilməsi;
- Maksimum iqtisadi səmərəlilik.

Dəri məmulatları və ayaqqabılara ölkəmizdə olan tələbatın çox hissəsinin idxalı hesabına ödənilməsi, həmin məhsulları istehsal edən fərdi sahibkarların və kiçik müəssisələrin innovasiya aktiv-

liyinin aşağı olması sadalanan yeni strukturların tətbiqini imkansız edir, lakin onların gələcəkdə inkişafını innovasiya yönümlü iqtisadiyyata keçidin forma və prinsipləri şərtləşdirəcəkdir.

Hesab edirik ki, emal sənayesində sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin genişləndirilməsini özündə əks etdirən, uzunmüddətli dövrü əhatə edən, "sahənin innovasiya proqramı" - nın tərtib edilməsi və onun həyata keçirilməsi dayanıqlı inkişafa təminat yaratmış olacaqdır. Son illər respublikamızda və xarici ölkə alimlərinin dövrü mətbuatda dərc etdirdikləri əsərlərində [4; 5; 6; 8] adı çəkilən proqramın bir-birindən az fərqlənən məzmunda strukturunu təklif etmişlər. Həmin alimlərin metodiki tövsiyələrindən bəhrələnərək və tədqiq edilən alt-sahənin mövcud durumunu nəzərə-alaraq tərəfimizdən emal sənayesində innovasiyaların tətbiqi və idarə edilməsi proqramının fərqli prinsipial sxemi işlənilmişdir (şəkil 9). Burada açıqlanan, şərh edilən və tövsiyə olunan tədbirlərin həmin proqrama daxil edilməsi onun məzmununu zənginləşdirmiş olardı.



Şəkil 9. Emal sənayesində innovasiyaların tətbiqi və idarə edilməsi proqramının prinsipial sxemi.

Açar sözlər: sahibkarlıq subyektləri, innovasiya fəaliyyəti, innovativ idarəetmə, sahə proqramı

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, "Xalq" qəzeti, 2012, 30 dekabr
2. "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, "Respublika" qəzeti, 2014, 4 mart
3. Azərbaycanın sənayesi. İllik statistik məcmuə. Bakı: "DSK", 2014, 338 s.
4. Aslanzadə İ.A. Dövlət innovasiya siyasətinin formalaşması və sənaye sektorunun rəqabət qabiliyyətliliyin yüksəldilməsi yolları: iqt. elm. dok. ... dis. avtoref. Bakı, 2013, 55 s.
5. Qasımov F.H, Əliyev T.N, Nəcəfov Z.M. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: "Elm və təhsil", 2013, 680 s.
6. Tağıyev A.H, Köçərli H.R. İnnovasiya siyasəti. Bakı: "Təknur", 2013, 160 s.
7. Рекомендация Комиссии от 6 мая 2003 года относительно определения микро, малых и средних предприятий. Европейская комиссия, http//ec.europa.eu/ entrprise.
8. Развитие предпринимательства в регионе ЕЭК ООН: Опыт стран в снижении барьеров на пути развития предприятий. Нью-Йорк и Женева, 2008, 58 с.

Тярбиз Алиев
Анар Алирзаев

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ УЛУЧШЕНИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ СУБЪЕКТОВ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье на основе изучения и обобщения литератур, посвященных исследуемой проблеме, нормативно-правовых актов и статистических материалов дана классификация – организационно-экономических технико-технических причин, а также факторов, отрицательно-влияющих на рациональную организацию менеджмента. С целью устранения недостатков, в методологическом аспекте в виде схемы разработаны: механизм концепций инновационного развития, структура инновационной модели, инновационного потенциала и на их основе разработаны практические рекомендации по совершенствованию инновационной деятельности предпринимательских фирм в обрабатывающей промышленности республики.

Ключевые слова: предпринимательские субъекты, инновационная деятельность, управление инновациями, отраслевая программа

Tarbiz Aliyev
Anar Alirzayev

THE MAIN DIRECTIONS OF EXPANSION OF THE INNOVATIVE ACTIVITY OF BUSINESS ENTITIES

Summary

The article based on of studying and generalization the literature devoted to study the problem; normative legal acts and a classification of statistical materials - of organizational and economic techno and technical reasons and the factors that negatively affect the rational organization of management. For the purpose of address the deficiencies in the methodological aspect in the form of diagrams are designed: the mechanism of the concepts of innovative development, the structure of the innovation model innovation potential and on their basis practical recommendations for improving the innovative activity entrepreneurial firms in the manufacturing sector of the Republic.

Key words: Entrepreneurial subjects, innovative activities, management of innovation, sectoral programs

UOT - 330.3

Əsgər Əliyev
AƏSMA, i.ü.f.d., dosent
Sevda Məmmədova
AƏSMA, i.ü.f.d., dosent

AZƏRBAYCANDA NEFT STRATEGİYASININ İNKİŞAF PERSPEKTİVLƏRİ

Dərin mənəvi, mədəni, elmi-iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik olan Azərbaycan dövləti həm də özünün zəngin təbii yerüstü və yeraltı sərvətləri ilə zəngin olan bir ölkədir. Məlum oldduğu kimi bu maddi sərvətlər içərisində neft əsas yerlərdən birini tutur. Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan hökuməti yalnız XX əsrin 90-cı illərində müstəqillik qazandıqdan sonra bu sərvətlərdən bəhrələnmək imkanı qazanmışdır. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində Azərbaycanın iqtisadi və sosial həyatında yanacaq-enerji kompleksi çox mühüm əhəmiyyət kəsb edir. Yanacaq-enerji kompleksinə neft və qaz hasilatı, neftin nəqli və emalı, ölkədə elektrik və istilik enerjisi istehsalı və qaz təchizatı daxildir.

Ölkədə neft ehtiyatlarının mövcud olması həmişə dövlətin diqqət mərkəzində olan problemlərdən biri olmuşdur. Belə ki, son illərdə neft-qaz sənayesinin inkişafında irəli sürülən məsələlər neft-qaz müqavilələrinin bağlanmasından əldə edilən gəlirlərin düzgün istifadə yolları və bu amillərin lazımi səviyyədə tətbiqi Azərbaycanın xarici siyasətində öz əksini tapmışdır.

1994-cü ildə sentyabrın 20-də Azərbaycan hökuməti ilə xarici neft şirkətləri arasında imzalanan "Əsrin müqaviləsi" respublikamızın neft-qazçıxarma sənayesinin və ümumiyyətlə, ölkə iqtisadiyyatının inkişafında yeni tarixi bir mərhələnin əsasını qoymuşdur. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlədilməsi nəzərdə tutulan bu sazişin yalnız Azərbaycan üçün deyil, həm də Qərbin bir sıra aparıcı dövlətləri, həmçinin də Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyəti olmuşdur.

Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında ulu öndərimiz Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir". "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur şirkəti ("Amoco", BP, "Mak Dermott", "Yunokal", ARDNŞ, "LUKoyl", "Statoyl", "Ekson", "Türkiyə Petrolları", "Penzoyl", "İtoçu", "Remko", "Delta") iştirak etmişdir. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 şirkət ilə daha 26 sazişin imzalanmasına səbəb olmuşdur. Bütün bunlar onu göstərir ki, həmin dövrdən Azərbaycanın yeni neft strategiyası və doktrinası uğurla həyata keçirilməyə başlamışdır.

Ötən dövrdə ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük ölkələrinin paytaxtları olan Vaşinqton, Moskva, London və Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. İndiki dövrdə həmin sazişlərin həyata keçirilməsində 14 ölkənin 30 neft şirkəti yüksək səviyyədə iştirak edir. Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Bu məbləğdən 4,5 milyardı artıq ölkəmizin neft-qazçıxarma sənayesinin inkişafına investisiya şəklində qoyulmuşdur.

Aparılan təxmini proqnozlar göstərir ki, hazırda Azərbaycanın bütün kateqoriyaları üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarmışdır.

Materialların təhlili göstərir ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın neft-qaz sənayesi sahəsində görünməmiş dərəcədə inkişafa nail olunmuşdur. Belə ki, 3 il ərzində neft-qaz sənayesinin inkişafına külli miqdarda vəsait qoyulmuşdur. Həmin illərdə yeni qazma

qurğuları, platformalar tikilməyə başlanmış, yeni iş yerləri istifadəyə verilmiş, 10 ədəd yedək gəmisi təmir olunaraq işə salınmışdır. Bununla yanaşı boru düzən və kran gəmiləri təmir olunaraq modernləşdirilmişdir. Bütün bunların nəticəsində neft-qaz sənayesinin istehsalat və texnoloji strukturu yeniləşmiş, yeni kadr potensialının formalaşması nəticəsində müvafiq sektorda tətbiq edilən müasir texnologiyaların istismarı asanlaşdırılmışdır. Bu isə öz növbəsində rekord miqdarda neft hasilatına gətirib çıxarmışdır.

Azərbaycanın statistik göstəricilərinin təhlili göstərir ki, son dövrlərdə ölkədə neft hasilatı əsaslı şəkildə yüksəlmişdir. Belə ki, 2009-cu ildə 50415,9 min ton, 2010-cu ildə 50838,2 min ton, 2011-ci ildə 45626,2 min ton, 2012-ci ildə 43374,8 min ton və 2013-cü ildə isə 43457,4 min ton neft hasil olunmuşdur [1, s.432]. Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, son dövrlərdə qaz hasilatı da əsaslı şəkildə yüksəlmişdir. Əgər 2009-cu ildə 16325,0 milyon kub metr qaz hasil olunmuşdursa, 2010-cu ildə 16672,7 milyon kub metr, 2011-ci ildə 16361,4 milyon kub metr, 2012-ci ildə 17242 milyon kub metr və 2013-cü ildə isə 17895,1 milyon kub metr qaz hasil olunmuşdur [1, s.433].

Neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəql olunmasından ibarətdir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəklənməsi üçün son dövrlərdə gərgin işlər həyata keçirilmiş və aparılan danışıqlar çox yüksək səviyyədə uğurla nəticələnmişdir.

Hal-hazırkı dövrdə Azərbaycanın dünya siyasətindəki çəkisi neft diplomatiyasının düzgün aparılmasından xeyli dərəcədə asılıdır.

Göründüyü kimi 1994-cü ildən başlayaraq Azərbaycanın neft-qaz sənayesi beynəlxalq sistemə qoşulmuş və ölkənin bu sənaye sahəsinə xarici investisiya axını başlamış, yeni neft yataqları istismara verilmiş və neft hasilatında əsaslı dönüş yaranmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlanıb həyata keçirilməkdədir. Azərbaycanda istehsal olunan zəngin neft resursları indiki dövrdə dünya bazarlarına çıxarılır. Bütün bunlar onu göstərir ki, "Əsrin müqaviləsi" bağlandıqdan sonra Azərbaycanın ümumi iqtisadi və siyasi inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Yeni neft strategiyasının 20 illik fəaliyyətinin nəticəsində ölkəmizə külli miqdarda gəlir gətirilmişdir. Bu illər ərzində Azərbaycanın öz imkanlarını ardıcıl şəkildə genişləndirməsi nəticəsində xeyli işlər görülmüşdür. Belə ki, ilk dəfə olaraq Xəzər dənizini Qara dənizlə və Aralıq dənizi ilə birləşdirən neft kəmərləri çəkilib istifadəyə verilmişdir.

Ölkədə istehsal olunan xam neftin ixrac boru kəməri vasitəsilə Qərb bazarlarına ixrac olunması son dövrlərdə böyük iqtisadi dividentlərə gətirib çıxarmışdır. Neft gəlirlərinin iqtisadiyyatın digər vacib sahələrinə, o cümlədən qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması məsələlərinin həllində çox diqqəti çəkən məsələlərdən olmuşdur.

Deməli, son 20 il müddətində neft-qaz sənayesində "Əsrin müqaviləsi"nin bağlanması və 1996-cı ildə "Şahdəniz" qaz kontraktı üzrə sazişin bağlanması çox böyük əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bütün bunlar onu deməyə əsas verir ki, hal-hazırkı dövrdə "Cənub" qaz dəhlizinin əsas resurs mənbəyi "Şahdəniz" qaz yatağından ibarətdir. "Şahdəniz" qaz yatağı indiki dövrdə dünyanın ən böyük qaz yataqlarından biridir. Mütəxəssislərin hesablamalarına görə "Şahdəniz" qaz yatağında qaz ehtiyatlarının həcmi 2 trilyon 200 milyard kubmetrdən çoxdur.

2006-cı ilədək Rusiyadan qaz idxal edən Azərbaycan son 2 ildə məhz "Şahdəniz" yatağından hasil olunan təbii qaz hesabına nəinki öz tələbatını ödəmək, hətta mavi yanacağını Avropa bazarlarına çıxarmaq imkanı qazanmışdır.

Azərbaycan Respublikası prezidentinin 24 noyabr 2003-cü il tarixdə imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanda neft gəlirlərindən düzgün istifadəni nəzərdə tutan uzunmüddətli strategiyanın hazırlanması mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. Bu strategiyada neftdən qazanılan vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastrukturun genişləndirilməsində və

yeniləşməsində, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində "insan kapitalı"nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər mühüm istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur.

1999-cu ildən Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərinin tikilib istifadəyə verilməsi neftin ixrac marşrutu kimi çox mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2003-cü ildən çəkilib istismara verilməsi Azərbaycan və eyni zamanda Xəzər sahilinin şərq hissəsində yerləşən ölkələr üçün bir ixrac boru kəməri kimi müstəsna əhəmiyyəti vardır. Tarixi hadisə kimi 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilib istifadəyə verilməsindən sonra Azərbaycan dünya miqyasında qaz ölkəsi kimi tanınmışdır. "Cənub" qaz dəhlizinin birinci hissəsinin 2007-ci ildə istifadəyə verilməsindən sonra ölkəmizdə böyük layihə üzərində lazımi işlər aparılır. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında danışıqlar nəticəsində Transanadolu kəmərinin tikintisi ilə əlaqədar razılıq əldə olunması da mühüm bir hadisədir. Bu günkü gündə "TANAP" layihəsinin dəqiqləşdirilməsindən sonra "Cənub" qaz dəhlizinin gələcək perspektivləri nəzərə çarpır. Burada bir məsələyə də xüsusi diqqət yeritmək lazımdır ki, 2013-cü ildə "TAP" layihəsi – Transadriatik kəmərinin əsas ixrac marşrutu kimi nəzərdə tutulması ölkəmizə əlavə dividentlərin gətirilməsinə səbəb olacaqdır.

Göründüyü kimi "Cənub" qaz dəhlizi yalnız infrastruktur deyildir. Bu layihə öz-özlüyündə gələcəyə olan bir baxışdır. Bu baxış artıq demək olar ki, reallığa çevrilmişdir. Bu layihə nəticəsində Avropa ilə Asiya demək olar ki, birləşir. Enerji təminatı və enerji təhlükəsizliyi baxımından bu layihənin gerçəkləşməsi gələcək illər ərzində müxtəlif dövlətlər və xalqlar arasında davamlı əməkdaşlığın təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu əməkdaşlığın yaranmasında rəqabət qabiliyyətli qiymətlərin təklif olunması, əlavə inkişaf və ətraf mühitin qorunması məsələləri daim diqqət mərkəzində duran problemlərdən biri olacaqdır. Ümumiyyətlə, TAP və TANAP layihələri "Cənub" qaz dəhlizinin tərkib hissəsidir. Bu layihələrə əsaslanaraq boru kəməri Türkiyədən keçərək Yunanıstan ərazisində 543 kilometrdən sonra Makedoniya və Albaniyaya çatdırılacaqdır.

Ümumiyyətlə, "Cənub" qaz dəhlizinin layihələndirilməsi Avropanın təhlükəsizliyinə istiqamətləndirilib. Bu iş hər şeydən əvvəl əvvəldə qeyd etdiyimiz kimi dünyanın ən böyük və ən mürəkkəb qaz-kondensat yataqlarından biri kimi mövcud olan "Şahdəniz" yatağının uğurla işlənilməsinin ikinci mərhələsində "Cənubi Qafqaz" boru kəməri genişləndiriləcək və bunun da sayəsində TANAP və TAP kimi nəhəng qaz kəmərləri inşa edilərək istifadəyə veriləcəkdir. Bu layihələrin həyata keçirilməsinə 45 milyard ABŞ dolları məbləğində sərmayə qoyulması planlaşdırılmışdır. Onu da qeyd etmək lazımdır ki, indiki dövrdə "Cənub" qaz dəhlizi marşrutu istiqamətində böyük investisiya layihələri həyata keçirilir. Bu ölkələrin bəzilərində Azərbaycan ən iri sərmayəçilərdən biridir. Ölkə miqyasında qazanılmış nailiyyətlər onu göstərir ki, son dövrlərdə gedən inkişafın davamlı olması nəticəsində XXI əsrin layihələri də vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir. Azərbaycan qazı 2018-ci ildə Türkiyəyə, 2019-cu ildə isə Avropaya çatdırılacaqdır.

Aparılan təhlil materialları göstərir ki, son 10 il müddətində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən dövlətlərdən biri olmuşdur. "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsi ölkəmiz üçün yeni imkanların açılmasını bir daha sübuta yetirir. 2003-cü illə müqayisədə 2014-cü ilin əvvəlində ölkəmizdə ümumi daxili məhsulun həcmi 3 dəfədən çox, ölkənin büdcə xərcləri isə 20 dəfə artmışdır. Hal-hazırkı dövrdə Azərbaycanın xarici dövlət borcu ümumi daxili məhsulun yalnız 8%-ni təşkil edir. Ölkədə işsizliyin səviyyəsi 5%, yoxsulluq səviyyəsi isə 5,2% təşkil edir.

Bütün bunlar onu göstərir ki, indiki şəraitdə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. 2014-cü ildə dövlət büdcəsinin 2003-cü ildəki 1,2 milyard dollardan 25 milyard manata, respublikamızın valyuta ehtiyatlarının Dövlət Neft Fondunda toplanan vəsaitlərin 54 milyard dollara çatdırılması ölkədə qoyulmuş yeni neft strategiyasının nəticəsində olmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: "Son illərdə həyata keçirilən neft strategiyası bu yolun düzgün olduğunu bir daha sübut etdi. Amma bu heç də o demək deyil ki, biz gələcəyimizi də neftlə bağlamaq istəyirik. Neft faktoru bizim üçün vasitədir. Müstəqilliyimizin

möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bir vasitədir. Yəni biz bu vasitədən istifadə edirik.

Neftin o vaxt qiyməti olur ki, neft hasil edilir, nəql edilir, satılır və bundan gəlir əldə olunur. Yerin, suyun altında istifadəsiz olan neftin heç bir qiyməti yoxdur. Bəziləri deyirlər ki, o, bizim milli sərvətimizdir, ona dəyməyək, onu gələcək nəsillərə saxlayaq. Bu çox yanlış, populist fikirdir.

Yenə də deyirəm, neft bizim üçün vasitədir. Mən hesab edirəm ki, biz bu vasitədən çox səmərəli istifadə etdik. Azərbaycan artıq dünyada tanındı. Ölkəmizə milyardlarla dollardan artıq sərmayə gətirilib qoyuldu. Azərbaycan öz iqtisadiyyatının neftlə bağlı olan digər sektorlarının da xeyrini götürdü, orada inkişaf müşahidə olundu. Azərbaycanda infrastruktur, xidmət sektoru sahəsində böyük irəliləyiş var. Minlərlə gənc vətəndaşımız xarici ölkələrdə, yaxud da xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən şirkətlərinin təşkil etdiyi kurslarda öz təhsilini təkmilləşdiribdir."

Göründüyü kimi 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəmizə valyuta daxil olmaları xeyli yüksəlmişdir. İqtisadi artımın neft amili ilə bağlılığı əvvəlki illərdə çox yüksək səviyyədə olmuşdur. Neft gəlirlərindən səmərəli şəkildə istifadə olunması iqtisadiyyatın real sektoruna və eyni zamanda infrastruktur layihələrinin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Burada bir məsələyə də diqqət yetirmək lazımdır ki, son dövrlərdə ölkə iqtisadiyyatına külli miqdarda investisiya qoyulmuşdur.

2003-2013-cü illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafına 160 milyard dollar investisiya cəlb olunmuşdur. 2013-cü ildə qoyulan sərmayənin həcmi rekord səviyyəyə çataraq ölkə iqtisadiyyatına 28 milyard dollar məbləğində sərmayə qoyulmuşdur. Statistik məlumatların təhlili göstərir ki, daxili sərmayələr artıq xarici sərmayələri üstələyir. Ümumiyyətlə, 160 milyard dollar həcmində qoyulan sərmayə Azərbaycan iqtisadiyyatına böyük təkan vermişdir [2].

Burada bir məsələni də qeyd etmək lazımdır ki, adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB dövlətləri arasında ön sıralardadır.

Neftdən gələn gəlirlər hesabına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılması istiqamətində düşünülmüş strategiya həyata keçirən Azərbaycan hökuməti bu sahədə mühüm göstəricilərə nail olmuşdur. Heç də təsadüfi deyildir ki, sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son 10 il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. 2004-cü ildən həyata keçirilən regional proqramlarında biznes mühitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin əksini tapması da təsadüfi olmayıb, bölgələrin tərəqqisi prosesində özəl sektorun imkanlarını səfərbər etmək, sosial xarakterli məsələlərin həllində sahibkarların fəal iştirakına nail olmaq istəyindən irəli gəlmişdir. 2004-2008 və 2009-2013-cü illərdə həyata keçirilmiş regional inkişaf proqramları respublikamızının bölgələrində yerli sahibkarlığın, yeni istehsal və emal müəssisələrinin açılmasına, işsizlik və yoxsulluq probleminin əsaslı dərəcədə həllinə ciddi təkan vermişdir. Ötən illərdə kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli məqsədilə yeni mexanizmlər tətbiq edilmişdir.

Ümumiyyətlə, son illər ölkədə regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarında və digər rəsmi sənədlərdə sahibkarlığın inkişafı məsələsi daim diqqət mərkəzində duran bir problem kimi nəzərdə tutulur. 2004-2008 və 2009-2013-cü illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram"larının icra olunduğu 10 il ərzində regionlarda qeydiyyata alınan sahibkarlıq subyektlərinin sayı 7,2 dəfə və vergi daxil olmaları 12,7 dəfədən çox artmışdır. Azərbaycanın şəhər və regionları üzrə vergi gəlirlərinin artımı 2014-cü ildən Sumqayıt, Şirvan və Mingəcevir şəhərləri ilə yanaşı, eləcə də Abşeron və İmişli rayonlarına öz xərclərini tamamilə yerli gəlirlər hesabına təmin etməyə imkan yaratmışdır [6].

Bütün bu deyilənlərə əsaslanaraq göstərmək lazımdır ki, neft-qazçıxarma sənaye sahəsinin sürətli inkişafı və bunun da əsasında inkişaf etdirilməsi nəzərdə tutulan yanacaq-energetika sənaye sahəsinin Azərbaycanın bu günkü həyatında oynadığı misilsiz rolunu çox yüksək qiymətləndirən dövlətimiz neft-qaz sənayesi ilə bərabər qeyri-neft sektorunun da inkişafını genişləndirmək məsələsini daim diqqət mərkəzində saxlayır. Bu baxımdan ölkəmizin imkanları xeyli böyükdür. Bu isə öz

növbəsində gələcəkdə ölkənin yüksək davamlı inkişafının əsasən regionların istehsal potensialından səmərəli istifadə istiqamətində davam etdirilməsinə şərait və imkan yaradacaqdır.

Açar sözlər: neft strategiyası, təbii sərvətlər, ixrac boru kəməri, neft kəməri, karbohidrogen ehtiyatları, investisiyalar

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Bakı: ARDSK, 2014.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransda İlham Əliyevin nitqi. "Azərbaycan" qəzeti, Bakı, 2014, 6 fevral, №25
3. "2004-2008-ci illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
4. "2009-2013-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
5. Əliyev N. Öklənin güclü iqtisadi potensialının əsasını neft amili təşkil edir. "Azərbaycan" qəz., Bakı, 2014, 20 sentyabr, №206
6. Kərimov Q. Əsrin müqaviləsi" ilə başlayan dinamik inkişaf yolu. "Azərbaycan" qəz., Bakı, 2014, 20 sentyabr, №206

Аскер Алиев
Севда Мамедова

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ НЕФТЯНОЙ СТРАТЕГИИ В АЗЕРБАЙДЖАНЕ

Резюме

В статье, обосновываются современные тенденции в развитии нефтегазовой промышленности в Азербайджане. В связи этим, показаны изменения в направлении развития нефтяной промышленности. А также проанализированы вопросы открытия нового этапа в развитии нефтегазовой промышленности и в целом экономики страны в контексте "Контракту века", заключенного 20 сентября 1994 года.

Ключевые слава: нефтяная стратегия, природные ресурсы, экспортный трубопровод, нефтепровод, запасы углеводорода, инвестиции

Asker Aliyev
Sevda Mammadova

THE PROSPECTS FOR THE DEVELOPMENT OF THE OIL STRATEGY OF AZERBAIJAN

S u m m a r y

The article substantiastes thoroghly characterize the current trends in the development of the oil and gas industry in Azerbaijan. In this regard, the article shows the changes in the direction of development of the oil industry. It is also examined the question of opening a new stage in the development of the oil and gast industry and the whole economy of the country considering to the "Contract of the Centry" signed September 20, 1994.

Key words: oil strategy, natural resources, export pipeline, oil pipeline, hydrocarbon resources, investment

UOT - 330.001.4

Kutais Sarıyev
BDU, i.ü.f.d., dosent

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA SOSİAL BAZAR TƏSƏRRÜFATININ FORMALAŞMASI VƏ ONUN REALLAŞMA İSTİQAMƏTLƏRİ

Tarixə nəzər saldıqda hər bir cəmiyyətin özünə məxsus olan sosial arzuları, məqsədləri və sövqedici motivləri mövcud olmuşdur. Eyni zamanda bütün dövrlərdə sosial problemlər xalqın, millətin məqsəd və məqsədəçatmaq vasitələrinə çevrilmişdir. Bazar münasibətlərinin formalaşması cəmiyyətin sosial problemlərinin həll olunmasını ön plana çəkir və dövlətin bu sahədə rolunu daha da artırır. Artıq dünya ölkələrinin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatının sosiallaşma meyli daha da güclənmiş və sosial bazar təsərrüfatının özünə məxsus olan müxtəlif modelləri formalaşmışdır. Sosial bazar təsərrüfatı bazar iqtisadiyyatının inkişaf etmiş yüksək forması kimi meydana gəlmişdir. Ayrı-ayrı dövrlərdə bazar iqtisadiyyatının formalaşması tədricən sosial bazar təsərrüfatının inkişafına maddi-ilkin şərait yaratmışdır. Mövcud iqtisadi sistemin inkişafı ilə bağlı olaraq bütün insanlar, vətəndaşlar sosial bazar təsərrüfatının mahiyyətini dərk etməli, sosial inkişaf istiqamətlərini müəyyən etməli, dövlətin sosial siyasətinin əsas istiqamətlərini özləri tərəfindən dərk etməli və onun reallaşmasında öz rolunu göstərməlidir. Əgər iqtisadi sistem dövlətin sosial siyasəti tələbləri səviyyəsində inkişaf edirsə, onda insanlar onun bütün sosial üstünlüklərdən vaxtında istifadə edir, yaşayış və həyat səviyyəsinin səmərəli formada təmin olunmasında öz rolunu göstərir. Xüsusilə, insanlar sosial bazar təsərrüfatı şəraitində əmək bazarında iştirak edərkən əməyə olan tələb və təklif vaxtında ödənilir, inflyasiyanın təsirlərinə müəyyən səviyyədə uyğunlaşır, təhsil, elm, səhiyyə, idman və digər sosial problemlərin həllində səmərəli surətdə iştrak edir. Sosial bazar təsərrüfatı cəmiyyətdə ictimai institutların və digər idarəetmə strukturlarının fəaliyyətini optimallaşdırır və sosial iqtisadi stabilləşmə özünü daha çox göstərmiş olur. Sosial islahatların həyata keçirilməsi ilk dəfə olaraq Almaniyada - Alferd Müller, Aleksandr Ryustov, Lüdvik Erxard tərəfindən həyata keçirilmiş və onun başlıca məqsədinə və reallaşma mexanizminə nail olmuşlar. Həmin sosial islahatların həyata keçirilməsi iqtisadiyyatın inkişafında "3-cü yol" kimi qəbul edilmiş, iqtisadiyyatın demokratikləşdirilməsinə, sosial ədalət prinsiplərinin həyata keçirilməsinə və insanların tələbatlarının hərtərəfli ödənilməsinə nail olunmuşdur.

Sosial bazar təsərrüfatı bir iqtisadi sistem kimi bilavasitə bazar iqtisadiyyatının sosiallaşması onun fəaliyyətinin daha da genişlənməsi, insanların məqsəd və məqsədə çatmaq vasitələrinə xidmət etməsi ilə bağlıdır. Sosial bazar təsərrüfatının iqtisadi sistem olaraq qarşısında duran məqsədlərə aşağıdakıları aid etmək olar:

- İnsanların sosial-iqtisadi azadlığının və sərbəstliyinin təmin olunması;
- İqtisadi metod və mexanizmlərindən səmərəli surətdə istifadə olunması;
- Azad rəqabət və sahibkarlıq fəaliyyətinin daha geniş meydan alması;
- Qiymətlərin sabitliyinin, sərbəstliyinin və onun dövlət tərəfindən tənzimlənməsinin təmin olunması;
- İnsanların güclü sosial müdafiə sisteminin yaradılması;
- Əhalinin həyat keyfiyyətinin və həyat tərzinin artması;
- Daha səmərəli pul-kredit sisteminin formalaşması (iqtisadi cəhətdən səmərəli, sosial cəhətdən ədalətli pul sistemi üçün formalaşması);
- İqtisadi və sosial tərəqqiyə nail olunması, ekoloji təhlükəsizliyin qorunub saxlanılması və s.

Sosial bazar təsərrüfatı sisteminin qarşısında duran məqsədlərə nail olmaq üçün aşağıdakıların təmin olunması nəzərə alınmalıdır.

- Mülkiyyət münasibətlər sisteminin mütəşəkkül formada reallaşması təmin edilməlidir. Yəni, dövlət mülkiyyəti ilə xüsusi və digər mülkiyyət formaları arasında qarşılıqlı əlaqə gücləndirilməlidir;

- Pul və digər valyutaların səmərəli sisteminin yaradılması və onların dönərliliyinin təmin edilməsinə xüsusi diqqət yetirilməlidir;

- Sağlam rəqabət mühitinin yaradılması, əmtəə və xidmətlərin rəqabət qabiliyyətliliyinin artırılmasına üstünlük verilməlidir;

- Himayədarlıq siyasətinə üstünlük verməklə xarici iqtisadi fəaliyyətin daha da genişləndirilməsinə əlverişli mühit yaradılmalıdır;

- Əmək və sosaial münasibətlər sistemində əsasli irəliləyişin baş verməsində dövlətin rolu daha da artırılmalıdır.

Sosial bazar təsərrüfatının formalaşmasında və inkişafında dövlət sektorunun rolu daha da artırılmalıdır. Xüsusilə, qarışıq iqtisadi sistem modelinə uyğun olaraq dövlətlə özəl sektor arasında birgə fəaliyyət proqramları işlənib hazırlanmalıdır. O cümlədən ölkə iqtisadiyyatının inkişafı üçün dövlət tənzimlənməsinə, onun səmərəli mexanizmlərinin reallaşmasına üstünlük verilməlidir. Xüsusilə, güclü planlaşdırma və proqramlaşdırma metodlarından istifadə olunmalıdır.

Sosial bazar təsərrüfatı şəraitində bazar strukturlarının fəaliyyəti daha da genişlənir. Bu onunla əlaqədardır ki, bazar əmtəə-pul təsərrüfatının ən mühüm forması və elementi kimi çıxış edir. Müasir bazar iqtisadiyyatı şəraitində bazarların fəaliyyəti yalnız insanların sosial məqsədlərinin reallaşmasına xidmət edir. Yəni, fəaliyyətdə olan bütün bazarlar yalnız sosial məqsədlərin reallaşması vasitəsinə çevrilir. Sosiallaşmış (əmtəə) təsərrüfatında kollektiv və dövlət mülkiyyəti daha çox aparıcı rola malikdir, xüsusilə səhmdar cəmiyyətləri, təsərrüfat cəmiyyətləri bazar iqtisadiyyatının funksiyalarının yerinə yetirilməsində xüsusi rol oynayır. Sosial bazar təsərrüfatı sosial tərəfdaşlıq (dövlət, həmkarlar ittifaqı, sahibkarlar birliyi) şəraitində müasir bazar münasibətlərinin reallaşmasında bilavasitə öz rolunu göstərir. Xüsusilə, sahibkarlar dövlət, həmkarlar və muzdlu işçilər arasında əməyin ödənilməsi, sosial müavinətlərin verilməsi üzrə kompleks qarşılıqlı iqtisadi münasibət hökm sürür. Eyni zamanda sosiallaşmış əmtəə təsərrüfatı şəraitində ən iri müəssisələrin müasir yeni texnika, texnologiya ilə təmin olunmasına şərait yaranır. Burada istehsalın ictimailəşmə səviyyəsi daha da artır. Beləliklə, sosiallaşmış əmtəə istehsalı yalnız sosial təsərrüfatçılıq və sosial tərəqqi əsasında fəaliyyət göstərir.

Sosial bazar təsərrüfatının formalaşmasında dövlətin sosial siyasətinin mühüm rolu vardır. Belə ki, dövlətin sosial-iqtisadi siyasəti və onun əsas istiqamətləri reallaşarkən sosial bazar təsərrüfatına da birbaşa təsir göstərir. Dövlətin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərinə aşağıdakıları aid etmək olar:

- Ölkədə iqtisadi azadlığın və sərbəstliyin təmin edilməsi, yəni bütün təsərrüfat subyektinin sərbəst olaraq iqtisadi fəaliyyət növlərini seçməsi və milli iqtisadi modellərin reallaşmasında iştrak etmələri;

- İqtisadi artım səviyyəsinə nail olunması, il ərzində ölkədə ÜDM-un kəmiyyətcə artması və kəmiyyətcə təkmilləşdirilməsinə nail olunması;

- Ölkədə əhalinin tam məşğulluq səviyyəsinin təmin olunması yəni, məşğulluğun bütün fəaliyyət sahələrində öz əksini tapması;

- Sosial xarakterli innovasiyaların daha da genişlənməsinə üstünlük verilməsi;

- İqtisadi və sosial təhlükəsizliyin təmin olunması;

- Ölkədə makroiqtisadi tarazlığın tənzimlənməsi və sosial yönümlü makroiqtisadi göstəricilərin səviyyəsinin artması;

- Sosial sabitliyin qorunub saxlanılması, əhalinin aztəminatlı ailələrinə şərait yaradılması və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi.

- Ədalətli vergi qoyuluşlarının həyata keçirilməsi (vergi qoyuluşlarının stimullaşdırılması).

Sosial bazar təsərrüfatını zəruri edən ən başlıca cəhət bazar iqtisadi sisteminin özlüyündə inkişaf etməsi, sosiallaşması, insanların arzu və istəklərinin və həyat səviyyəsinin yüksək səviyyədə ödənilməsidir. Bu proses hər bir ölkənin, cəmiyyətin mövcud sosial-iqtisadi inkişaf səviyyəsindən

daha çox asılıdır. **Sosial bazar təsərrüfatı geniş formada iqtisadiyyatın elə təşkil formasıdır ki, burada əmtəə istehsalının yüksək səviyyədə ixtisaslaşması baş verir, istehsalçılarla istehlakçıların qarşılıqlı əlaqəsi bazar vasitəsilə həyata keçirilir, iqtisadiyyatın dövlət tənzimlənməsinə daha çox üstünlük verilir, cəmiyyətdə sosial institutların rolu artır, sosial ədalət, sosial tərəqqi daha geniş formada öz əksini tapır. Eyni zamanda cəmiyyətin sosial iqtisadi inkişafında və sabitləşməsində mühüm irəliləyiş baş verir**.

Sosial bazar təsərrüfatının fəaliyyətinə və strukturuna aşağıdakıları aid etmək olar:

- İqtisadiyyatın bütün sferalarında bazar təsərrüfatının fəaliyyətinin daha da genişlənməsi və onun sosiallaşma xarakterinin artması;
- İqtisadi azadlıq sərbəstlik və demokratikləşmə prinsipindən daha geniş istifadə olunması;
- Müxtəlif mülkiyyətin və təsərrüfat formalarının üstünlüklərindən və təzahür formalarından istifadə olunması;
- Bazar iqtisadiyyatı şəraitində rəqabət mühitinin qorunub saxlanılması (xüsusilə, sağlam rəqabətə daha çox üstünlük verilməsi);
- Yüksək səviyyədə istehsal bazar və sosial infrastruktur sisteminin yaradılması.
- Balanslaşdırılmış kommersiya və qeyri-kommersiya strukturlarının qarşılıqlı əlaqəsinin təmin olunnması
- İqtisadiyyatda himayədarlıq və açıq qapı siyasətinin səmərəli qarşılıqlı əlaqələrinin təmin edilməsi, yəni onun (ölkənin milli maraqlarına uyğunlaşdırılması);
- İqtisadiyyatın bütün strukturlarında, idarəetmə sistemində dövlət və bazar tənzimlənməsinin təmin edilməsi, xüsusilə, sosial bazar təsərrüfatı şəraitində qarışıq iqtisadi sistemin üstünlüklərindən və imkanlarından istifadə olunması.
- Əgər sosial bazar təsərrüfatı şəraitində özəl sektorun xüsusi çəkisi 85%-dirsə, onda gələcəkdə özəl sektorun və dövlətin rolu strateji məqsədləri daha da genişlənəcəkdir;
- İqtisadiyyatın bütün strukturlarında, yəni istehsal, bölgü, mübadilə və istehlak sferalarında sosiallaşmış bazar təsərrüfatının üstünlüklərindən və imkanlarından istifadə olunması.

Yuxarıda göstərilən istiqamətlər sosial bazar təsərrüfatının cəmiyyətin normal fəaliyyətinə təsirini bir daha əks etdirir. Sosial bazar təsərrüfatı bir iqtisadi sistem olaraq hər bir cəmiyyətdə sistem olaraq hər bir cəmiyyətdə yüksək iqtisadi artıma nail olunmasına və son nəticədə bütün insanların yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olur. Sosial bazar təsərrüfatı iqtisadiyyatın bütün sferalarında səmərəliliyin artmasına, sosial-iqtisadi tərəqqiyə, sosial ədalət prinsiplərinə əməl olunmasına birbaşa təsir göstərir. Sosial bazar münasibətləri sistemində əmtəə-pul münasibətlərinin, bank fəaliyyətinin və kreditin rolu daha da genişlənir. Sosial bazar münasibətləri şəraitində insanların ictimai həyatda normal fəaliyyəti üçün əlverişli şərait yaranır. Sosial bazar təsərrüfatının digər üstünlüklərindən biri də ölkədə milli, iqtisadi, sosial və ekoloji təhlükəsizliyin təmin edilməsi və son nəticədə respublikanın mövcud resurslarından səmərəli istifadə olunmasıdır.

Bunlara nail olmaq üçün aşağıdakı mövcud qaydaların həyata keçirilməsi məqsədəuyğundur.

- Ölkənin milli pul vahidinin möhkəmliyinin, sabitliyinin və alıcılıq qabiliyyətinin daha da yüksəldilməsi;
- Milli iqtisadiyyatın daxili resurs potensialı hesabına formalaşması;
- Sağlam rəqabət və sahibkarlıq mühitinin yaradılması;
- Ölkənin ixrac potensialına daha çox üstünlük verilməsi;
- İntellektual mülkiyyətin imkanlarından geniş istifadə olunması;
- Turizm xidmətinin bütün növlərindən geniş istifadə olunması.

Son illərdə Azərbaycanda sosial bazar təsərrüfatının formalaşması özünün daha çox təzahür etdirir. Belə ki, iqtisadiyyatda yüksək artım səviyyəsinin əldə olunması, dövlət büdcəsinin tədricən gəlirlərinin çoxalması və ÜDM-da özəl sektorun xüsusi çəkisinin artması sosial bazar təsərrüfatının bütün struktur elementlərinin yaranmasına təsir göstərir. Son 10 il ərzində dövlət büdcəsinin gəlirləri 8-9 dəfə artmış, ona uyğun olaraq vergi daxil olmaları çoxalmış, əhalinin nominal və real gəlirləri artmış, əhalinin sosial müdafiəsi sistemində əsaslı dəyişiklik baş vermiş və son nəticədə təqaüdlərin verilməsinə ayrılan vəsaitlər artmışdır. Son dövrdə əhalinin həyat səviyyəsində xeyli dərəcədə

əsaslı irəliləyişlər baş vermişdir ki, bunun da əsas hissəsi şəhərlərin, kəndlərin və müxtəlif regionların payına düşür. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına (2004-2008-ci il, 2009-2013-cü il 2014-2018-ci illər) uyğun olaraq sosial sferanın inkişafında əsaslı irəlləyişlər baş vermişdir. Bununla yanaşı "Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı haqqında dövlət proqramı" qəbul olunmuşdur. Həmin dövlət proqramının reallaşdırılması nəticəsində xeyli dərəcədə yeni iş yerləri açılmış, səhiyyə, təhsil, elm sistemində əsaslı dəyişiklik baş vermiş, nəqliyyat, rabitə və əhalinin sosial müdafiəsi sistemində mühüm irəliləyişlər baş vermişdir [2, s.13-14]. Belə ki, Azərbaycanda UDM 2009-cu ildə 35601,1 mln. manat olmuşdursa, 2013-cü ildə onun həcmi 57708,2 mln. manata çatmışdır. Bu son beş il ərzində UDM-in ümumi həcminin 23 mlrd.-a qədər artması deməkdir [4, s.38-39].

Bunlarla yanaşı 2009-cu ildə dövlət büdcəsinin gəlirləri 10503,9 mln. manat olmuşdursa, 2013-cü ildə bu rəqəm 19143,5 mln. manat təşkil etmişdir. Bu da beş il ərzində dövlət büdcəsi gəlirlərinin 9 mlrd.-an çox artması deməkdir [4, s.40].

Ölkəmizdə son beş ildə əhalinin gəlirlərində əsaslı irəliləyiş olmuşdur. 2009-cu ildə əhalinin gəliri 22601,1 mln. manat olmuş və 2013-cü ildə isə əhalinin gəlir səviyyəsi 37555,5 mln. manata çatmışdır. Bu da son beş il ərzində əhalinin gəlirlərinin 16 mlrd. manat artmasını əks etdirir. Son beş il ərzində Ümumi daxili məhsuldan əhalinin hər nəfərinə düşən payın həcmində də artım olmuşdur. Bu rəqəm 2009-cu ildə 4033,2 manat olmuşdursa, 2013-cü ildə həmin məbləğ 6207,3 manat təşkil etmişdir [4, s.38].

Son dövrdə ölkə prezidenti İ.Əliyev tərəfindən sosial problemlərin həllinə xüsusi diqqət yetirilir. Belə ki, 2013-cü ildə ölkə üzrə yaşayış minimumu 116 manat, əmək qabiliyyətli əhali üçün 125 manat, pensiyaçılar üçün 94 manat, uşaqlar üçün 93 manat müəyyən edilir. 2014-cü ildə isə ölkə üzrə yaşayış minimumunun 125 manata çatması nəzərdə tutulur. Bununla yanaşı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 2014-cü il üçün "Ehtiyac meyarı haqqında" qanunun tələblərinə uyğun olaraq ehtiyac meyarı 100 manat məbləğində nəzərdə tutulur.

Cəmiyyətin sosial-iqtisadi inkişafının təmin edilməsində makroiqtisadi tarazlıq vəziyyəti və onun təmin olunması mühüm yer tutur. Bunun üçün dövlət aparıcı subyekt kimi özünün makroiqtisadi tənzimləmə metod və vasitələrini hərəkətə gətirir və ölkənin sosial-iqtisadi inkişafına təkan verir. Dövlətin makroiqtisadi tarazlığını təmin etmək üçün aşağıdakı istiqamətləri nəzərdə tutulur:

- Ölkədə makroiqtisadi sabitlik vəziyyəti yaradılmalı, bunun üçün sosial-iqtisadi inkişafa mane olan bütün vasitələr və təsirlər aradan qaldırılmalıdır. Əgər ölkədə məcmu tələblə məcmu təklif arasında tarazlıq vəziyyəti müəyyən səviyyədə təmin edilirsə, onda dövlətin həyata keçirdiyi bütün siyasət istiqamətlərini uğurlu hesab etmək olar;
- Ölkədə sosial-iqtisadi inkişafı təmin edən əsaslı islahatların surətlə aparılması və dövlətin bu prosesdə tənzimləmə mexanizmlərindən səmərəli istifadə olunması olduqca zəruridir. Nəzərdə tutulan bütün istiqamətləri həyata keçirmək üçün ölkədə sosial dövlət formalaşmalıdır.

Sosial bazar təsərrüfatı sosial dövlətin yaranmasının əsasını təşkil edir. Belə ki, sosial bazar fəaliyyəti nəticəsində sosiallaşma prinsipinin daha da genişlənməsi dövlətin iqtisadi-sosial idarəetmə funksiyalarını daha da genişləndirir, eyni zamanda sosial dövlətin fəaliyyəti üçün hüquqi-iqtisadi baza yaradır:

Sosial dövlət özlüyündə hüquqi və demokratik dövlətdir. Bu o deməkdir ki, ölkənin və ya iqtisadi sistemin fəaliyyəti üçün dövlət ali idarəetmə orqanı kimi sosiallaşma prosesində daha geniş iştirak edir və özünün funksiyalarından geniş istifadə olunur. Sosial dövlət qəbul olunmuş bütün qanunların normal qaydada fəaliyyətinə təkan verir. Sosial dövət cəmiyyətin təşkilində elə bir idarəetmə formasıdır ki, iqtisadiyyatın səmərəli inkişafı üçün hüquqi və qanunvericilik bazası yaradır və insanın maddi-mənəvi tələbatlarının maksimum dərəcədə ödənilməsinə zəmanət verir. Eyni zamanda cəmiyyətdə hər bir insanın öz üzərinə götürdüyü vəzifələrin reallaşmasına təsir edir. Sosial dövlət elə bir idarəetmə sisteminə malikdir ki, burada mərkəzi, icraedici və yerli edarəetmə orqanları qarşılıqlı surətdə öz funksiyalarını yerinə yetirir. Yaxın zamanda sosial dövlətin elektronlaşdırılması şaquli və üfüqi surətdə öz rolunu göstərəcəkdir.

Sosial dövlət aşağıdakı funksiyaları yerinə yetirir:

- Tənzimləmə funksiyasından əsasən ictimai qayda və qanunlara əməl olunmasında iqtisadi həyatın hüquqi əsaslarının yaradılmasında, xarici təsirlərin və amillərin tənzimlənməsində, infrastruktur sisteminin formalaşmasında, sahibkarlığın inkişafına dövlət himayəsində, gəlirlərin yenidən bölgüsündə, makroiqtisadi stabilləşmənin həyata keçirilməsində istifadə olunur;
- İqtisadi funksiya zamanı dövlət makroiqtisadi tarazlığın təmin olunmasına, pul-kredit siyasətinin həyata keçirilməsinə, innovasiya siyasətinin reallaşmasına, dövlət planlarının işlənib hazırlanmasına bilavasitə təsir göstərir;
- Sosial funksiya - insanın sosial həyatının təmin olunmasını, sosial zəmanəti, sosial yardımı, sosial sığortanı və sosial təminat problemlərinin həll olunmasına dəstək göstərilməsini, xeyriyyəçilik vasitələrindən istifadə olunmasını əhatə edir;
- Nəzarət funksiyasından dövlət tərəfindən mülkiyyət obyektlərinin idarə olunması və idarə edilməsində, dövlətin pul kütləsinin tənzimlənməsində, pul-kredit sisteminin çevikliyinin artırılmasında istifadə olunur;
- Sosial dövlət tərəfindən sosial problemlərin tənzimlənməsində geniş istifadə edilir. İnzibati vasitələrdən əsasən iqtisadiyyatın hüquqi normalar, qanun və qanunvericilik aktları əsasında idarə olunmasında istifadə edilir.

Sosial dövlətin tənzimlənmə mexanizmlərində məqsəd ölkənin milli-iqtisadi mənafelərinə uyğun olaraq onun təbii-iqtisadi və elmi-texniki potensialından səmərəli istifadə olunmasıdır. Sosial dövlət bütün hüquqi çərçivədə ölkənin sosial-iqtisadi inkişafına təminat verir. Sosial bazar iqtisadiyyatı şəraitində sosial dövlətin qarşısında duran başlıca məqsəd bütün mövcud resurslardan maksimum dərəcədə səmərəli istifadə etməklə əhalinin maddi və mənəvi tələbatlarının maddi və mənəvi tələbatlarının hərtərəfli surətdə ödənilməsindən ibarətdir.

Buna nail olmaq üçün sosial dövlətin qarşıya qoyduğu bütün strateji məqsədlərin vaxtında reallaşmasına nail olunmalıdır.

Belə bir məsələni də qeyd etmək lazımdır ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra onun sosial-iqtisadi inkişafı hamar formada baş verməmişdir. Keçid dövrünün iqtisadi çətinlikləri, ciddi maliyyə çətinliyinin mövcud olması, sosial problemlərin həmin dövr üçün kəskin xarakter almasını bir daha sübuta yetirir. Lakin həmin çətin illər arxada qalmışdır və artıq Azərbaycan çoxşaxəli sosial problemlərin tədricən həll olunmasına möhkəm maddi baza yaratmış və dövlət tərəfindən sosial yönümlü vəsaitlərin ayrılmasına xüsusi diqqət yetirilir.

Dövlət gələcəkdə özünün sosial siyasət istiqamətlərində aşağıdakı məsələlərin həllinə daha çox üstünlük verməlidir:

- Bütün regionlarda sosial bazar təsərrüfatının üstünlüklərindən istifadə etmək üçün yeni iş yerlərinin yaradılmasına xüsusi diqqət yetirilməlidir;
- Regionlarda sosial innovasiyaların rolu artırılmalı və onlardan istifadə mexanizmləri təkmilləşdirilməlidir;
- bir sıra kateqoriyalı işçilərin əmək haqlarının artırılması dövlət tərəfindən tənzimlənməlidir, xüsusilə diferensiallşmış əmək haqqı sisteminin tətbiq olunmasına üstünlük verilməlidir;
- əhalinin gəlirləri ilə istehlak səviyyələri arasında uyğunluğun yaradılması dövlət tətərfindən tənzimlənməlidir;
- əhalinin tamamilə yoxsul vəziyyətində yaşayan təbəqələrinə xüsusi təminat formasında yardım olunmalıdır: (geyimlə, ərzaqla, gündəlik yeməklə, vəsaitlə təmin olunmalıdır);
- Azərbaycanda milli iqtisadiyyatın formalaşmasında tənzimlənən sosial yönümlü bazar iqtisadiyyatı modelinin üstünlüklərindən daha geniş səviyyədə istifadə olunmalıdır;
- Xüsusilə dövlətlə özəl sektorların birgə fəaliyyət proqramları işləyib hazırlamalı və həyata keçirməlidir;
- Sosial bazar təsərrüfatının formalaşmasında yay və qış turizminin bütün imkanlarından səmərəli istifadə olunmalı və bu sferaya yönəldilən investisiya qoyuluşlarının həcmi artırılmalıdır.

Açar sözlər: sosial bazar təsərrüfatı, bazar iqtisadiyyatının sosiallaşması, sosial dövlət, iqtisadi və sosial azadlıq

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər). Bakı: 2004.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2009-2013-cü illər). Bakı: 2009.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2014-2018-ci illər). Bakı: 2014.
4. Azərbaycanın statistik göstəriciləri. Bakı: 2014.
5. Bakı şəhərinin və qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı. Bakı: 2011.
6. Məhərrəmov A.M. Sahibkarlıq: nəzəriyyədən praktikaya. Bakı: 2007.
7. Mehbalıyev S.S., İsgəndərov R.K. Sosial tərəfdaşlıq: beynəlxalq təcrübə və Azərbaycanda xüsusiyyətləri. Bakı: 2001.
8. Mehbalıyev S.S., İsgəndərov R.K. Əmək bazarı. Bakı: 2004.
9. Rəcəbli H. Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və korporativ təhlil. Bakı: 2003.
10. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqramı (2008-2015-ci illlər). Bakı: 2008.

Кутаис Сарыев

ФОРМИРОВАНИЕ СОЦИАЛЬНОЙ РЫНОЧНОЙ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА В СОВРЕМЕННОМ ПЕРИОДЕ И НАПРАВЛЕНИЕ ЕГО РЕАЛИЗАЦИИ

Резюме

В статье проведено исследование ряда социальных вопросов, именно в условиях рыночной экономики, также уделяется основное внимание необходимости и материальным условиям для формирования рыночной экономики в Азербайджане. Помимо этого показаны некоторые особенности этой экономической системы. Далее, автор выдвигает ряд рекемендаций и практические предложений которые в дальнейшем можно использовать в хозяйственной жизни и реализации социальной политики государства.

Ключевые слова: социальная рыночная экономика, социализация рыночной экономики, социальная государство, экономическая и социальная свобода

Kutais Sarıyev

FORMATION OF THE SOCIAL MARKET ECONOMY IN AZERBAIJAN IN THE MODERN PERIOD AND THE DIRECTION OF ITS IMPLEMENTATION

Summary

The article based on studying a number of social issues, direct market economics, also to pay necessary attention to the material conditions for the formation of a material economy in Azerbaijan and show some features of the economic system. Further, the author puts forward a number of practical suggestions and recommendations, which can later be used in the economic life in the realization of social policy.

Key words: social market economy, socialization of market economy, social state, economic and social freedom

UOT - 330.0026

Gülöğlan İsmayılov
AƏSMA, i.ü.f.d., dosent

İNFORMASİYA EHTİYATI VƏ CƏMİYYƏTİN İNFORMASİYALAŞMASI

"İnformasiya" anlayışı "informatio" latın sözündən yaranmış və hər hansı faktın, hadisənin, halın anladılması kimi başa düşülür. Geniş mənada informasiya maddi dünya və orada baş verən proseslər haqqında məlumat kimi təyin olunur. İnformasiyanın öyrənilməsi zamanı onun yaranmasının, dəyişməsinin və insan fəaliyyətinin müxtəlif sahələrində istifadəisnin qanunauyğunluqları nəzərə alınır.

İnformasiyanı istehsalat və istifadə məhsulu kimi əşya məzmunu fərqləndirir. O, çox müxtəlifdir və insan fəaliyyətinə xidmət edən növlərə bölünür: elmi, texniki, istehsalat, idarəetmə, iqtisadi, sosial, hüquqi və s. Bu informasiya növlərindən hər biri öz emal texnologiyalarına, məna dəyərini, təqdim olunma və əks olunma formalarına, dəqiqliyə tələbə, faktların, halların, proseslərin əks olunmasının operativliyinə malikdir.

İnformasiyanın müzakirə predmeti idarə etmə və iqtisadi informasiya olacaqdır, onun əsas xüsusiyyətləri aşağıdakılardır:

- həqiqilik və tamlıq;
- qiymətlilik və aktuallıq;
- aydınlıq.

İnformasiya o zaman dəqiqdir ki, o, işlərin vəziyyətini təhrif etmir. Dəqiq olmayan informasiya düzgün başa düşülməməyə və səhv qərarların çıxarılmasına səbəb ola bilər.

İnformasiya o zaman tamdır ki, onu anlamaq və qərar qəbul etmək üçün bəs edirsə. İnformasiyanın tam olmaması qərarların qəbulunu dayandırır və ya səhvlərə səbəb ola bilər.

İnformasiyanın qiymətliliyi onun vasitəsi ilə hansı məsələlər həll edilməsindən asılıdır. Aktual informasiyanı daima dəyişən şəraitdə iş zamanı əldə etmək lazımdır. Qiymətli və aktual informasiya aydın olmayan sözlərlə ifadə olunmuşsa, o, faydasız ola bilər. İnformasiya o zaman aydın olur ki, bu məlumatın nəzərdə tutulduğu insanların dili ilə ifadə olunsun.

Böyük mürəkkəb insan-maşın informasiya sistemlərinin birliyi cəmiyyət infrastrukturunun vacib tərkib hissəsidir. İnsan kollektivlərinin intellektual və maddi fəaliyyətinin müxtəlif növləri arasında əlaqələndirici bənd olaraq informasiya digər ehtiyat növlərindən, əsasən də, təbii ehtiyatlardan fərqli olaraq vaxt ötdükcə azalmır, əksinə, onun həcmi daima artır, bununla da təcrübənin toplanması üçün şərait yaradır.

İstehsalat, paylanma, mübadilə və istehlak proseslərinə və xalq təsərrüfatının təşkilati-iqtisadi idarəetmə məsələlərinin həllinə xidmət edən informasiya idarəetmə informasiyası adlanır. O, iqtisadi, texnoloji, sosial, hüquqi, demoqrafik və digər məzmunlu müxtəlif məlumatlardır. İdarəetmə fəal olan informasiya prosesində informasiya ən vacib ehtiyatlardan biri kimi çıxış edir. Emal texnologiyasında istehsalat və təsərrüfat əməliyyatları, insanlar, məhsulun buraxılması, malların əldə olunması və satışı faktları haqqında ilk məlumatlar əmək predmeti rolunu oynayır, əldə olunan nəticə informasiyası ilə əmək məhsulu rolunu, bu informasiya idarəetmə qərarlarının təhlili və qəbulu üçün istifadə olunur.

İdarəetmə informasiyasının vacib elementlərindən biri iqtisadi informasiyadır, bura iqtisadi xarakterli məlumatlar toplanıb, bu məlumatları planlaşdırma, uçot, nəzarət, təhlil prosesi zamanı qeyd etmək, ötürmək, emal etmək, saxlamaq və istifadə etmək olar.

İqtisadi informasiyanın tərkibinə əmək, maddi və pul ehtiyatlarının tərkibi və pul ehtiyatları və müəyyən vaxta idarəetmə obyektlərinin vəziyyəti haqqında məlumatlar əks olunur. İqtisadi informasiya natural, dəyər və digər göstəricilərin vasitəsi ilə müəssisə və təşkilatların fəaliyyətin əks etdirir.

İqtisadi informasiya üçün aşağıdakılar xarakterikdir:

- böyük həcmlər;
- müəyyən olunan vaxt dövrlərində alınmanın və çevrilmənin skillərinin dəfələrlə təkrarı;
- mənbə və istehlakçıların çoxluğu;
- emal zamanı məntiq əməliyyatlarının xüsusi çəkisi.

İqtisadi informasiyanın bu xüsusiyyətləri hesablama texnikası vasitələrinin, ilk növbədə kompyuterlərin istifadəsinin iqtisadi məqsədyönlüyünü təiyn edir, əsasən də, informasiyanın yığılması, ötürülməsi və emalı zamanı, bu, öz növbəsində emal olunan informasiyanın strukturunu və həcmlərini təyin etməyə imkan verir.

İqtisadi informasiyanın strukturu çox mürəkkəbdir və müəyyən məzmuna malik informasiya birliyinin müxtəlif kombinasiyalarını özündə birləşdirə bilər. İnformasiya birliyi kimi obyekti, prosesi, əməliyyatı xarakterizə edən verilənlər qrupu başa düşülür. Struktur tərkibə görə informasiya birliklərini aşağıdakılara bölmək olar:

- rekvizitlər;
- göstəricilər;
- sənədlər.

İqtisadi informasiyanın elementar bölünməz vahidləri obyektin müəyyən xüsusiyyətlərini bildirən rekvizitlərdir. Əlamət-rekvizitlər təsvir olunan obyektin keyfiyyət xüsusiyyətlərini xarakterizə edir. Əsas-rekvizitlər müəyyən ölçü vahidlərində ifadə olunan miqdar xarakteristikası verir. Ayrıca götürülmüş əlamət-rekvizitlər və əsas-rekvizitlər iqtisadi məna daşımır, bunun üçün yalnız bir-biri ilə istfiadə olunur.

Məntiqi əlaqəli əlamət-rekvizitlərin və əsas-rekvizitlərin birliyi göstərici mövcuddur.

Göstəricilər əsasında sənədlər qurulur. Sənədlər idarəetmə, planlaşma və uçot prosesində istifadə olunur, özündə orada qeyd olunan informasiyaya məsul şəxsi qeyd etməklə bir və ya bir neçə göstərici daxil edə bilər.

İnformasiyanın avtomatlaşdırılmış emalının layihələndirilməsi zamanı onun elementlərinin üç əsas aspektdə öyrənilməsinə malikdir: praqmatik, semantik və sintaktik.

Praqmatik aspekt informasiyanı praktiki yararlıq, istehlakçılar üçün dəyərlik və qərarların qəbulu nöqteyi nəzərindən baxılır. İnformasiyanın praqmatik öyrənilməsi müxtəlif səviyyədə qərarların qəbul edilməsi üçün göstəricilərin tərkibini təyin etməyə imkan verir.

Semantik aspekt informasiyanı öyrənən zaman onun məzmununu açmağa və onun elementləri arasında məna arasında münasibəti göstərir [1, s.206].

Sintaktik aspekt informasiya vahidləri arasında münasibətlərə baxır. Bu səviyyədə informasiya birliklərinin yaranmasının qanunauyğunluqları tədqiq olunur. Bu səviyyədə informasiyanın miqdar qiymətləndirilməsi informasiyanın çevirmə proseslərinin təsviri, sənədlərin hərəkətinin səmərəli marşrutlarının seçimi üçün məlumatlar almağa imkan verir.

Müxtəlif aspektlərdə iqtisadi informasiyanın öyrənilməsi informasiya birliklərin tərkibini və onların strukturunu, çevirmə qanunauyğunluqlarını, həcm-vaxt və keyfiyyət xarakteristikaların aşkar etməyə imkan verir.

Azərbaycan iqtisadiyyatının hazırkı vəziyyəti vaxtında və dəqiq verilən informasiyanı istənilən biznesin uğurunu təmin edən ən vacib amil edir. Qərb mütəxəssislərinin bəzi qiymətləndirmələrinə görə orta qərb firmasının xidməti informasiyanın açıqlanması zamanı o, bir neçə gün mövcüd ola bi-

lər. Eyni zamanda vaxtında açıqlanmış informasiya milyon gəlir gətirə bilər. Bu faktı təsdiqləmək üçün məxfi və ya sadəcə, ümumi daxil ola bilməyən informasiyanın Nyu-York fond birjasında oyun zamanı istifadəisnə ciddi qadağa qoyulmuşdur.

Azərbaycan bazar münasibətlərinin qurulması şəraitində dövlət, ərazi, sənaye səviyyəsində və müəssisə səviyyəsində informasiyanın yenilənmə sürəti çox yüksəkdir. Dəqiq, aktual və tam informasiyaya tələbat artır. Bu informasiya xidmətləri göstərən firmaların yaranmasına şərait yaradır. Firmalar daima hüquşünaslara, auditorlara, mühasiblərə, bank və maliyyə strukturlarının işçilərinə, dövlət məmurlarına və müəssisə rəhbərlərinə daima lazım olan ümumi əhəmiyyətli hüquqi sənədlər təqdim edir. Komplekslərin ümumi həcmi on minlərlə qanunverici və normativ xarakterli sənədlər. İnformasiyanın yenilənməsi firmalar tərəfindən Azərbaycan idarəetmə orqanları ilə informasiya mübadiləsi haqqında müqavilə əsasında aparılır. Hüquqi informasiyanın bölgə bankları öz müştərilərinə reqional səviyyədə hakimiyyət və idarəetmə orqanlarının çətin əlçatan sənədlərini işdə istifadə etməyə imkan verir.

Beləliklə, yığılmış və sistemləşdirilmiş informasiya müvafiq saxlama, yığma və baxılma vasitələri ilə alqı-satqı obyekti olur, dəyər şəklində öz istehlak lazımlığının qiymətini alır.

Elmi-texniki ədəbiyyatda adətən "sistem", "idarəetmə sistemi", "avtomatlaşdırılmış idarəetmə sistemi", "avtomatlaşdırılmış informasiya sistemləri" terminləri tez-tez istfiadə olunur.

"Sistem" sözü systema yunan sözündən yaranıb və hissələrdən və ya bir çox elementdən ibarət tam ifadəsini verir.

"Sistem" anlayışı geniş istifadə sahəsinə malikdir.

Sistem kimi bir biri ilə və xarici mühitlə bağlı elementlərin və ya hissələrin birliyidir, onların fəaliyyəti konkret yararlı nəticənin alınmasına istiqamətlənib.

Təyinatına müvafiq olaraq, təcrübi cəhətdən hər bir iqtisadi obyekti öz fəaliyyətində müəyyən məqsədə çatmaq istəyən sistem kimi qələmə vermək olar. Nümunə kimi təhsil sistemini, enerji, nəqliyyat, ekoloji və s. sistemi qeyd etmək olar.

Sistem üçün aşağıdaki əsas xüsusiyyətlər xasdır:

- mürəkkəblik;
- bölünməzlik;
- tamlıq;
- elementlərin çoxluğu və onların təbiətinin fərqliliyi;
- strukturluq [1, s.207].

Sistemin mürəkkəbliyi ona daxil olan komponetlərin çoxluğundan, onların struktur əlaqələrindən, həmçinin daxili və xarici əlaqələrin və dinamikliyin mürəkkəbliyindən asılıdır.

Sistemin bölünməzliyi o deməkdir ki, o, müəyyən əlamət üzrə ayrılan bir sıra yarımsistemdən və ya elementdən ibarətdir.

Sistemin tamlığı o deməkdir ki, bir çox elementlərinin fəaliyyəti vahid məqsədə tabedir.

Sistem elementlərinin çoxluğu və onların təbiətinin fərqləri onların funksional spesifikliyi və müxtariyyəti ilə bağlıdır. Məsələn, maddi-enerji ehtiyatlarının yenidən qurulması ilə bağlı obyektin maddi sistemində xammal, əsas və köməkçi materiallar, yanacaq, yarımfabrikatlar, ehtiyat hissələri, hazır məhsul, əmək və pul ehtiyatları kimi elementlərə ayrıla bilər.

Sistemin strukturluğu sistem daxilində elementlər arasında əlaqələrin və münasibətlərin olmasını, ierarxiya səviyyələri üzrə sistem elementlərinin paylanmasını təyin edir.

İdarəetmə – vacib funksiyadır, onsuz istənilən sosial-iqtisadi, təşkilati-istehsalat sisteminin məqsədyönlü fəaliyyəti mümkünsüzdür.

İdarəetmə funksiyasını reallaşdıran sistemi idarəetmə sistemi adlandırırlar. Bu sistemin həyata keçirdiyi vacib funksiyalar proqnozlaşdırma, planlaşdırma, uçot, analiz, təhlil, nəzarət və tənzimləmədir.

Beləliklə, iqtisadi obyektin istənilən idarəetmə sisteminə öz informasiya sistemi müvafiqdir, bu iqtisadi informasiya sistemi adlanır.

Avtomatlaşdırılmış informasiya sistemi (AİS) idarəetmə qərarlarının qəbulu üçün informasiyanın emalı üçün nəzərdə tutulan iqtisadi-riyazi üsulların və modellərin, texniki, proqram, texnoloji vasitələrin və mütəxəssilərin informasiyasının birliyini təşkil edir.

Avtomatlaşdırılmış informasiya sisteminin yaradılması iqtisadi obyektin istehsalının effektiliyinin artmasına səbəb olur və idarəetmənin keyfiyyətini təmin edir. Avtomatlaşdırılmış informasiya sistemi ən yüksək effektivliyi müəssisə, firma və sahələrin iş planlarının optimallaşdırılması, operativ qərarların tez emal olunması, maddi və maliyyə ehtiyatlarının hərəkətetmə qabiliyyəti zamanı nail olunur. Avtomatlaşdırılmış informasiya sisteminin fəaliyyəti şəraitində idarəetmə prosesi iqtisadi-təşkilati modellərə əsaslanır [2, s.162]. Modelin adekvatlığı ilk növbədə obyektin eynilik mənasında xarakteristikaların və xüsusiyyətlərin qarşıya qoyulmuş həllinə nail olması deməkdir. Sözsüz ki, modeldə obyektin tam təkrarlanması ola bilməz, lakin analiz (təhlil) və idarəetmə qərarlarının qəbulu üçün əhəmiyyətli olmayan detalları nəzərə almamaq da olar.

Avtomatlaşdırılmış informasiya sisteminin yaradılma təcrübəsi, iqtisadi iş təcrübəsinə optimizasiya üsüllarının tətbiqi, istehsalat-təsərrüfat proseslərinin vəziyyətinin formalaşması, müasir hesablama vasitələri ilə dövlət və kommersiya strukturlarının təchizi idarəetmədə informasiya proseslərinin texnologiyasının şəklini dəyişmişdir. Hər yerdə idarəetmə fəaliyyəti Avtomatlaşdırılmış informasiya sistemi yaradılır.

Avtomatlaşdırılmış informasiya sistemləri müxtəlifdir və bir sıra amillərə görə təsnif oluna bilər.

Sistemlərin idarəetmə obyektinin fəaliyyəti sahəsi üzrə təsnifi aydın olduğundan, aşağıdakı əlamətlərə baxaq. İdarəetmə proseslərinin növlərinə görə avtomatlaşdırılmış idarəetmə sistemləri aşağıdakılara bölünür:

Texnoloji proseslərin idarəetmə avtomatlaşdırılmış informasiya sistemi – bu insan maşın sistemlərdir, onlar texnoloji qurğular, dəzgahlar, avtomatik xətlərə idarəetməni təmin edir.

Təşkilati-texnoloji proseslərin idarəetmə avtomatlaşdırılmış informasiya sistemi – bu texnoloji proseslərin idarəetmə avtomatlaşdırılmış informasiya sistemi və müəssisə idarəetmə avtomatlaşdırılmış informasiya sistemini birləşdirən çoxsəviyyəli sistemlərdir.

Təşkilati idarəetmənin avtomatlaşdırılmış informasiya sistemi üçün obyekt kimi istehsalat-təsərrüfat, sosial-iqtisadi fəaliyyət prosesləridir, onlar iqtisadiyyatın idarəetməsinin bütün səviyyələrində həyata keçirilir, əsasən də:

- bank avtomatlaşdırılmış informasiya sistemi;
- fond bazarı avtomatlaşdırılmış informasiya sistemi;
- maliyyə avtomatlaşdırılmış informasiya sistemi;
- sığorta avtomatlaşdırılmış informasiya sistemi;
- vergi avtomatlaşdırılmış informasiya sistemi;
- gömrük xidməti avtomatlaşdırılmış informasiya sistemi;
- statistik avtomatlaşdırılmış informasiya sistemi;
- sənaye müəssisələrinin və təşkilatlarının avtomatlaşdırılmış informasiya sistemi.

Elmi tədqiqatların avtomatlaşdırılmış informasiya sistemi sahələrarası hesablamaların və elmi təcrübələrin yüksək keyfiyyəti və effektivliyin təmin edir. Belə sistemlərin metodiki bazası iqtisadi-ri-

yazi metodlardır, texniki baza isə – ən müxtəlif hesablama texnikası və eksperimental işlərin keçirilməsi üçün ən müxtəlif hesablama texnikası. Həm təşkilati-texnoloji sistemlər, həm elmi tədqiqatlar sistemlərinə işlərin avtomatlaşdırılma layihələndirilməsi sistemlərinin (İALS) konturlarını daxil edə bilər.

Öyrədən avtomatlaşdırılmış informasiya sistemi təhsil sistemində mütəxəssislərin hazırlanması, ixtisasartırma və müxtəlif sahələrin işçilərinin ixtisasının yüksəlməsi zamanı geniş yayılır.

İxtisasın üçüncü əlamətinə müvafiq olaraq sahə, ərazi və sahələrarası avtomatlaşdırılmış informasiya sistemi ayırd edirlər.

Sahə avtomatlaşdırılmış informasiya sistemi sənaye və aqrosənaye kompleksləri sahəsində, tikintidə, nəqliyyatda fəaliyyət göstərir. Bu sistemlər müvafiq idarələrin idarəetmə aparatının informasiya xidmətinin məsələlərin həll edir.

Ərazi avtomatlaşdırılmış informasiya sistemi inzibati-ərazi rayonları üçün nəzərdə tutulub. Ərazi sistemlərinin fəaliyyəti bölgədə idarəetmə funksiyalarının keyfiyyətli yerinə yetirilməsinə, hesabatın formalaşmasına, yerli dövlət və təsərrüfat orqanlarına operativ məlumatların verilməsinə yönəlib.

Sahələrarası avtomatlaşdırılmış informasiya sistemi milli iqtisadiyyatın idarəetmənin funksional orqanlarının (bank, maliyyə, təchizat, statistik və s.) ixtisaslaşdırılmış sistemləridir. Öz tərkibində güclü hesablama kompleksinə malik olaraq sahələrarası çoxsəviyyəli avtomatlaşdırılmış informasiya sistemi iqtisadi və təsərrüfat proqnozlarının, dövlət büdcəsinin emalını təmin edir, bütün təsərrüfat bəndlərinin fəaliyyətinin nəticələrinin nəzarətini və tənzimlənməsini həyata keçirir [3, s.216].

İqtisadi və idarəetmə fəaliyyəti sahəsində müasir informasiyalaşdırılmasının inkişafı təşkilati, texniki və texnoloji problemlərin həllində vahid yanaşma tələb edir. Avtomatlaşdırılmış informasiya sisteminin yaradılmasının və fəaliyyətinin nəticələrini və proseslərini təyin edən əsas amillər aşağıdakılardır:

- insan-mütəxəssisin informasiyanın emalının avtomatlaşdırılması və idarəetmə qərarlarının qəbulu sistemində aktiv iştirakı;
- biznesin növlərindən biri kimi informasiya fəaliyyətinin interpretasiyası;
- elmi əsaslanmış proqram-texniki, texnoloji platformanın olması;
- istehlakçıların tələblərinə müvafiq olaraq informasiyalaşma sahəsində elmi və tətbiqi işlərin yaradılması və tətbiqi;
- təşkilati-funksional qarşılıqlı təsiri şərtlərinin formalaşması və onun riyazi, model, sistem və proqram təminatı;
- təqdim olunan effektilik meyarlarını nəzərə alaraq idarəetmə sahəsində konkret praktiki məsələlərin qoyuluşu və həlli.

Belə bir vəziyyət Fərdi Elektron Hesablama Maşınları (FEHM) və digər kompakt və nisbətən ucuz hesablama texnikası vasitələrinin (HTV) sürətli yayılması hesabına mümkün olmuşdur. Kompyuterlərdən əlavə avtomatlaşdırılmış informasiya sisteminin texniki vasitələrinə rabitə (telekommunikasiya) vasitələri, orqtexnika (telefon, faks, internet və s.) aiddir.

Fərdi elektron hesablama maşınlarını şəbəkələrə birləşdirmək imkanı yaratmışdır, bu da istehlakçıya istehsalat, iqtisadi və maliyyə vəziyyətlərinin operativ təhlilinin keçirilməsi üçün keyfiyyətcə yeni şəraitlər yaradır.

Texniki qərarların bütün vacibliyinə və avtomatlaşdırılmış informasiya sistemi nadirliyinə (unikallığına) baxmayaraq iştirakçıların hazırladığı intellektual məhsullar vacibdir. Bu zaman sistemlərin fəaliyyətinin uzunmüddətli və sabit həyata keçirilməsi üçün ən vacib, bəzən isə ən həlledici qərar istehlakçılar üçün avtomatlaşdırılmış informasiya sistemi sənədlərinin istismarı üzrə təlimatlar.

İqtisadiyyatın idarəedilməsində informasiya sistemlərinin yaradılması və fəaliyyəti informasiya texnologiyasının – avtomatlaşdırılmış informasiya sisteminin əsas tərkib hissəsinin inkişafı ilə sıx əlaqədardır [2, s.198].

Avtomatlaşdırılmış informasiya texnologiyası istifadə olunan hesablama texnikası və rabitəsi inkişaf etmiş proqram təminatının tətbiqi bazasında informasiyanın yığılması, qeydiyyatı, ötürülməsi, axtarışı, emalı və müdafiəsi əməliyyatlarının reallaşması üsullarının və vasitələrinin birliyinin idarəetmə məsələlərinin həlli üçün təşkil olunmuş sistemdir.

İqtisadi inkişaf münasibətləri şəraitində artan tələbat və informasiya xidmətləri ona səbəb olmuşdur ki, informasiyanın emalının müasir texnologiyası texniki vasiətlərinin ən geniş spektrinin tətbiqinə istiqamətlənmişdir. Onların bazasında hesablama sistemləri və şəbəkələri yaradılır, yalnız yığılma, saxlama, emal üçün yox, həmçinin terminal qurğuların mütəxəssisin iş yerinə maksimal cəlb olunması üçün nəzərdə tutulub.

Açar sözlər: informasiya ehtiyatı, cəmiyyətin informasiyalaşması, informasiya sistemləri, aspekt, sistem

İstifadə edilmiş ədəbiyyat

1. Белл Д. Грядущее постиндустриальное общество. Образец социального прогнозирования. М.: Академия, 2004.
2. İsmayılov G.İ. İnformasiya iqtisadiyyatı. Bakı: Avropa, 2013.
3. İsmayılov G.İ. İnformasiya iqtisadiyyatının meydana gəlməsinin tarixi dövrləri. Bakı: Avropa, 2013.

Гюльоглан Исмайлов

ИНФОРМАЦИОННЫЙ ЗАПАС И ИНФОРМАНАЛИЗАЦИЯ ОБЩЕСТВА

Резюме

В статье обоснован информационный запас как основа информанализации экономической деятельности, дано обоснование классификаций автоматизированных информационных систем. В то же время были проанализированы особенности экономической информации, определены сфера деятельности информационной системы.

Ключевые слова: информационные запасы, информанализация общества, информационные системы, аспект, система

Guloghlan Ismayilov

INFORMATION RESOURCES AND INFORMIZATION OF SOCIETY

Summary

In the article information resources are based as a informization of economic activity and automated information systems have been classified. At the same time, analysed the features of the economic information, information systems defined by profession.

Key words: information resources, informization society, information systems, the aspect, of the system

UOT - 330.3

Ofeliya Yusupova
AƏSMA, i.ü.f.d.

MALİYYƏ MÜHASİBAT UÇOTU VƏ HESABATININ İCRASI İLƏ ƏLAQƏDAR BEYNƏLXALQ UÇOT SİSTEMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Məlum olduğu kimi, uçot iqtisadiyyatın bütün sahələri üzrə müxtəlif fəaliyyət növlərini bir-birinə bağlayan halqadır. Buna görə də uçotu bir çox hallarda biznesin dili də adlandırırlar. Belə ki, maliyyə hesabatı və smetaları, istehsal olunan məhsulların maya dəyərinin kalkulyasiyası, büdcə kəsirinin müəyyənləşdirilməsi, vergilərin hesablanması və investisiya siyasətinin qiymətləndirilməsi uçotun nəticəsi hesab edilir. Başqa sözlə, mühasibat uçotu istənilən cəmiyyət üçün özündə əhəmiyyətli və faydalı fəaliyyət sferasını əks etdirir.

Son zamanlar mühasibat uçotunun beynəlxalq səviyyədə unifikasiyası məsələsinə böyük diqqət yetirilir. İqtisadiyyatın müxtəlif sahələrində beynəlxalq inteqrasiyanın rolunun artması müxtəlif ölkələrdə tətbiq olunan uçot və hesabat işlərinin eyniləşdirilməsini və hamı üçün anlaşıqlı olmasını tələb edir. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə mühasibat uçotu sistemlərinin təkmilləşdirilməsinə əsasən iqtisadi yüksəliş dövrlərində başlanılmışdır. Hər bir ölkədə bu proses müxtəlif dövrlərdə fərqli templərlə inkişaf etmişdir. Bunun da nəticəsində ayrı-ayrı ölkələrdə bir-birindən fərqlənən 100-dən çox milli mühasibat uçotu sistemləri yaranmışdır [7, s.2].

Elə buna görə də son illərdə mühasibat uçotu qaydalarının təkmilləşdirilməsi istiqamətində beynəlxalq əməkdaşlıq daha da genişlənmiş və bunun nəticəsində mühasibat uçotu üzrə Beynəlxalq Standartlar Komitəsi (İAS) 41 beynəlxalq standartı bəyənib qəbul etmiş və həmin standartların istifadə olunmasını tövsiyə etmişdir.

Maliyyə hesabatı üzrə beynəlxalq standartların (MHBS) qüvvədə olan qruplaşmış modeli vahid təsərrüfat göstəricilərini özündə cəmləşdirir. Beynəlxalq standartlar maliyyə hesabatının tərkibini, uçot siyasətini, mühasibat balansını, mənfəət və zərərləri, pul vəsaitinin hərəkətinə dair hesabatı və kapitalın hərəkətini müəyyən edir.

Beynəlxalq standartlar əsasında tərtib olunmuş maliyyə hesabatı şirkətin təsərrüfat-maliyyə fəaliyyətinin əsas göstəricilərini şərh edən izahatların əlavə olunmasını nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq standartların qruplaşdırılması modeli şərti məna daşıyır. Çünki bir sıra standartlar ümumilikdə bir neçə hesabatın tərtibində iştirak edir. Buna baxmayaraq beynəlxalq uçot standartlarını aşağıdakı formada təxmini modelləşdirmək məqsədə uyğundur [8, s.81].

1. Uçot siyasətinin açıqlanması və müxtəlif faktorların hesabata təsiri:
Standart 1 – "Uçot siyasətinin açıqlanması";
Standart 5 – "Maliyyə hesabatında açıqlanması nəzərdə tutulan hesabatlar";
Standart 14 - "Maliyyə informasiyalarının seqmentlər üzrə əks olunması";
Standart 15 - "Qiymətlərin dəyişməsi nəticəsi məlumatları";
Standart 21 - "Valyuta kursunun dəyişilməsinin təsiri";
Standart 29 - "Valyuta sabitliyi təmin olunmayan iqtisadiyyatda maliyyə hesabatı";
Standart 30 - "Bankların maliyyə hesabatlarında informasiyaların açıqlanması".
2. Mühasibat balansı standartları:
Standart 2 - "Əmtəə-material ehtiyatı";
Standart 13 - "Cari aktivlər və öhdəliklərin göstəriciləri";
Standart 16 - "Əsas vəsaitlər";
Standart 17 - "Kirayə əməliyyatlarının uçotu";
Standart 25 - "İnvestisiya uçotu";
Standart 31 - "Maliyyə hesabatlarında birgə müəssisələrin iştirakının əhatə olunması".
3. Öhdəçiliklər:
Standart 13 - "Cari aktivlər və öhdəçiliklərin göstəriciləri";

Standart 20 - "Dövlət qrantları və dövlət yardımlarının açıqlanması".
4. Mənfəət və zərərlər üzrə standartlar:
Mənfəət:
Standart 8 - "Hesabat dövründəki təmiz mənfəət və zərərlər, uçot siyasətindəki dəyişikliklər";
Standart 18 - "Mənfəət";
Standart 11 - "Tikinti kontraktları";
Xərclər:
Standart 4 - "Amortizasiyanın uçotu";
Standart 9 - "Tədqiqat və təcrübi-konstruktor xərclərinin uçotu";
Standart 10 - "Balans tərtibindən sonra təsərrüfatda nəzərdə tutulmayan əməliyyatlar";
Standart 11 - "Tikinti kontraktları";
Standart 12 - "Gəlirlərlə əlaqədar vergi uçotu";
Standart 19 - "Təqaüd təminatı üzrə uçot";
Standart 23 - "İstiqrazlar üzrə xərclər";
Standart 33 - "Səhmlər üzrə mənfəət".
5. Pul hərəkətinə dair standartlar:
Standart 7 - "Pul vəsaitinin hərəkətinə dair hesabat";
Standart 32 - "İnformasiyaların açıqlanması və tərtibi".
6. İcmal hesabatlarının standartları:
Standart 22 - "Şirkətlərin birləşdirilməsi";
Standart 24 - "Maraqlı tərəflərin informasiyalarının açıqlanması";
Standart 27 - "İcmal maliyyə hesabatı və filiallara maliyyə qoyuluşu və hesabatı";
Standart 28 - "Səhmdarlığa çevrilmiş müəssisələrdə investisiya uçotu".

Göstərilən qruplaşdırma ilə əlaqədar olaraq maliyyə hesabatının tərtibi ilə əlaqədar olaraq bəzi göstəriciləri nəzərdən keçirək.

İlk növbədə maliyyə hesabatının tərtib olunmasında uçot siyasətinin açıqlanması və müxtəlif filialların hesabat təsirinin xüsusi əhəmiyyəti vardır. Bu baxımdan maliyyə hesabatında informasiyaların müqayisə olunması imkanları vacib göstəricidir.

Maliyyə hesabatı şirkətin bütün təsərrüfat fəaliyyətini əks etdirən icmal göstəricisidir. Maliyyə hesabatının əsas vəzifəsi geniş şəkildə informasiyalardan istifadə edənlərin tələblərini təmin etməkdən ibarətdir [12, s.118].

Bu vəzifəni yerinə yetirmək üçün maliyyə hesabatında şirkətin aktivləri, öhdəçilikləri, şəxsi kapitalı, mənfəət və zərər göstəriciləri, pul vəsaitinin hərəkəti ətraflı əks olunmalıdır. Maliyyə hesabatında əks olunmuş həmin informasiyalar istifadəçilərə müəssisənin gələcək imkanları haqqında məlumat verməklə yanaşı, yeni layihələrin icra olunması perspektivlərinin genişlənməsinə şərait yaradır.

Mövcud qaydalara görə Maliyyə hesabatı aşağıdakı həcmdə tam tərtib olunmuş hesab olunur:
- Mühasib balansı;
- Mənfəət və zərərlərə dair hesabat;
- Kapitalın hərəkətinə dair hesabat;
- Pul vəsaitinin hərəkətinə dair hesabat;
- Uçot siyasəti və digər şərhedici hesabat materialları.

Mühasibati balansı mövcud olan beynəlxalq uçot standartlarına uyğun olaraq əsas vəsaitləri, qeyri-material aktivləri, pul vəsaiti, əmtəə-material dəyərləri, debitor və kreditor borclarını, maliyyə aktivlərini, vergi öhdəçiliklərini və digər göstəriciləri özündə əks etdirir.

Mühasibat balansının tərtib olunmasında əsas məqsəd müəssisəyə məxsus olan vəsaitlərin balans maddələri üzrə açıqlanması və həmin göstəricilərin keçmiş dövr ilə müqayisə olunmasını təmin etməkdir.

Maliyyə informasiyalarının istifadə olunmasını asanlaşdırmaq məqsədilə mühasibat uçotu hesabları müəyyən göstəricilərinə uyğun olaraq qruplaşdırılır.

Maliyyəçi informasiyalarının istifadə olunmasını asanlaşdırmaq məqsədilə mühasibat uçotu hesabları müəyyən göstəricilərinə uyğun olaraq qruplaşdırılır. Aktiv hesablar dörd qrupa bölünür:

- cari aktivlər;
- investisiya;
- daşınmaz əmlak və avadanlıqlar;
- qeyri-maddi aktivlər.

Əgər müəssisədə müəyyən vəsait növləri göstərilən qrupların heç birinə aid oluna bilmirsə, həmin vəsaitlər "digər aktivlər" qrupunda göstərilir.

Müəssisə balansında mövcud olan bütün vəsaitlər müxtəlif ardıcıllıqla göstərilir. Məsələn, Böyük Britaniya müəssisə balansında aktivlər onların sayıla bilmə və pul çevrilmə imkanları üzrə qeydə alınır. Tez pula çevrilmə xarakterinə malik olan vəsaitlər aktivlərə daxil olur. Ümumiyyətlə, cari aktivlər, daşınmaz əmlak və avadanlıqlara nisbətən daha tez pula çevrilmə xarakterinə malikdir.

Cari aktivlər - müəssisə kassasında olan pul vəsaitini, qısamüddətli investisiyaları, satılan malların pulunun alınması ilə əlaqədar olan hesablaşmaları və borc sənədləri daxildir. Cari aktivlər hesabat ili ərzində və ya istehsal prosesində pula çevrilən vəsaitlərdir.

İnvestisiyalara - yaxın illərdə satılması nəzərdə tutulmayan qiymətli kağızlar, bir ildən artıq müddətə verilən veksellər (borc sənədləri), borcların ödənməsi üçün toplanmış və istifadə olunmayan avadanlıq və vəsaitlər daxildir.

Daşınmaz əmlak və avadanlıqlara təsərrüfat əməliyyatları ilə əlaqədar olaraq uzunmüddətli aktivlər, yəni torpaq, bina, maşınlar, avadanlıqlar daxildir. Bu aktivlərin dəyərinə amortizasiya hesablanır və həmin məsrəflər tədricən şirkətin maliyyə nəticələri hesabına silinir.

Qeyri-maddi aktivlərə - maddi əşya əsası olmayan, lakin dəyəri olmaqla şirkətə mənfəət gətirən aktivlər daxildir. Bunlara müəlliflik hüququ, ticarət markası və s. aiddir. Həmin aktivlərin dəyəri üzrə də onların istifadə olunduğu müddətdə amortizasiya hesablanır.

Passiv hesablara qısa muddətli kreditor borcları; uzunmüddətli kreditor borcları və müəssisənin kapitalı daxildir.

Qısamüddətli kreditor borclarına cari ildə sərf olunması və qaytarılması nəzərdə tutulan öhdəçiliklər daxildir. Onların tərkibinə verilmiş veksellər, ödəməsi nəzərdə tutulan satıcı qaimələri, işçilərə ödənəcək əmək haqqı, vergilər, alıcı və sifarişçilərin ödədikləri avanslar.

Uzunmüddətli kreditor borclarına şirkətin borcları sayılır ki, həmin borclar illik vaxtdan sonra ödənə bilər. Belə borclara verilən uzunmüddətli veksellər, ödənməmiş istiqrazlar, uzun müddətli kirayə xərcləri və s. daxildir.

Kapital - şirkət sahibinin hüquqi və marağına əsaslanaraq pul ölçüsü ilə ifadə olunan mülkiyyət formasıdır. Onun ümumi həcmi mülkiyyətin formasından asılı olaraq müəyyən olunur [12, s.121].

Qeyd olunmalıdır ki, müəssisə balansında çoxlu miqdarda hesabların göstərilməsi informasiyalardan istifadə edənlər üçün xeyli çətinliklər yaradır. Bunu nəzərə alaraq xarici ölkələrin müəssisə balansında balans hesabları müəyyən qruplarda, birləşmiş şəkildə istifadə olunur. Belə hesablar standartlaşdırılmış maliyyə hesabatı adlanır. Aydın olması üçün ABŞ-ın böyük miqdarda şirkətlərində istifadə olunan sistemləşdirilmiş balans formasını nəzərdən keçirək:

Cədvəl 1

ABŞ müəssisəsinin təsərrüfat-maliyyə fəaliyyəti üzrə balansı

Aktivlər	Məbləğ (pul vahidi ilə)	Passivlər	Məbləğ (pul vahidi ilə)
Cari aktivlər	210000	Qısa müddətli kreditor borcları	92400
İnvestisiya	50000	Əmək haqqı üzrə borclar	80000
Material aktivləri	450000	Uzun müddətli kreditor borcları	42600
Köhnəlmə üzrə hesablamalar çıxılır	2000	Kapital	585000
Qeyri-material aktivləri	88000		
Aktivlərin cəmi:	800000	Passivin cəmi:	800000

Sahibkarlıq fəaliyyəti, mülkiyyət forması, vergi ödəmə sistemi və digər səbəblərdən asılı olaraq xarici ölkə müəssisələrində maliyyə (mühasibat) balansı aylıq və rüblük dövr üçün tərtib olunur. Mühasibat balansının göstəriciləri hesabat dövründə müəssisənin aktiv və passivində başvermiş dəyişiklikləri, struktur dəyişiklikləri və digər nəqliyyat göstəricilərinə dair məlumatlar verir.

Lakin balansda mülkiyyətçinin kapitalının hansı faktların təsiri nəticəsində artmasına dair cavab əldə etmək mümkün deyildir. Bunu nəzərə alaraq müəssisədə mənfəət və zərərləri xarakterizə edən hesabat tərtib edilir. Mənfəət və zərərlər üzrə hesabat forması mənfəətin hansı mənbələrdən əmələ gəlməsi və onun formalaşmasını ətraflı göstərir.

Bir qayda olaraq müəssisə mənfəəti əmtəə satışı, iş və xidmətlərdə daxil olan gəlirlər məbləğindən, onların maya dəyəri, əməliyyat xərcləri və sairə xərcləri çıxmaqla qalan qalıq hesab olunur. Müəssisənin satışdan daxil olan ümumi gəlirləri ilə əməliyyat xərcləri arasındakı fərq müəssisənin fəaliyyətindən qazanılan gəliri sayılır.

Xarici ölkə müəssisələrində mənfəət və zərərlər hesabatı çoxpilləli və təkpilləli formada tərtib olunur. Kənar istifadəçilər üçün mənfəət və zərərlər hesabatı qısaldılmış (təkpilləli) formada tərtib olunur.

ABŞ-da mənfəət və zərərlər üzrə hesabat aşağıdakı formada tərtib olunur:

Cədvəl 2

Mənfəət və zərərlər hesabatı
(qısaldılmış forma)

№	Göstəricilər	Məbləğ (pul ölçüsü ilə)
1.	Satışdan daxil olan pul vəsaiti	500000
	Satılmış malların maya dəyəri	
1.	Hesabat dövrünün əvvəlinə mal qalığı	3000
2.	Xammal və materialların alınması	180000
3.	Nəqliyyat xərcləri	5000
4.	Satış üçün mallar	110000
	Hesabat dövrünün sonuna mal qalığı Çıxılır:	12000
	Yekunu:	313000
	Satışdan daxil olan ümumi mənfəət	187000
	Əməliyyat xərcləri	
	Tədavül xərcləri	4000
	İnzibati-idarə xərcləri	37000
	Yekunu:	77000
	Təmiz gəlir	110000

Xarici ölkə müəssisələri maliyyə hesabatında müəssisənin özünəməxsus kapitalının dəyişməsi və tərkibi ilə əlaqədar olan hesablar mühüm əhəmiyyətə malikdir. Həmin hesabatda hesabat dövründə səhm kapitalına təsir edən amillər göstərilir.

Xarici ölkə müəssisələrinin maliyyə mühasibat hesabatlarına əlavə olunmuş sənədlər içərisində pul vəsaitinin hərəkətə dair hesabat xüsusi əhəmiyyətə malikdir. Həmin hesabatda müəssisənin investorlara və kreditorlara olan borclarının ödənməsi imkanları göstərilməklə bərabər, hesabat dövründə pul vəsaitinin hərəkəti göstəriciləri əks olunur.

Müəssisənin pul vəsaitinin hərəkətinə dair hesabat üç bölmədən ibarətdir:

1. Müəssisənin cari fəaliyyəti ilə əlaqədar olan pul vəsaitinin hərəkəti;
2. İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitinin hərəkəti;
3. Maliyyə fəaliyyəti ilə əlaqədar pul vəsaitinin hərəkəti.

Həmin hesabatda əks olunmuş informasiyalar müəssisənin rəhbərliyi üçün, xarici investorlar və kreditorlar üçün vacib göstəricilər hesab olunur.

Maliyyə hesabatı bütün dünya ölkələrində bir qayda olaraq dərc olunur. Hesabat dərc olunarkən ilk növbədə illik mühasibat hesabatında elan olunmuş göstəricilərdə müəssisənin maliyyə üstünlükləri və iqtisadi-təsərrüfat imkanları bildirilir [12, s.125].

İllik maliyyə mühasibat hesabatının doğruluq dərəcəsi, onun tərtib olunması qaydalarına və prinsiplərinə riayət olunması və hər bir ölkədə qüvvədə olan qanuni aktların tələblərinə cavab verməsi ilə müəyyən olunur. Bununla yanaşı illik maliyyə uçotu üzrə hesabatın yoxlanmasına dair auditor rəyi dərc olunur ki, bu da hesabatın doğruluğuna dair etibarlı əsas sayılır.

Bununla bərabər maliyyə uçotu hesabatına əlavə olunmuş formalardan başqa, müəssisənin təsərrüfat-maliyyə fəaliyyətini ətraflı şərh edən izahat da əlavə olunur.

Beynəlxalq mühasibat uçotu standartları uçot konsepsiyasının normativ sənədlər sistemində xüsusi əhəmiyyətə malikdir. Konsepsiya latın sözü olub, cəmiyyətdə müəyyən əməliyyata münasibəti göstərir.

Ümumiyyətlə, uçot konsepsiyasını iki hissəyə ayırmaq olar. Bunların birincisi ümumi konsepsiya, ikinci isə xüsusi konsepsiyadır. Uçot üzrə ümumi konsepsiya bir neçə ölkədə yaranmış fikirlər, xüsusi konsepsiya isə bir ölkənin fikridir.

Konsepsiya bir qayda olaraq beynəlxalq uçot və hesabat standartlarında əks olunmuş uçotun prinsipləri, uçot siyasəti, hesabat və sair göstəricilər əsasında formalaşır.

Hazırda dünya ölkələri təcrübəsi və nəzəriyyəsində mühasibat uçotu üzrə iki ümumi konsepsiya mövcuddur. Bunlardan biri kontinental (Avropa), ikincisi Amerika konsepsiyasıdır [10, s.529].

Kontinental konsepsiya modelində uçot, əsasən, dövlət tənzimlənməsi ilə idarə olunur. Həmin konsepsiya modeli üzrə ölkənin bütün müəssisələri dövlət tərəfindən müəyyən olunmuş hesablar planından istifadə edir və mühasibat uçotu əməliyyatları müəyyən olunmuş vahid prinsiplər üzrə əks olunur. Modelin qarşısında qoyulan vəzifə mühasibat hesabatı informasiyalarının vergi və digər dövlət orqanlarının ehtiyacını təmin etməkdir. Həmin model üzrə uçotun təşkili Almaniya, Avstriya, Avropanın digər ölkələri və Yaponiyaya aiddir.

ABŞ uçot konsepsiyası bilavasitə investorları və kreditorları informasiya ilə ətraflı təmin etməkdən ibarətdir. Burada mühasibat uçotunda sərbəst uçot prinsipləri əsas götürülür. Bu model ABŞ, Böyük Britaniya, Niderlandiya, Kanada, Hindistan, Avstraliya və başqa ölkələr tərəfindən qəbul edilir. Hər bir ölkə uçot modelini qəbul etməklə mühasibat uçotu üzrə özünün konsepsiyasını tərtib edir. Məsələn, ABŞ 1978-1985-ci illər ərzində maliyyə uçotu üzrə özünün 6 formada konsepsiyasını tərtib etmişdir. Onlardan 5-i hal-hazırda istifadə olunur ki, bunlar aşağıdakılardır:

Təlimat 1 "Kommersiya təşkilatlarında maliyyə hesabatının tərtib olunması haqqında";

Təlimat 2 "Maliyyə hesabatı müəssisələrində maliyyə hesabatının tərtib olunması haqqında";

Təlimat 4 "Qeyri-kommersiya müəssisələrində maliyyə hesabatının tərtib olunması haqqında";

Təlimat 5 "Kommersiya təşkilatlarında maliyyə hesabatı informasiyalarının əks olunması";

Təlimat 6 "Maliyyə hesabatının göstəriciləri".

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının uçot modeli tarixən kontinental modelə (Avropa) yaxın olmuşdur. Bir qayda olaraq respublikadakı uçot konsepsiyasına uyğun olaraq bir sıra qanunlar və təlimatlar qəbul olunmuşdur. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası qanunu Azərbaycan Respublikası müəssisələrində "Mühasibat uçotunun hesablar Planı" və sairə təlimatlar əsasında mühasibat uçotu üzrə prinsiplər və sistem idarə olunur.

Daxili standartların ölkələrdə xüsusi əhəmiyyəti vardır. Bir qayda olaraq hər bir ölkə özündə müəyyən olunmuş uçot konsepsiyası və qanunçuluğuna uyğun olaraq daxili standartlarını tərtib edərək istifadə edir.

Daxili standartlarla beynəlxalq standartlar arasında da sıx əlaqə vardır. Beynəlxalq standartlar işlənib hazırlanarkən ölkədaxili uçot standartları ətraflı öyrənilir və bunun əsasında beynəlxalq uçot standartları qəbul olunur.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq uçot standartları ayrı-ayrı ölkələrdə milli uçot sistemi və prinsiplərindən imtina etmir, əksinə, beynəlxalq standartlar ölkələr arasında iqtisadi inteqrasiyanın genişlənməsinə yardım edir.

Mühasibat uçotu sistemi, standartları və prinsipləri daima təkmilləşdirməklə hazır iqtisadiyyatın formalaşmasında "sahibkarlıq dili" vəzifəsini yerinə yetirməklə idarəetmə sistemində mühüm rol oynayır [5, s.15].

Mühasibat uçotu eyni zamanda planlaşdırmada, müəssisə təsərrüfat-maliyyə fəaliyyətinin tənzimlənməsində, istehsalın daha yüksək səviyyədə təşkil olunmasında mühüm rol oynamaqla yanaşı əsaslı informasiya mənbəyidir. Təsadüfi deyildir ki, bir sıra iqtisadi cəhətdən yüksək dərəcədə inkişaf etmiş dünya ölkələrinin iqtisadçı peşəkar mütəxəssislərinin hesablamaya görə idarəetmədə istifadə olunan informasiyaların 70 faizdən çoxu mühasibat uçotu məlumatları hesab olunur.

Bir qayda olaraq iqtisadi subyektlərin bütün əmlakı, o cümlədən əsas vəsaitlər, xammal-materiallar, yanacaq-energetika, əmək və maliyyə ehtiyatları informasiyaları mühasibat uçotunda sistemləşdirilmiş şəkildə toplanaraq istehsalat, maliyyə-təsərrüfat fəaliyyəti üzrə istənilən nəticələrin əldə olunmasına şərait yaradır.

Mövcud olan informasiyaların idarəetmə sistemində faydalı və etibarlı istifadə olunmasını təmin etmək üçün isə mühasibat uçotunun elə bir sistemli təşkili lazımdır ki, o, müasir dövrdə dünya ölkələrində istifadə olunmuş qabaqcıl mühasibat uçotu və beynəlxalq standartların metodoloji prinsiplərindən istifadə edilməsinə uyğunlaşdırılmaqla, müasir hesablama texnikasından geniş istifadə edilməsinə şərait yaratsın.

Mühasibat uçotunun yarandığı ilkin dövrlərdə mühasibin əsas vəzifəsi uçot əməliyyatlarının aparılması ilə xarakterizə olunurdu. Hələ 1941-ci ildə Amerikanın andlı mühasiblər institutu uçotun əsas vəzifəsinin müəssisədə hesablaşma əməliyyatlarının icrasının pul ifadəsində əks olunması kimi xarakterizə etmişdir. 1970-ci ildə yuxarıda göstərilən İnstitut uçotun vəzifəsini iqtisadi subyektlərdə maliyyə xarakterli əməliyyatların icrası və onların nəticələrini idarəetmə qərarlarının qəbul olunması ilə əlaqədar informasiyaların hazırlanması kimi müəyyən etmişdir [8, s.125].

Beləliklə, müasir mühasibat iqtisadi subyektlərdə istehsalat, təsərrüfat-maliyyə fəaliyyətinin uçotunun icrası ilə yanaşı, planlaşma nəzarət funksiyası, əmlakın qorunub saxlanması, idarəetmə qərarlarının icrası ilə əlaqədar təhlili materialların hazırlanması məsələləri ilə ətraflı məşğul olur. Müasir mühasib müəssisə fəaliyyəti ilə maraqlı olan bütün kənar və daxili maraqlı şəxslər informasiyalar hazırlamağa borcludur.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisə və şirkətlərin mühasibat uçotunun əsas vəzifəsi bütün maraqlı şəxslər informasiyalar hazırlamağa borcludur.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisə və şirkətlərin mühasibat uçotunun əsas vəzifəsi bütün maraqlı şəxsləri tələb olunan informasiyalarla təmin etməkdir. Etibarlı formada hazırlanmış iqtisadi informasiyalar şirkətin maliyyə vəziyyətinin yüksəlməsinə, onun sahibkarlarının (səhmdarlarının), menecerlərin və digər işçi heyətinin maddi vəziyyətinin yüksəlməsinə və dövlət büdcəsinə daxil olan vəsaitin artmasına şərait yaradır.

Mühasibat (maliyyə) uçotu uçot-analitik informasiyaların əsas istifadəçiləri aşağıdakılardır:

- müəssisələrin sahibkarları (səhmdarlar);
- sərmayə qoyanlar (cari və əsaslı sərmayəçilər);
- müxtəlif səviyyədə olan müəssisə rəhbərləri (menecerlər);
- kreditorlar (satıcı müəssisələr, banklar və sairə);
- müəssisənin işçi heyəti;
- dövlət müəssisələri (vergi orqanları, hüquq-mühafizə orqanları və sairə);
- geniş mənada maraqlı ictimai təşkilatlar;
- həmkarlar təşkilatları;
- müəssisənin istehsal etdiyi məhsulların alıcıları;
- xüsusiləşmiş bazar xidməti strukturları (birjalar, sukarta şirkətləri, müxtəlif fondlar və s.).

Ümumi mənada müəssisənin təsərrüfat xüsusiyyətlərindən asılı olmayaraq uçot-analitik informasiyalar onlardan istifadə edənlərin xarakterindən asılı olaraq üç əsas qrupa ayrılır:

1. Müəssisənin faydalı idarə olunması üçün lazım olan informasiyalar. Bu formada hazırlanmış informasiyalar əsasən müəssisə menecerləri tərəfindən müəssisədaxili cari və operativ idarəetmədə istifadə olunur. Bu informasiyalara məhsul istehsalı və satışı ilə əlaqədar olan məsrəflər, məhsul vahidinə xərclənmiş məsrəflər, mənfəətin məhsul maya dəyəri üzrə müqayisə göstəriciləri, ümumi mənfəətin həcmi, bağlanmış müqavilələrin həcmi və göstəriciləri, sərmayə qoyuluşu, yeni məhsul növlərinin istehsalı ilə əlaqədar gəlirlilik imkanları göstəriciləri daxildir. Bu informasiyalar bir qayda olaraq idarəetmə mühasibatçılığında formalaşır. Əsas hallarda göstərilən informasiyalar kommersiya sirri hesab olunur və müəssisə daxilində də həmin informasiyalar məhdud, bilavasitə onların vəzifələrinə aid olan şəxslər tərəfindən istifadə olunmasına icazə verilir.

2. Müəssisənin cari maliyyə vəziyyətini əhatə edən, əmlakın (aktivlərin) quruluşu, onların əmələgəlmə mənbələrini, material və maliyyə vəsaitləri ehtiyatlarının cəlb olunmasını göstərən və təsərrüfat fəaliyyəti nəticələrini bilavasitə maliyyə mühasibat uçotu əməliyyatları üzrə müəyyən olunur. Təcrübədə maliyyə uçotu üzrə mühasibat uçotu sintetik və analitik hesabları üzrə vahid uçot sistemi əməliyyatları icra olunur və həmin göstəricilər əsasında dövrü olaraq maliyyə hesabatı tərtib olunur.

Bir sıra sənaye cəhətdən yüksək dərəcədə inkişaf etmiş ölkələrdə qanunvericiliklə maliyyə hesabatı informasiyalarının bütün maraqlı şəxslərin maneəsiz olaraq istifadələrinə verilməsi müəyyən olunmuşdur. Maliyyə hesabatından istifadə edənlərə səhmdarlar, sənayeçilər, banklar, vergi və digər dövlət orqanları aid edilir. Kənar istifadə edənlərdən başqa maliyyə hesabatından müəssisə rəhbərliyi (menecerlər) cari təsərrüfat fəaliyyətinin təhlili və idarəetmə qərarlarının qəbul olunması üçün istifadə edirlər.

Xarici ölkələrdə maliyyə mühasibat hesabatı mütləq qaydada kütləvi informasiya vasitələrində maraqlı şəxslərin marağını nəzərə alaraq dərc olunmalıdır.

Maliyyə hesabatı bütün dünya ölkələrində və Azərbaycan Respublikasında dövlət tərəfindən müəyyən olunmuş standartlara uyğun olaraq tərtib olunur.

Müəyyən olunmuş qaydalara xarici ölkələrin tərtib etdikləri maliyyə mühasibat hesabatına mühasibat balansı, mənfəət və zərərlərə dair hesabat, pul vəsaitinin hərəkətinə dair hesabatlar daxildir.

Mühasibat balansında müəssisəyə məxsus olan əmlakın dəyəri və quruluşu, onun əmələ gəlmə mənbələri, qoyulan sərmayənin həcmi əks olunur. Mənfəət və zərərlər haqqında hesabatda müəssisənin cari hesabat dövründə maliyyə təsərrüfat fəaliyyətinin nəticələri (mənfəət və zərərlər), mənfəətliliyin səviyyəsi göstərilir. Şəxsi kapital haqqında hesabatda, əsasən, hesabat dövründə sahibkarlar tərəfindən qoyulan vəsaitin dəyişməsi - onların artımı və ya azalmasına dair göstəriciləri müəyyən edir. Pul vəsaitinin hərəkətinə dair hesabatda hesabat dövründə pul vəsaitinin daxil olması və çıxmasına dair sistemləşdirilmiş informasiyalar əks olunur.

Xarici ölkələrin maliyyə mühasibat hesabatına əlavə olunmuş hesabat formalarından başqa mühasibat uçotu hesablarında əks olunmuş göstəricilərin ətraflı açıqlanması əlavə olunur. Bu məlumatlar sistemində müəssisənin əsas sayılan iqtisadi göstəriciləri, əsas sərmayə qoyuluşu layihələri və digər gələcəkdə icrası vahid sayılan və müəssisə fəaliyyəti üçün faydalı olan tədbirlər kompleksi əks olunur.

Maliyyə hesabatında xüsusilə vacib sayılan bankdakı hesablarda qalıqda olan sərbəst pul vəsaiti məbləği, debitor və kreditor borcların məbləği, mənfəətin həcmi və nizamnamə (və ya səhmdar) kapitalının ümumi dəyəri göstəriciləri əlavə olunur.

3. Vergi qoyuluşu və ödənişi ilə əlaqədar hesabat. Burada əsasən maliyyə (mühasibat) uçotu informasiyalarından istifadə olunur. Lakin son vaxtlarda vergi və büdcə ödəmələrinin vacibliyini nəzərə alaraq, vergi ödəmələrinin düzgün planlaşdırılması və ödəmə sisteminin vaxtında informasiyalar idarəetmə icrasının təmin olunması məqsədilə maliyyə uçotu ilə yanaşı bir sıra uçotu üzrə də icra olunur.

Maliyyə mühasibat uçotu hesabatının istifadə olunması və təhlili zamanı ondan istifadə edən hər bir şəxs arxayın olmalıdır ki, həmin hesabat mövcud olan beynəlxalq standartlar və prinsiplərə uyğun tərtib olunmuşdur.

Ümumi şəkildə mühasibat hesabatının tərtib olunmasında aşağıdakı tələblər yerinə yetirilməlidir:

1. Mühasibat maliyyə müəssisəsinin bütün təsərrüfat-maliyyə göstəriciləri və onların formalaşması əks olunmalıdır. Mühasibat maliyyə hesabatının etibarlı və tam olması üçün onun bütün göstəriciləri mövcud olan qanunçuluğa və normativ aktlara uyğun tərtib olunması vacibdir.

Etibarlı mühasibat uçotu və mühasibat maliyyə hesabatının təmin olunması üçün hər bir müəssisə ona məxsus olan əmlakın və öhdəçiliklərinin inventarlaşdırılmasını aparmalı və onların sənədlər əsasında qalığı və qiymətliliyi təsdiq olunmalıdır.

Mühasibat maliyyə hesabatı göstəricilərində müəssisə fəaliyyətinin bütün informasiyaları, ona tabe olan müəssisə məlumatları əks olunmalıdır.

2. Mühasibat maliyyə hesabatı formalaşdırılarkən, ondan istifadə edən maraqlı şəxslərin mənafeyi ətraflı nəzərə alınmalıdır. Əgər tərtib olunmuş hesabat maraqlı şəxsləri tam təmin etmək məlumatlarına cavab vermirsə, həmin hesabatı tam hesab etmək məqsədəuyğun deyildir.

3. Müəssisənin aktivləri, öhdəçilikləri, mənfəət, zərər göstəriciləri və ümumiyyətlə, kapitalın həcmini müəyyənləşdirən göstəricilər maliyyə mühasibat hesabatında ayrılıqda istifadəçilərin marağına uyğun şəkildə əks olunmalıdır. Göstərici o zaman əsaslı sayılır ki, onun açıqlanması müəyyən iqtisadi qərarların qəbul olunmasına təsir etsin.

Hesabatda ümumi göstəricilər həcmində 5 faizdən aşağı olmayan hər bir göstərici vahid məlumat hesab olunur.

4. Maliyyə mühasibat hesabatında əks olunmuş bütün göstəricilərdə cari hesabat göstəriciləri keçmiş hesabat ilinin göstəriciləri ilə müqayisə oluna bilməlidir ki, bir qayda olaraq hesabatda ən azı son iki ilin müqayisə olunan göstəriciləri əks olunmalıdır.

Əgər maliyyə mühasibat hesabatını tərtib edən müəssisə hesabatın üç və daha çox vaxtda müqayisə olunması qərarı qəbul etmişsə, belə halda müqayisə olunan göstəricilər həmin dövrü əhatə etməlidir.

5. Mühasibat maliyyə hesabatında müqayisə olunan göstəricilər cari ilin göstəriciləri və ya keçən il göstəriciləri ilə müqayisəli tərtib olunur. Əgər hesabat göstəriciləri göstərilən qaydada müqayisə olunmaz imkana malik deyilsə, mühasibat uçotu normativ qaydalarına uyğun tərtib olunmalı və müqayisəli forma təmin olunmalıdır.

6. Əgər mühasibat uçotu prinsiplərində nəzərdə tutulmayıbsa, maliyyə muhasibat hesabatında müəssisə aktiv və passiv, mənfəət və zərərlər maddələri bir-birilə qarşılıqlı bağlana bilməz. Bu kimi hal muhasibat uçotu informasiyalarının qeyri-anlaşılan nəticələr çıxarmasına səbəb olar.

7. Maliyyə mühasibat hesabatı tərtib olunarkən mühasibat uçotu beynəlxalq standartları tələbləri və prinsipləri əsas götürülür və bu əsasda mühasibat maliyyə informasiyaları açıqlanır. Bununla əlaqədar olaraq aşağıdakı göstəricilər hesabatda əksini tapmalıdır:

- uçot siyasətindəki dəyişikliklər, onun təsiri ilə müəssisənin maliyyə vəziyyətinə, pul vəsaiti və maliyyə nəticələrinə əsaslı təsir göstərilə bilər:
- xarici valyuta əməliyyatları;
- material-istehsal ehtiyatları;
- əsas vəsaitlər;
- müəssisənin mənfəət və zərəri;
- müəssisə aktivi, kapitalı, ehtiyatları və öhdəçiliklər.

Mövcud olan beynəlxalq uçot qaydalarına görə, dünya ölkələrində dərinləşməkdə olan sərbəst bazar iqtisadiyyatı prinsipləri şəraitində maliyyə mühasibat uçotu forma və tərtibi prinsipləri möhkəm qaydalarla müəyyənləşir. Lakin buna baxmayaraq, qəbul olunmuş və standartlaşmış hesabat normalarına əməl olunması vacibdir [4, s.148].

Maliyyə mühasibat hesabatından istifadə edənlər üçün hesabatın təhlilinin mühüm əhəmiyyəti vardır. Mühasibat maliyyə göstəricilərinin təhlili əsasında müəssisənin əsas xarakteristikası müəyyən olunur və onun gələcək fəaliyyəti haqqında real imkanlar aşkarlanır.

Müəssisə maliyyə mühasibat hesabatı üzrə aparılan təhlil onun aktivinin öhdəçiliyini və özünəməxsus olan kapitalı haqqında əsaslı informasiya əldə tutulmasını nəzərdə tutur. Müəssisənin

mənfəət və gəlirinə dair hesabatın təhlili satılmış məhsullara dair məlumat, sərf olunmuş məsrəflərin həcmi, müəssisənin balans üzrə də təmiz mənfəətinin qiymətləndirilməsinə imkan verir.

Müəssisə balansına əlavə olunan göstəricilər əsasında şəxsi kapitalın dinamikası sair fondlar və ehtiyatlar, cari, investisiya və maliyyə fəaliyyəti əsasında daxil olan pul vəsaiti, debitor və kreditor borcların vəziyyəti və digər göstəricilərə dair məlumatlar qiymətləndirilir.

İdarəetmədə informasiyanın başlıca bazası kimi mühasibat uçotunun təkmilləşdirilməsi onun təşkilində bütün əsas elementlərinin: təsərrufat fəaliyyətinin bütün hallarının sənədləşdirilməsi və sənəd dövriyyəsinin, uçot formalarının, uçot prosesinin quruluşunun, inventarlaşdırmanın, hesabatın həcmi və məzmununun, mühasibat aparatının quruluşu və funksiyasının ən başlıcası isə təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun hesabatın icrasını kökündən yaxşılaşdırılmasını nəzərdə tutur.

29 iyun 2004-cü il tarixli "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda uçot siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Həmin Qanunda konseptual baxımdan standartlara uyğun uçotun aparılması qaydaları qeyd olunub [7, s.1].

Bu Qanunun tələblərinə əsasən 2006-ci ilin versiyası üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının Azərbaycan dilinə tərcümə olunmuş rəsmi mətnlərinin Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi Fondu tərəfindən təsdiq edilməsi işi təşkil olunmuşdur. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına adı çəkilən Fondun müəyyən etdiyi qaydalara uyğun olaraq beynəlxalq audit şirkətləri tərəfindən rəy verilmişdir. Bu standartlar əsasında tərəfimizdən 37 adda Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, 27 adda Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartının tətbiqi üzrə Şərhlər və Tövsiyələr, bundan başqa İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları əsasında 24 adda Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, 1 adda Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı, habelə "Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları" hazırlanmışdır.

Milli standartlar "Mühasibat uçotu haqqında" Qanunun 7-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2005-ci il tarixli 250 s nömrəli Sərəncamı ilə yaradılmış Muhasibat Uçotu üzrə Məsləhət Şurası tərəfindən rəy verildikdən sonra təsdiq edilmişdir. Qanunun 6.0.2 və 6.0.3-cü maddələrinə əsasən Milli Mühasibat Uçotu Standartları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında hazırlanaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə nizamlanan bütün məsələləri əhatə etməlidir. Lakin milli standartlarla beynəlxalq standartlar arasında konseptual baxımdan fərq olmasa da müəyyən texniki fərqlər mövcuddur. Belə ki, beynəlxalq standartlarda maliyyə hesabatlarının nümunəvi forması əks etdirilməmiş, yalnız bu hesabatlar üzrə minimum tələblər göstərilmişdir. Ona görə Milli Standartları hazırlayan zaman mühasiblərə kömək üçün maliyyə hesabatlarının tərtibi üzrə lazımi formaların nümunələri hazırlanmışdır və standartlara əlavə edilmişdir [7, s.2].

Mühasibat balansı, Mənfəət və zərər haqqında hesabat, Pul vəsaitlərinin hərəkəti və s. kimi hesabatların formaları hazırlanmışdır. Yeni Hesablar Planına gəlincə isə, sintetik hesablar planı artıq təsdiq edilmişdir. Köhnə hesablar planından fərqli olaraq subhesabları Yeni Hesablar Planında göstərmir və bu məsələdə təşkilatlara sərbəstlik verilir. Təşkilatlar uçot siyasətinə və iş xüsusiyyətlərinə uyğun olaraq özləri istifadə edəcəyi subhesabları müəyyənləşdirə bilər. Əgər əvvəllər təşkilatlar 3-5 səhifəlik uçot siyasəti hazırlayırdısa, indi vəziyyət dəyişib, həmin sənəddə istifadə olunan amortizasiya, qiymətləndirmə metodları və istifadə ediləcək standartlar haqqında geniş məlumat verilməlidir.

Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin sabitləşməsi Təsərrüfat subyektlərinin fəaliyyətini haqda maliyyə informasiyalarının formalaşması prosesində yeni tələblər qoyur. Təsərrüfat mexanizmi elementlərinin inkişafı ilə mühasibat uçotunun bu və ya digər obyektində baş verən dəyişiklik haqda informasiya verməyə ehtiyac duyulur ki, bu da əksər qayda və metodlara yenidən baxılması tələb edir. Mühasibat uçotunun təcrübədə tətbiqinin və müxtəlif uçot obyektlərinin xarakteristikasının təkmilləşdirilməsinə dair qanunverciliyin sabitləşdirilməsi öz növbəsində Hesablar

Planının sintetik və analitik mövqeyinin tərkib və məzmununa, eləcə də hesablarda yazılışların aparılmasına yenidən baxılmasını bir vəzifə kimi qarşıya qoyur.

Bununla əlaqədar olaraq ölkə uçotunda geniş istifadə olunan təcrübəyə və maliyyə hesabatının beynəlxalq standartlarına (MHBS) keçilməsi əsas götürərək mühasibat uçotunun təşkilində və metodologiyasında durmadan dəyişikliklər aparilması nəzərdə tutulur.

Açar sözlər: standartlar, maliyyə, mənfəət, uçot, hesabat

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Q.Ə. Mühasibat uçotunun nəzəriyyəsi. Bakı: 2009.
2. Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında əsasnamə. Bakı: 2013.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2000.
4. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. Bakı: 2012.
5. Maliyyə hesabatı: formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 2003.
6. Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat. Bakı: Bilik, 1996.
7. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: 2012.
8. Rzayev Q.R. Beynəlxalq mühasibat uçotu standartları və maliyyə hesabatı. Bakı: 2004.
9. Rzayev Q.R. Beynalxalq mühasibat uçotu standartları və maliyyə hesabatı. Bakı: 2004.
10. Sadıqov. Ə.A., Sadıqov T.Ə., Cəfərova Ş.Ə., Sadıqov C.Ə.. Mühasibat uçotu. Bakı: 2012.
11. Савицкая Г.И. Методика комплексного анализа хозяйственной деятельности. М.: 2009.
12. Səbzəliyev S.N. Maliyyə hesabatı: formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 2003.

Офелия Юсупова

ФИНАНСОВЫЙ БУХГАЛТЕРСКИЙ УЧЕТ И ОТЧЕТНОСТЬ В МЕЖДУНАРОДНОЙ СИСТЕМЕ УЧЕТА И ПУТИ ЕЕ УСОВЕРШЕНСТВОВАНИЯ

Резюме

Целью исследования является обоснование теоретических и методических положений использования бухгалтерской финансовой отчетности. Зарубежный опыт составления и использования финансовой отчетности представляет значительный интерес в теоретическом и практическом плане. В статье раскрыта экономическая сущность основ формирования, анализа и прогнозирование показателей бухгалтерской финансовой отчетности с целью оценки их влияния на финансовые показатели.

Ключевые слова: стандарты, финансы, прибыль, учет, отчетность

Ophelia Yusupova

FINANCIAL ACCOUNTING ACCOUNT AND REPORTING IN THE INTERNATIONAL SYSTEM OF THE ACCOUNT AND THE WAY OF ITS IMPROVEMENT

Summary

Research objective is justifications of theoretical and methodical provisions of use of accounting financial statements. Foreign experience of drawing up and use of financial statements presents considerable interest in the theoretical and practical plan. In article the economic essence of bases of formation, the analysis and forecasting of indicators of accounting financial statements for the purpose of an assessment of their influence on financial performance is opened.

Key words: standards, financial, income, accounting, reporting

UOT - 332.053.2

Şövqi Quliyev
AƏSMA, i.ü.f.d.
Azər İbrahimov
AƏSMA

TƏDİYƏ BALANSININ TƏNZİMLƏNMƏSİNİN METODOLOJİ MƏSƏLƏLƏRİ

İqtisadi tədqiqatlarda dövlətlərarası iqtisadi əlaqələri beynəlxalq ticarət və beynəlxalq maliyyə əlaqələri olmaq üzrə iki qrupa ayırmaq standart bir bölgü kimi qəbul edilmişdir. Beynəlxalq ticarət əlaqələri ölkələr arasında mal və xidmətlərin mübadiləsini, beynəlxalq maliyyə əlaqələri isə kapital və maliyyə alətlərinin beynəlxalq hərəkətini əhatə edir. Ölkələr arasında yaranan bu əlaqələrin nəticələri kompleks şəkildə öz əksini tədiyə balansında tapır.

İqtisadi ədəbiyyatlarda tədiyə balansına verilən tərifləri nəzərdən keçirərək belə qənaətə gəlmək mümkündür ki, bütün bu tərifləri praqramatik xarakter daşıyır və tədiyə balansı ölkənin xarici iqtisadi fəaliyyət göstəricilərinin statistik yazılışı kimi şərh olunur.

Rusiya iqtisadiçiləri V.B.Buqlay və T.T.Liventsevin birgə tədqiqat işində tədiyə balansına aşagıdakı kimi tərif verilir: "Tədiyə balansı müəyyən dövr ərzində ölkə rezidentləri ilə digər ölkə qrupları və beynəlxalq təşkilatlar arasında həyata keçirilən iqtisadi əməliyyatların yekunlarını əks etdirən statistik məlumatlardan ibarətdir" [1, s.83].

BVF-in metodik göstəricilərində deyilir: "Tədiyə balansı müəyyən dövr üçün statistik göstəricilər cədvəli olmaqla aşağıdakıları özündə əks etdirir: a) digər ölkələrlə əmtəə, xidmət və gəlirlər üzrə əməliyyatları; b) mülkiyyət mübadiləsini və digər ölkələrlə münasibətdə qızıl ehtiyatları, xüsusi borclanma hüquqi olan kollektiv valyuta (SDR), maliyyə öhdəlikləri və tədiyə tələblərindəki dəyişmələri; v) mühasibat nöqteyi-nəzərdən qarşılıqlı ödənilməyən əməliyyat və dəyişikliklərin maliyyələşdirilməsi üçün zəruri olan birtərəfli köçürmələri". Bu metodiki göstəricilərdə tədiyə balansına yalnız həyata keçirilən əməliyyatlar haqqında məlumatların deyil, həmçinin bu əməliyyatların balanslaşdırılması üçün süni şəkildə tərtib olunmuş göstəricilərin də daxil edilməsi tövsiyə olunur [2, s.23].

Fikrimizcə, tədiyə balansına verilən tərifləri aşağıdakı kimi ümumiləşdirmək olar. Tədiyə balansı müəyyən müddət ərzində (ay, rüb, il) ölkənin rezidentləri ilə (ev təsərrüfatları, firmalar və dövlət) qalan ölkələr arasında həyata keçirilən bütün iqtisadi sazişlərin yekunlarının sistemləşdirilmiş statistik yazılışıdır. Başqa sözlə, tədiyə balansı müəyyən dövr ərzində (adətən, bir il ərzində) bir ölkənin rezidentlərinin qeyri-rezidentlərlə apardığı iqtisadi əməliyyatların yekun nəticələrini dəyər formasında əks etdirən göstəricilər sistemidir.

Tədiyə balansı formasında ölkələrin xarici iqtisadi əməliyyatlarının yekun nəticələrinin uçota alınması XVI əsrin sonlarında İngiltərədə təsadüf olunmuşdur. Bu erkən merkantilizm baxışları ilə əlaqədar olmuşdur. Tədiyə balansı termini isə iqtisadiyyat elminə ilk dəfə olaraq XVIII əsrdə Şotlandiya iqtisadçısı C.Stüart tərəfindən gətirilmişdir [3, s.52].

Bu balansı bəzən "ödəmə", "ödəniş" və ya "valyuta" balansı da adlandırılır. Azərbaycan dilində isə bu termin tədiyə balansı kimi qəbul edilmişdir. Klassik iqtisadi nəzəriyyələrin baniləri A.Smit və D.Rikardo tədiyə balansının tərtib olunması probleminin həllinə yeni elementlər gətirmişlər.

Kapitalizmin inkişafı ilə əlaqədar olaraq kapitalın beynəlxalq hərəkətinin güclənməsi və digər xarici iqtisadi əməliyyatların artması tədiyə balansının strukturunun mürəkkəbləşməsinə və əhəmiyyətinin artmasına səbəb oldu. Eyni zamanda, beynəlxalq hesablaşmaların aparılmasında və tədiyə balansının tənzimlənməsində dövlətin rolu da durmadan artırdı.

XX əsrin əvvəllərində ABŞ və İngiltərə iqtisadçıları tədiyə balansının tərtibinin daha mükəmməl metodlarını işləyib hazırladılar. İlk dəfə tədiyə balansı rəsmi olaraq xarici iqtisadi əlaqələrin 1922-ci ildəki göstəriciləri əsasında 1923-cü ildə ABŞ-ın Ticarət Nazirliyi tərəfindən tərtib olunaraq nəşr edildi. İlkin nəşr rəsmi xarakter daşımamışdır. Çünki bu balans vahid metodika əsasında tərtib olunmamışdır [4, s.239].

Dünya təsərrüfat sisteminin formalaşması ayrı-ayrı ölkələri məcbur edirdi ki, xarici iqtisadi əlaqələrə və beynəlxalq hesablamalara aid göstəricilərin hesablanması və tədiyə balansının tərtib olunma metodikasını vahid şəklə salsınlar. Tədiyə balansının tərtib olunmasının vahid forma və metodikasına nail olmaq üçün 1947-ci ildə, əvvəlcə, millətlər liqası, sonralar isə Beynəlxalq Valyuta Fondu (BVF) ABŞ-da və İngiltərədə tərtib olunan tədiyə balansının forma və metodikasını bütün dünya ölkələri üçün standartlaşdırdılar və bu sənədlər həmin ildə, bir sıra ölkələrin mütəxəssisləri tərəfindən bəyənildikdən sonra, Birləşmiş Millətlər Təşkilatının (BMT) sənədləri kimi dərc olundu. Bu dövrdən başlayaraq, BVF tərəfindən tədiyə balansının işlənməsi qaydalarının, formalarının və uçot prinsiplərinin əsas bazası kimi tövsiyə olunmağa başlandı. Hazırda BVF-yə üzv olan bütün ölkələr üçün tədiyə balansının tərtibi qaydası vahid metodika əsasında həyata keçirilir [5, s.125].

BVF tərəfindən tövsiyə olunan tədiyə balansı ikili prinsipləri əsasında tərtib olunur. Yəni hər bir xarici iqtisadi əməliyyatların nəticələri eyni zamanda iki hesabda qeyd olunur. Adətən, əmtəələrin ölkəyə gəlməsi balansın debetində minus ("-") işarəsilə, əmtəələrin ölkədən çıxması kredit hesabında plyus ("+") işarəsi ilə qeyd edilir [6, s.246].

BVF tərəfindən işlənilmiş standart təsnifata əsasən tədiyə balansı iki əsas bölmədən ibarətdir: (I) real maddi sərvətlərin (əsasən əmtəə və xidmətlər) beynəlxalq hərəkətini əks etdirən cari əməliyyatlar hesabı və (II) bu axının maliyyələşdirilməsi mənbələrini göstərən kapital və maliyyə əməliyyatları hesabı (cədvəl 1.)

1. Cari əməliyyatlar hesabı.

Cari əməliyyatlar hesabı tədiyə balansının əsas bölməsi hesab olunur. Ölkənin ixrac və idxal etdiyi bütün mal və xidmətlərin dəyəri bu hesabda qeyd edilir.

Cari əməliyyatlar hesabı hesabat ilində ölkənin ticarət və xidmət balanslarını, investisiyalardan gələn gəlirləri, birtərəfli köçürmələrin və hədiyyələrin məbləğlərini əks etdirir. Cari əməliyyatlar hesabı özü də dörd əsas alt qrupa bölünür, ticarət balansı, xidmətlər balansı, gəlirlər və birtərəfli köçürmələr.

1.1. Ticarət balansı.

Bütün mallar üzrə ixrac və idxalın dəyəri arasındakı olan fərqə ticarət balansı deyilir. Tədiyə balansına yalnız ticarət balansının o hissəsi daxil edilir ki, bu balansda ticarət əməliyyatları üzrə ödəmələr artıq aparılıb və ya təcili olaraq ödənilməlidir. Ticarət sövdələşmələri üzrə hesablarda mövcud olan və hələ ödənilməmiş hissə hesablaşma balansına və yaxud müstəqil ticarət balansına daxil edilir. Ümumiyyətlə, xarici ticarət tarixən beynəlxalq mübadilənin ən çox inkişaf etmiş forması kimi beynəlxalq iqtisadi əməliyyatlar içərisində ən böyük yeri (ümumiyyətlə, 1/2 ilə 2/3 arasında) tutur. Xarici ticarət sayəsində beynəlxalq əmək bölgüsü (BƏB) təşəkkül tapmış, dərinləşmiş və təkmilləşmişdir. Beynəlxalq iqtisadi əlaqələrin digər formaları da xarici ticarət sayəsində inkişaf etmişdir .

Cari əməliyyatlar hesabının əsas alt bölməsi olan xarici ticarət balansı tədiyə balansının baş tərkib hissəsidir. Ticarət balansının aktivliyi və ya passivliyi ölkənin dünya təsərrüfatı sistemində yerini və tərəf müqabili olduğu ölkələrlə iqtisadi əlaqələrin səviyyəsini xarakterizə edir. İqtisadiyyatı zəif inkişaf etmiş ölkələr üçün ticarət balansının aktiv olması daha çox əhəmiyyətlidir. Çünki ölkəyə daxil olan valyuta vəsaitlərin beynəlxalq öhdəlikləri və tədiyə balansının başqa bölmələrini ödəmək üçün kifayət etməsi çox vacibdir.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, aktiv ticarət balansı heç də ölkənin əlverişli iqtisadi vəziyyətini göstərmir. Məsələn, bir sıra inkişaf etmiş ölkələrin ticarət balansı aktiv olsa da, həmin ölkələrin tədiyə balansları passivdir. Ümumiyyətlə, xarici iqtisadi əlaqələrin ümumi dövriyyəsində ticarət balansı böyük xüsusi çəkiyə malik olsa da, ölkənin tədiyə balansının müsbət saldoya malik olmasında həlledici rol oynamır.

1.2. Xidmətlər balansı.

Cari əməliyyatlar hesabında xidmətlər balansı da əsas bölmə kimi çıxış edir. Bu balansa turizm, nəqliyyat üzrə yük daşımalar, bank və sığorta xidmətləri, diplomatik və ticarət nümayəndəliklərinin saxlanılması və s. üzrə daxil olmalar və ödəmələr aid edilir.

Qeyd edək ki, xidmətlər ya sərbəst şəkildə, ya da ki əmtəə və xidmətlərin geniş kateqoriyasının tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Praktiki olaraq bütün ölkələrdə beynəlxalq xidmətlərin ən başlıca kateqoriyası kimi nəqliyyat xidmətləri çıxış edir. Buraya dəniz, dəmiryolu, hava, avtomobil, boru kəməri və digər nəqliyyat növləri ilə əlaqədar olan bütün nəqliyyat xidmətləri aiddir. Daşınmaların dəyəri idxal və ixracı fob qiymətlərinə əsasən hesablanır. Malların idxalı üzrə qeyri-rezident firma tərəfindən göstərilən nəqliyyat xidmətləri debetə yazılır, belə ki, xidmətlərə görə ödəmələr həyata keçirilir. Əksinə, ixrac ilə əlaqədar rezident firmanın xarici alıcıya təklif etdiyi xidmətlər isə tədiyələrin əldə olunması ilə əlaqədar kredit bölməsində göstərilir .

Adətən, turizm adlandırılan səfərlər maddəsi ölkə ərazisində bir ildən çox olmayaraq fəaliyyət göstərən gəlmə rezidentlərin əldə etdiyi əmtəə və xidmətləri əhatə edir. Turistlərin beynəlxalq daşınması sərnişin daşınmaları maddəsində göstərilir.

Digər ölkələrin ərazisində hərbi xidmət keçən, diplomatik nümayəndələrdə işləyən və yerli ölkənin istehsal fəaliyyətində iştirak edən şəxslər ölkə ərazisində bir ildən az olmalarına baxmayaraq, gəlmə hesab edilmirlər. Lakin bir ildən artıq ölkə ərazisində olan müalicə müəssisələrinin pasiyentləri, həmçinin tələbələr gəlmələr sırasına aiddirlər. Onların bütün xərcləri, təhsil haqqı, tibbi xidmət, mənzil kirayəsi və s. bu kimi xərclər xidmətlər balansının səfərlər maddəsində qeydə alınır. Xidmətlər balansının bu maddəsinə mehmanxanalarda qalma və restoranda qidalanma xərcləri, əyləncəli proqramlarla bilet alışı, hədiyyə və suvenirlərin əldə olunması aid edilir .

Rabitə xidmətləri telekommunikasiya, poçt və kuryer xidmətlərini əhatə edir. Tikinti xidmətlərinə rezidentlər (qeyri-rezidentlər) tərəfindən xaricdə (ölkə ərazisində) tikinti obyektlərinin inşası və avadanlıqların quraşdırılması üzrə xidmətlər daxildir. Müəssisələrin tikintisi üçün tələb olunan idxal və ixrac malları cari əməliyyatlar hesabının əmtəələr hissəsində deyil, məhz tikinti xidmətləri maddəsində qeydə alınır. Sığorta xidmətləri sığorta olunmanın müxtəlif növlərini əhatə edir. Maliyyə xidmətlərinə gəldikdə isə buraya rezidentlər tərəfindən qeyri-rezidentlərə göstərilən maliyyə lizinqi, xarici valyuta və qiymətli kağızlarla əməliyyatlar, aktivlərin idarə olunması ilə bağlı xidmətlər müqabilində ödənişlər və s. bu kimi vasitəsi və köməkçi xidmətlər aid edilir. İnformasiya və məlumatların işlənməsi, məlumatlar bazasının yaradılması və qorunması, kompyuter texnologiyası sahəsində konsaltinq və internet xidmətləri kompyuter və informasiya xidmətləri qrupunu təşkil edir. Patent, müəllif hüququ, əmtəə nişanı, lisenziya və "nou-hau"dan istifadə üzrə ödənişlərin rezident və qeyri-rezidentlər arasındakı mübadiləsi royalti və lisenziya xidmətləri maddəsini təşkil edir. Yerdə qalan xidmətlər müxtəlif işgüzar və özəl şəxslərə göstərilən, mədəniyyət sahəsi ilə əlaqədar olan xidmətlər və digər dövlət xidmətlərindən ibarətdir .

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrdə xidmət sferası dinamik inkişaf edən sektor kimi çıxış edir. Onun rolu ödəmə və gəlirlərin strukturunda durmadan artır. Çoxnövlü ticarət mallarının istehsalının və tədarükünün artması ilə əlaqədar olaraq ənənəvi xidmət sahələri (nəqliyyat, rabitə, sığorta, bank) köklü şəkildə yenidənqurma prosesi yaşayır. Bunlar isə yarımfabrikatların xüsusi çəkisinin artması, beynəlxalq ixtisaslaşmaının və kooperasiyanın inkişafı və genişlənməsi hesabına mümkün olmuşdur.

1.3. Gəlirlər.

Cari əməliyyatlar hesabının gəlirlər bölməsində rezident və qeyri-rezidentlərin əməyinin ödənilməsi və investisiyalar üzrə gəlirlər əks olunur. Əmək haqqı ölkə sərhəddindən kənarda bu ölkə rezidentinin digər rezidentləri üçün gördüyü işlər müqabilində əməyinin pul və ya natural formada ödənilməsindən ibarətdir. İşçilər kateqoriyasına ölkə ərazisində bir ildən az olaraq fəaliyyət göstərən mövsümi işçilər, həmçinin ölkə sərhəddinə yaxın işçilər aid edilir. Əgər işçi bir ildən artıq ölkə ərazisindədirsə, onda onun gəlirləri imiqrant köçürmələri kimi qeydə alınmır. İnvestisiya üzrə gəlirlər xarici maliyyə aktivləri müqabilində rezidentlərin əldə etdikləri gəlirlərdir. Bura kapitalda iştiraka (dividend) və borc öhdəliklərinə görə gəlirləri (faizlər) aid etmək olar. İnvestisiya üzrə gəlirlər aşağıdakılardan ibarətdir: birbaşa və portfel investisiyaları, həmçinin digər investisiyalar üzrə gəlirlərdən ibarətdir .

1.4. Cari transfertlər.

Ölkələr arasında bəxşişlər, hədiyyələr və s. şəklində həyata keçirilən birtərəfli köçürmələr də cari əməliyyatlar hesabına daxil olur.

Transfertlər maddi resursların əvəzində heç bir dəyər ekvivalenti ödənilmədən ölkələrarası hərəkətini ifadə edir. Yəni transfertlər istiqamətindən asılı olaraq ödəmə balansının ya debetində, ya da ki kreditində əks olunur. Transfertlər iki cür olur: cari və kapital. Cari transfertlər tədiyə balansının cari əməliyyatlar hesabında, kapital transfertləri isə kapital və maliyyə əməliyyatları hesabında qeyd olunur.

Əsas fondlar üzərindəki mülkiyyət hüququnun verilməsi və ya xarici borcların bağışlanması ilə əlaqədar bütün transfertlər cari hesab edilir. Ölkənin ümumi gəlirlərinin səviyyəsi cari transfertlərin həcmindən birbaşa asılıdır ki, bu da özünü əmtəə və xidmətlərin istehlakında büruzə verir. Əgər cari transfertlər ölkə ərazisindən vəsaitlərin axını ilə müşayiət olunursa, bu, yığım və istehlak üçün istifadə oluna biləcək ümumi gəlirlərin səviyyəsinin aşağı düşməsi ilə nəticələnir. Vəsaitlərin ölkəyə axını zamanı isə əks proses baş verir. Ümumiyyətlə, qeyd edək ki, cari transfertlər iki formada həyata keçirilir:

1. Dövlət transfertləri və digər sektorlar üzrə transfertlər – cari xərclərin maliyyələşdirilməsi üçün dövlət orqanları tərəfindən xarici ölkələrin hesabına keçirilən pul vəsaitləri, ölkələrarası yardım proqramları çərçivəsində təbii fəlakətlərdən zərər çəkən ölkələrə qida məhsullarının, tibbi ləvazimatların əvəzsiz olaraq verilməsi, beynəlxalq təşkilatlara üzvlük haqqının köçürülməsi və s. bu kimi beynəlxalq əməkdaşlıq üzrə cari köçürmələr dövlət transfertlərini təşkil edir.

2. Şəxsi əməliyyatlar - xarici işçilərin, mütəxəssislərin və vətəndaşların əmək haqları üzrə köçürmələri. Son dövrlər bu növ əməliyyatlar geniş yayılmış və böyük iqtisadi əhəmiyyət kəsb edir. Belə ki, İtaliya, Türkiyə, İspaniya, Yunanıstan, Portuqaliya, Pakistan, Misir və başqa ölkələrin vətəndaşlarının digər xarici ölkələrə işləmək, ticarət və s. məqsədlərlə getməklə öz vətənlərinə pul göndərilməsi məsələsinə ciddi fikir verilir və bu məsələ dövlət tərəfindən məqsədəüyğun şəkildə tənzimlənir. Belə valyuta gəlirləri ölkənin iqtisadi inkişafı üçün də istifadə olunur.

Bir sıra ölkələrin Almaniya, Fransa, Böyük Britaniya, İsveç, ABŞ və başqa ölkələrdə müvəqqəti olaraq digər xarici ölkələrdən işçilərin və mütəxəssislərin cəlb edilməsi valyuta vəsaitlərinin köçürülməsinin əks mənbəyi kimi bu ölkələrin tədiyə balanslarının həmin bölməsində kəsir yaranmasına səbəb olur. Bəzən investisiyalardan gələn gəlirləri, xidmətləri, hərbi xarakterli sazişləri və birtərəfli köçürmələri "görünməyən" ticarət əməliyyatları da adlandırırlar.

Ümumiyyətlə, qeyd edək ki, cari əməliyyatlar hesabı ölkənin tədiyə vəziyyəti haqqında kifayət qədər məlumat verir. Cari əməliyyatlar hesabının saldosunu (NE) bəzən xalis ixrac da adlandırırlar. Cari əməliyyatları hesabı üzrə müsbət saldonun (NE>0,) olması sübut edir ki, ölkə idxal olunandan daha çox həcmdə mal və xidmət ixrac edir. Bu da ölkədə əlavə valyuta vəsaitlərinin yaranmasına səbəb olur. Bu əlavə valyuta vəsaitlərinin bir hissəsi yığıma, qalan hissəsi isə digər öhdəliklər üzrə ödəmələrə və ya xarici ölkələrə kredit köməyi göstərməyə sərf olunur.

Cədvəl 1

Tədiyə balansının strukturu

№	Hesablar	Kredit (pul gəlirləri)	Debet (pul ödənişləri)	Saldo
1	2	3	4	5
1	Ticarət Balansı	İxracdan əldə edilən gəlir	Əmtəə idxalı üçün xərclər	
2	Xidmətlər Balansı	Qeyri-rezidentlərə göstərilən xidmətlərdən əldə olunan gəlir	Ölkə rezidentlərinə xaricdə göstərilən xidmətlərin ödənilməsi	
3	Köçürmələr Balansı	Xaricdən köçürmələr	Xaricə köçürmələr	
4	Cari əməliyyatlar hesabı (1+2+3)	E	Z	NE
5	Kapitalla əlaqədar olan əməliyyatlar	Kapitalın idxalı	Kapitalın ixracı	NKE
6	Mərkəzi bankın valyuta ehtiyatları	Valyuta ehtiyatlarının xaricdə artması	Ölkədə valyuta ehtiyatlarının artması	AK

Yəni ölkə cari əməliyyatlar hesabı üzrə müsbət saldoya malikdirsə, onda milli yığımın müəyyən hissəsini xarici investisiya formasında ixrac edir və bu da ölkədə istehsalın və ixracın stimullaşdırılmasına və yeni valyuta vəsaitlərinin əmələ gəlməsini şərtləndirir.

Xalis ixracın mənfi olması (NE<0) ixracın həcminin idxalın həcmindən az və dünya bazarına ixrac olunan mal və xidmətlərinin rəqabət qabiliyyətinin aşağı səviyyədə olduğunu göstərməklə yaşamasını və ya əvvəllər topladığı yığımdan istifadə etməsinə səbəb olur .

Beləliklə də, nəticə çıxarmaq olar ki, cari əməliyyatlar üzrə hesabın müsbət saldoya malik olması ölkənin investisiya potensialının artmasını sübut edir, mənfi saldo isə, əksinə, ölkədən valyuta vəsaitlərinin xarici axınını göstərir.

Ekspertlərin fikrincə, cari əməliyyatlar hesabı iki xüsusiyyəti ilə fərqlənir: birincisi, cari əməliyyatlar hesabı öz təbiətinə görə birdəfəlikdir. Yəni cari əməliyyatlar kapitalın hərəkəti üzrə əməliyyatlardan fərqli olaraq başa çatmış əməliyyatlar sayılır; ikincisi, yalnız iqtisadi deyil, həmçinin siyasi səbəblərin təsiri ilə qısamüddətli dövrdə dəyişikliyə məruz qala bilən kapital əməliyyatlarından fərqli olaraq cari əməliyyatlar daha sabitdir. Bütün bunların nəticəsi olaraq cari əməliyyatlar hesabına daha əhəmiyyətli iqtisadi tərkibə malik göstərici kimi baxılır.

2. Kapital və maliyyə əməliyyatları hesabı.

Ümumiyyətlə, qeyd edək ki, tədiyə balansının cari əməliyyatlar hesabında əks olunan əmtəə və xidmətlərin beynəlxalq hərəkəti aşağıdakı yollarla maliyyələşdirilə bilər: aktivlərin bir hissəsinin xaricilərə satılması, yəni xarici kapitalın ölkə iqtisadiyyatına birbaşa və portfel investisiyaları formasında cəlb olunması yolu ilə; xarici bank, hökumət və ya beynəlxalq təşkilatlardan alınan borclar vasitəsilə; mərkəzi bankda qorunan rəsmi valyuta ehtiyatlarının sərf olunması hesabına. Ölkənin aktivlərinin alqı-satqısı ilə əlaqədar olan bütün bu əməliyyatlar ödəmə balansının kapitalı və maliyyə əməliyyatları hesabında əks etdirilir.

Əmtəə və xidmətlərin idxal və ixracını maliyyələşdirən kapitalın beynəlxalq hərəkətini əks etdirən kapital və maliyyə əməliyyatları hesabı quruluşuna görə iki başlıca kateqoriyaya ayrılır: kapital transfertləri və qeyri-maliyyə aktivlərinin alqı-satqısını əhatə edən kapital üzrə əməliyyatlar hesabı; xarici maliyyə aktivləri və öhdəlikləri üzərindəki mülkiyyət hüququnun dəyişməsi ilə nəticələnən əməliyyatları əks etdirən maliyyə hesabı.


Kapital transfertləri. Əsas kapitalın istifadə olunması, alışı və ya kreditor tərəfindən borcların ləğv olunmasını nəzərdə tutan transfertlər kapital transfertləri kimi qruplaşdırılır. Kapital transfertləri dövlət və özgə sektor transfertlərindən ibarətdir.

Kreditor tərəfindən borcların ləğv olunması dövlət transfertlərinin ən iri maddəsi kimi çıxış edir. Əgər iki ölkə arasında borcların tam və ya qismən ləğv olunması haqqında razılıq müvafiq müqavilə ilə təsdiqlənibsə, belə halda, ləğv olunmuş borc məbləği dövlət transferti kimi ödəmə balansında qeydə alınır.

Ümumiyyətlə, qeyd edək ki, kapitalın və maliyyənin hərəkəti hesabı ölkəyə daxil olan və ölkədən çıxarılan kapitalın, verilmiş və alınmış beynəlxalq kreditlərin həcmini əks etdirir. Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu xalis kapital ixracı (NKE) adlanır. Əgər NKE >0 olarsa, onda ölkə kapitalı ixrac edir, əksinə, NKE <0 olarsa, onda ölkə kapitalı idxal edir. Ölkənin kapitalı ixrac və ya idxal olunan kapitallar iqtisadi tərkibinə görə iki kateqoriyaya bölünür.

Sahibkar kapitalı - birbaşa investisiya (müəssisənin xaricdə tikilməsi və ya onun pulla alınması) və portfel investisiyalar (xarici kompaniyaların qiymətli kağızlarının alınması) formasında sahibkara mənfəət gətirir. Uzunmüddətli kapital ixracının mühüm forması olan birbaşa investisiyalar tədiyə balansına böyük təsir göstərir. Belə investisiyalar beynəlxalq istehsal əlaqələrini inkişaf etdirir və milli iqtisadiyyatın dünya təsərrüfatı sisteminə daha səmərəli inteqrasiya olunmasına şərait yaradır.

Tədqiqatlar göstərir ki, əgər ölkənin cari əməliyyatlar hesabı dəyərcə nə qədər passiv saldoya malik olursa, kapital və maliyyənin hərəkəti hesabı bir o qədər müsbət saldoya malik olur.



Şəkil 1. Kapitalın ixracı və idxalı

Ssuda kapitalı - əmanətə, borca və kreditə görə sahibinə faiz şəklində gəlir gətirir. Ssuda kapitalı təcillilik əlamətinə görə qısa, orta və uzunmüddətli əməliyyatlara bölünür. Qısamüddətli əməliyyatlara bir ilə qədər olan beynəlxalq kreditlər, milli bankın cari əməliyyatları, xarici banklarda (avuarlar) banklararası pul kapitalının dəyişdirilməsi daxildir. Ortamüddətli əməliyyatlara bir ildən üç ilə qədər olan beynəlxalq kreditlər daxil olur. Üç ildən yuxarı olan beynəlxalq kreditlər daxil olur. Üç ildən yuxarı olan beynəlxalq kreditlər uzunmüddətli əməliyyatlara aid edilir.

Axırıncı iki onillikdə banklararası qısamüddətli əməliyyatlar dünya miqyasında geniş vüsət almışdır. Bir çox mütəxəssislər qeyd edirlər ki, iqtisadi böhran dövründə belə əməliyyatlar çətinliklər törədir. Buna görə də tədiyə balansının strukturunda "Səhv və buraxılış" bölməsi kapital və maliyyənin hərəkəti hesabına daha yaxın olur.

Kapital və maliyyənin hərəkəti hesabına, həmçinin xalis kapital transferləri də daxildir. Belə transferlərə qrantlar formasında verilən (xəstəxanaların tikilməsi, yol çəkilişi, təyyarə meydanlarının salınması və s.) investisiyalar aid edilir.

Cari əməliyyatlar hesabının saldosu ilə kapital və maliyyənin hərəkəti hesabının saldosunun cəmi tədiyə balansının saldosunu verir (ZB). Əgər cari əməliyyatlar hesabının saldosu kapital və maliyyənin hərəkəti hesabının saldosundan böyük olarsa (NE>NKE), onda ölkənin tədiyə balansı müsbət saldoya, əksinə, cari əməliyyatlar hesabının saldosu kapital və maliyyənin hərəkəti hesabının saldosundan kiçik olarsa (NE<NKE), onda ölkənin tədiyə balansı mənfi saldoya malik olur. Ölkənin tədiyə balansının mənfi olması o deməkdir ki, ölkə müəyyən dövr ərzində idxalla əlaqədar olan əməliyyatlara ixracdan əldə etdiyi gəlirdən daha çox vəsait ödəyib. Bu isə ölkənin mərkəzi bankının valyuta ehtiyatlarının azalmasına (AR) səbəb olur. Əksinə, ölkənin tədiyə balansı üzrə müsbət saldosunun olması onu göstərir ki, ölkə baxılan dövr ərzində idxalla əlaqədar olan əməliyyatlara ixracdan əldə etdiyi gəlirdən az vəsait ödəyib. Bu isə ölkənin mərkəzi bankının valyuta ehtiyatlarının (AR) artmasına səbəb olur.

Ölkə tədiyə balansı üzrə kəsirə malikdirsə, deməli onu ödəməlidir. Bunun üçün isə ölkə malik olduğu valyuta vəsaitlərini satmaq, xarici ölkələrdən borc almaq və ölkə aktivlərini satmaq yolu ilə, daha dəqiq desək, iqtisadiyyata xarici kapital qoyuluşlarını birbaşa və portfel formasında cəlb etməklə həyata keçirə bilər. Qeyd edək ki, tədiyə balansının maliyyələşdirilməsinin də müəyyən bir həddi vardır. Belə ki, tədiyə balansının uzunmüddətli dövr üçün kəsirli olması tələb aktivlərinin zəifləməsinə və mərkəzi bankın valyuta ehtiyatlarının tükənməsinə gətirə bilər. Bu zaman isə heç kəs (dövlət və beynəlxalq təşkilat) ölkənin minimum rəsmi qızıl valyuta ehtiyatlarından artıq kredit ver-

mək istəməyəcəkdir. Bu həddölkənin xarici kreditolara olan borclarını ödəmək imkanları və həmçinin valyuta ehtiyatlarının idxalı ödəmək üçün kifayət edib-etməməsini əks etdirən aşağıdakı qaydada hesablanan göstərici vasitəsi ilə müəyyən edilir:

$$\frac{təmiz\ xarici\ valyuta\ ehtiyatları}{idxalın\ ümumi\ həcmi} * 12\ ay$$

Bu göstərici üç aylıq idxalı ödəməkdən aşağı səviyyədə olarsa, onda ölkənin ödəmə qabiliyyəti qeyri-qənaətbəxş qiymətləndirilir və yeni kreditlərin alınması imkanını məhdudlaşdırılır. Ölkə iqtisadiyyatının belə böhranlı vəziyyətdən yeganə çıxış yolu kimi milli valyutanın devalvasiyası yolu ilə tədiyə balansının tənzimlənməsidir. Lakin milli valyuta məzənnəsi ilə tədiyə balansının tənzimlənməsi iqtisadiyyatda ən ağır və ən çətin hal kimi qiymətləndirilir. Çünki belə tənzimlənmə ölkə iqtisadiyyatını xoşagəlməz vəziyyətə bilər .

Məşhur alim M.X.Lindert tədiyə balansını kinokameraya bənzədərək qeyd edir ki, "O nəyin yaxşı, nəyin isə pis getdiyini göstərə bilmir. Ancaq o, hansısa proseslərin getdiyini göstərir və bununla da tədqiqatçıya müstəqil nəticələr çıxarmağa kömək edir. Bu mənada tədiyə balansı nadir sənəddir. O, hər hansı bir ölkənin dünyanın digər ölkələri arasında olan maliyyə axınını real şəkildə əks etdirir və bir çox siyasi məsələlərin həllində belə informasiyalara ehtiyac var" .

Hal-hazırda hər bir ölkənin rəsmi valyuta ehtiyatlarına qızıl, nağd xarici valyuta növlərində depozitlər, xarici dövlətlərin qiymətli kağızları, SDR və BVF-nin ehtiyat vəsaitləri aid edilir. SDR (xüsusi borc öhdəliyi) beynəlxalq ehtiyat vəsaitidir və 1969-cu ildə BVF tərəfindən beynəlxalq müqavilələr əsasında əlavə likvidlik mənbəyi kimi yaradılmışdır. SDR BVF-nin üzvü olan bütün ölkələrə onların kvotalarına mütənasib şəkildə bölünməklə faiz gətirir. SDR-in dövriyyəyə buraxılması dövrünü 1970-1972-ci illəri və 1979-1982-ci illəri əhatə edən ilk dövrə ayırmaqla ümumi məbləği 21,4 milyard SDR dövriyyəyə buraxılımışdır. 2009-cu ildə SDR-in ümumi məbləği 204 milyard təşkil etmişdir. 14 mart 2014-cü isə SDR ümumui məbləği 316 milyard dollara catmışdır. SDR-in dəyəri dörd valyuta səbəti ilə müəyyən olunur. Həmin ölkələrə ABŞ-ın dolları (41,9%), AVRO (37,4%), Yaponiyanın yeni (9,4%) və İngiltərənin funt-sterlinqi (11,3%) daxildir .

BVF-in üzvü olan dövlətlərin kvotalarının (üzvlük haqqı) bir hissəsi ölkənin ehtiyat valyuta mövqeyi hesab olunur. Bu ölkəyə SDR və ya sənayecə inkişaf etmiş ölkələrin valyutaları formasında verilir.

Qeyd edək ki, müasir dövrdə tədiyə balansını tənzimləmək üçün praktik olaraq qızıldan istifadə edilmir. Ölkələrin rəsmi qızıl-valyuta ehtiyatlarının əsas hissəsini (qızıl nəzərə alınmadan) inkişaf etmiş ölkələrin valyutaları təşkil edir.

Cədvəl 2

Xarici ehtiyat valyutalarında beynəlxalq yığımın strukturu

Valyutalar	2010	2011	2012	2013
ABŞ dolları	61,8 %	62,3 %	61,1 %	61,2 %
Avro	26,0 %	24,7 %	24,3 %	24,4 %
Funt sterlinq	3,9 %	3,8 %	4,0 %	4,0 %
Yaponiya yeni	3,7 %	3,6 %	4,1 %	3,9 %
İsveçrə frankı	0,1 %	0,1 %	0,3 %	0,2 %
Digər valyutalar	4,4 %	5,1 %	6,3 %	6,2 %

Mənbə: Beynəlxalq Valyuta Fondu

Ehtiyat aktivləri. İkili hesab prinsipi əsasında qurulan ödəmə balansı sonda sıfra çevrilir. Bu o deməkdir ki, ölkənin bütün borcları ödənilməlidir. Buna görə də cari əməliyyatlar hesabı üzrə yaranan kəsir eynilə kapital və maliyyə əməliyyatları hesabının müsbət saldosuna bərabər olmalıdır. Əgər ümumilikdə ölkə rezidentləri öz əmtəə, xidmət və aktivlərinin xaricilərlə satışından əldə etdiklərindən çox xaricdən əmtəə, xidmət və aktivlər alışına xərcləyirlərsə, nəticədə, yaranan borcların ödənilməsi dövlət və mərkəzi bank tərəfindən rəsmi ehtiyat aktivlərinin sərf olunması hesabına həyata keçirilir.

Maliyyə hesabının digər maddələrindən fərqli olaraq ehtiyat aktivləri dövlətin birbaşa nəzarətindədir və onlardan iqtisadi məqsədlər üçün istifadə etmək hüquqi dövlətə məxsusdur. Qeyd etmək lazımdır ki, ödəmə balansının tənzimlənməsi zamanı ehtiyat aktivləri ikinci yerdə durur. Cari əmə-

liyyatlar hesabında tarazlıq pozulduqda, yəni əmtəə və xidmətlərin idxalının ödənilməsi üçün kifayət qədər vəsait axını olmadıqda, dövlət ilk növbədə ixracın stimullaşdırılması üçün valyutanın devalvasiyası və ya əlavə xarici kreditlərin cəlb olunması kimi tədbirlərə əl atır. Yalnız bu tədbirlər səmərəsiz olduqda (kursun aşağı düşməsi hiperinfilyasiyaya səbəb olur və yeni xarici kreditlərin əldə olunması mümkün olmur), dövlət xarici hesabların ödənilməsi üçün ehtiyat aktivlərdən istifadə edir.

Ödəmə balansı çərçivəsində nəzərdən keçirilən ehtiyat aktivlərinə yalnız real mövcud olan aktivlər aid edilir. Hətta banklararası svop əməliyyatları zamanı sazişə görə ehtiyat aktivlərinin əldə olunması imkanının potensial mövcudluğu belə bu aktivlərin real mövcud ehtiyat aktivləri sırasına aid edilməsinə əsas vermir. Lakin qeyri-rezidentlərə girov kimi verilən yerli aktivlər ehtiyat aktivləri kimi çıxış edir. Beləliklə, bu və ya digər aktivin sırasına aid edilib-edilməməsi üçün əsas meyarın müəyyən olunması bu aktivlər üzərində dövlətin və ya mərkəzi bankın real və birbaşa nəzarətinin mövcudluğundan asılıdır. Dövlət ölkənin bütün ərazisinə nəzarət etdiyi üçün praktik olaraq ölkə rezidentinə məxsus istənilən aktivlər onun nəzarəti altına keçir. Lakin ödəmə balansı nöqteyi-nəzərindən yalnız maliyyə orqanlarına məxsus ehtiyatlar üzərindəki nəzarət real və birbaşa hesab edilir. Əgər kommersiya bankları qanuni əsaslarla malik olduqları xarici aktivlərlə maliyyə orqanlarının müəyyən etdiyi şərtlər əsasında əməliyyatlar aparırsa, onda bu aktivlər maliyyə orqanlarının real və birbaşa nəzarətinə keçmiş olur. Ehtiyat aktivlərinə həmçinin, dövlət akitivləri də aid editlir. Məsələn, xarici valyuta ilə dövlət hesabları ehtiyat aktivləridir. Lakin xaricdə dövlətə məxsus torpaq və obyektlər xarici aktivlər kimi çıxış etsə də, ehtiyat aktivləri hesab edilmir. Belə ki, bu aktivlər tez bir zamanda nağd pula çevrilmək qabiliyyətinə malik deyillər. Həmçinin dövlətin valyuta hesabındakı qalıqlar beynəlxalq təşkilatlar tərəfindən təqdim olunan kreditlər mərkəzi bankla kommersiya bankları arasındakı valyuta svopları ehtiyat aktivlər sırasına daxildir.

Ümumiyyətlə, tədiyə balansının ehtiyat aktivlər maddəsinə aşağıdakılar daxildir:

1. Monetar qızıl və ya mərkəzi banklarda saxlanan və istənilən anda Beynəlxalq Təşkilatlara və ya dünya bazarında xarici valyutaya satıla bilən 995-1000 əyarlı qızıllar;
2. SDR-BVF tərəfindən buraxılan və üzv ölkələr arasında onların kvotalarına uyğun olaraq bölüşdürülən ehtiyat aktivlər. SDR – xarici valyuta alışı, borcların verilməsi və ödənişlərin həyata keçirilməsi üçün istifadə edilə bilər;
3. BVF-dəki ehtiyat mövqe - ölkənin BVF-dəki ehtiyat payları və bu fond tərəfindən ölkəyə verilən borcların cəmindən ibarətdir. Ehtiya payları kvotanın 25%-ni təşkil edir və ölkə tərəfindən istənilən vaxt qeyri-şərtsiz geri alına bilər;
4. Valyuta aktivləri – beynəlxalq aktivlərin əsas hissəsini təşkil edən bu aktivlərə xarici valyuta ilə qeyri-rezidentlərə qarşı olan tələblər, bank depozitləri, dövlət qiymətli kağızları, digər qiymətli kağızlar, törəmə maliyyə vəsaitləri, həmçinin dövlət orqanlarının sazişləri nəticəsində yaranan tələblər aid edilir.

Cədvəl 3

Ölkələr üzrə qızıl-valyuta ehtiyatları

Ölkə	milyard dollarla
Çin Xalq Respublikası	3950 (01 mart 2014)
Yaponiya	1288 (01 fevral 2014)
AVRO zona	771,8 (01 yanvar 2014)
İsveçrə	532,4 (01 yanvar 2014)
Rusiya Federasiyası	454,24 (01 oktyabr 2014)
ABŞ	448,9 (01 yanvar 2014)
Tayvan	422 (01 yanvar 2014)
Braziliya	376,2 (01 sentyabr 2014)
Cənubi Koreya	346,4 (01 yanvar 2014)

Rəsmi valyuta ehtiyatlarının dəyişməsi maddəsi tədiyə balansının tənzimlənmə metodlarını və mənbələrini göstərir.

Ümumiyyətlə, tədiyə balansı ölkə iqtisadiyyatının maliyyə vəziyyətinin, xüsusilə isə xarici iqtisadi əlaqələr sahəsində vəziyyətin ən aydın güzgüsüdür. Ölkənin beynəlxalq iqtisadi inteqrasiyda və dünya valyuta sistemində mövqeyi bu balansda aydın əks olunur. Ona görə də tədiyə balansının aktiv saldoya malik olması istənilən ölkə iqtisadiyyatı üçün olduqca əhəmiyyətli və sevindirici hal

kimi qiymətləndirilir. Tədiyə balansının müsbət və ya mənfi saldoya malik olması milli iqtisadiyyatın inkişafına güclü təsir göstərir. Başqa sözlə, ölkənin tədiyə balansının vəziyyəti bir sıra makroiqtisadi göstəricilərlə (milli gəlir, məşğulluğun səviyyəsi, iqtisadi inkişafın sürəti, inflyasiyanın səviyyəsi, valyuta məzənnəsi, əmək haqqı, gəlirlərin bölünməsi, xarici borclar və s.) sıx bağlıdır. Odur ki, hər hansı bir ölkə özünün ümumi iqtisadi siyasətinin konseptual əsaslarını hazırlayarkən, mütləq qarşılıqlı iqtisadi əlaqələrdə olduğu ölkələrin və beynəlxalq səviyyədə makroiqtisadi göstəricilərin fəaliyyət mexanizmini izləməli və araşdırmalıdır. Bu, onunla şərtlənir ki, bu halda beynəlxalq səviyyədə baş verə biləcək mənfi nəticələri vaxtında müəyyən etmək və aradan qaldırmaq imkanı yaranır.

Acar sözlər: tədiyə balansı, cari əməliyyatlar hesabı, kapital və maliyyə əməliyyatları hesabı, idxal, ixrac, qızıl-valyuta ehtiyatı

İstifadə edilmiş ədəbiyyat

1. Буглай В., Ливенцев Н. Международные экономические отношения. М.: Финансы и статистика, 2006, 158 с.
2. Бурда М., Виплош Ч. Макроэкономика. М.: 2009, 544 с.
3. Экономическая теория / Под. ред. Проф. И.П.Николаевой. М.: 2010, 510 с.
4. Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика. М.: 2009, 829 с.
5. Фомичев В. Международная торговля. М.: Инфра-М, 2009, 496 с.
6. Кэмпбелл Р., Макконнелл, Стэнли Л.БРЮ. Экономикс (пер.с. анг.) 13-е издание, М.: Инфра, 1999, 905 с.
7. Кругман П. Р., Обстфельд. М. Международная экономика. М.: ПИТЕР, 2011, 832с.
8. www.imf.org

Шовги Кулиев
Азер Ибрагимов

МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ РЕГУЛИРОВАНИЯ ПЛАТЕЖНОГО БАЛАНСА

Резюме

В данной статье рассматривается понятие и современная методология составления платежного баланса. Анализируются основные факторы, влияющие на платежный баланс и методы его регулирования. Также показан взаимосвязь платежного баланса с основными макроэкономическими показателями.

Ключевые слова: платежный баланс, текущие операции, счет финансовыми операциями и капиталом, импорт, экспорт, золотовалютный резерв

Shovqi Quliyev
Azer Ibarahimov

THE METHODOLOGICAL ISSUES OF REGULATING OF THE BALANCE OF PAYMENT

Summary

This article considers the concept and contemporary compilation methodology of the balance of payments. Discusses the main factors affecting the balance of payments and the methods of its regulation. Also shows the relationship of balance of payments with the basic macroeconomic indicators.

Key words: balance of payments, current operations, capital and financial account operations, import, export, gold and foreign exchange reserve

UOT - 330

Nürəngiz Mikayılova
AƏSMA

"ƏSRİN MÜQAVİLƏSİ" VƏ ONUN AZƏRBAYCAN İQTİSADİYYATINA SƏMƏRƏSİ

Azərbaycanın neft sərvətləri qədim zamanlardan dünyaya məlum idi. Neftin quyulardan çıxarılması təcrübəsi də uzun əsrlərlə hesablanır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurmuş və bu hadisə "qara qızıl"ın sənaye üsulu ilə çıxarılmasının başlanğıcı kimi tarixə yazılmışdır.

Azərbaycan 1899-cu ildə neftin çıxarılması və emalı üzrə dünyada birinci yerə çıxmış və o, dünya neft hasilatının yarısını vermişdi. XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesinə xarici kapital axını gücləndi. Burada əsas mövqeləri ingilis, fransız, amerikan, isveç və alman kapitalı tuturdu. Xarici investorlarla yanaşı milli burjuaziya da formalaşmağa başladı. Azərbaycan 70 ildən artıq SSRİ-nin tərkibində olmuş və həmin dövrdə İttifaqın neft sənayesində mühüm rol oynamışdır.

Azərbaycan iqtisadiyyatı müstəqillik dövrünün ilk illərində sürətlə geriləməkdə davam edərək dərin böhran keçirmiş, 1991-93-cü illərdə ölkədə ÜDM-in və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 40%, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdı.

1991-93-cü illərdə iqtisadi islahatların aparılması sahəsində müəyyən işlər görüldü, ölkədə iqtisadi transformasiyanın başlanmasına imkan verən "İqtisadi müstəqillik haqqında" Konstitusiya Qanunu qəbul edildi, milli valyuta - manat dövriyyəyə buraxıldı, iqtisadi sərbəstlik və müəssisələrin müstəqilliyi artırıldı. Lakin ölkədə mal qıtlığı yarandığı üçün müəssisələrin əksəriyyəti inhisarçılığa meyilləndi, milli valyutanın zəruri təminat bazası olmadığına görə onun alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşdü. Bütün bunlar işsizliyin artması, əhalinin rifahının kəskin sürətdə pisləşməsi ilə nəticələndi [1, s.389].

Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltmək, müstəqilliyin bütün sahələrdə qorunmasını təmin etmək üçün düşünülmüş strategiya hazırlandı və bu strategiyada neft faktoruna üstünlük verildi. 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, ölkəni ağır vəziyyətdən çıxarmağın yeganə çıxış yolu idi. Müstəqil Azərbaycan başqa neft hasil edən ölkələrin keçdiyi yolla getmədi, özünün milli inkişaf modelini seçdi.

"Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkədə makrosabitliyin təmin olunması, neft strategiyasının reallaşması, respublika iqtisadiyyatının sağlamlaşdırılması, ölkəyə xarici investisiyalar cəlb edilməsi, kiçik və orta biznesin, xidmətlər sahəsinin inkişaf etdirilməsi ilə bağlı görülən tədbirlər nəticəsində mövcud gərginlik nisbətən yumşaldı.

Azərbaycan dünyanın ən nüfuzlu maliyyə təşkilatları: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniyanın KfW İnkişaf Bankı, Ərəb Fondları (Küveyt Fondu, Abu-Dabi Fondu, Səudiyyə Fondu, OPEK Fondu), Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və digər beynəlxalq iqtisadiyyat institutları ilə faydalı əməkdaşlıq etməyə başladı.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş ("Əsrin müqaviləsi") 1994-cü ilin həmin ilin 12 dekabr 1994-cü il tarixində qüvvəyə minmişdir. İmzalanma tarixinə Sazişdə dünyanın 6 ölkəsini təmsil edən 11 neft şirkəti iştirak edirdi. Sazişin bağlandığı tarix üçün iştirak paylarının aşağıda göstərilmiş müvafiq faizlərində ("İştirak payları") təsbit edilir:

1) BP - 50%;

2) Digərləri - 50% [5].

Sazişin işləmə müddəti 30 ildir. Saziş üzrə işləri yerinə yetirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmış, 1995-ci ilin oktyabrında ilkin neft layihəsinə sanksiya

verilmişdir. Bu sazişin imzalanması Azərbaycan neft sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur.

Müqaviləyə görə zaman-zaman layihə üzrə iştirakçıların payı dəyişilmiş və hazırda layihə üzrə iştirakçıların payı aşağıdakı kimidir:

- Azərbaycan (Ey Si Ci) Limited - 11,6461%;
- BP Eksploreyşn (Caspian Si) Limited - 35,7828;
- Statoyl Abşeron a.s. - 8,5633%;
- İNPEKS Sausvest Kaspian Si Ltd - 10,9644%;
- Türkiyə Petrolleri A.O. - 6,75%;
- Ekson Azərbaycan Limited - Ekson Mobil - 8,0006%;
- İTOÇU Oyl Eksploreyşn (Azərbaycan) Limited - 4,2986%;
- Chevron TEksa co - 11,2729%;
- Amerada Hess - 2,7213% [6].

1997-2013-cü illər ərzində cəmi 2,3 milyard bareldən çox, o cümlədən 2013-cü ildə 655,4 milyon bareldən çox neft və təqribən 99,5 milyon barel və 2013-cü ildə 19,6 milyon bareldən çox kondensat hasil edilmişdir.

Cədvəl 1

Azərbaycan Respublikasında neft hasilatının dinamikası (mln.ton)

İllər	1997	1998	2006	2007	2008	2009	2010	2011	2012
AR üzrə	9,38	11,89	33,27	43,82	44,77	52,31	50,80	45,63	43,39
Birgə	0,38	2,84	24,23	35,01	37,11	44,76	42,34	37,23	35,10
ARDNŞ	9,00	9,05	9,04	8,81	8,66	8,55	8,46	8,40	8,29

"Azərbaycanın statistik göstəriciləri 2013" əsasında müəllif tərəfindən tərtib edilmişdir [2].

1997-ci ildən hasilata başlandığı vaxtdan 2013-cü ilə qədər müqavilə sahəsindən 292 mln. ton neft çıxarılıb ki, bundan Azərbaycan ümumi həcmin 63%-i qədər mənfəət əldə edib. Bununla yanaşı, 2011-ci ildən etibarən neft hasilatında başlayan azalma iki ildən sonra stabilləşmiş və neft sektorunda yaradılan əlavə dəyər 1% təşkil etmişdir. Bundan əlavə, 2012-ci ildən etibarən neft hasilatında baş verən azalma fonunda sənaye istehsalında müşahidə olunan 3,9% azalma, 2013-cü ildə 1,2% artımla əvəz olunmuşdur.

Cədvəl 2

Azərbaycan Respublikasında qaz hasilatının dinamikası (mlrd.m^3)

İllər	1997	1998	2006	2007	2008	2009	2010	2011	2012
AR üzrə	5,97	5,72	9,08	16,97	23,51	23,96	26,35	25,75	26,91
Birgə	0,05	0,51	4,7	10,05	15,76	16,9	19,17	18,67	19,98
ARDNŞ	5,92	5,20	4,38	6,92	7,75	7,06	7,18	7,08	6,93

"Azərbaycanın statistik göstəriciləri 2013" əsasında müəllif tərəfindən tərtib edilmişdir [2].

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti BTC layihəsində iştirak etmək məqsədi ilə AzBTC Co. törəmə şirkətini yaratmış və bu şirkət layihənin iştirakçıları olan neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış BTC Company şirkətində 25%-lik paya malikdir. AzBTC Co. şirkəti daxil olmaqla, layihənin bütün iştirakçıları layihənin dəyərinin 30%-lik hissəsini öz vəsaitləri hesabına, qalan 70%-lik hissəsini isə beynəlxalq maliyyə institutlarından, ixrac kredit agentliklərindən və kommersiya banklarından cəlb edilmiş kredit vəsaitləri hesabına maliyyələşdirirlər. Azərbaycan dövləti adından Azərbaycan BTC Co. şirkətindəki 80%-lik payın təmsilçisi kimi Azərbaycan Respublikasının Sənaye və İqtisadi İnkişaf Nazirliyi çıxış edir, bu payın maliyyələşdirilməsi isə Dövlət Neft Fondu tərəfindən həyata keçirilmişdir. BTC layihəsində Azərbaycan Respublikasının iştirakı-

nın təmin edilməsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi, o cümlədən ölkənin iştirak payının maliyyələşdirilməsi ilə bağlı məsələlər "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli Fərmanı ilə təsdiqlənir [3].

Diaqram 1

BTC Layihəsinin iştirakşılarının pay bölgüsü



Xatırladaq ki, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan çıxarılan neft və səmt qazı sualtı boru kəmərləri vasitəsilə Səngəçal sahil terminalına nəql olunur. Terminalın texniki emal sistemlərinin gücü isə gün ərzində 1,2 milyon barrel nefti qəbul edib ixraca yönəltməyə imkan verir. 2013-cü ilin altı ayında Səngəçal terminalından 144 milyon barrel neft ixrac olunmuşdur. Xam neftin 126 milyon barreli Bakı-Tbilisi-Ceyhan, 14 milyon barreli Bakı-Supsa kəmərləri, təqribən 3 milyon barreli isə dəmir yolu vasitəsilə daşınmışdır. Bundan əlavə, yarım il ərzində Azərbaycandan xaricə 1 milyon barrelə yaxın kondensat ixrac edilmişdir. Yeri gəlmişkən, Azərbaycan neftini dünya bazarına daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin fəaliyyəti də getdikcə genişlənir. 2013-cü ilin altı ayında Bakı-Tbilisi-Ceyhan kəməri üzrə əsaslı xərclərə 26 milyon dollar sərf olunmuşdur. Hazırda adıçəkilən kəmərin gündəlik ötürmə gücü 1,2 milyon barrel təşkil edir. Bu ilin birinci yarısında kəmər vasitəsilə 17 milyon ton xam neft ixrac olunmuşdur. Bütövlükdə isə 2006-cı il iyun ayının 4-də ilk tankerin Türkiyənin Ceyhan limanından yola salınmasından indiyədək Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilmiş 229 milyon ton xam neft 2227 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir. Ötən dövrdə Bakı-Tbilisi-Ceyhan kəmərinin bir gün üçün ən yüksək ötürmə gücü isə 1 milyon 44 min barrel təşkil etmişdir.

Hazırda "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə xam neftin və "Şahdəniz" yatağından hasil edilən kondensatın nəqlini həyata keçirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə 2010-cu ilin iyul ayında imzalanmış yeni sazişə əsasən Türkmənistan nefti də daşınır. Bütün bunlar isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin rentabelli, həm də uzunmüddətli fəaliyyəti üçün geniş imkan yaradır. Göründüyü kimi, "Əsrin müqaviləsi" çərçivəsində hasil olunan neftin dünya bazarına çıxarılması üçün ölkəmizdə son dərəcə etibarlı və geniş imkanlara malik ixrac sistemi mövcuddur. Bu da Azərbaycanın dünya arenasında etibarlı tərəfdaş kimi mövqeyinin ilbəil möhkəmlənməsinə imkan yaratmaqla yanaşı, ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirir.

Azərbaycanın neft strategiyası çərçivəsində həyata keçirilən tədbirlər, mühüm infrastruktur layihələrinin reallaşdırılması ölkəmizin dinamik sosial-iqtisadi inkişafı üçün möhkəm zəmin yaratmışdır. Belə ki, özünün zəngin karbohidrogen ehtiyatlarından düzgün, səmərəli şəkildə istifadə edən Azərbaycan Respublikası həm də regionun ən sabit və dinamik inkişaf edən ölkəsinə çevrilmişdir. Bununla yanaşı, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminatında da getdikcə yaxından iştirak edir.

Ötən illər ərzində neft və qaz ixracından əldə edilən gəlirlər hesabına Azərbaycanın iqtisadi imkanları xeyli artmış, ölkəmiz bir sıra regional layihələrin təşəbbüskarı və əsas iştirakçısına çevrilmişdir. "Əsrin müqaviləsi"nin uğurla reallaşdırılması ilə əsası qoyulmuş Azərbaycanın yeni neft strategiyası iqtisadiyyatın şaxələndirilməsi, xüsusən də qeyri-neft sektorunun inkişafı üçün əlverişli imkan yaratmışdır. Bu da öz növbəsində ölkənin neftdən asılılığının azalmasına və yeni iş yerlərinin yaradılmasına səbəb olur.

Bununla belə, Azərbaycanda neft-qaz sektoru hələ uzun illər iqtisadiyyatın aparıcı sahəsi olaraq qalacaqdır. Bu baxımdan ölkəmizin karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsini nəzərdə tutan hasilatın pay bölgüsü tipli sazişlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın yeni neft strategiyasının əsasını qoymuş "Əsrin müqaviləsi" çərçivəsində əldə olunmuş nailiyyətlərin sırası ilbəil genişlənir. 2013-cü ilin birinci yarısında konsorsium iştirakçıları tərəfindən "Azəri-Çıraq-Günəşli" layihəsinin əməliyyat tədbirlərinə 374 milyon dollar, əsaslı məsrəflərinə isə 2 milyard 514 milyon dollar xərclənmişdir. Hesabat dövründə müqavilə sahəsindəki beş hasilat platformasından ümumilikdə 16,4 milyon ton neft hasil olunmuşdur. Həmin platformalar üzrə ümumi orta gündəlik neft hasilatı isə 672 barrel təşkil etmişdir. Bunun da 73 min barreli "Çıraq", 152 min barreli "Mərkəzi Azəri", 194 min barreli "Qərbi Azəri", 118 min barreli "Şərqi Azəri" və 135 min barreli "Dərinsulu Günəşli" platformalarının payına düşür. Bütövlükdə isə 1997-ci ilin noyabr ayında "Əsrin müqaviləsi" çərçivəsində ilkin neftin hasilatına başlanıldığı andan 2013-cü ilin ortalarınadək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan 308 milyon tondan artıq neft çıxarılmışdır.

Neft strategiyasının reallaşması sayəsində Azərbaycanın enerji təhlükəsizliyi, dünya birliyində etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim olunması təmin olundu. Ümummilli liderimiz Heydər Əliyev artan neft gəlirlərini ölkə iqtisadiyyatına düzgün istiqamətləndirmək məqsədilə uzunmüddətli neft strategiyası proqramını hazırlamışdır. Uzunmüddətli inkişaf proqramı olaraq həyata keçirilən neft strategiyasının əsas məqsədini ölkənin daxili imkanlarının səfərbər olunması və zəngin neft ehtiyatlarından Azərbaycan xalqının rifahı naminə səmərəli istifadə edilməsi təşkil edir. Milli Neft Strategiyasının əsasını xarici sərmayənin və təcrübənin cəlb olunması, çoxvariantlı ixrac sisteminin yaradılması və əldə olunmuş gəlirlərin səmərəli, şəffaf idarə edilməsi və istifadə olunması təşkil edir [4, 139]. Neft strategiyasının növbəti mərhələsində ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən neft gəlirlərinin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi təşkil edirdi. Bu məqsədlə Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmişdir. Neft Fondunun Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Neft ilə zəngin olan ölkələrdə neft fondlarının, suveren sərvət fondlarının və yaxud digər bu kimi qurumların təsis edilməsi bu dövlətlərdə neft sərvətlərinin nəsillər arasında bərabər bölgüsünə, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsinə şərait yaradır. Hazırda Neft Fondu institusional cəhətdən çox yüksək formalaşmaqla bərabər, ölkə daxilində və eləcə də beynəlxalq səviyyədə tanınmış və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşdürməyə qadir olan bir quruma çevrilmişdir. Bir sıra dünya dövlətlərində Neft Fondu ilə oxşar cəhətləri olan analoji fondlar fəaliyyət göstərməkdədir. Neft Fondu yaradılarkən bu fondların təcrübəsinə istinad etməklə yanaşı, yerli xüsusiyyətlər və mövcud ehtiyaclar nəzərə alınmış və neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə bərabər, bugünkü nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan bir model seçilmişdir. Yaradıldığı gündən şəffaflıq Neft Fondunun fəaliyyətinin əsas prinsiplərindən biridir. Neft Fondu institusional cəhətdən və şəffaflığın təmin edilməsi baxımından çox yüksək səviyyədə

inkişaf edib, müasir standartlara cavab verən, beynəlxalq səviyyəli maliyyə təşkilatına çevrilib, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına xidmət edən bir çox nailiyyətlər əldə edib.

Neft Fondunun fəaliyyəti dövründə ayrılmış əsas vəsaitlər aşağıdakılardan ibarət olmuşdur:

1. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi (2006-cı ildə başa çatıb) - 297,9 mln. manta;
2. Qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli - 1 527,9 mln. manat;
3. Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi - 779,6 mln. manat;
4. Samur-Abşeron kanalının rekonstruksiya edilməsi – 1 075,1 mln. manat;
5. Dövlət büdcəsinə transfertlər - 48 777,6 mln. manat;
6. Dövlət İnvestisiya Şirkətinin Nizamnamə kapitalının maliyyələşdirilməsi (2006-cı ildə başa çatıb) - 90,0 mln. manat;
7. Bakı - Tbilisi - Qars yeni dəmir yolu layihəsi - 372,2 mln. manat;
8. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsinə - 90,8 mln. manat;
9. AÇG üzrə layihədə ARDNŞ-in iştirak payının tənzimlənməsi - 87,6 mln. manat;
10. Star neft emalı kompleksinin tikintisi - 372,6 mln manat.

2014-cü il 1 aprel tarixinə olan məlumata görə fondun aktivləri 36 618,4 milyon ABŞ dolları civarındadır.

2013-cü ildə iqtisadi artım 3,0% təşkil etməklə, ötən ildəki səviyyəyə yaxın olmuşdur. Dünyada baş verən iqtisadi proseslər fonunda 2013-cü ildə Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlamış və 2011-ci ildən sonra Ümumi Daxili Məhsulun (ÜDM) artımı real ifadədə ən yüksək həddinə, 5,8%-ə çatmışdır. 2012-ci il illə müqayisədə adambaşına düşən ÜDM-in həcmi 4,4% artaraq 7912,5 ABŞ dolları həcmində olmuş, əhalinin nominal pul gəlirləri 37 555,5 milyon manat, inflyasiya göstəricisi 2,4% təşkil etmişdir. Yoxsulluq səviyyəsi son illər ərzində 2004-cü ildəki 49% səviyyəsindən 5,3%-ə qədər aşağı düşmüş, işsizlik səviyyəsi 5% təşkil etmişdir.

2013-cü ilin sonuna ölkənin strateji valyuta ehtiyatlarının həcmi 50,2 milyard ABŞ dollarına çatmış və valyuta ehtiyatının 71,5%-i Dövlət Neft Fondunun vəsaiı hesabına formalaşmışdır.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi Fond vasitəsilə həyata keçirilməkdədir.

Ölkəyə daxil olan neft gəlirləri strateji əhəmiyyəti olan və sosial-infrastruktur layihələrinin maliyyələşdirilməsi ilə yanaşı insan kapitalının inkişaf etdirilməsi istiqamətində də istifadə edilir. Yüksək ixtisaslı kadrlara olan tələbat xarici ölkə universitetlərində təhsil alan gənclər hesabına təmin edilir. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünya reytinqlərində aparıcı yerləri tutan universitetlərdə təhsili maliyyələşdirilir. "Qara qızılın insan kapitalı"na çevrilməsini hədəf alan bu proqram çəçivəsində xaricdə təhsil alan gənclərin təhsil haqqı, yaşayış, qida, yol, sığorta və digər xərcləri maliyyələşdirilir. 2008-2013-cü illər ərzində Neft Fondunun vəsaiti hesabına 2321 tələbə xarici ölkə universitetlərində təhsil almaq məqsədi ilə göndərilmişdir. 2013-cü il də daxil olmaqla proqramla göndərilən 561 tələbə məzun olmuşdur. Dövlət Proqramının həyata keçirilməsi məqsədi ilə 2013-cü ilin sonuna kimi ümumilikdə 87,8 milyon manat vəsait ayrılmışdır ki, bunun da 33 milyon manatı 2013-cü ilin payına düşmüşdür.

1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı və bu müqavilədə əsas diqqət çəkən məqamlardan biri də "Milliləşmə" proqramı olub, əsas mahiyyəti dünya səviyyəsində rəqabətə girə bilən yüksək istisaslı kadrların hazırlanması və onların sayının tədricən artırılması idi. Belə ki, Sazişə görə Əməliyyat şirkəti Neft-qaz əməliyyatlarının aparılması üçün Azərbaycan Respublikası vətəndaşlarının işə götürülməsinə üstünlük versin, bu şərtlə ki, həmin vətəndaşlar Əməliyyat şirkətinin tələblərinə cavab verən lazımi biliyə, ixtisaslara və təcrübəyə malik olsunlar. Bu vətəndaşların peşə təlimi keçmək hüququ vardır.

Neft-qaz əməliyyatlarının aparılması ilə əlaqədar iş yerlərinin Azərbaycan Respublikası vətəndaşları ilə komplektləşdirilməsinə dair ümumi hədəf rəqəmləri aşağıda göstərilir:

- Sənaye hasilatının başlanma tarixinədək mühəndis-texniki işçilər 50%-70%; fəhlə heyəti 80%;
- Sənaye hasilatının başlanma tarixində mühəndis-texniki işçilər 80%; fəhlə heyəti 90%;
- Sənaye hasilatının başlanma tarixindən beş (5) il sonar mühəndis-texniki işçilər 90%; fəhlə heyəti 95% kimi müəyyən edilmişdir [7].

Podratçı Azərbaycan Respublikasının vətəndaşları olan kadrlara Neft-qaz əməliyyatları ilə bağlı peşə təlimini (o cümlədən təkrar peşə təlimini) təmin edir. Nəzərdə tutulan xərcləri müvafiq İllik iş proqramı və Büdcəyə və Neft-qaz əməliyyatları məsrəflərinə daxil edilir.

2013-cü ilin sonunda Azərbaycanda BP tərəfindən daimi işə götürülmüş şəxslərin sayı 3254 olmuşdur ki, bunların 2760-ı Azərbaycan vətəndaşlarıdır. Bundan əlavə, Sazişə görə Azərbaycan vətəndaşları digər vətəndaşlar kimi tibbi sığortaya və digər sosial imtiyazlar paketlərindən istifadə hüquqlarına malikdirlər. Məsələn, Azərbaycanda sosial imtiyazlar paketinin bir hissəsi kimi, "Kreditə Dəstək Proqramı" işçinin bank qarşısında borc öhdəliklərinə yardım etmək məqsədi daşıyır.

Kreditə Dəstək proqramının əsas məqsədi aşağıdakılardan ibarətdir:

- BP Azərbaycan şirkəti yerli işçilərinin imtiyazlar paketini genişləndirmək və rəqabətə davamlılıq səviyyəsini təmin etmək;
- Kredit almaq imkanı yaratmaqla işçiləri motivə etmək və onların şirkətdə qalmasına töhfə vermək;
- Təşkilata istedadlı işçilər cəlb etmək.

Bu dəstək aşağıdakı səbəblərə görə götürülən kreditlərə şamil edilir:

- Mənzil /Evlərin alınması (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- Evlərin tikilməsi (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- Mənzil /Evlərin təmiri (yalnız Azərbaycan Respublikasının ərazisi hüdudlarında);
- İşçinin 18 yaşdan kiçik uşaqlarının təhsili üçün.

Banklara aylıq ödənişin məbləği BP tərəfindən ödənilən maksimum məbləğdən az olduqda, daha aşağı məbləğ tətbiq olunur.

1997-ci ildən hasilata başlandığı vaxtdan 2013-cü ilə qədər müqavilə sahəsindən 292 mln. ton neft çıxarılıb ki, bundan Azərbaycan ümumi həcmin 63%-i qədər mənfəət əldə edib. 2014-cü il 1 aprel tarixinə olan məlumata görə fondun aktivləri 36 618,4 milyon ABŞ dollar civarındadır. İnflyasiya göstəricisi 2,4% təşkil etmiş, yoxsulluq səviyyəsi son illər ərzində 2004-cü ildəki 49% səviyyəsindən 5,3%-ə qədər aşağı düşmüş, işsizlik səviyyəsi 5% təşkil etmişdir. "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkədə makrosabitliyin təmin olunmuş, neft strategiyasının reallaşmış, respublika iqtisadiyyatının sağlamlaşmış, ölkəyə xarici investisiyalar cəlb edilmiş, kiçik və orta biznesin, xidmətlər sahələri inkişaf etdirilmişdir. Regionların sosial-iqtisadi inkişafına sərmayələr qoyulmuşdur.

2013-cü ilin sonuna ölkənin strateji valyuta ehtiyatlarının həcmi 50,2 milyard ABŞ dollarına çatmış, 2008-2013-cü illər ərzində Neft Fondunun vəsaiti hesabına 2321 tələbə xarici ölkə universitetlərində təhsil almaq məqsədi ilə göndərilmiş və 2013-cü ilin sonuna kimi ümumilikdə 87,8 milyon manat vəsait ayrılmışdır.

2013-cü ilin sonunda Azərbaycanda BP tərəfindən daimi işə götürülmüş şəxslərin sayı 3254 olmuşdur ki, bunların 2760-ı Azərbaycan vətəndaşlarıdır. Vətəndaşlar tibbi sığortaya və digər sosial imtiyazlar paketlərindən istifadə hüquqlarına malikdirlər.

Netfdən gələn gəlirlərdən aqrar sahənin inkişafına, xüsusilə də regionlarda istehsal kooperativlərinin yaradılmasına, bələdiyyə müəssisələrinin formalaşmasına, regionlarda turizmin dünya standartlarına uyğunlaşdırılmasına, kəndlərdə səhiyyə və təhsilin inkişafına, umumiyyətlə, "Kənd inkişafı Proqramı"nın işlənməsinə və reallaşdırılmasına yönəltmək məqsədəuyğun olar.

Acar sözlər: "Əsrin müqaviləsi", neft, qaz, Neft fondu, saziş, xarici investisiya

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. "Azərbaycan" cildi. Bakı, 2007, "İqtisadiyyatın ümumi xarakteristikası" məqaləsi, səh.387-395.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı: ARDSK, 9 №-li kiçik müəssisə, 2013, 804 s.
3. "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli Fərmanı, http://e-qanun.az
4. Nadirov A., Muradov Ş., Ələsgərov A., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı. Bakı: Elm, 2003.
5. http://www.prezlib.az Əsrin müqaviləsi
6. http://new.socar.az/socar/az/home/
7. http://www.bp.com/en/global/corporate/about-bp/bp-worldwide/bp-in-azerbaijan.html

Нурангиз Микаилова

"КОНТРАКТ ВЕКА" И ЕГО РОЛЬ В АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКЕ

Резюме

В статье были изучены и проанализированы, роль нефтяного сектора в переходной период. В статье отмечается динамика добычи нефти и газа и основные средства в деятельности Нефтяного Фонда, также проанализированы политика связанная с обрашением к "человеческому капиталу".

Ключевые слова: "Контракт века", нефть, газ, Нефтяной фонд, соглашение, иностранная инвестиция.

Nurangiz Mikailova

"CONTRACT OF THE CENTURY" AND ITS ROLE IN THE ECONOMY OF AZERBAIJAN

Summary

In the article "Contract of the Century" and its role in the economy of Azerbaijan have been studied and analysed, the role of the oil sector in solving the problems in the transition period. In Azerbaijan, the dynamics of oil and gas production and fixed assets in the activities of the Oil Fund were listed and analysed policy directed to the "human capital".

Key words: "Contract of the Century", oil, gas, Oil fund, agreement, foreign investment

UOT - 330.002.6

Təranə Vəliyeva
AƏSMA

QLOBALLAŞAN DÜNYADA İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ETİBARLI TƏMİNATI MƏSƏLƏLƏRİ

Qloballaşma - latın dilindən tərcümədə "Yer kürəsi" mənasını verib, insanların, informasiyaların, əmtəə-kapitalın dünya miqyasında öz yerini maneəsiz dəyişmə prosesi və iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin, informasiya inqilabının nəticəsidir. Qloballaşma nəticə etibarı ilə "sərhədsiz dünya" yaranmasına xidmət edərək, müasir informasiya texnologiyalarının yaranması və inkişafı ilə üzvi surətdə bağlıdır.

Hazırda Azərbaycanda informasiya cəmiyyətinin qurulması sürətlə davam edir. Bu istiqamətdə görülən işlər, əldə edilən nailiyyətlər təqdirəlayiqdir. Beynəlxalq səviyyədə də bu sahə ilə məşğul olan qurumların rəyləri bunu təsdiqləyir. Ölkə prezidenti cənab İlham Əliyev tərəfindən İKT sektorunun prioritet sahə elan edilməsindən sonra informasiya cəmiyyətinin qurulmasının inkişaf mərhələsi başlanıb və ölkəmizin qloballaşan dünyanın lider dövlətləri ilə eyni səviyyədə dayanmasına şərait yaranıb. İKT-nin hərtərəfli tətbiqi İnternet infrastrukturunun inkişafına, Azərbaycanın bütün bölgələrinin keyfiyyətli İnternetlə təmin olunmasına imkan verir. İnternetə çıxış imkanları keyfiyyətli olduğu halda informasiya bolluğu yaranır və insanların informasiya tələbatlarının, azadlıqlarının ödənilməsi, dövlət hakimiyyəti orqanlarının vətəndaşlar üçün elektron xidmətlər göstərməsinin təmin edilməsinə şərait yaranır. Cəmiyyətin hər bir üzvünün mobil rabitə ilə əhatə olunması da informasiya cəmiyyəti quruculuğuna xidmət edir, bu da ölkəmizin bu sahə üzrə beynəlxalq reytinqinin dinamik şəkildə artması və yaxın gələcəkdə İKT sahəsində dünyanın ən inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutması deməkdir.

Cəmiyyətin informasiya bolluğu ilə təmin olunması informasiya mühafizəsi anlamını ortaya çıxarır. Belə ki, informasiya mühafizəsi - insanlara ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərin qarşısının alınmasını təmin edən tədbirlər kompleksidir. İnformasiya texnologiyalarının tətbiqi informasiya mühafizəsi (təhlükəsizliyi) üzrə məsələlərə yüksək diqqətin ayrılmasını tələb edir. İnformasiya resurslarının məhv edilməsi, onlardan istifadənin mümkünsüzlüyü və ya informasiya təhlükəsizliyinin pozulması nəticəsində icazəsiz istifadə vətəndaşlar, ictimai qruplar, şirkət və dövlərlər üçün ciddi problemlər yaradır. İnformasiya təhlükəsizliyi üzrə problemlər humanitar xarakterli (vətəndaşlar barədə fərdi məlumatların nəzarətsiz istifadə və yayılması, özəl həyata müdaxilə, iftira və şəxsiyyətlərin oğurluğu ilə əlaqədar yaranan informasiya təhlükəsizliyi), iqtisadi və hüquqi xarakterli (kommersiya və maliyyə məlumatlarının sızması, təhrifi və itirilməsi, brend və intellektual mülkiyyətin oğurlanması, vətəndaşların maddi durumu haqqında məlumatların açıqlanması, sənaye casusluğu və şirkətlərin nüfuzuna zərər gətirən materialların yayılması nəticəsində yaranan informasiya təhlükəsizliyi) və siyasi xarakterli (informasiya müharibələri, kibermüharibə və siyasi qrupların marağında olan elektron kəşfiyyatı, dövlət sirrinin etibardan salınması, vacib müdafiə, nəqliyyat və sənaye obyektlərinin informasiya sistemlərinə hücumlar, iri müəssisə rəhbərlərinin natamam məlumatlandırılmaları və dizinformasiyalaşdırılmaları nəticəsində yaranan informasiya təhlükəsizliyi) olurlar. İnformasiyanın təhlükəsizliyinin təmin olunması probleminin vacibliyini və ak-tuallığını şərtləndirən üç səbəb var:

1. Şəbəkə texnologiyalarının geniş yayılması və lokal şəbəkələrin qlobal şəbəkələr halında birləşməsi;
2. İnformasiya təhlükəsizliyinin pozulmasına praktik olaraq mane olmayan qlobal İnternet şəbəkəsinin inkişafı;
3. Minimal təhlükəsizlik tələblərinə belə cavab verməyən proqram vasitələrinin geniş yayılması.

İnformasiyanın təhlükəsizliyi sistemə dağılma, verilənlərin üstünün açılması və ya dəyişdirilməsi, xidmətdən imtina formasında ziyan vurulmasına səbəb ola bilən istənilən hal, şərait, proses və hadisələrin qarşısının alınmasını nəzərdə tutur.

İdarəçilik sistemində islahatlar aparılması və idarəetmənin səmərəliliyinin artırılması məsələlərinə Azərbaycan hakimiyyəti daim diqqətlə yanaşır. Son illər istər idarəçilik, istər təhsil, istər səhiyyə, istərsə də hər hansı bir idarəetmə sferasında İKT-nin geniş surətdə tətbiqi məhz bu məntiqlə izah oluna bilər. Azərbaycanın bu sahədəki fəaliyyətinin fundamental əsası kimi bir neçə normativ akt (proqram) hazırlanmışdır. Bu proqramlardan biri "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"dır. Bu mühüm proqram Milli Strategiya çərçivəsində hazırlanıb və birbaşa dövlət idarəetməsinə, onun səmərəliliyinin yüksəldilməsinə yönəldilib. Artıq bu proqramın reallaşdırılmasında xeyli tədbirlər həyata keçirilib.

"Elektron Azərbaycan" proqramının reallaşdırılması ölkəmizdə elektron ticarətin həyata keçirilməsinə, elektron ödənişlərin geniş miqyasda tətbiq edilməsinə, informasiya xidmətləri sahəsinin inkişaf etdirilməsinə əlverişli mühit yaradır.

Digər mühüm bir sənəd – "Azərbaycan Respublikası İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012)" xüsusi yer tutur. Milli Strategiya informasiya və kommunikasiya texnologiyalarından istifadə, onun genişləndirilməsi sahəsində dövlətin siyasətini əks etdirməklə yanaşı, əsas məqsəd və vəzifələri, prioritetlər və istiqamətləri müəyyən edir. Strategiya cəmiyyətin tələblərini, qabaqcıl dünya təcrübəsini nəzərə alır və ölkənin inkişafına, Azərbaycanın beynəlxalq aləmə inteqrasiya olunmasına xidmət edir.

Milli Strategiyanın əsas vəzifələrinə aşağıdakılar aiddir:

- informasiya cəmiyyətinin hüquqi əsaslarının yaradılması və inkişaf etdirilməsi;
-cəmiyyətdə insan amilinin inkişaf etdirilməsi, vətəndaşların keyfiyyətli təhsil, tibbi xidmət və sosial təminatlar alması üçün əlverişli şəraitin yaradılması;
- milli proqram vasitələrinin yaradılması, informasiya və kommunikasiya texnologiyaları məhsullarının istehsalının (İKT sənayesinin) inkişaf etdirilməsi;
- ölkənin "rəqəmsal geriliyinin" aradan qaldırılması.

Dövlət oqranlarında və digər ictimai qurumlarda İKT-nin kütləvi surətdə tətbiqi onların fəaliyyətində yeni mərhələ açmaqla dövlət orqanlarının və ictimai qurumların fəaliyyəti üçün yeni təhdid və təhlükələr də meydana çıxarır. Məhz bu baxımdan təhlükəsizliyin təmin edilməsinə xüsusi diqqət yetirilməlidir. Təhlükəsizlik ilə bağlı məsələlər istər Milli Strategiyada, istərsə də "Elektron Azərbaycan" proqramında hərtərəfli əhatə olunmuşdur.

Bundan əlavə, informasiya təhlükəsizliyini təmin edən bir sıra məsələlərlə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qanunlar qəbul olunmuş və ölkə Prezidenti tərəfindən bu məqsədlə bir şox fərman və sərəncamlar imzalanmışdır. Bunlara misal olaraq "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Azərbaycan Respublikası əhalisinin dövlət reyestri haqqında" qanunları və "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" fərmanı və s. göstərmək olar. Artıq İKT iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunur. Milli Strategiyada təhlükəsizliklə bağlı aşağıdakı müddəalar öz əksini tapıb:

- informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması, elektron cinayətkarlığına qarşı mübarizənin aparılması;
- milli maraqları nəzərə almaqla vətəndaşların və bütün təşkilatların təhlükəsiz olaraq informasiya əldə etmək və ondan istifadə etmək hüquqlarının təmin olunması üçün şəraitin yaradılması;
- vətəndaşların informasiya təhlükəsizliyini təmin edən mühitin yaradılması.

Sadalananlar ancaq işin bir tərəfidir. Çünki informasiya təhlükəsizliyi üçün üç istiqamətdə - hüquqi, təşkilati və mühəndis – texniki istiqamətlərdə iş aparılmalıdır. Qanunvericilik aktları fəaliyyətin əsas istiqamətlərini və məzmununu konseptual baxımdan müəyyənləşdirdiyindən, onun gerçəkləşməsi üçün hər bir istiqamət üzrə fəaliyyət planları – milli İKT proqramları işlənib hazırlanır və konkret işlər, layihələr vasitəsilə həyata keçirilir. Strategiyanın həyata keçirilməsində Azərbay-

can Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasətin təmin edilməsi məqsədilə proses iştirakçılarının bu istiqamətdə fəaliyyəti Xarici İşlər Nazirliyi tərəfindən əlaqələndirilir. İnformasiya təhlikəsizliyi dövlətin inkişafına, milli təhlikəsizliyinə təsir göstərən mühüm amillərdən biri olduğundan, bu istiqamətdə aparılan fəaliyyət Milli Təhlikəsizlik Nazirliyi tərəfindən nəzarətə götürülür. İnformasiya cəmiyyəti və informasiya təhlikəsziliyinin elmi problemləri AMEA-nın Rəyasət heyəti, Bölmə və Problem şuralarının iclaslarında, digər ixtisaslaşmış elmi-tədqiqat institutlarında geniş müzakirə olunmuş, alimlərimizin və elmi kollektivlərin bu istiqamətdə vəzifələri müəyyən olunmuş, müvafiq təkliflər və tövsiyələr hazırlanmışdır.

Bundan başqa, alim və mütəxəssislərimiz Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və digər qurumların sifarişi ilə bir sıra strateji əhəmiyyətə malik layihələrin reallaşdırılmasında, dayanıqlı və təhlükəsiz elektron dövlətin qurulmasında, elektron təsisatların yaradılmasında, milli informasiya təhlükəsizliyi sisteminin, biometrik identifikasiya sisteminin yaradılmasında, milli super kompyuter mərkəzi və onun ümumrespublika infrastrukturunun formalaşdırılmasında, ölkənin efir məkanına **online** monitorinqinin həyata keçirilməsində, teleradio yayım infrastrukturunun dövlətin geosiyasi maraqlarına uyğunlaşdırılmasında, beynəlxalq telefon xidmətlərindən istifadə edən vətəndaşların istehlak hüquqlarının qorunmasına xidmət edən sistemin işlənib hazırlanmasında, digər mühüm dövlət əhəmiyyətli İKT layihələrinin həyata keçirilməsində bilavasitə iştirak edirlər. Bir sıra mühüm əhəmiyyət kəsb edən elmi-texnoloji tutumlu "Elektron imza və elektron sənəd", "Elektron ticarət", "İnformasiya əldə etmək haqqında" və s. kimi qanunların icrasını təmin edən texniki-iqtisadi mexanizmlərin işlənilməsində də alim və mütəxəssislərimiz yaxından iştirak edirlər.

İnformasiyanın təhlükəsizliyinin təmin olunması probleminin vacibliyi və aktuallığı aşağıdakı səbəblərdən yaranmışdır:

- müasir kompyuterlərin hesablama sürətinin kəskin artması və bununla eyni zamanda onların istismarının sadələşməsi;
- kompyuterlərin köməyi ilə qəbul edilən, saxlanılan və emal edilən informasiyanın kəskin artması;
- hesablama resurslarına və verilənlər massivinə girişi olan istifadəçilər sayının kəskin artması;
- minimal təhlükəsizlik tələblərinə cavab verən proqram vasitələrinin inkişafı;
- şəbəkə texnologiyalarının bütün sahələrdə yayılması və lokal şəbəkələrin qlobal şəbəkələr halında birləşməsi;
-informasiya emalı sisteminin təhlükəsizliyinin pozulmasına praktiki olaraq mane olmayan internet şəbəkələrinin inkişafı.

İnformasiyanın təhlükəsizliyi dedikdə, informasiyaya və ona xidmət edən istifadəçilərə ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərdən informasiyanın və ya ona xidmət edən infrastrukturun mühafizə olunması nəzərdə tutulur.

İnformasiyanın mühafizəsi – informasiya təhlükəsizliyinin təmin olunmasına yönəlmiş tədbirlər kompleksidir. Praktiki olaraq bu informasiyanın və ya verilənlərin daxil edilməsi, saxlanılması və ötürülməsi üçün istifadə edilən resursların tamlığının, müxtəlifliyinin təmin edilməsi deməkdir.

İnformasiya təhlükəsizliyinin təmin olunması problemi kompleks yanaşma tələb edir. Onun həlli üçün tədbirləri aşağıdakı səviyyələrə bölmək olar:

- qanunvericilik tədbirləri;
- inzibati tədbirlər;
- təşkilati tədbirlər;
- proqram texniki tədbirlər.

Cari ilin əvvəlindən Azərbaycanın informasiya təhlükəsizliyi bazarında artım 20% təşkil edib. Son vaxtlar bazarda indi bir çox müəssisə və təşkilatların məşğul olduqları elektron sənəd dövriyyəsi, fəaliyyətin avtomatlaşdırılması sahəsində böyük fəaliyyət müşahidə olunur. Çox güman ki, avtomatlaşdırma prosesi başa çatan kimi bir çoxları informasiya təhlükəsizliyi sisteminin tətbiqi haqqında düşünəcəklər.

Azərbaycan hökuməti informasiya təhlükəsizliyinin təminini həyata keçirtmək və bu sahədə beynəlxalq yeniliklərdən geri qalmamaq üçün ABŞ-ın "CİSCO", "İntel", "Microsoft", İsveçin "Ericsson", Almaniyanın "Siemens" şirkətləri ilə ölkəmizdə texnoparkların yaradılması barədə danışıqlar aparır. Bu şirkətlər də Respublikamızda yaradılacaq texnoparklarda fəal surətdə iştirak etmək istədiklərini bildiriblər. Belə ki, Bakıda "CİSCO" və "Ericsson"şirkətlərinin iştirakı ilə "Kaspian" Beynəlxalq İnformasiya Texnologiyaları Universitetinin yaradılması nəzərdə tutulur.

Açar sözlər: qloballaşma, dövlət idarəçiliyi, informasiya təhlükəsizliyi, İKT-nin tətbiqi, "Elektron Azərbaycan" proqramı, Milli strategiya

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikası inkişaf naminə informasiya kommunikasiya texnologiyaları üzrə strategiya (2003-2012).
2. Əliquliyev R.M., İmamverdiyev Y.N. Kriptoqrafiyanın əsasları. Bakı: 2006.
3. Əliquliyev R.M., İmamverdiyev Y.N. Rəqəm imzası texnologiyası, Bakı: Elm, 2003, 132s.
4. İbrahimzadə T.İ., Sərdarov Y.B., İsmayılov M.A. Kompyuter sistemlərində mühafizənin təşkili. Bakı: 2007.
5. Musayev V.H., İsmayılov M.A., İsgəndərzadə H.Q. İnformatika. Bakı: 2011.
6. e-gov a qlobal persrectives.
7. http://www.kaspi.az
8. http://www.mincom.qov.az

Тарана Велиева

ВОПРОСЫ ОБСОЛЮТНОГО ОБЕСПЕЧЕНИЯ БЕЗОПАСНОСТИ ИНФОРМАЦИИ В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ

Резюме

Азербайджанское правительство проводит действенные мероприятия с целью обеспечения информационной безопасности общества и активно участвует в мировом масштабе. В статье отражены вопросы национальной безопасности в информационной сфере нашей Республики, рассмотрены мероприятия, проводимые по этому поводу на государственном уровне. Также предложены соответствующие рекомендации по развитию этой отрасли в Азербайджане в современных условиях.

Ключевые слова: глобализация, Государственное управление, информационная безопасность, внедрение ИКТ, Программа "Электронный Азербайджан", Национальная стратегия

Tarana Veliyeva

THE RELİABLE PROVİSİON OF INFORMATION SAFETY IN THE GLOBALIZING WORLD

Summary

Azerbaijan government is realizing ceremonies on the purpose of providing information security of the society and acts active in the world volume. The problems of providing national security in the information field in our Republic, ceremonies realized on this purpose on the level of government are reflected in this article. Also, there were put forward offers concerning the development of this field in Azerbaijan in the modern conditions.

Key words: globalization, State management, information security, ICT application, "Electronic Azerbaijan" program, National strategy

UOT - 336.025

Mobil Məcidov
AƏSMA, i.ü.f.d., dosent

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BEYNƏLXALQ REYTİNQİNİN FORMALAŞMASINA MALİYYƏ VƏSAİTLƏRİNİN TƏSİRİ

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 3.3.4-cü bəndinə əsasən ölkəmizdə təhsil müəssisələrinin reytinq sisteminin yaradılması nəzərdə tutulmuşdur. Belə bir sistemin yaradılması üçün ali təhsil müəssisələrinin beynəlxalq reytinqinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Ali təhsil müəssisələrinin beynəlxalq reytinqi tərtib olunarkən onlarla göstərici əsas götürülür. Lakin bu göstəricilərin önündə iqtisadi göstəricilər dayanır. Bu baxımdan reytinqi tərtib edən beynəlxalq təşkilatların göstəriciləri ilə tanış olaq.

Ali təhsil müəssisələrinin beynəlxalq reytinqini ilk dəfə 1997-ci ildə Asia Week jurnalı hazırlayıb, lakin siyasi səbəblərdən 2001-ci ildə bu reytinq öz fəaliyyətini dayandırıb. 2003-cü ildən ali təhsil müəssisələrinin ümumdünya reytinqinin qurulmasına başlandı. Şanxay Universitetinin (Çin) təşəbbüsü ilə fəaliyyətə başlayan beynəlxalq ARWU (Academic Ranking of World Universities) reytinqi hər il dünyanın aparıcı ali təhsil müəssisələrinin reytinqini tərtib edir.

2004-cü ildən Böyük Britaniyanın "TSL Education LTD" təşkilatı "The Times Higher Education" adlı ən yaxşı dünya ali təhsil müəssisələrinin reytinqini təqdim etdi. "THE" brendi ilə fəaliyyətə başlayan bu reytinq 2005-ci ildən "Quacquarelli Symonds" şirkəti ilə müştərək fəaliyyətini davam etdirdi. 2009-cu ilədək QS-THES, 2009-cu ildən isə THE-QS adı ilə birgə fəaliyyət göstərən reytinq 2010-cu ildə fikir ayrılığı nəticəsində öz birgə fəaliyyətini dayandırdı. Hazırda "Quacquarelli Symonds" şirkəti "QS" adı ilə öz reytinqini tərtib edir. "TSL Education LTD" şirkəti isə Thomson Reuters agentliyi ilə əməkdaşlıq edərək "THE" adı ilə fəaliyyət göstərir.

2004-cü ildən İspaniya Milli Tədqiqatlar Şurasının "Cybermetrics" laboratoriyası "Webometrics" (Ranking Web of World Universities) reytinqini tərtib etməyə başladı. "Web" adlanan bu sistem ali təhsil müəssisələrinin virtual informasiya məkanında fəaliyyətini qiymətləndirir və 20 minə yaxın ali təhsil müəssisəsini özündə birləşdirir. Qeyd edək ki, ARWU reytinqi 3 min, THE reytinqi 6 min ali təhsil müəssisəsinin təhlilini əhatə edir.

2007-ci ildən Tayvan Respublikası tərəfindən PRSP (Performance Ranking of Scientific Papers for World Universities) adlı reytinq fəaliyyətə başladı. Qiymətləndirmədə ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətini və yazılan elmi məqalələrin səviyyəsini əsas götürən bu reytinq dünyanın 500-ə yaxın aparıcı universitetləri arasında aparılır.

Qeyd olunan 5 reytinqdən başqa onlarla təşkilat tərəfindən reytinqlər tərtib olunur. Lakin hazırkı şəraitdə bu 5 reytinq tərtib olunma metodikasına görə ən dəqiq, səhih və etibarlı hesab edilir.

Reytinqlərin hər birində qiymətləndirmə ayrı-ayrı meyarlar üzrə 100 ballıq sistemlə aparılır. ARWU reytinqində 20 bal Nature və Science jurnallarında nəşr olunmuş məqalələrin sayına görə, 20 bal Thomson Reuters verilənlər bazasında indeksləşmiş məqalələrin sayına görə, 20 bal Nobel mükafatı və ya Filds medalı alan əməkdaşların sayına görə və 10 bal akademik personalın əmək intizamına görə (və ya işdə olma müddətinə görə) toplamaq mümkündür [2].

QS reytinqində 20 bal elmi-tədqiqat işlərinin nəticələrinə görə, 40 bal akademik nüfuz indeksinə görə, 20 bal tələbələrin sayına nisbətdə professor-müəllim heyətinin sayına görə, 10 bal işə götürənlərin arasında ali təhsil müəssisəsinin nüfuz indeksinə görə, 5 bal yerli müəllimlərin sayına nisbətən xarici müəllimlərin sayına görə, 5 bal tələbələrin sayına nisbətən xarici tələbələrin sayına görə toplamaq mümkündür [3].

WEB reytinqində 12,5 bal ali təhsil müəssisənin saytında axtarış sistemi vasitəsilə aparılan elmi axtarışların sayına görə, 12,5 bal ali təhsil müəssisənin saytında yerləşdirilən "qiymətli" faylların sayına görə, 50 bal digər axtarış sistemləri (Live Search, Yahoo Search, Exalead) vasitəsilə ali təhsil

müəssisəsinin saytına istinad edilən axtarışların sayına görə, 20 bal yenə də digər axtarış sistemləri vasitəsilə saytda tapılan və yüklənən səhifələrin sayına görə toplamaq mümkündür [12].

PRSP reytinqində 10 bal son 11 ildə, 10 bal son bir ildə nəşr olunan elmi məqalələrin sayına görə, 10 bal son 11 ildə, 10 bal son 2 ildə nəşr olunan elmi məqalələrə edilən kənar istinadlara görə, 10 bal kənar istinadların son 11 ildə nəşr olunan elmi məqalələrə nisbətinə görə, 20 bal ali təhsil müəssisənin son 2 ildə nəşr olunmuş elmi məqalələrinin hirş – indeksinə (h-index alimin, elmi təşkilatın, ali təhsil müəssisənin və yaxud bütöv bir ölkənin nəşrlərinə və onlara edilən istinadlara əsaslanan, onların məhsuldarlığının kəmiyyətini xarakterizə edən göstəricidir) görə, 15 bal son 11 ildə ən çox istinad olunan məqalələrin sayına görə, 15 bal son bir ildə jurnallarda ən çox istinad olunan məqalələrin sayına görə toplamaq mümkündür [13].

Lakin qeyd olunan reytinqlərdən daha etibarlısı və dünya təhsil ictimaiyyəti tərəfindən qəbul ediləni "THE" reytinqi hesab olunur. Bu reytinqdə 15 bal ali təhsil müəssisələrinin akademik nüfuzuna görə (burada elmi fəaliyyət və təhsilin keyfiyyəti əsas götürülür), 19,5 bal ayrı-ayrı sahələrdə ali təhsil müəssisəsinin elmi nüfuzuna görə, 32,5 bal elmi nəşrlərə edilən ümumi istinadlara görə (bura son 5 ili əhatə edən 12 min elmi jurnal aiddir), 4,5 bal professor-müəllim heyətinin sayına düşən nəşr olunmuş elmi məqalələrə görə, 5,25 bal professor-müəllim heyətinin sayına münasibətdə ali təhsil müəssisəsinin elmi tədqiqat fəaliyyətinin maliyyələşdirilməsinin həcminə görə, 5,5 bal professor-müəllim heyətinin sayına münasibətdə ali təhsil müəssisəsinin tədqiqat fəaliyyətinin kənar kompaniyalar tərəfindən maliyyələşdirilməsinin həcminə görə, 0,75 bal dövlət tərəfindən tədqiqat fəaliyyətinin maliyyələşdirilməsinin ali təhsil müəssisəsinin ümumi büdcəsində tədqiqat xərclərinə nisbətinə görə, 4,5 bal professor-müəllim heyətinin sayının təhsilalanların sayına olan nisbətinə görə, 3 bal xarici professor-müəllim heyətinin sayının yerli professor-müəllim heyətinin sayına olan nisbətinə görə, 2 bal xarici tələbələrin sayının yerli tələbələrin sayına olan nisbətinə görə, 6 bal doktorluq (Ph.d) dissertasiyasını müdafiə edənlərin sayının ümumi müəllimlərin sayına olan nisbətinə görə, 2,25 bal doktorluq (Ph.d) dissertasiyasını müdafiə edənlərin sayının magistraturada təhsilalanların sayına olan nisbətinə görə, 2,25 bal müəllim heyətinin nümayəndələrinin mükafatlandırılmasının həcminə görə toplamaq mümkündür [1]. Göründüyü kimi, reytinqlər içərisində ən çox göstərici THE reytinqinə məxsusdur. Bu baxımdan THE reytinqinin tərtib etdiyi reytinq cədvəli üzərində təhlillər aparmağı məqsədəuyğun hesab etdik.

Cədvəl 1

2013/2014-cü tədris ili üzrə ali təhsil müəssisələrinin beynəlxalq reytinq cədvəli

	Ali təhsil müəssisəsinin adı	Yerləşdiyi ölkə	2012/2013-cü tədris ili (bal / yer)	2013/2014-cü tədris ili (bal / yer)	2014/2015-ci tədris ili (bal / yer) (01.12.2014)
1	Kolifornia Texnologiya İnstitutu	ABŞ	95,5 / I pillə	94,9 / I pillə	94,3 / I pillə
2	Harvard Universiteti	ABŞ	93,6 / IV pillə	93,9 / II pillə	93,3 / II pillə
3	Oksford Universiteti	Böyük Britaniya	93,7 / II pillə	93,9 / II pillə	93,2 / III pillə
4	Stenford Universiteti,	ABŞ	93,7 / II pillə	93,8 / IV pillə	92,9 / IV pillə
5	Massaçusets Texnologiya İnstitutu	ABŞ	93,1 / V pillə	93,0 / V pillə	91,9 / VI pillə
6	Prinston Universiteti	ABŞ	92,7 / VI pillə	92,7 / VI pillə	90,9 / VII pillə
7	Kembric Universiteti	Böyük Britaniya	92,6 / VII pillə	92,3 / VII pillə	92,0 / V pillə
8	Kolifornia Universiteti	ABŞ	90,5 / IX pillə	89,8 / VIII pillə	89,5 / VIII pillə
9	Çikaqo Universiteti	ABŞ	90,4 / X pillə	87,8 / IX pillə	87,1 / XI pillə
10	London İmperial Kolleci	Böyük Britaniya	90,6 / VIII pillə	87,5 / X pillə	87,5 / IX pillə

Mənbə: http://www.timeshighereducation.co.uk/

Reytinq cədvəli əsasında dünyanın ən yaxşı 200 ali təhsil müəssisəsi arasında ABŞ-ın 77 ali təhsil müəssisəsi ön sırada dayanır. İlk yüzlüyə nəzər saldıqda 46 ali təhsil müəssisəsinin, ilk əllilikdə isə 30 ali təhsil müəssisəsininin olduğunun şahidi oluruq. İkinci pillədə isə Böyük Britaniyanın ali təhsil müəssisələri dayanır. Belə ki, 200 ali təhsil müəssisəsi arasında Böyük Britaniyanı 31 ali təhsil müəssisəsi təmsil edir. Müvafiq olaraq ilk yüzlükdə 10 ali təhsil müəssisəsinin, ilk əllilikdə 7 ali təhsil müəssisəsinin qərarlaşdığının şahidi oluruq. Növbəti pillələrdə 10 ali təhsil müəssisəsi ilə Almaniya, 8 ali təhsil müəssisəsi ilə Fransa, 7 ali təhsil müəssisəsi ilə İsveçrə, Avstraliya, Kanada, 5 ali təhsil müəssisəsi ilə Yaponiya, İsveç, Belçika, 4 ali təhsil müəssisəsi ilə Cənubi Koreya, 3 ali təhsil müəssisəsi ilə Honkonq, Danimarka, 2 ali təhsil müəssisəsi ilə Sinqapur, Çin, İsrail, Avstriya və 1 ali təhsil müəssisəsi ilə Yeni Zellandiya, CAR, Finlandiya, Norveç, İspaniya, Tayvan və Türkiyə qərarlaşıb. Təhlillər nəticəsində aydın olur ki, ən yaxşı 200 ali təhsil müəssisəsi 26 ölkəni təmsil edir.

Qeyd edək ki, 2013-2014-cü tədris ilinin nəticələri üzrə reytinq cədvəlində ilk 30 ali təhsil müəssisəsindən 22-si ABŞ-ı təmsil edir. Reytinq cədvəlinə görə 94,9 balla ABŞ-nın Koliforniya Texnologiya İnstitutu başçılıq edir. 2012-2013-cü tədris ilinin dördüncüsü Harvard Universiteti və üçüncüsü olan Böyük Britaniyanın Oksford Universiteti isə 93,9 balla ikinci pillədədirlər. Dördüncü pillədə 93,8 balla ABŞ-ın Stenford Universiteti, beşinci pillədə 93 balla ABŞ-ın Massaçusets Texnologiya İnstitutu dayanıb. Növbəti pillələrdə 92,7 balla ABŞ-ın Prinston Universiteti, 92,3 balla Böyük Britaniyanın Kembric Universiteti, 89,8 balla ABŞ-ın Koliforniya Universiteti, 87,8 balla ABŞ-ın Çikaqo Universiteti və onuncu pillədə 87,5 balla Böyük Britaniyanın Londonun İmperial Kolleci dayanır. Daim ön sıralarda qərarlaşan ABŞ-ın Yel Universiteti 87,4 balla 11-ci, Böyük Britaniyanın London Universitet Kolleci 77,6 balla 21-ci pillədə dayanıb. 2012-2013-cü tədris ilində iyirminci pillədə dayanan İsveçrənin Federal Texnologiya İnstitutu isə 67,7 balla 37-ci pilləyə enib. Maraqlı vəziyyət Sinqapur Milli Universitetində müşahidə olunur. Belə ki, bu ali təhsil müəssisəsi 2009-cu ildə 30-cu, 2010-cu ildə 29-cu, 2011-ci ildə 28-ci, 2012-ci ildə 27-ci pillədə olduğu halda, 2013-cü ildə 72,4 balla 26-cı pilləyə qalxıb. Bu gedişlə bu ali təhsil müəssisəsi yaxın 15-20 ildə ilk onluğa iddia edəcək. Sevindirici haldır ki, Türkiyənin Boğaziçi Universiteti də THE beynəlxalq reytinqində yer alıb. Belə ki, 44,3 bal toplayan bu ali təhsil müəssisəsi 199-cu pillədə öz yerini tutub. 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə isə THE beynəlxalq reytinqində ilk ikiyüzlükdə Türkiyəni 4 ali təhsil müəssisəsi təmsil edir. Belə ki, Türkiyənin Yaxın-Şərq Texniki Universiteti 56,6 balla 85-ci, Boğaziçi Universiteti 51,1 balla 139-cu, İstambul Texniki Universiteti 48,1 balla 165-ci, Sabançi Universiteti 46,9 balla 182-ci pillədədir. Qeyd edək ki, Türkiyənin ən böyük ali təhsil müəssisələrindən olan Bilkənd Universiteti də ilk ikiyüzlüyə düşməyə iddialıdır və hazırda 203-cü pillədə qərarlaşıb [1].

Qabaqcıl ali təhsil müəssisələrinin fəaliyyətində elmi-tədqiqat və təhsil fəaliyyətinin rolu böyük olsa da, maliyyə vəsaitləri olmadan heç bir uğur əldə etmək mümkün deyil. Reytinq cədvəlində birinci pillədə qərarlaşan Koliforniya Texnologiya İnstitutu bu uğuru əldə etmək üçün ildə təqribən 3 milyard dollara yaxın vəsait xərcləyir.

Koliforniya Texnologiya İnstitutunun məzunlarından 17-si Nobel mükafatına layiq görülüb. Bundan əlavə Nobel mükafatçısı olan 18 professor institutun əməkdaşlarıdır. Məzunlardan və müəllimlərdən 65-i ABŞ-nın "Texnologiya və İnnovasiyalar sahəsində milli medalı" ilə təltif olunub. Hazırda institutun tələbələrinin sayı 2175 nəfərdir. Onlardan 967-i bakalavr, 1208-i magistratura səviyyəsində təhsil alır. Tələbələrin təhsili ilə 294 nəfər professor-müəllim heyəti məşğul olur. ABŞ-ın bütün özəl ali təhsil müəssisələri kimi Koliforniya Texnologiya İnstitutu da öz maliyyə planlarını təhsil haqqından və digər mənbələrdən daxilolmaların hesabına qurur. Təhsil haqqı isə 28-55 min ABŞ dolları civarında dəyişir [4]. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü

il tarixinə olan nəticələrinə görə Koliforniya Texnologiya İnstitutu THE beynəlxalq reytinqində 94,3 balla yenə də birinci pillədə qərarlaşıb [1].

Dünyanın ən qabaqcıl ali təhsil müəssisələrindən biri olan ABŞ-ın Harvard Universitetinin ümumi vəsaitlərinin həcmi 33,7 milyard dollara bərabərdir. Bunun 13,7 milyard dolları Elm və incəsənət fakültəsinə, 2,2 milyard dolları Prezident Fonduna, 2,8 milyard dolları Biznes departamentinə, 1 milyard dolları Kennedi məktəbinə, 5,1 milyard dolları tibb sahəsinə, 7,9 milyard dolları isə digər departamentlərə məxsusdur. Maliyyə ilini kəsirlə başa vurmasına baxmayaraq universitetin gəlirləri 5% artmışdır. Gəlirlərin tərkibində ianələr 5% artaraq 1,5 milyard dollar, sponsor ödəmələri 1% artaraq 844 milyon dollar, təhsil haqqından daxilolmalar 5% artaraq 814,7 milyon dollar, investisiyalardan daxilolmalar 1% artaraq 1 milyard 651milyon dollar təşkil etmişdir. Universitetin xərcləri 6% artaraq 4,2 milyard dollar təşkil etmişdir. Əməyin ödənilməsi xərcləri 4% artaraq 1,55 milyard dollar, işçilərin mükafatlandırılması xərcləri 6% artaraq 506,6 milyon dollar, amortizasiya xərcləri 106,3 milyon dollar, faizlər 644,3 milyon dollar, material və yeni avadanlığın alınması xərcləri 234,3 milyon dollar, tələbələrə verilən təqaüd və təqaüd tipli mükafatlar 136,4 milyon dollar təşkil etmişdir.

Harvard Universitetində illik təhsil haqqı 42 min dollardır, lakin tələbələrin 2/3-si maliyyə yardımı hesabına təhsil alır. Təhsil prosesində fəal olan və ya universitetin inkişafına öz tədqiqatları ilə töhfə verən əcnəbi tələbələr üçün isə "Devid Rokfeller qrantı" nəzərdə tutulur. Təsadüfi deyildir ki, ABŞ prezidentlərindən Con Adams, Teodor Ruzvelt, Franklin Delano Ruzvelt, Con Kennedi, kiçik Corc Buş, Barak Obama, Nobel mükafatçılarından (45 Nobel mükafatçısı Harvard Universitetini bitirib) Cek Sozdak, Albert Qor, Tomas Şellinq, Roy Qlauber, Donald Kram, Tomas Eliot, BMT-nin Baş katibi Ban Ki-Mun, Pakistanın sabiq Baş naziri Bənazir Bhutto və "Mikrosoft" şirkətinin təsisçisi Bill Qeyts də bu ali təhsil müəssisəsinin məzunu olmuşlar [5]. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Harvard Universiteti THE beynəlxalq reytinqində 93,3 balla ikinci pillədə qərarlaşıb. [1].

ABŞ ali təhsil müəssisələri ilə uzun illərdir ki, reytinq mübarizəsi aparan universitet Böyük Britaniyanın Oksford Universitetidir. Bu universitet ikinci pillədə qərarlaşsa da (Harvard Universiteti ilə birlikdə), Avropa reytinqində uzun illərdir ki, birinciliyi əldən vermir. Universitetin illik gəliri 1 milyard funt-sterlinqə bərabərdir ki, bu vəsaitin 60%-ə qədəri tədqiqat qrantları və müqavilələrdən daxilolmalardır. Qeyd edək ki, İngiltərə Ali Təhsilin maliyyələşdirilməsi Şurasının ayırdığı qrantların təqribən 200 milyon funt-sterlinqini Oksford Universiteti udur. Tələbələrin ödədiyi təhsil haqları universitetin gəlirinin 15%-ni təşkil edir. Universitetlərin inkişafına ən çox yardım edən qurum Universitetin Nəşriyyatıdır. Yalnız 2010-2013-cü illərdə bu qurum tərəfindən Universitetə 250 milyon funt-sterlinq maliyyə yardımı göstərilib. Oksford universitetində təhsil haqqı ixtisaslar üzrə müxtəlifdir. Belə ki, əgər incəsənət ixtisasında təhsil haqqı 6300 funt-sterlinq təşkil edirsə, tibb ixtisaslarında təhsil alanlar 15400 funt-sterlinq ödəməlidir. Lakin fərq yalnız ixtisaslarda deyil. Əcnəbi tələbələr yerli və Avropa Birliyinə daxil olan ölkələrin vətəndaşlarına nisbətdə 30-40%-dək əlavə vəsait ödəyirlər. Universitetin məzunlarından 25-i Böyük Britaniyanın baş naziri (Marqaret Teççer, Toni Bleyer, Devid Kameron) olub. Bundan əlavə İordaniya kralı II Abdullah ibn Al Hüseyn, ABŞ-ın sabiq prezidenti Bill Klinton, Hindistanın sabiq baş naziri İndira Qandi də bu universitetin məzunlarındandır. Oksford universiteti eyni zamanda dünya elminə Nobel mükafatçıları bəxş edən ali təhsil müəssisələrindəndir. Hazırda universitet məzunlarından 14-ü Nobel mükafatçısıdır [6]. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Oksford Universiteti THE beynəlxalq reytinqində 93,2 balla üçüncü pillədə qərarlaşıb [1].

ABŞ-ın Stenford Universiteti reytinq cədvəlində dördüncü pillədədir. Bu universitet ABŞ-nın ən böyük və varlı ali təhsil müəssisələrindən biridir. Universitetin ianə fondu 17 milyard dollardan artıqdır. İllik təhsil haqqı orta hesabla (ayrı-aryı ixtisaslarda müxtəlifdir) 43,245 dollardır. Laklin

hazırda universitetin 51,1%-i maliyyə yardımı alır. Universitet xərclərinin 350 milyon dollarını təhsil haqqının hesabına ödəyir. Qalan vəsaitlər isə qrantlar, müqavilələr, maliyyə yardımları, ianələr hesabına maliyyələşdirilir. Universitet dünyaya 17 Nobel mükafatçısı bəxş edib. Bundan əlavə "Google" axtarış saytının yaradıcıları Sergey Brin və Larri Peyç, "Yahoo" saytının yaradıcıları Devid Filo və Cerri Yanq da bu universitetin məzunları olublar [7]. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Stenford Universiteti THE beynəlxalq reytinqində 92,9 balla dördüncü pillədə qərarlaşıb [1].

ABŞ-nın Massaçusets Texnologiya İnstitutu reytinq cədvəlində 93 balla beşinci pillədədir. İnstitutu qeyri-rəsmi olaraq "Komputer texnologiyalarının mərkəzi" də adlandırırlar. İnstitutun məzunlarından 75 nəfəri Nobel mükafatına layiq görülüb. Sevindirici haldır ki, dünya şöhrətli, Azərbaycan əsilli alim, süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, hazırda Berkli Koliforniya Universitetinin professoru Lütfi Rəhim oğlu Ələsgərzadə (Lütfizadə) bu institutun məzunu ("elektrotexnika" sahəsi üzrə magistraturasını bitirib) olub. Texnologiya institutu olmasına baxmayaraq, məzunlar arasında siyasət xadimlərinin də sayı kifayət qədərdir. Kosta-Rikanın prezidenti Xose Fiqueres Ferrer, Kolumbiyanın prezidenti Vircillio Barko, BMT-nin sabiq Baş katibi Kofi Annan, ABŞ-ın sabiq dövlət katibi Corc Şuls məzunlar sırasındadır.

Massaçusets Texnologiya İnstitutunun illik gəliri 3 milyard ABŞ dolları civarındadır. Gəlirlərin əsas mənbəyi təhsil haqqı olsa da, institut digər mənbələrdən vəsait cəlb etməkdən də çəkinmir. Massaçusets Texnologiya İnstitutu tələbələrə ən çox maliyyə yardımı göstərən ali təhsil müəssisələrindəndir. Tələbələrin 72%-i bu və ya digər formada (həm dövlət, həm də institut tərəfdən verilən təqaüd) təqaüd alır. İnstitutun illik təqaüd fondu 105,8 milyon dollara bərabərdir. Təqaüdlər əsasən ianələrin və institutun şəxsi vəsaitləri hesabına maliyələşdirilir. 58 % tələbə müxtəlif qrant layihələrində iştirak edərək maliyyə vəsaitlərini yaxşılaşdırırlar. Qeyd edək ki, əvəzsiz maliyyə yardımlarının məbləği orta hesabla 33,687 dollar təklif olunur. Massaçusets Texnologiya İnstitutunun tələbələrinin 41%-i tələbə krediti (hər tələbə orta hesabla 17,900 dollar) alır ki, onlar borclarını məzun olduqdan sonra qaytaracaqlar. Tələbələrin 65%-i təhsil müddətində kampuslarda işləyərək pul qazanırlar. İllik gəlir orta hesabla 3058 dollar təşkil edir. Massaçusets Texnologiya İnstitutu təhsilin yuxarı pillələrinə də maliyyə dəstəyi göstərir. Belə ki, institutun 888 doktorantının (13,6%) hər birinə 52,061 dollar olmaqla 46,2 milyon dollar vəsait güzəştli kredit şəklində verilib. 176 doktorant isə bu və ya digər proqramlarda iştirak etməklə 2,2 milyon dollar vəsait əldə edib (orta hesabla hər doktoranta 12665 dollar düşür) [8]. Hətta qlobal maliyyə böhranı şəraitində belə Massaçusets Texnologiya İnstitutu maliyyə yardımlarını dayandırmadı. Bəzi hallarda hətta yüksək nəticələr göstərən tələbələrin maliyyə öhdəlikləri ailələrinin xəbəri olmadan institut tərəfindən ödənilir. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Massaçusets Texnologiya İnstitutu THE beynəlxalq reytinqində bir pillə geriləyərək 91,9 balla altıncı pillədə qərarlaşıb [1].

Prinston Universiteti reytinq cədvəlində altıncı pillədədir. Dünyaya 30-dan çox Nobel mükafatı laureatı bəxş edən, ABŞ-nın "Sarmaşıq" Liqasının səkkizliyinə daxil olan bu universitetin illik gəliri 1,5 milyard dollar təşkil edir. Lakin bu ali məktəbin maliyyə müstəqilliyini çoxsaylı donor yardımları təmin edir ki, bu vəsaitlər də, əsasən, sərbəst tədris proqramlarının, kadr potensialının seçiminə, tikinti məsələlərinin həllinə sərf olunur.

Prinston Universitetində elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə ildə orta hesabla 250 milyon dollar vəsait ayrılır. Vəsaitlərin böyük hissəsi universitetin nəzdində fəaliyyət göstərən ABŞ-ın Energetika departamentinin Fizika-Plazma laboratoriyasının tədqiqatlarına sərf olunur. Korporativ sifarişçilərin vəsaitləri hesabına isə kiçik layihələr maliyyələşdirilir. Universitetdə fəaliyyət göstərən Tədqiqat və Layihə administrasiyası ayrılan maliyyə vəsaitlərinin hərəkətinə nəzarət edir, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi dövründə qarşıya çıxan problemlərə görə məsuliyyət daşıyır. Qeyd

edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Prinston Universiteti THE beynəlxalq reytinqində bir pillə geriləyərək 90,9 balla yeddinci pillədə qərarlaşıb [1].

Böyük Britaniyanın Kembric Universiteti reytinq cədvəlində yeddinci pillədədir. Universitetin illik gəliri 800 milyon funt-sterlinq civarındadır. Burada təhsil alan tələbələrdən yalnız Britaniya vətəndaşlarına dövlət maliyyə yardımı göstərir. Tələbə təhsil almaq üçün dövlətdən ildə 5000 funt-sterlinqədək vəsait götürə bilər ki, o, bu məbləği universiteti bitirdikdən sonra da qaytara bilər. Kembric Universitetində təhsil haqqı əcnəbi tələbələr üçün illik 12-30 min funt-sterlinq arasında dəyişir. Böyük Britaniya vətəndaşları və Avropa İttifaqına daxil olan ölkələrin vətəndaşları orta hesabla 6-7 min funt-sterlinq təhsil haqqı ödəyirlər (Tibb ixtisasları istisnadır). Kembric Universiteti elmi-tədqiqatlara öz fəaliyyətində çox geniş yer ayırır. Elmi tədqiqatlara ildə orta hesabla 300 milyon funt-sterlinq vəsait xərclənir. Universitet təhsil və elmi fəaliyyətlə yanaşı biznes əməkdaşlığı da həyata keçirir. Bu əməkdaşlığın özülündə yeni innovasiyaların tətbiqi və əsaslı elmi-tədqiqat işlərinin aparılması dayanır. Yerinə yetirilən elmi tədqiqat işləri isə uzunmüddətli gəlir mənbəyinə çevrilir. Kembric Universitetində "Idea Speace" təşkilatı fəaliyyət göstərir. Bu təşkilatın üzvləri cəmiyyətə uzunmüddətli fayda verə biləcək yeni biznes modelləri hazırlayırlar. Universitet eyni zamanda təhsil və məsləhət xidmətlərini də həyata keçirir. Yüksək təcrübəyə malik insanların cəmləndiyi bu qurumlar yeni fəaliyyətə başlamaq istəyən kommersiya təşkilatlarına səmərəli və az riskli məsləhətlər verirlər [10].

Kembric Universitetinə ayrı-ayrı şəxslər və fondlar tərəfindən əvəzsiz yardımlar da göstərilir. Universitet bu vəsaitləri əsasən elmi-tədqiqat işlərinin aparılmasına, yeni layihə və proqramların icrasına və sosial problemləri olan tələbələrə yardım göstərilməsinə yönəldir. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12.2014-cü il tarixinə olan nəticələrinə görə Kembric Universiteti THE beynəlxalq reytinqində iki pillə qalxaraq 92,0 balla beşinci pillədə qərarlaşıb [1].

London İmperial Kolleci Böyük Britaniyanın qabaqcıl ali təhsil müəssisələrindəndir. Reytinq cədvəlində 10-cu pillə bu kollecə məxsusdur. Kollecin rəsmi adı Elm, Texnologiya və Tibb İmperial Kollecidir. Kollecin illik gəlirləri 700 milyon funt-sterlinq civarındadır. Bu vəsaitlərin 45%-i tədqiqat qrantlarından və müqavilələrdən, 25%-i Ali Təhsilin Maliyyələşdirilməsi Şurasının qrantlarından, 25%-i təhsil haqqından, 5%-i ianələrdən daxil olur. London İmperial Kollecində Böyük Britaniya və Avropa İttifaqına daxil olan ölkələrdən olan tələbələr üçün təhsil haqqı 9 min funt-sterlinqdir. Bütün Böyük Britaniya ali təhsil müəssisələri üçün xas olan yaşayış xərci problemi bu kollecdə də mövcuddur. Kollecə yardım edənlərin sayı olduqca çoxdur. Hətta kollecin "Donorlar Assosasiyası" da fəaliyyət göstərir. Bu assosiasiyaya 1000 funt-sterlinqdən artıq yardım edən bütün donorlar daxildir. Edilən yardımın məbləğindən asılı olmayaraq Kollec rəhbərliyi hər bir donora vəsaitlərin necə və hara xərclənməsi barədə rəsmi hesabat təqdim edir (Qeyd: Böyük Britaniyada donorlara vergi güzəştləri də nəzərdə tutulur). Donorlar Böyük Britaniyada təhsilin inkişafında maraqlı olan fərdi şəxslərdir. Donorlardan gələn vəsaitlər "Rektorun təqaüd fondu"na daxil olur. Fondu yaratmaqda məqsəd istedadlı tələbələri üzə çıxarmaq, aparılan tədqiqat işlərini stimullaşdırmaq, London İmperial Kollecinin nüfuzunu qaldırmaqdır [11]. Qeyd edək ki, 2014-2015-ci tədris ilinin 01.12. 2014-cü il tarixinə olan nəticələrinə görə London İmperial Kolleci THE beynəlxalq reytinqində bir pillə qalxaraq 87,5 balla doqquzuncu pillədə (ABŞ-ın Yel Universiteti ilə birlikdə) qərarlaşıb [1].

Göründüyü kimi reytinq cədvəlində ön sıralarda dayanan ali təhsil müəssisələri öz reytinqlərini qoruyub saxlamaq üçün böyük maliyyə vəsaitləri sərf edirlər.

Qeyd edək ki, Azərbaycanda da kifayət qədər yüksək maliyyə vəsaitlərinə sahib ali təhsil müəssisələri var, lakin onlar beynəlxalq reytinqlərdə ilk beşyüzlükdə də yer almırlar. Hətta Rusiyanın "İnterfaks" Agentliyinin 2013-2014-cü tədris ili üçün tərtib etdiyi MDB ölkələrinin (həmçinin Latviya, Litva, Estoniya) ali təhsil müəssisələrinin reytinqində ilk əlliliyə Azərbaycanın heç bir təhsil müəssisəsi düşməyib. Ən qabaqcıl universitetimiz olan Bakı Dövlət Universiteti isə 11 balla 61-ci

pillədə qərarlaşıb. Üç göstərici (təhsil, elmi-tədqiqat, beynəlxalq fəaliyyət) üzrə aparılan qiymətləndirmədə Moskva Dövlət Universiteti 100 balla 1-ci, Belorusiya Dövlət Universiteti 60 balla 2-ci, Sankt-Peterburq Dövlət Universiteti 47 balla 3-cü, Kiyev Milli Universiteti 46 balla 4-cü, Vilnus Universiteti 40 balla 5-ci, Novosibirsk Milli Tədqiqat Universiteti 36 balla 6-cı, Rusiya Xalqlar Dostluğu Universiteti və Moskva Dövlət Texnologiya Universiteti 32 balla 7-ci, Tartu Universiteti (Estoniya) və Tomsk Dövlət Milli Tədqiqat Universiteti 28 balla 9-cu, Yerevan Dövlət Universiteti 27 balla 11-ci olub [14]. 2014-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin mütəxəssislər qrupu tərəfindən ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən metodika işlənib hazırlanmışdır. Bu metodikaya əsasən 30 bal intellektual potensiala (elmi pedaqoji kadrların kvalifikasiyası - 8, kadr təminatının perspektivliyi - 8, AMEA-ya üzvlük - 8, dövlət mükafatı, fəxri adlar alanların müəllimlərin sayına nisbəti - 6) görə, 10 bal maddi-texniki bazaya görə, 10 bal sosial-mədəni bazaya görə, 20 bal kadr hazırlığının səviyyəsinə (bakalavr və magistr hazırlığı - 4, doktorantura - 3, ixtisaslaşdırılmış şuraların səmərəliliyi - 3, cəlbedicilik - 3, ali məktəbin abituriyüntlər arasında nüfuzu - 4, məzunların işlə təminatı - 3) görə, 10 bal elmi fəaliyyətə görə, 20 bal beynəlxalq aləmdə tanınmaya (xarici tələbələr və xaricdə təhsil alan azərbaycanlı tələbələr - 4, beynəlxalq təşkilatlara üzvlük - 4, beynəlxalq proqramlarda iştirak səviyyəsi - 4, son iki ildə qazanılan qrantlar - 4, ali məktəbdə xarici ölkələrdən olan mütəxəssislər) görə toplamaq mümkündür. Digər reytinq isə Azərbaycandan Kənarda Təhsil Almış Mütəxəssislər (AKTAM) təşkilatı tərəfindən hazırlanır. Azərbaycan Respublikası təhsil nazirinin 11 oktyabr 2013-cü il tarixli, 842 nömrəli əmrinə əsasən təşkil olunan "İctimai təşəbbüslərin dəstəklənməsi üzrə layihə müsabiqəsi"ndə "Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi ilə qalib olan AKTAM təşkilatı artıq sorğuları yekunlaşdırmışdır. Bu reytinqdə qiymətləndirmə tələbələrin və professor-müəllim heyətinin tərkibinin keyfiyyətinə, ali təhsil müəssisəsinin elmi-tədqiqat potensialına, maddi-texniki bazasına, sosial-mədəni bazasına, tələbə qəbulunun və tədris prosesinin nəticələrinə, ali təhsil müəssisəsinin beynəlxalq əməkdaşlığının səviyyəsinə görə aparılır.

Göründüyü kimi, bu göstəricilərin əksəriyyəti beynəlxalq reytinqlərin göstəriciləri ilə eynilik təşkil edir və bu göstəricilərin tələb olunan səviyyəyə çatdırılması bizim beynəlxalq reytinqlərə düşməyimizi təmin edəcək. Bunun üçün isə universitetlər Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın strateji hədəflərinə uyğun olaraq təhsilə adekvat həcmdə maliyyə resurslarının cəlb edilməsinə, müxtəlif mənbəli maliyyələşdirmə mexanizmlərinin yaradılmasına, bir təhsilalana düşən xərc əsasında maliyyələşdirmə mexanizminə keçidə, təhsil tədqiqatlarının yeni maliyyələşmə mexanizminin tətbiqinə, keyfiyyət göstəricilərinə əsaslanan investisiya xərcləri sisteminin yaradılmasına, dövlət büdcəsi vəsaitindən istifadə olunmayaraq məqsədli kapital fondlarının yaradılmasına, müasir informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil infrastrukturunun yaradılmasına, sərişteyə və fəaliyyətin nəticələrinə əsaslanan əməyin ödənişi sisteminin yaradılmasına, maliyyələşdirmənin tədrisin keyfiyyət nəticələrinə görə müəyyən edilməsinə çalışmalı və maliyyə vəsaitlərindən səmərəli istifadə etməlidirlər.

Açar sözlər: beynəlxalq reytinq, reytinqi müəyyən edən göstəricilər, maliyyə vəsaitləri, reytinq cədvəli, maliyyə dəstəyi

İstifadə edilmiş ədəbiyyat

1. http://www.timeshighereducation.co.uk/
2. http://www.shanghairanking.com/
3. http://www.topuniversities.com/

4. http://www.caltech.edu/
5. http://www.harvard.edu/
6. http://www.ox.ac.uk/
7. http://www.stanford.edu/
8. http://web.mit.edu/
9. http://www.princeton.edu/
10. http://www.cam.ac.uk/
11. http://www3.imperial.ac.uk/
12. http://www.webometrics.info/
13. http://nturanking.lis.ntu.edu.tw/
14. http://www.educationindex.ru/article_ranking-sis-interfax.aspx

Мобиль Меджидов

ВЛИЯНИЕ ФИНАНСОВЫХ ПОСОБИЙ НА ФОРМИРОВАНИЕ МЕЖДУНАРОДНОГО РЕЙТИНГА ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

РЕЗЮМЕ

В статье рассматривалась деятельность организаций составляющих международный рейтинг высших учебных заведений, были проанализированы показатели, используемые при определении рейтинга, была определена роль финансовых пособий в деятельности лидирующих высших учебных заведений мира (Калифорнийский Технологический Институт США, Гарвардский Университет, Стенфордский Университет, Массачусетский Технологический Институт, Пристонский Университет, Оксфордский Университет Великобритании, Кембриджский Университет, Имперский Колледж Лондона).

Ключевые слова: международный рейтинг, показатели определяющие рейтинг, финансовые пособия, таблица рейтинга, финансовая поддержка

Mobil Medjidov

THE IMPACT OF THE FINANCIAL RESOURCES ON THE FORMATION OF THE INTERNATIONAL RANKING OF HIGHER EDUCATION INSTITUTIONS

The article reviews the activities of the institutions of higher educations institutions in the international ranking compiled, analyzed data used in determining the rating, the world's leading higher educations institutions (the United States California Institute of Technology, Harvard University, Stanford University, Mahachusetts Institute of Technology, Princeton University, UK Oxford University, Cambridge University, London Imperial College) identified the role of financial resources.

Key words: international rating, parameters determining the rating, financial means, rating table, financial support

"ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR"

Elmi-praktiki jurnal

№ 2 (02), 2014

Redaktorlar:

Raziyyə Maniyeva, Lətifə Məcidova, Qızılgül Əlimirzəyeva

Kompyuter tərtibatı:

Pərvanə Məcidova

Dizayn:

Mail Xəlilov

Yığılmağa verilib: 28.11.2014
Çapa imzalanıb: 25.12.2014
Format: 70x100 16/1
9.12 ş.ç.v
Tiraj: 300

"AVROPA" nəşriyyatı